Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində
nəşr olunmuşdur

**Möhsün Nağısoylu**
**Raqub Kərimov**
**Mütəllim Rəhimov**

# ŞUŞA AZƏRBAYCAN MƏTBUATINDA

## (1875-1920)

**BAKI – ELMİN İNKİŞAFI FONDU – 2017**

***Redaktor:***
*professor* ***Ə.Tahirzadə***

***Rəyçilər:***
*filologiya elmləri doktoru, professor* ***R. Qafarlı***
*filologiya elmləri doktoru, professor* ***M. Allahmanlı***

**M.Z.Nağısoylu, R.Ş.Kərimov, M.Q.Rəhimov**. **Şuşa Azərbaycan mətbuatında (1875–1920.)** – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017. – 200 səh.

Kitabda Şuşanın mədəniyyət, incəsənət, idarəolunma, erməni təcavüzünə qarşı müdafiə tədbirləri, ziyalıları və s. haqqında tarixi mənbələrə söykənən, indiyədək öz əksini heç bir nəşrdə tapmayan məlumatlar verilir, tariximizin mənbələr əsasında öyrənilməmiş 1875-1920-ci illərində yalnız əski əlifba ilə çıxan mətbuatın çap etdiyi məqalə və xəbərlər əsasında yanaşma öz əksini tapır.

Kitabdan Azərbaycan jurnalistika tarixini öyrənən tələbələr, həmçinin bu sahədə araşdırma aparan tədqiqatçılar istifadə edə bilərlər.

**Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur: Qrant № EİF/MQM-2-Şuşa-2013-3(9)-10/05/5**

**Bu əsər 2014-cü il 13 mart tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 8014 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-7500-14) verilmişdir.**

**ISBN: 978-9952-516-11-1**

© Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondu, 2017
© M.Z.Nağısoylu, R.Ş.Kərimov, M.Q.Rəhimov, 2017

# MÜNDƏRİCAT

Şuşa əski Azərbaycan səhifələrində.................................................................. 4
Şuşa şəhərinin təşəkkül mərhələləri və əhalisi ............................................ 8
Əhalisi.........................................................................................................10
Qəzet materialları.........................................................................................14

# Şuşa əski Azərbaycan səhifələrində

XIX əsrin ikinci yarısında Azərbaycanın ictimai-siyasi və ədəbi-mədəni həyatında bir sıra mühüm və əlamətdar hadisələr baş vermişdir ki, onlar sırasında 1875-ci ildə "Əkinçi" qəzetinin nəşrə başlaması, bununla da milli mətbuatın əsasının qoyulması xüsusi yer tutur. Xalqımızın oyanışı və maariflənməsi yönündə böyük işlər görmüş "Əkinçi" qəzetinin səhifələrində Azərbaycanın dilbər guşələrindən və ədəbiyyat-mədəniyyət beşiklərindən sayılan Şuşa şəhəri ilə bağlı yazılar da müəyyən qədər yer almışdır. Bu yazılarda xalqımızın ümumi dərdləri və problemləri fonunda Şuşa camaatının da üzləşdiyi bəzi çətinliklər, çəkdiyi sıxıntılar, onları düşündürən ayrı-ayrı məsələlər tapmışdır. Cəmi iki il müddətində "Əkinçi"dən sonra nəşrə başlayan digər bir mətbuat orqanımızın-"Ziya" qəzetinin səhifələrində də az da olsa Şuşa ilə bağlı yazılara rast gəlirik. Bu yazılarda da, əsasən, yerli camaatın dolanışığından, şəxsi problemlərindən, – bir sözlə, məişət məsələlərindən bəhs olunur. İstər "Əkinçi"də, istərsə də "Ziya"da Şuşa haqqında olan tək-tük yazılar, təbii ki, yerli camaatın həyatı və məişəti haqqında müəyyən təsəvvür yaratmaga imkan verir.

XX yüzilliyin əvvəllərində çar Rusiyasında baş verən ictimai-siyasi hərəkat, xalqın oyanışı, inqilab ab-havası mövcud hökuməti bir sıra tədbirlərə əl atmağa, xüsusilə də mətbuat və söz azadlığı sahəsində müəyyən işlər görməyə məcbur etdi. Məhz bunun nəticəsi olaraq əsrin əvvəllərində "Həyat" və "İrşad" kimi məşhur qəzetlər, eləcə də "Molla Nəsrəddin" və "Füyuzat" kimi jurnallar fəaliyyətə başlayaraq mətbuat sahəsində bir sıra taleyüklü məsələlərə imza atdılar. Məlum olduğu kimi, bu qəzet və jurnalların ətrafında dövrün ən qabaqcıl ziyalıları toplaşmışdı ki, onlara Əhməd bəy Agayev, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə kimi böyük ədəbi simalar başçılıq edirdilər. Böyük iftixar doğuran bu mətbuat orqanlarının səhifələrində Şuşa ilə bağlı yazılara tez-tez rast gəlirik. Daha çox barıt qoxusu gələn insanı dəhşətə gətirən bu yazılar xalqımızın bu gün üzləşdiyi ən mühüm problemlə -Qarabağ düyünü ilə yaxından səsləşir və hər bir Azərbaycan vətəndaşını papağını qabağına qoymağa, əməlli-başlı düşünüb-daşınmağa vadar edir. Nədən bəhs edir bu yazılar? Nəyə görə onlardan barıt qoxusu gəlir?

Məlum olduğu kimi, "Həyat" və "İrşad" qəzetləri 1905-1906-cı illərdə Bakıda fəaliyyət göstrəmişlər. Məhz həmin dövrdə mənfur qonşularımız özlərinin çirkin niyyətlərinə əl atmış, "Böyük Ermənistan" dövləti

yaratmaq yolunda xalqımızın, o cümlədən Şuşa camaatının başına olmazın müsibətləri açmışlar.

"Həyat" və "İrşad" qəzetlərində 1905-1906-cı illərdə Şuşada baş vermiş qanlı olaylarla bağlı dərc olunmuş yazıları oxuduqda bir neçə mühüm məqam xüsusilə diqqəti çəkir. Birincisi, məkrli qonşularımız öz çirkin niyyətlərinə qovuşmaq üçün planlı şəkildə hazırlıqlar görmüş, gizli şəkildə yaxşı silahlanmış, təşkilatlanmış və bu yöndə hər cür hiylə və fitnəyə əl atmışlar. Məsələn, ermənilər fitnə törətmək üçün öz soydaşlarından birini öldürərək bunu Azərbaycan türklərinin üstünə atmışlar. Bu hadisəni göz önünə gətirdikdə istər-istəməz 1988-ci ildə Sumqayıtda baş verən erməni fitnəkarlığı yada düşür. Deməli, fitnəkar və satqın ermənilər çoxdan bəri eyni planla hərəkət edirmişlər. İkinci bir məqam da çox diqqətçəkicidir.1988-ci ildən başlanan Ermənistan-Dağlıq Qarabağ-Azərbaycan münaqişəsində olduğu kimi, uzaq 1905-1906-cı açıq-aşkar havadarlıq etmiş, tərəfkeşlik göstərmişlər. Və ermənilər dara düşəndə məhz bu din qardaşlarının qoltuğuna sığınmış, məhz onların yanında özlərini təhlükəsiz saymışlar. Göründüyü kimi, eyni hadisələr indi də baş verir, tarix təkrar olunur.

Buna sübüt olaraq o vaxtlar Şuşada çar Rusiyasının canişini olmuş general Qoloşçapovun qanlı cinayətlərini, azərbaycanlıları topa tutmasını göstərmək olar. Qəribədir ki, çar hökuməti bu məsələdən xəbərdar olsa da, Azərbaycan türklərinin həmin canini hakimiyyətdən uzaqlaşdırmaq tələbinə sayğısızlıq göstərmiş, yalnız son nəticədə onu tutduğu vəzifəsindən azad etmişlər.

Üçüncü bir diqqətçəkici məqam isə soydaşlarımızın başının üstünü təhlükə alanda möhkəm yumruq kimi birləşməsidir. Bəli, 1988-ci il hadisələrində olduğu kimi o vaxtlar da Şuşa camaatı və ətrafda yaşayan türklər, ümumiyyətlə islam ümməti mənfur düşmənə-ermənilərə qarşı mübarizədə əlbir olmuş, yüksək həmrəylik və əsl mübarizlik nümunəsi göstərmişlər.

Tarix birinci növbədə ona görə olduqca əhəmiyyətlidir ki, keçmişdə olmuş hadisələrdən ibrət dərsi alasan, bir daha bu cür olayların baş qaldırmasına yol verməyəsən. Bu mənada 1905-1906-cı illərdə Şuşada baş verən qanlı olaylar və onların mətbuatda inikası, həqiqətən də, tarixdən ibrət dərsi almağa, ayıq-sayıq olmağa səsləyir. Budur əski mətbuat orqanlarımızda doğma və əziz Şuşa ilə bağlı dərc olunan yazıların böyük dəyəri və əhəmiyyəti.

Onu da qeyd edək ki, "Həyat" və "İrşad" qəzetlərində Şuşanın o vaxtkı ədəbi-mədəni mühitini özündə əks etdirən yazılara da, az da olsa, rast gəlirik.

1828-ci ildə Tiflis şəhərində rus dilində çıxan "Tiflisskie vedomosti" qəzeti 1832-ci ildə və rus dilində nəşr olunan "Zakavkazski vestnik" adlı qəzeti (1838-1864) 1845-ci ildə Azərbaycan dilində də buraxılmışdır. XIX əsrin birinci yarısında ayrı-ayrı rusdilli qəzetlərdə bünövrəsi qoyulan Azərbaycand dövri mətbuatı əsrin ikinci yarısında yeni inkişaf mərhələsinə qədəm qoydu və bunun nəticəsi olaraq 1875-ci il iyulun 22-də müstəqil "Əkinçi" qəzeti nəşr olunmağa başladı. Bunun ardınca Hacı Səid Ünsizadənin redaktorluğu ilə Tiflis şəhərində "Ziya" (1879) və "Ziyayi-Qafqaziyyə" (1880); Cəlal Ünsizadənin rdaktorluğu ilə "Kəşkül" (1883); Məhəmməd ağa Şahtaxtinskinin redaktorluğu ilə "Şərqi-Rus" (1903) qəzetləri nəşr olunmuşdur. 1905-ci ildən sonra isə Azərbaycan dövri mətbuatının inkişafında yeni mərhələ başlandı. Tezliklə Bakı şəhəri mərkəz olmaqla Tiflis, Gəncə, Şuşa və Lənkəran kimi şəhərlərdə bir sıra qəzet və jurnallar çıxarılmağa başladı. Dövrün tələbindən doğan zərurət nəticəsində 1920-ci ilə qədər Azərbaycanda ümumilikdə 400-dən artıq müxtəlif tipli dövri mətbuat orqanları fəaliyyət göstərirdi. Təbii ki, xalqın mədəni irsinin, ictimai və bədii fikrinin öyrənilməsində dövri mətbuatın müstəsna rolu olmuşdur. Qəzet həm də dövlətin danışan dili, ictimai-siyasi vəziyyəti tənzimləyən vasitə olduğu üçün cəmiyyət bütün dövrlərdə onun varlığına böyük ehtiyac duymuşdur. Bu zərurətdən irəli gələrək müsəlman Şərqində ilk demokratik dövlətin-Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından çox az müddət sonra hökumətin 3 sentyabr 1918-ci il tarixli qərarına əsasən "Azərbaycan" qəzeti Gəncə şəhərində nəşrə başladı. Xatırladırıq ki, Azərbaycanın mətbuat tarixində bu adda ikinci bir mətbuat orqanı olmamışdır. Gəncədə cəmi dörd nömrə çıxandan sonra oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirən qəzetin ilk redaktoru Üzeyir bəy Hacıbəyovun kiçik qardaşı tarixçi-jurnalist Ceyhun bəy olmuşdur (oktyabr ayının 8-dən 1919-cu ilin yanvar ayının 16-na kimi). Qəzetin ilk nömrələri (3 sentyabrdan 8 oktyabra kimi) redaksiya heyəti adından çıxmışdır. Ceyhun bəy Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında Versal Sülh Konfransında iştirak etmək üçün Parisə getdiyi üçün qəzetin redaktorluğu müvəqqəti olaraq Üzeyir bəyə həvalə olunur. 4 iyul 1919-cu il tarixə qədər Üzeyir bəy "Azərbaycan" qəzetinin redaktoru vəzifəsini də yerinə yetirir. Səhhəti ilə əlaqədar olaraq o, 1919-cu ilin iyul ayının əvvəllərində müalicə olunmaq üçün başqa yerə gedir və bu zaman onu qəzetin məsul işçisi Xəlil İbrahim əvəz

edir. Qəzet 216-cı nömrəsindən 265-ci nömrəsinə kimi onun redaktorluğu altında nəşr olunur. İki aydan sonra Üzeyir bəy yenidən qəzetin redaktorluğunu öz üzərinə götürüb onun son günlərinə – 1920-ci il aprel çevrilişinə qədər bu missiyanı ləyaqətlə yerinə yetirdi. 1920-ci ildə Cümhuriyyətin süqutu ilə əlaqədar olaraq qəzet də öz fəaliyyətini dayandırdı.

Qəzetin ilk sayı hər biri iki səhifədən ibarət olmaqla Azərbaycan və rus dillərində A-2 formatda çıxmışdır. Sentyabr ayının 25-dən etibarən qəzet 4 səhifə həcmində nəşr olunmuşdur.

"Azərbaycan" ictimai-siyasi, ədəbi-bədii qəzet olduğu üçün onun mövzu dairəsi çox geniş idi. Əlbəttə, onun əsas vəzifəsi həyata yeni qədəm qoyan Müstəqil Azərbaycan Cümhuriyyətinin, milli hökumətin hər işindən xalqa xəbər verməkdən, ölkədə baş verən olayları düzgün və obyektiv qiymətləndirməkdən ibarət idi. Ona görə də qəzet fəaliyyətə başladığı ilk gündən mütərəqqi ruhlu vətənpərvər insanların tribunasına çevrildi. Üzeyir bəy Hacıbəyov, Ceyhun bəy Hacıbəyli, Nağı bəy Şeyxzamanlı, Əhməd Cavad, Nəbi bəy Yusifbəyli, Adil xan Ziyadxanlı, Hüseyn Bayqara, Mirzə Bala Məmmədzdə, Məhəmməd Hadi, Firudin bəy Köçərli, Salman Mümtaz, Seyid Hüseyn, Xəlil İbrahim və başqa bu kimi mütərəqqi insanlar bu tribunanın ən gözəl natiqləri olmuşlar. Onlar özlərinin çıxışları ilə XX əsr insanının milli təfəkkürünə qol-qanad vermiş, xalqı qəflət yuxusundan oyatmaq üçün onları milli birliyə, yekdilliyə səsləmişlər. "Azərbaycan" qəzeti fəaliyyət göstərdiyi qısa müddət ərzində həmişə dövr, zaman üçün ən aktual olan məsələlərə toxunmuş, hadisələrə bacarıqla nüfuz etmişdir. Bütün dönəmlərdə qəzetin aparıcı mövzusu xarici himayəçilərinə arxalanaraq ölkəmizdə at oynadan mənfur ermənilər və onların törətdikləri ağlasığmaz vəhşiliklər olmuşdur.

Müstəqil Azərbaycan Cümhuriyyətinin keçirdiyi iclaslar, bu iclaslarda qəbul edilmiş qərarlar bütün xırdalıqlarına qədər zaman-zaman "Azərbaycan" qəzetinin səhifələrində təhlil edilmiş, müxtəlif fikir və rəylərə obyektiv münasibət bildirmişdir. Fikrimizcə, Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi yolu, onun fəaliyyətini düzgün qiymətləndirmək üçün bu qəzetdə verilən materialları mütaliə etmək kifayətdir. Bunun üçün ilk saylarından yarandığı mühitin, fəaliyyət göstərdiyi dövrün tarixi salnaməsinə çevrilən, milli istiqlal məfkurəsinin intişarında, milli şüutrun təkamülündə misilsiz xidmətlər göstərən "Azərbaycan" qəzetinin birinci nömrəsindən tutmuş sonuncu nömrəsinə qədər bütün nəşrini müasir əlifbaya çevrilərək nəşr edilməsini vacib və zəruri hesab edirik.

# Şuşa şəhərinin təşəkkül mərhələləri və əhalisi

Pənahəli xanın vəfatından sonra onun oğlu, Qarabağın ikinci hakimi İbrahimxəlil xan (1721-1806) dövrünün bacarıqlı və siyasətcil dövlət xadimlərindən olmuşdur. Onun hakimiyyəti illərində xanlıq daha da güclənmiş və inkişaf etmişdir. Pənahəli xan və İbrahimxəlil xan Qarabağın paytaxtı Şuşa şəhərini qədim və orta əsrlərin şəhərsalma nümunələri əsasında yüksək səviyyədə inkişaf etdirmişdilər. Şəhər on yeddi əsas məhəlləyə bölünmüşdü:

| | |
|---|---|
| Böyük qurdlar | Kiçik qurdlar |
| Seyidli | Culfalar |
| Təzə məhəllə | Hamamqabağı |
| Dəmirçilər | Quyuluq |
| Xocamircanlı | Mamayı |
| Saatlı | Köçərli |
| Merdinli | Çölqala |
| Hacı Yusifli | Çuxur məhəllə |
| Ağadədəli | |

Bu məhəllələr son dövrlərə qədər qalmışlır.

Şuşanın şəhər kimi inkişafını şərti olaraq üç mərhələyə bölmək olar: Birinci mərhələ qeyri-sabit şəraitdə 1763-cü ilə qədər davam etmiş, tikinti işləri bir qədər tələsik aparılmışdır. Bu dövrdə şəhərin Şərq hissəsində doqquz məhəllə salınmışdı. Pənahəli xanın hakimiyyət dövrünü əhatə edən birinci mərhələdə şəhərin ən qədim məhəlləsi sonralar şəhərin relyefinə uyğun olaraq "Aşağı məhəllə" adlandırılmışdı. Şuşanın bu ilk məhəlləsi aşağıda adları çəkilən küçələrdən ibarət idi: Çuxur, Qurdlar, Culfa Seyidli, Quyular, Hacı Yusifli, Dördlər qurdu, Dördçinar və Çöl qala.

İbrahimxəlil xan Cavanşirin hakimiyyəti illərinə (1763-1806) təsadüf edən ikinci mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olmuşdur. Bu mərhələdə "Yuxarı məhəllə" adlanan ikinci məhəllə formalaşmışdı. Şəhərsalma üçün əlverişli olan "Aşağı məhəllənin" yerindən fərqli olaraq, buranın ərazisi nisbətən dağlıq olub sıx meşə ilə örtülmüşdü. Elə buna görə də tələbat yarandıqca ərazi meşələrdən təmizlənir və yerində küçələr salınırdı.

Təxminən 40 il ərzində formalaşan "Yuxarı məhəllə"də 8 yeni küçə salınmışdı. Həmin küçələr aşağıdakılar idi: Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam qabağı, Təzə.

On doqquzuncu əsri əhatə edən üçüncü mərhələdə şəhərin dağlıq-qərb hissəsində yeni məhəllələr salınmış və əslində, bununla Şuşanın bir şəhər kimi formalaşması dövrü başa çatmışdır. Şəhərin dağlıq ərazidə salınmış "Qazançalı" adlanan üçüncü məhəlləsinin tikintisi 1805-ci ildə Qarabağ xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra salınmağa başlamış və bütün XIX əsr ərzində davam etmişdi. On iki küçədən ibarət olan bu məhəllə Şuşanın ən çox əhali yaşayan məhəlləsi olmuşdu. Mirzə Yusif Qarabaği bu məhəllənin küçələri kimi Mehrili, Qazançalı, Ciləbörd, Dərə, Bağlar və başqalarının adlarını çəkir.

XIX əsrin birinci yarısında Şuşaya şəhər statusu verilmiş və Rusiya imperiyasının "Şəhər əsasnaməsi"nın (1785) 28-29 maddəsinə əsasən, 1843-cü il mayın 21-də Şuşa şəhərinin gerbi təsdiq olunmuşdur.

Dəniz səviyyəsindən təxminən 1400-1800 metr yüksəklikdə yerləşən Şuşa hər tərəfdən uzunluğu 400-600 metrə yaxın olan dərələrlə, daha yuxarılarda isə Qırxqız, Kirs, Murov, Bağrıqan, Sarıbaba dağları ilə əhatə olunmuşdur. Şəhərin qərb tərəfi dəniz səviyyəsindən hündürdür, Cənub tərəfi nisbətən hündür və horizontal düzənlikdir. Bura "Cıdır düzü" adlanır.

Şuşanın ancaq bir nəqliyyat yolu var. Ağdam-Əsgəran-Xocalı-Xanbağı-Ağa körpüsü-Şuşa. Bu yol şəhərin mərkəzinə qədər uzanır. Şuşanın şərq tərəfindəki o qədər də hündür olmayan təpə "Dövtələb" adlanır.

Şuşa Qarabağın sənətkarlıq mərkəzi olmuşdur. Şəhərdə müxtəlif sənət sahələrinin inkişafı, ticarət əlaqələrinin genişlənməsi, tədricən mədəni mərkəzə çevrilməsi onun şöhrətini uzaqlara yaymışdı. Şuşanın çeşid-çeşid mallarının sorağı Təbriz, İsfahan, Tehran, İstanbul, Moskva, Nijni-Novqorod və başqa şəhərlərdən gəlirdi.

# Əhalisi

İlk dövrlərdə Şuşa cəmi 162 ailənin məskunlaşdığı kiçik yaşayış məntəqəsi idi. Rus məmurlarının XIX əsrin əvvəllərində tərtib etdikləri arxiv sənədlərindən məlum olur ki, bu ailələrin hamısı azərbaycanlılardan ibarət idi. Bu o deməkdir ki, Şuşanın əsasını azərbaycanlılar qoymuş və ilk dövrdə burada ancaq azərbaycanlılar yaşamışlar. Sonrakı dövrdə şəhərdə yaşayan əhalinin sayı Qarabağ xanlığının müxtəlif mahallarından köçüb gələnlərin hesabına surətlə artmışdı. Bir tərəfdən çox əlverişli mövqeyə malik olması, digər tərəfdən isə Qarabağ xanlığının mərkəzinə çevrilməsi Şuşa şəhərini ətrafda yaşayan əhali üçün çox cəlbedici edirdi. Əldə olunan məlumatlar göstərir ki, artıq XVIII əsrin sonu – XIX əsrin əvvəllərində burada 2 mindən çox ailə yaşayırdı. Əgər hər ailənin, orta hesabla 5 nəfərdən ibarət olduğunu nəzərə alsaq, göstərilən dövrdə Şuşada 10 min nəfərdən çox əhalinin yaşadığını müəyyənləşdirə bilərik. Bu əhalinin əsas hissəsini Qarabağ xanlığının Dəmirçihəsənli, Kəbirli, Dizaq Cavanşir, Otuziki, İyirmidörd və Xaçın mahallarından köçüb gələnlər təşkil edirdi.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Şuşaya köçüb gələnlər arasında mənşəcə alban olub orta əsrlərdə xristianlığın qriqoryan məzhəbini qəbul edənlər də vardı. Onların əksəriyyətini Qarabağ xanlığının Tativ, Xaçın və Dizaq mahallarından gələnlər idi. Lakin “Qarabağ əyalətinin təsviri” adlı sənədin məlumatları əsasında hesablamalardan məlum olur ki, bu əhali Şuşa sakinlərinin cəmi 27 % -ni təşkil edirdi.

Qarabağ torpaqlarında ermənilərin kütləvi məskünlaşdırması XIX əsrin birinci yarısında təsadüf edir. Rus-İran müharibəsi nəticəsində bağlanan 1828-ci il Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal edildi və bu, regionda imperiyanın təhlükəsizliyini təmin etmək məqsədilə 1828-ci ildə 1880-ci illədək İranın Marağa, Səlmas, Xoy və digər xanlıqlarından buraya 40 mindən artıq erməni köçürülüb, Qarabağda və Qərbi Azərbaycan torpaqlarında məskunlaşdırıldı. Sonrakı illərdə də davam etmiş bu proses Qarabağda demoqrafik vəziyyətə nəzərə çarparaq dərəcədə təsir göstərmişdir. Rusiyanın XIX əsrə aid rəsmi dövlət sənədlərində, o cümlədən Qafqaz təqviminin illik statistik məlumatlarında bu təkzibedilməz faktlar öz əksini tapmışdır.

Hələ XVIII əsrin əvvəllərindən İrandan tədricən kiçik qruplar şəkilində köç etməyə başlayan ermənilər Şuşada deyil, şəhərdən aralıda yerləşən yaşayış məntəqələrində məskunlaşırdılar. Qarabağ xanının onlara etdiyi yardımın əvəzi olaraq, 1797-ci ildə ermənilər ona xəyanət etdilər, Ağa Məhəmməd xan Qacarla gizli sövdələşməyə girərək Şuşa qalasının alınmasında ona gömək göstərdilər. Rus tarixçisi N.Dubrovin yazırdı: «İşğal nəticəsində Qarabağda 60 min ev dağıdıldı. Ermənilər isə ziyan çəkmədilər». Şəhər 1822-ci ildə Qarabağ xanlığı ləğv edildikdən sonra yeni yaradılmış Qarabağ əyalətinin, 1840-cı ildən isə Şuşa qəzasının mərkəzinə çevrildi. Hətta, Rusiya İmperiyası məmurlarının XIX əsrin əvvəllərində tərtib etdikləri sənədlərə görə, şəhər sakinlərini böyük əksəriyyəti azərbaycanlılardan ibarət idi. 1823-cü ildə dövlət müşaviri Moqilevski və polkovnik Yermolovun hesabatına görə, Şuşa şəhərində 148 azərbaycanlı ailəsi yaşayırdı. Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi zorla erməniləşdirmə siyasəti Şuşa şəhərinin həm inzibati statusuna, həm də demoqrafik vəziyyətinə ciddi təsir göstərdi. Bununla belə, 1823-cü ilin statistik məlumatlarına əsasən, Qarabağ xanlığı ərazisində yaşayan 20.035 ailədən yalnız 4.366-ı isə xristianlar idi. 1917-ci ildə isə artıq burada 415.000 azərbaycanlı və 170 min erməni yaşayırdı.

XIX əsrin əvvəllərinə aid statistik məlumatlar göstərir ki, xristian əhali yalnız Şuşada deyil, həm də bütün Qarabağ xanlığında əhalinin az bir hissəsini təşkil edirdi. 1823-cü ilə aid statistik məlumatlardan aydın olur ki, bu dövrdə Qarabağ xanlığında yaşayan 20.035 ailədən 15.729-nu azərbaycanlı, 4.366-nı isə xristian idi.

1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra çar Rusiyası Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək üçün ermənilərdən istifadə etmək qərarına gəldi. Adları çəkilən müqavilələrin şərtlərinə əsasən, ermənilərin İrandan və Osmanlı Türkiyəsindən Cənubi Qafqaza, o cümlədən tarixi Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Rəsmi məlumatlara görə, Rusiya təkcə 1828-1830-cu illərdə Cənubi Qafqaza 40 min nəfər İran ermənisi və 84 min nəfər Türkiyə ermənisi köçürmüşdü. Ermənilərin Cənubi Qafqaza köçürülmələri bundan sonra kütləvi xarakter almışdı. Məhz bu köçürmələrin nəticəsində 80 il ərzində Cənubi Qafqazda ermənilərin sayı təxminən 4, 5 dəfə artmışdı. Rus qafqazşünası N.Şavrov

yazırdı ki, XX əsrin əvvəllərində ümumən Cənubi Qafqazda yaşayan 1, 3 milyon ermənin bir milyonu buraya gəlmədir.

Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi işğalçılıq və zorakı xristianlaşdırma siyasəti Şuşa şəhərinin həm inzibati statusuna, həm də demoqrafik vəziyyətinə ciddi təsir göstərdi. Şəhər 1822-ci ildə – Qarabağ xanlığı ləğv edildikdən sonra yeni yaradılmış Qarabağ əyalətinin, 1840-cı ildən isə Şuşa qəzasının mərkəzinə çevrildi.

Türkmənçay müqaviləsinin imzalanmasından sonra Azərbaycanda yaranmış siyasi sabitlik XIX əsrin 70-ci illərindən başlayaraq şəhərdə əhali artımını xeyli sürətləndirdi. XIX əsrin əvvəli ilə müqayisədə Şuşada əhalinin sayı 2,5 dəfə artaraq əsrin sonunda 25.881 nəfər təşkil etmişdi. XX əsrin əvvəllərində isə bu artım daha sürətlə getmiş və 1917-ci ildə şəhər əhalisinin sayı 43.869 nəfərə çatmışdı. Lakin Şuşada müşahidə edilən bu artım heç də şəhərin köklü sakinləri olan azərbaycanlıların hesabına baş verməmişdi. Rus çarizminin həyata keçirdiyi köçürmə siyasəti burada indiyə qədər mövcud olmuş etnik balansın pozulmasına, ermənilərin sayca artmasına gətirib çıxartdı. XIX əsrin sonu – XX əsrin əvvəllərində köçkün ermənilərin hesabına şəhərdə əhalinin mexaniki artımı təbii artımı bir neçə dəfə üstələmişdi. Belə ki, burada 1870-ci ildən 1917-ci ilə qədər baş vermiş 23.924 nəfər əhali artımının 9.400 nəfəri təbii artımın payına düşdüyü halda, 14.524 nəfəri köçkün ermənilərin payına düşmüşdü.

Çar hökumətinin himayədarlığı ilə Şuşada ermənilər onun köməyilə şəhərin köklü sakinləri olan azərbaycanlıları sıxışdırmağa başladılar. 1905-ci il avqustun 16-da silahlandırılmış ermənilər azərbaycanlıların üzərinə hücuma keçdilər, Köçərli və Xəlfəli məhəllələrində yaşayan xeyli insanı qətlə yetirdilər. M.S. Ordubadi yazır ki, 1906-cı il iyun ayının 12-də “bir tərəfdən kazak dəstələri və piyada rus qoşunu, digər tərəfdən ətrafdan yığılmış 10 minə yaxın erməni əsgəri, bir tərəfdən də müharibədən qabaq şəhərdə nizam altında saxlanılmış erməni bölükləri və qaçaqlar müsəlmanlara qarşı hücuma başladılar. Beş gün ərzində müsəlman evləri yandırılıb top zərbələri ilə dağıldı”.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin bərqərar edilməsi Qarabağa, o cümlədən, Şuşaya dinclik gətirmədi. Yüksək rütbəli sovet rəhbərliyinin himayədarlığı ilə Dağlıq Qarabağda rəhbər vəzifələrə sahib olmuş ermənilər indi öz məkrli siyasətlərini “sinfi mübarizə” adı altında həyata keçirir, bölgənin azərbaycanlı əhalisinə qarşı soyqırım

və deportasiya siyasəti yeridirdilər. 1920-1922-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin fitvası ilə həbs edilmiş, güllələnmiş və təqiblərə məruz qalmışdı. Şəhərin bir çox zədəganları əhalinin gözü qarşısında güllələnmişdi.

Sovet hakimiyyəti dövründə Şuşa şəhərinə bəslənilən ögey münasibət burada yaşayan əhalinin sayına və milli tərkibinə ciddi təsir göstərdi. Vaxtilə Azərbaycanın böyük və abad şəhərlərindən biri olmuş Şuşada təxminən 50 il ərzində əhalinin sayı 3 dəfədən də çox azalmışdı. Belə ki, 1917-ci ildə burada 43.869 nəfər əhali yaşadığı halda, 1970-ci ildə onların sayı cəmisi 13.664 nəfər təşkil etmişdi. Onların cəmi 3577 nəfəri erməni idi. 1989-cu ildə Şuşada əhlinin ümumi sayı 20.579 nəfər olduğu halda burada 1.377 nəfər erməni yaşayırdı.

*Mənbə: http://shusha.az/susa-səhərin-formalasmasinin-mərhələləri/*

# Qəzet materialları

***"Azərbaycan" qəzeti, №7. 6 təşrini-əvvəl 1918,***
*(Yekşənbə, 29 zilhiccə 1336).*

*Səh. 2*. Qarabağdan alınmış məlumata görə cüzi vuruşmadan sonra ermənilər əsləhələrini təslim etmişlər.

***"Azərbaycan" qəzeti, №8. 7 təşrini-əvvəl***

*Səh. 1*. **Maarif nəzarətində**

4-21 ağsus 1918. Məzhəblərin milliləşməsi münasibətilə aşağıda yazılan nazirlər vəzifə və mənsəblərindən xaric olunurlar. Gəncə uyezdi əvvəlinci məhlənin naziri Vasili Aleksandroviç Yemelyanov, Şuşa və Cavanşir uyezdlərinin üçüncü məhləsinin naziri İvan Pavloviç İvanov.

***"Azərbaycan" qəzeti, №12. 11 təşrin əvvəl 1918***

*Səh. 1*. **Ordu qərargahında.**

Ordu xəbərləri (rəsmi).

Qarabağ cəbhəsində: 9, 2024 – 10 – 8-in əvvəlində Şuşa qəsəbəsi bilamüharibə işğal edilmişdir. Əhali qəzəmat əsgərimizi bayraqlar ilə qarşılamışdır.

***"Azərbaycan" qəzeti, №13. 13 təşrini-əvvəl. Şənbə.***

*Səh. 2.* **Andronikin qətli.**

Tiflisdə müntəzir "Borba" qəzetinin 183-cü nömrəsində oxuduq: "İrəvanda çıxan "Yuğayurd" qəzetəsi xəbər verir ki, Zəngəzurda Andronik qətl edilmişdir. Fəqət bu xususda hələlik bir təfsilat məlum deyil.

***"Azərbaycan" qəzeti, №14. 14 təşrini-əvvəl 1918.***

*Səh. 2.* **Qəzetlərdən.**

**Andronikin qətli:**

"Qruziya" qzetinin yazdığına görə, Zəngəzur uyezdi Gorus şəhərində dövran edən şaiyələr ermənilərin başçısı olan Andronik firqəçilik üstə qətl edildiğini təsdiq ediyor. Qəzətənin fikrincə, hazırda Gorusda bir dənə olsun belə müsəlman olmadığına görə Andronikin müharibədə müsəlmanlar tərəfindən qətl edilməməsini güman ediyor.

*Səh. 2.* **İslam ordusu qərargahında.**

Şuşa – 9 təşrini-əvvəl. Erməni kəndləri peydərpey tabe olub əsləhələrini bizim orduya təslim ediyorlar.

*Səh. 3.* **"İqtisadiyyat – ticarət və sənaət"** başlıqlı məqalədə hər birinin iqtisadi inkişafının zəruriliyindən bəhs olunur. Məqalə bu cümlələrlə başlayır: "Bir məmləkətin bəqası istənilirsə, bir millətin istirahəti arzu edilirsə, o məmləkətin, o millətin iqtisadi cəhətlərinin təmini icab edər.

İqtisadi cəhətlər isə məmləkətin təbii sərvəti, millətin istedadı sayəsində əldə edilmiş olacaqdır.

Məqalədə Qarabağla bağlı bir cümlə verilir:

"Qarabağ və Dağıstan nəvahisində saxlanılan qoyunların yunu da xam maldır ki, öz fabriklərimizdə işlədilməsi icab ediyor (Səh. 4.).

***"Azərbaycan" qəzeti, №16.15 təşrini-əvvəl 1918.***

*Səh. 2.* **Təhlükə qarşısında.**

**Qarabağın son günləri**

İrəlicə xəbər verilmiş olduğu üzrə məhərrəmül-həram ayının birində türk əsakəri bir güllə atılmadan Şuşa şəhərini işğal edib məhəlli ermənilər bilamüqavimət təslim olmuşlardır. Halbuki bu fəqərə heç gözlənilməyirdi, bəlkə əsas möhtəməl idi. Qanlı uruşmalar, şiddətli müqavimət gözlənilirdi.

Bəs noldu, hanki amillər səbəb oldular işlərin böylə xitam bulmasına? İştə burasını aydınlaşdırmaq üçün Qarabağ mahalında ermənilərlə müsəlmanların münasibəti, türk islamların fəaliyyət və tədabirini tənvir etmək lazım gəlir.

Muğan, Mil və Peyğəmbər düzü adı ilə məruf olub da bəhri-Xəzərdən başlanaraq neçə bin mürəbbə çağrımı məsafəyə imtidad edən vadi qərbdə Qarabağ dağları ilə qurtaruyor. Məzkur dağlar bir neçə silsilədən ibarət olub hər tərəfdən Şuşa şəhərini əharə ediyorlar. Bu dağların arasından şəhərə iki şose yolu gediyor: birinci Ağdam tərəfindən, digəri həm Gorus (Zəngəzur)dan. Birinci yolda şəhərin 38 çağrımlığına ta İbrahim xan, Pənah xan və sair qarabağ xanları dövründən inşa edilmiş məşhur Əsgəran hasarı mövcuddur. Hazırda iki tərəfdən dağlardan başlanaraq ətraf və əknaf üzərində öylə hökmfərma bir vəziyyətdədir ki, onun bürclərinə malik olanlar bir adamın belə şəhərə getməsinə və şəhərdən gəlməsinə mane ola bilər.

İkinci yol Şuşa şəhərindən Gorusa gedən şosedir. Bunun da həman Əsgəran kimi bir yeri var ki, süni istehkamatı və hasarı olmamaqla bərabər, yenə də şəhərin boğazı hesab oluna bilər. Zira yolun iki tərəfindəki yucalıqlarda bir neçə tüfəngçi oturarsa, nə xaricdən şəhərə bir adam buraxar, nə şəhərdən xaricə. Buraya "Yarma" deyirlər.

Qarabağ tağlarının ortasında, bir tağın təpəsində Şuşa şəhəri vaqe olub 40 binə (min) qərib əhalisi vardır ki, bunların əksəriyyətini islamlar təşkil edir.

Bundan əlavə şəhərin dörd tərəfində 12 erməni köyü olub məşhur Əsgərannan möstəhkəm bir dəxi əşir köylərin arasında sığışmış bulunurdu. Ancaq bu qədər erməni köylərinin içində yalnız Malıbəyli ismində bir köy vardır.

**Ermənilər nə fikirdə idilər**

Qafqasiyədə hərc-mərclik başlandığı zamandan bəri Qarabağ erməniləri guya bütün Qafqasiyadan ayrılmış, bir guşəyə çəkilmiş kimi bir vəziyyət araraq, nəhayət Zaqafqasiyada üç cümhuriyyət elan edildikdə bunlar heç birisini tanımaq istəmiyərək müstəqil Qarabağ hökuməti təşkil etmək istədilər, həm indilərdə. Fəqət müsəlmanlar böylə bir hökuməti gözmək (görmək), tanımaq istəmədilər. Bundan dolayı məhəlli türklər ilə ermənilər arasında süstlük, soyuqluq və narazılıq başlanaraq nəhayət, müsəlləh müsadiməyə müncir olmaq dərəcəsinə gəldi.

Müsəlmanları Qarabağ hökuməti təşklinə Qarabağ cümhuriyyəti elanına məcbur etmək məqsədilə ibtida qonşularımız şirin sözlər, böyük vədlər və sairə kimi aldatmalara təvəssül etdilər. Lakin böylə təşəbbüslərin hədər və bisəmər olduğunu görüncə təşəbbüsati-təcavüzkaranəyə iqdam etdilər. Bu məqsədlə ən əvvəl Əskəranı bağladılar. Bu surətlə son dörd ay zərfində şəhər ilə Ağdam arasında əlaqə kəsildi: şəhərə azuqə gəlmədi. Zira gedənləri yolda qətl ediyorlardı. Axır aylar Andronik və Şahnazaryan qoşunlarının Şuşaya gələcəyi xəbərləri alınmağa başladı. Ermənilərin bihəyalığı yüz qat artaraq şəhərin ətrafında deyil, daxilində də müsəlmanları sıxmağa başladılar. Kəndiləri müsəlləh olaraq müsəlman bazarına gəlirlər, fəqət müsəlmanlardan Ermənistana getmək istəyənləri axtarıyor, silahla dini alıyorlardı. Bundan dolayı müsəlmanlar dəxi Ermənistana getməkdən imtina ediyorlardı. Bu surətlə bütün Qarabağda: Gərək şəhərdə və gərək ki, köylərdə erməni ilə müsəlmanın əlaqə və münasibəti bilmərrə kəsilmiş kimi idi. Deməli, keçən qış fəslinin hərc-mərc və qəhətligindən sonra taxıl və meyvə məhsulu bazara çıxan bir zamanda Şuşanın bütün yolları kəsilərək şəhər yenə də əski ehtiyati-mövcudun

ümidinə qaldı. Fəqət bir şəhərdə böylə qəhətlik yillərdə nə qədər taxıl mövcudu ola bilər ki, yeni məhsula ehtiyac qalmasın? Bundan dolayıdır ki, axər zamanlar şəhərdə taxıl bilmərrə qurtararaq aclıq başlandı. Ermənilər hər vasitə ilə olur-olsun müsəlmanları Qarabağ cümhuriyyəti elanını və Qarabağ burasını qeyd etməliyəm ki, ermənilərin qismi-əksəri hərbcuyanə bir vəziyyət alaraq türkləri güc ilə tabe etmək istəyirlər deyə də sülhcuyanə siyasət aparan və məsələyi qan tökmədən həll etmək arzusunda bulunan bir cəryan dəxi vardı. Ancaq bu cəryan ibtida qayət zəif olub bir müddət hətta səsini belə çıxarmayur, gizli çalıııyordu.

***"Azərbaycan" qəzeti, Səh. 3. (№16).***

**İkihökumətlilik**

Ermənilər "Qarabağ cümhuriyyəti" elan etmək fikrində olaraq bu məqsədlə var qüvvələri ilə çalışmaqda ikən binbaşı (minbaşı) Həsən Bəsri bəy (بصرى) Şuşaya, Fəxri bəy Ağdama və Kazım bəy Qaryaginə komandan təyin olunan vəzifələrinin ifasına şüru etdilər. Fəqət türk-islamlar Qarabağ cümhuriyyətini tanımaq istəmədikləri kimi, ermənilər dəxi bizim komandanlarımızı tanımaq deyil, hətta eşitmək belə istəmədilər. Benaəleyh Şuşada erməni əhatəsilə müsəlmanlar biri-birindən qət surətdə ayrılaraq o zamanadək mövcud olan hökumət müəssisələrini müsəlmanlar tərk etdilər və Həsən Əfəndiyə tabe olaraq ümumhökumət işlərini onun ixtiyarına verdilər. Şəhərin erməni hissəsində isə ermənilər bir müddət əski idarələri davam etdirdikdən sonra, nəhayət, Qarabağ erməni qurultayı dəvət etdilər. İki həftəyə qədər bir müddət davam edən qurultay şəhər ermənilərinin siyasətini təsvib və həman bu ruhda çalışmağın davamını tövsiyə edərək qəti surətdə Qarabağ hökuməti təşkil və nazirlər intixab etdi. Bu qurultayda ermənilərin simayi-həqiqisi açıldı. Qurultay dəvətinədək guruldayan sosializm, demokratiya, ədalət, filan kimi parlaq sözlər artıq aradan qaldırılaraq mütəəssib daşnaqsağanlıq meydana çıxdı. Hökuməti tamamilə millətçilərdən təşkil etdi. Şimdi ermənilə bir məsələyə müntəzirdirlər: Andronik və Şahnazaryan nə vaxt gələcəklər ki, müsəlmanları silah gücilə tabe edək!

*(yenə var)*

*Xəlil İbrahim*

***"Azərbaycan" qəzeti, №18 21 təşrin 1918.***

*Səh. 1.* **Ordu qərargahından təbliqi-rəsmi**

Qarabağda sükunət vardır. Dağlara fərar edən erməni əhali peydərpey köylərinə övdət etməkdə və təslimi-silah eyləməkdədirlər.

*Səh. 4.* **Təhlükə qarşısında**

**Qarabağın son günləri.**

*(Keçən nömrələrdən mabəd).*

Keçən nömrəmizin birində Qarabağın halından behtələ ermənilərin təqib etdikləri məqsəd və itxaz etdikləri tədabirdən yazmışdıq. Bu gün isə türk-islam əhalisinin fəaliyyətindən bəhs edəlim:

**Türklər nə yapıyorlardı?**

Hələ şəhər komandanı Həsən Bəsəri axundun vürudundan müqəddəm şəhər islamları ermənilərin hərəkətini görərək bu işlərin bir vaxt müsəlləh müsadiməyə müncər ola biləcəyini dərklə "sülh istərsən isə hərbə hazır ol" məsəlinin məfhumunca müqavimətə hazırlaşmaya başlayırlar.

Bu məqsədlə şəhərdə "Ənvəriyyə", "Şövkətiyyə", "Xəliliyyə" və mütəallimlərdən mütəşəkkil "Vəhəbiyyə" dəstələri adı ilə dörd könüllü əsgər dəstəsi təşkil ediyorlar. Hər dəstədə zabiti əvəz edəcək bir neçə dəstəbaşı zabit təyin olunur. Şəhərdə silah götürə bilən hər bir şəxs (15 yaşından 60 yaşınadək) tamamilə siyahı ediliyor. Cavanlar "Hərəkət ordusu" adı ilə həman dəstələrə daxil oluyorlar: qırx yaşından yuxarı olanlar isə ehtiyat əsgəri hesab olunaraq fövqəladə hallarda işə cəlb olunacaqları xəbər verliyor.

Təslihat işlərinə baxmaq üçün şəhərdə 14 məhəllə komitəsi təsis ediliyor: məzkur komitələrin vəzifəsi hər kəs öz məhləsinə siyahı tərtib verərək qüvvəsi çatan hər şəxsə beqədəri-qüvvə silah aldırmaq və para toplayaraq madətən zəif olanlar üçün cəmaət yoluyla silah almaqdan ibarət idi. Bu surətlə şəhərdə dövlətli, fəqir-hamı silahlanır və hər məhlənin on minlərcə müştərək ehtiyat gülləsi və yüzlərcə tüfəngi olur.

Bundan əlavə məhəlli türklər müsəlman hissəsilə ermənistan arasında xət hüdudu dava ehtimalına qarşı təhkim edərək şəhərin şimalından qərbinə doğru bir xət səngər quruyorlar: xətti-hüdudda bulunan evləri dəxi səngər qərar verərək divarlarını deşiyor, pəncərələrini örtüyor – səngər qayırıyorlar. Hankı məhlənin tüfəngçiləri hankı səngərə gedəcək, ehtiyatda kimlər duracaqlar, səngərə güllə, şörək və sairəyi kimlər daşıyacağlar, çörək nerədə bişəcək, kənardan kömək gələrsə nerədə

təvəqqüf edəcək, kimlər müqəyyəd olacaqlardır. Xülasə, bütün cüziyatı belə unutmamaq şərtilə müqavimətə hazırlaşıyorlar.

Gecə-gündüz şəhər cavanları əldə silah olaraq səngərlərdə qaravul çəkiyorlar.

Şəhərin füqərası dəxi unudulmuyaraq hər məhlədə varlılardan para toplanaraq füqəra üçün taxıl alınır və girvənkəsi 50 qəpikdən çörək buraxılır. Əhali bu surətlə öz dərdini ağlamış, dərmanını aramış, bölmüş hesab olunur. Fəqət şübhəsizdir ki, əsgərlik görməmiş, qışlada yaşamamış, zabitlik məktəbində təhsil etməmiş bir cəmaətin təşəbbüsləri nə qədər şayan təqdir olsa da, bir çox nöqsanı da vardı. Daha sonra nöqsanın islahIna şüru edildi. İbtida Şuşada ümumi səfərbərlik elan edilərək bütün cavanlara əsgərlik məşqi verilməgə başladı. Şəhərdə olan bir neçə kiçik zabitin iştirakı ilə əsgəri idarə təşkil edildi. Bir müddət cavanlara məşq verildikdən sonra buraxıldılar.

Aradan bir qəər keçdikdən sonra şəhərdən bir qədər könüllü yığılaraq daimi olmaq üzrə qışlada sakin edildi. Oxumuş cavanlardan isə 50 nəfərədək məktəbi-hərbiyyədə oxumaq üçün ərizə verərək namizəd yazıldı.

Bunlar süvari və piyada dəstələrə bölünərək hər gün saat doqquzdan on ikiyə və dörddən-altıya qədər məşq ediyorlar. Eyni zamanda zabitlərin nəzarət və iştirakilə səngərlər dəxi islah ediliyorlardı. Böylə ki, şəhərin bu başından o başınadək xəndəklər, tunellər qazılıb, səngərlər arasında yeraltı yollar çəkiliyor, qanuni-hərbin tələb etdiyi qayda ilə üstüörtülü qazımalar yapılıyor: Şrapnil (شر اپـنـيـل), bomba və sairəyə qarşı hər səngərdə sipərlər, quyular, çalalar qazılıyor.

Nəhayət, şəhərdə dava vüqu bularsa, kəndlərdən dəxi hücum ediləcəyi ehtimal daxilində olduğundan müsəlman hissənin dörd tərəfində səngər quruluyor. Bundan əlavə şəhər üzərində hökmfərma olan "Üçmux" ucalığında dəxi səngər qurmağa ehtiyac görülüyor. Bir gündə şəhərdən dağın başına xəndək vurularaq dağın təpəsində səngər quruluyor. Burası erməniləri həyəcana gətirərək narazılığa və müsəlmanların həman səngəri tərk etmələri haqqında bir tələb surətinə bais oluyor. Fəqət bir növ ilə ixtilaf yatırılıyor.

Şəhərin şimalında iki buçuq çağrımlıqda "Dövtələb" adlı bir təpə dəxi var. Hər kəs bu təpəyə malik olub iyirmi tüfəngçi bulundurarsa tərəfi-müqabildən bir şəxsi belə Xəlfəli, Xan kəndi, Malıbəyli və Qaryagin yollarına çıxmağa buraxmıya bilər. İştə məzkur təpənin dəxi əhəmiyyətini etirafla məhəlli türklər orada dəxi səngər quraraq daima iyirmi-otuz qaragül bulunduruyorlardı. Ümumi səngərlər bir neçə uçastoka təqsim və

hər uçastoka bir rəis təyin edilmişdi. Hər rəisin binagüzarlığına bir-iki məhlə verilmişdi. Rəislər isə öz dairələrində onbaşılar təyin etmişlərdi. Hər məhəllədən gündə bir onbaşı öz dəstəsilə qarağula gediyordu. Qışlada yaşıyan əsgərlər isə başqa vəzifələrlə müvəzzəf idilər. Ancaq bunca hazırlaşmaqla bərabər müsəlmanlar heç vaxt dava istəmiyorlardı. Unutmamalıdır ki, dava hazırlığı, səngər qurmaq, silahlanmaq və sairə xüsusunda müsəlmanlar nə yapmışlarsa, ermənilər daha ziyadə ciddiyyətlə çalışmış, hətta müsəlmanları hazırlaşmaya onlar vadar etmişlərdir.

*(yenə var)*
*Xəlil İbrahim*

***"Azərbaycan" qəzeti, №19 22 təşrin 1918.***

*Səh. 1.* **Ordu qərargahında.**

2 – Qarabağda: Şuşa məntəqəsindəki köylərdən müxtəlif əlcins bir çox əsləhə və bir nakinalı tüfəng toplanmışdır.

*Səh. 2.* **Təhlükə qarşısında.**

**Qarabağın son günlərui**

*(Keçən nömrələrdən mabəd)*

Şəhəri yalnız davaya hazırlamaq və eyni zamanda davanın o günü camaatı salamat saxlamağın nə qədər mühüm bir məsələ olduğunu düşünənlər bilirlər ki, bu xüsusda nə qədər zəhmətlər çəkilmişdir. Böylə işlər isə şübhəsiz ki, cəmiyyətlər tərəfindən görülür: bundan dolayıdır ki, bu uğurda çalışan cəmiyyətlərdən bəhs etməgi vacib sayaraq bu gün dəxi Şuşanın təşkilatından yazalım.

**Təşkilat işləri**

Şəhər müdafiə halına gətirilmək və davaya hazırlaşmaqda ikən bütün Qarabağda vəba və yatalaq kimi sarı xəstəliklər peyda olaraq gündə otuz-qırx adam ölürdü. Köylərdə camaata tibbi müavinət göstərilməsi qeyri-mümkün olaraq xəstəliklərin önü alınmayırdı. Zira nə lazımı miqdarda təbib və heyəti-təbib var idi, nə xəstəxanə, nə dərman.

Şəhərdə isə çalışmaq mümkün oluyordu. Benaəleyh şəhər komandanı nəzarəti ilə 8 təbibdən və bir neçə tələbədən ibarət bir səhiyyə bürosu açılaraq hər məhlədə dəxi səhiyyəçilər təyin edilərək çalışmağa başladılar. Yaxşı nəticələr dəxi hasil oldu.

Müdafiə hazırlığı üçün bir "Hərbiyyə idarəsi" təsis olunaraq şəhərin bütün müdafiə işləri ona tapşırılmışdı.

Yenə həmin hərbiyyə idarəsi nəzdində bir dənə də "Ərzaq idarəsi" təsis edilmişdi. Fəqət yollar bağlı olub şəhərə ərzaq gətirilmədigindən və şəhərdə taxıl və sair makulat mövcudu gündən-günə azalmağa, hətta qurtarmağa başladığından ərzaq idarəsinin fəaliyyəti öylə gözə çarpacaq bir nəticə vermədi. Bilxassə ki doğru vəzifəsi olduğu halda kənardan makulat ala bilmədi. Yox olan şeyi də ədalətlə təqsim edəmiyəcəkdi.

Nəhayət, şəhərdə sarı xəstəlik bəlası dəf olduqdan sonra, o zamanlar ki, hər dəqiqə müsəlləh müsadimə gözləniyordu təbiblər ilə tələbələr bir iclas quraraq dava düşdüğü təqdirdə məcruhlara tibbiyəyi-tibbiyə göstərməyi düşündülər və heyəti-tibbiyəyi artırmaq qəsdilə "Şəfqət qardaşları" kursu açıldı. İyirmi altı tələbə kursa daxil olub birinci kömək və sarqı qaydalarını öyrəndi. Müavinəti-tibbiyə qəsdilə ibtida şəhərdə bir xəstəxana açıldı. Bunun üçün tələbələr tərəfindən hələ keçən illərdən müsamirə və sairə tərtibi vasitəsilə 12000 manat pul yığılmışdı. Bu dəfə haman məbləğin üstünə bir qədər də parə toplandı və şəhrin hər işində ciddi surətdə iştirak edən "Müdafiəyi-milliyə" cəmiyyəti bu işi öz öhdəsinə götürərək 18000 manat pul buraxdı. ("müdafiəyi-milliyə" cəmiyyəti Şuşada son zamanlar təşkil edilmiş bir cəmiyyətdir ki, hal-hazırda ən artıq çalışan və az ömründə çox fəaliyyət göstərən, həm də böyük nüfuz və etibara malik bir cəmiyyət olmuşdur).

Xəstəxanaya iki təbib və səkkiz tələbə baxacaqdır. Burası mərkəz təşkil edəcəkdi. Bundan əlavə dava düşdüyü təqdirdə cəbhə təşkil edəcək olan xətdə sol cinah mərkəz və sağ cinah da olmaq üzrə üç yerdə dəxi ayrı-ayrı sarqı nöqtəsi qərar verilmişdi. Bu nöqtələrin hər birində bir təbib və beş tələbə duracaqdı.

**Beynəlmiləl komitə**

Bunca hərbə hazırlaşmaqla bərabər kərrafla zikr olunduğu üzrə müsəlmanlar daima sülh və müsalimətlə yaşamaya çalışurlardı. Ermənilər arasında dəxi zəif olsa da, sülhcü bir cərəyan vardı, dedik.

Məzkur sülhcular ermənilər ilə müsəlmanlar arasında münasibəti-sülhcuyanəyi davam etdirmək və əlağəyi kəsməmək qəsdilə bir "Beynəlmiləl komitə" təsis etmişlərdi. Burası altı türk, altı ermənidən ibarət bir heyət olub daima ermənilər ilə müsəlmanlar arasında vüqu bulan ixtilafları yatırmaq, ixtilaflı məsələləri sülh ilə həll etmək, xassə şəhərdə asayiş və müsaliməti davam etdirmək uğrunda çalışıyorlardı. Həm pək böyük xidmət gördü. Bu komitə olmasaydı bəlkə Şuşada 3-4 dəfə qanlı müsadimə də baş verərdi. Bir neçə dəfə məzkur komitənin varlığı tərəfeyn üçün böyük rol oynadı. Məsələn, əvvəla, Aras ilə Kür arasında

sükunət edib də yayda dağa, yəni yaylağa köçən dörd yüz min əhaliyi-elat nisan ayının axırlarından etibarən köçməyə başlamalı ikən dağ yollarının erməni əlində olması və ermənilərin yollarda xalqa azar və əziyyət vermələrindən dolayı həziran ayından köçə bilməyib aranda qalmışdı. Burası köçərilər üçün bir fəlakət təşkil ediyordu. Zira həm əhali, həm mal-qoyun qızdırma tutub qırılıyordu. Beynəlmiləl komitənin türk əzasının təşəbbüsilə nəhayət, elata yol verilərək dağa köçməgə imkan oldu.

Fəqət yollarda ermənilər camaata pəh çox əziyyət verdilər. Böylə ki, nərədə bir erməni əsgəri köçə təsadüf etsə qoyun alır, silah axtarıyor, habelə nələrə qarışırdı. Hər halda Beynəlmiləl komitənin vücudilə köçərilər yaylağa köçə bildilər. Digər bir xidmət daha. Bir gün şəhərə xəbər gəldi ki, on iki min erməni qaçqını şəhərə gəlmək istəyir. Böyük yarmada Zarıslı və Musurmanlar deyilən camaat onların qabaqlarını kəsərək yol vermiyorlar. Filhəqiqə içərisində iki təcavüzə müsəlləh kişi olmaq üzrə neçə min erməni qaçqını gəliyormuş. Zarıslılar qabaqlarını kəsiyorlar. Dörd gün, dörd gecə atışma davam etdi. Bu hadisənin təsiri altında şəhərdə də hər dəqiqə müsadimə gözləniyordu.

Beynəlmiləl komitə bu dəfə yenə şəhərdə avanın önünü aldı. Salamat keçdi. Qaçqınlar isə bir qədər tələfat verdikdən sonra şəhər ermənilərinin göndərdiyi imdadiyə sayəsində keçib gələ bildilər və qismən şəhərdə, qismən də ətraf kəndlərdə sakin oldular. Fəqət Beynəlmiləl komitənin ümdə xidməti son günlər oldu ki, bu xüsusda vaxtilə yazılacaqdır.

**Ətraf ilə əlaqə**

Şəhərin yolu hər tərəfdən bağlı olduğundan biltəb bütün cahandan əlaqəsi kəsilmiş, dünyadan bixəbər, adətən qaranlıqda olmuş bir cocuq kimi qalıyordu. Ətraf ilə şəhər arasında əlaqeyi kəsməmək üçün bir çarə vardı: bəzi bələd adamlar cığır yollar ilə şəhərdən çıxaraq, gecə ikən Ağdama, ya Qryaginə gedərək məktub aparsın, cavab gətirsin. Başqa cadə yox idi. Buna görə idi ki, Abdal Qasım, Gülablı Heydər və Daşdəmir nam üç şəxs Şuşa üçün qasid gəlmişdi. Birincisi Malaqana, digər ikisi Ağdam yoluna bələdçi və qasid təyin edilmişlərdi. Son zamanlar haman adamların bələdçiliyi ilə məzkur dağ yolu ilə şəhərə silah dəxi daşınıyordu. Böylə ki, Gülablı kəndindən bir neçə adam göndərilərək Ağdamdan Gülablıya, Malıbəylinin adamları Gülablıdan Malıbəyliyə daşıyorlardı. Nəhayət, şəhərdən hər məhlədən üç kişi seçilərək Malıbəylidən gecə ikən şəhərə gətiriyorlardı.

*(bəqiyə var)*

*Xəlil İbrahim.*

***"Azərbaycan" qəzeti, №20, 23 təşrini-əvvəl 1918.***

*Səh. 2.* **İslam ordusu qərargahında:**

Qarabağda, Şuşa civarındakı köylərdən bir miqdar daha silah toplanmışdır.

*Səh. 3.* **Təhlükə qarşısında.**

**Qarabağın son günləri.**

*(Keçən nömrələrdən mabəd)*

Şəhər mühasirə halında qalıb bir yerdən bir girvənkə makulat gəlmir, çörək qurtarıyor; daima evlərində yüz putlarla taxılı olan adamlar dəxi bazardan çörək almağa başlıyorlar. Bekar özləri şəhərdə, taxılları köylərdə qalıb kəndə getmək istiyorlar, mümkün olmuyor, buraxılmıyorlar.

Bir neçə dəfə şəhərdən erməni və müsəlman nümayəndələrindən mütəşəkkil bir heyət çıxıb Əsgərana gediyor. Yolları açmaq üçün ermənilərlə müzakirəyə girişiyorlar. Ermənilər: – Yol bağlı degil, gəlib-gedə bilərsiniz deyə cavab verirlər. Fəqət yola çıxmağa cəsarət edən hər müsəlman canını sadəlövhlüyünə qurban veriyor, yol yenə bağlı elan olunur.

Taxılın qurtarmağı, meyvə yoxluğu bir cəhətdən xalqı sıxmaqda ikən, bir tərəfdən də ermənilər su kəhrizlərini kəsiyorlar. Şəhər susuz qalıyor. Bir qədər su əldə etmək üçün hər gün şəhərdən bir dəstə əhali əldə silah olaraq şəhərin ətrafındakı çeşmələrə gediyor. Kənd erməniləri bunları atəşə tutuyorlar; atışma oluyor, müsəlmanlar atəş altında su götürməyə məcbur oluyorlar. Əhval pək fəna, işlər pək müşkül bir surət ediyorlar.

**Sevinc xəbər**

Şəhərin bahalığı get-gedə kəsbi-şiddət ediyor, bahalıq bəlkə öhdəsindən gələ bilməli bir dərddir. Lakin qəhətlik, yoxsulluq, şəhərdə pul az, alış-veriş bilmərrə yox, taxıl tapılmıyor, su yoxdur. Bu halda bir də Andronik və Şahnazaryan qoşunlarının şəhərə vürudu xəbəri çıxıyor. Ermənilərin vəhşiliyi daha da artıyor. Ermənilərin bihəyalığının nə həddi var, nə hesabı. Türklər o qədər sıxıntı çəkiyorlar ki, dava düşeydi, canımız qurtarardı, ya ölər, ya ermənilərin boyunduruğundan xilas olardıq – deyə, ölmək şərti ilə də olsa ermənilərdən qurtarmağı arzu ediyorlardı. Fəqət dava sala bilmiyorlar. Zira şəhər komandanı hər gün "sülh və müsalimət" – deyə, təkidani olmasa bəlkə kərraf dava düşərdi.

Andronik və Şahnazaryanın qoşunlarının gəlməsi və şəhərdə qanlar sel kimi axıdılması gözlənən bir zamanda qurban axşamı Bakının alınması xəbəri çıxdı.

Qurban günü müsəlmanlar birinci dəfə şəhərdə rahatlıq hiss etdilər. həm öylə şadlıq ki, bəlkə Şuşa şəhəri bütün tarixində beylə bayram görməmişdir.

Şəhər bayraq və xalılarla təzyin edilmiş, bütün camaat qabaqda musiqi və məhəlli əsgər olmaq üzrə şəhəri gəziyor, toplar atılıyor (şəhərdə müsəlmanların bir neçə əl ilə qayrılmış və bir danə "Napalyon" topu var idi), Şəhərdə bulunan ümumi sazəndə, nəvazəndə balkonlarda, evlərdə çalıyorlar, oxuyorlar. Xülasə, şəhərdə bayram ruhu hökmfərmadır.

Bu xəbər türk-islam əhalisinin dərdini bir qədər unutturmaqla bərabər, camaata böyük bir ümid bağışlamaqla nəhayət dərəcə ruh yüksəkliyi hasil oluyor.

**Qorxunc bir gecə**

Bu hal iki gün davam ediyor. Üçüncü gün xəbər alınıyor ki, Şahnazaryan qoşunu gəliyor, şəhərin 20 çağrıyəliyində, Zabix adlanan yerlərdədirlər. Beynəlmiləl Komitənin türk üzvləri çox çalışırdılar ki, erməniyar məzkur quldur dəstəsini şəhərə buraxmayaraq kəndlərə göndərsinlər. Hətta bu uğurda ermənilərə yardımlarını belə vəd etdilər. Fəqət ermənilər böylə sözlərə qulaq asarlarmı?!

Kirvələr hətta Şahnazaryanın şəhərə gəlməsini təshil (تسهيل) üçün şəhərdən və ətraf köylərdən bir çox araba cəm etdilər və şayəd yolda müsəlmanlar araba və qoşunlara məmaniət edərs, arxalarını kəsmək üçün bir neçə yüz də əsgər toplayaraq Zabuxa göndərdilər.

Şəhərdə ermənilərin ruhu yenə yüksələrək yaxalıqları yüz dərəcə artdı. Bir gün böylə keçdi. İkinci gecə sübhə yaxın bir vaxt gördük şəhərin erməni hissəsindən bir atışma başlandı. Qurşun dolu kimi yağıyor.

Hamı yuxudan sərasimə ayılaraq hər kəs öz vəzifəsi başına gediyor. Səngərlərə adamlar göndərilərək tapşırılıyor ki, müsəlmanlar hələ güllə atmasınlar, görək nə oluyor. Bu əsnada ermənilər dəxi səngərlərdən çağıraraq: – Ay müsəlmanlar, güllələr sizə atilmuyor, sizlə davamız yoxdur – deyə xəbər veriyorlar. Həqiqətən anlaşılıyor ki, ermənilər gülləyi bizə degil, şəhərin hər tərəfinə atuyorlar.

**Bu nə imiş?**

Yuxarıda yazıldığı kimi, Şahnazaryan qoşunu Şuşaya gəlmək niyyətilə Zabuxa varid oluyor. Orada yaxınlıqda qayət böyük və ermənilər üçün bir istinadgah vasül-hərəkət təşkil edən pək möhkəm bir kənd var – Qaladərəsi. Plan böylə imiş ki, Şahnazaryan gəlsin həman kəndə. Şuşadan köməyə gedən ermənilər dəxi oraya yığışdıqdan civara yığılmış olan müsəlmanlar atlılar ilə dava etsinlər, ətrafdakı köyləri dağıtsınlar, bədən şəhərə gəlsinlər.

Həman müsəlman atlıları isə kürd və zilandan ibarət idi. Neçə yüz adam idilər. Bunlar kağız aparan bir ermənini təvəqqüf ediyorlar, dava planı olan kağızı alıyorlar, işi ögrəniyorlar, yalan siqnal verərək davanı bir gün əvvəl başlıyorlar. Ermənilərin planı pozularaq saldatları yekdigərindən ayrı düşüyor, nəticədə, Şahnazaryan dəstəsi əziliyor. Qala dərəsi dağılıyor, şəhərdən gedən köməkçilər başlarını itirərək qaçıyorlar.

Qaladərəsinin qaçqınları ilə şəhərdən gedən saldatlar ətraf köylərdə meşələrə dağılıyorlar. Bir qismi şəhərə gəlmək istiyor, gecə qaranlığında ermənilər uzaqdan gələn izdihamı görərək: "Müsəlmanlar şəhərə hücum ediyorlar" – deyə, səs salıyor və gələnləri qurşun ilə qarşılıyorlar.

*(yenə var)*
*Xəlil İbrahimzadə*

*Səh. 3.* **Nəzarətlərdə**

Qarabağdan xəbər verirlər ki, bir dəstə daşnaqsağan firqəsinə mənsub ermənilərin macərapərəstliyi tamamilə dəf edilib. Erməni camaatının Qarabağ hadisələrində iştirak etməmələri aşkar olmuşdur. Erməni əhalisi şəhədə və kəndlərdə əsgərlərimizi duz-çörəklə qarşılayıb Azərbaycan təbəliyini qəbul etməklə bərabər öz xoşları ilə əsləhələrini təslim edib hökumətin hər bir əmr və fərmanına tabe olmağa hazırdırlar. Müxtəsər kəlam, həyat öz adi halına düşüb. Zəhmətkeş kənd əhalisi öz məşquliyyətinə başlamaqdadır.

***

***"Azərbaycan" qəzeti, №21 24 təşrin 1918***

3-cü səhifədə "Ərzaq" adlı məqalədə "ərzaq idarəsi"nin yaradılması təşəbbüsü ilə çıxış edilir. Göstərilir ki, Bakı şəhərində bir vaxtlar çörəyin girvənkəsi 18-20 manata olduğu halda, türklərin Bakıya daxil olması ilə qiymət islahatı aparıldı və çörəyin girvənkəsi 4 manata endirildi. Bu zamanlarda Qarabağ və Şəkidə buğdanın putunun 40-50 ma-

nata olduğu halda, möhtəkirlərin onu 140 manata gətirib satmaları qeyd olunur.

*Məqalənin müəllifi: Oruc*

***"Azərbaycan" qəzeti, №22 25 təşrini-əvvəl 1918***

*Səh. 2.* **Təhlükə qarşısında**

**Qarabağın son günləri.**

*(Keçən nömrələrin axırı)*

Axır günlər şəhər bir hala gəlmişdi ki, hər dəqiqə dava, yaxud iğtişaş gözləniyordu. Zira əhalinin yüzdə doxsan qismi aclıq çəkirdi. Ac əhalinin bir qismi "dava düşsə, bəlkə yollar açılar" – deyə, erməni ilə dalaşmaq lüzumunu meydana atuyor, bir qismi isə "dövlətlilər anbarlara dldurub bizi ac buraxırlar" – deyə, dövlətlilərin evlərini axtarmayı lazım görüyordu. Hər-hanki tədbir şübhəsiz ki, bir çox qan axıdılmasına bais olacaqdı. İş bir dərəcəyə gəlmişdi ki, hətta "Ağdama əsgər gəldi" – deyildikdə, heç kəs artıq inanmıyordu. Zira ümidləri kəslmişdi.

**Ultimatum**

Şəhər bu halda ikən İsmayıl Həqqi bəy həzrətləri bir məktub yazaraq ermənilərdən Ağdama nümayəndə göndərmələrini tələb etdilər. beş nümayəndə getdi. Ertəsi gün nümayəndələrdən ikisi şəhərə qayıdaraq xəbər gətirdilər ki, erməni heyətindən üç nəfəri Ağdamda saxladılar, bizləri isə şəhərə göndərərək bilatəxir ermənilərin təslimini tələb etdilər. Şuşa komandanına da bu məzmunda bir məktub göndərilmişdi. Bu məsələnin həlli üçün ermənilər yenidən qurultay dəvət edərək bir çox gurultulu iclasları oldu. Beş gün cavab verə bilmədilər.

Şəhər türkləri ultimatumunu eşidərək ənqərib şəhərimizə qoşun gələcəyinə qənaət hasil etdilər və müzəffər orduyu layiqincə istiqbal etmək tədbirləri görməyə başladılar.

Əvvəl şəhərin hasarı yanında, o yerdə ki, şəhərə birinci köyrü, Bazar başının ağzı, Bazar başından meydana gedən yolda, bazarın ağzında, Cəfərqulu xan küçəsi başında, qayəqamlıq idarəsi qabağında, meydanın girəcəyində və məscidi-camə qabağında bir ala qapı bəzəndi. Bundan əlavə, şəhərin ziyalı xanımları tələbə və müəllimlərinköməyilə ayrıca bir ala qapı bəzəyərək başında qardon üzərində böyük xətlə: "Bir gün gələcək şəmsi-həqiqət doğacaqdır, Şərqin bu əsir validəsi hürr olacaqdır" yazılı böyük bir lövhə asdılar. Bədən bütün bazar türk bayrağı, qali, gəbə, şal, cecim və gögərti ilə bir dərəcə bəzəndi ki, əsgərlərin keçəcəyi küçələrdə bilmərrə ev, dükan və sairə görülməzdi. Şəhər öylə bir təntənəli

mənzərə gəlmişdi ki, aclar aclığını unudaraq bilaixtiyar şad oluyorlardı. Hər gün bazar-başında musiqi çalıyor, xaməndələr, sazəndələr evlərdə, balqonlarda oxuyub-çalıyorlar. Şəhərdə bayramdır.

Amma hələ ermənilərdən bir cavab çıxmamışdır. Fəqət gecələr çox vaxt saat 12-dən sonra erməni mötəbəranı komandan hüzuruna gəliyorlar. Burasını camaat bir fali-nikədd ediyor.

Nəhayət, beşinci gün axşam saat doqquzda beynəlmiləl komitənin erməni nümayəndələri gələrək erməni qurultayında məsələlərin müsbət surətdə həll edildigini xəbər verdilər.

İmdi hər kəsə məlumdur ki, ermənilər təslim oluyorlar. Nəhayət, altıncı gün Ağdamda saxlanmış olan erməni nümayəndələri şəhərə gəldilər. Məlum oldu ki, bunlara ultimatum verilərək ermənilərin 24 saat zərfində təslim olmaları tələb edilmişdir. Haman gün ermənilərdən bir neçə kişi Şuşa komandanını hüzuruna bir danə əldə qayrılmış top, bir pulemet və 80 tüfəng gətirərək Azərbaycan hökumətinə təslim və tabe olduqlarını elan etdilər. O biri gün səhər tezdən Ağdama dəxi nümayəndələri gedərək bu xüsusi İsmayıl Həqqi bəy və Cəmil Cahid bəy həzrətlərinə dəxi xəbər verdilər.

Bu gündən etibarən ermənilər dəxi öz hissələrini təzyin edərək yuxarı meydanda, Qazançı kilsəsi qabağında, şəhərin girəcəyində birər ala qapı qayırdılar. Bir ala qapı da beynəlmiləl komitə qabağında qayrılmışdı.

Mərasimi-istiqbal işlərinin tərtib və məxaricini Müdafiəyi-milliyə komitəsi öz öhdəsinə qəbul etmişdi. Əsgərlərin şəhərə vürudundan bir gün əvvəl camaat Gövhər ağa məscidinə yığılaraq zabitlərə və əsgərlərə sərf olunmaq üçün "Müdafəyi-milliyə" komitəsi nəfinə bir qədər para toplamaq məsələsini qaldırdılar. Filməclis iyirmi min manata qədər nəğd pul toplandı. Bundan əlavə bəylərdən bir nəfəri bir günün xərcini tamamilə öz öhdəsinə aldı. Bir cavan, lazım olan miqdarda qənd və çay verməgi dər öhdə etdi. Bir tacir iki put hazır çörək vəd etdi. Bunlardan başqa yenə külü miqdarda qənd, çay, qəhvə, çörək və sairə verildi.

İki gün aradan keçdi, ordu şəhərə yaxınlaşdı. Ordunun böylə təxirlə gəlməsinin səbəbi bu oldu ki, Ağdam ilə Əsgəran arasındakı dağlar daminəsində bulunan erməni köyləri bilamüqavimət təslim olmuyub əsgərlərə güllə atırdılar. Benaəleyh Xoramord, Xanabad, Daşbaşı, Aranzəmin, Köynük, Ağbulaq, Qarakənd və sairləri qabağında müsadimə vaqe olmuşdu.

Xaçın çayı boğazındakı kəndlər dəxi dava etdilər. Burada Ağdamdan yığılmış əsgərlər böyük rəşadət göstərmişlərdi.

**Əsgərlərin şəhərə vürudu**

İki-üç günü məzkur kəndi tərksilaha məşğul olduğundan sonra, nəhayət, məhərrəmin əvvəli səhər saat onda türk ordusu şəhərə varid oldu.

Şəhərdən 30 nəfər qara çərkəs libaslı süvari cavan Ağa körpüsünədək fəxri qarağul sifətilə əsgərin istiqbalına çıxmışdı. Şəhərin girəcəyində başdan məhəlli könüllü əsgərlər qabaqlarında türk mütəllimləri musiqi dəstəsi, birinci ala qapı qabağında bir tərəfdən (əsgərlərin yanında) ruhanilər, o biri tərəfdən beynəlmiləl komitə nümayəndələri əldə şəhərin anaxtarı (آنا خنار), içəri tərəfdən sağda şəhər mötəbərləri əldə duz və çörək, solda tələbələr ittifaqı – əldə bayraq və xanımlar əllərində çiçək dəstələri, bunların dallarınca ümum tələbə və mütəllimlər durmuşdu. Türklər şəhərə varid olduqda ermənilər dəxi bir musiqi dəstəsi on beşə qədər bayraq ilə üç yüzədək nümayəndə göndərmişlərdi. Bunlar dəxi istiqbal mərasimində bir tərəfdə durmuşlardı.

Səhər saat onda qoşunlar şəhərə varid olaraq birinci sırada süvarilər, sonra topçular, mitralyozçular, daha sonra həman Qaladərəsi qəhrəmanı Soltan bəy və İldırım bəy Qarabağ atlıları ilə gəldilər. Müsəlman xanımları komandan həzrətlərinə qırmızı məxməl üzərində mirvaridlə tikilmiş bir ünvan təqdim etdilər. Əsgərlər şəhərə girdikdən sonra Cəmil Cahid bəy həzrətləri camaata xitabən bir nitq irad edərək siyasətimizdə qan tökmək olmadığını türk və islam məmləkətlərində din, məzhəb və millət fərqi qoyulmadan hamıya bir nəzərlə baxıldığını qeydlə, minbəd hamının Azərbaycana tabe olması və xülus qəlb ilə təbid edib və sülh və müsalimətdə yaşayaraq ümumi qüvvə ilə məmləkətin abadlığına və tərəqqisnə çalışması lüzumunu bəyan etdilər.

Bədən zabitlər qabaqca hazırlanmış olan evlərdə yerləşib, əsgərlər isə böyük qışlada – sabiq qazaq qışlasında və müvəqqəti olaraq qismən də riyalni və seminariya mülklərində yerləşdirildi.

*Xəlil İbrahim*

***"Azərbaycan" qəzeti, №27 31 təşrin 1918.***

*Səh. 3.* **Qarabağda heyəti-mürəxxisə.**

Ermənistandakı Trkiyə səfiri Məhəmmədəli Paşa və Qafqasiya cəbhəsi komandanı Xəlil Paşa həzrətləri vacibəlarilə Ermənistan ilə Türkiyə səltənəti mabeynində hasil olmuş ixtilaf mocibincə Ermənistan hökuməti Nuru Paşa həzrətləri hüzuruna bir heyət göndərməgi təhti-

qərara almışdır. İşbu heyət Qarabağdakı müsəlmanlar ilə ermənilərin münasibətini yaxşılaşdırmaq və sərhəd təyini məsələsini həll edəcəkdir. Heyətə hökumət tapşırmışdı ki, Nuru Paşa həzrətləri ilə istilaqa girərək müzakirə zamanı türklər tərəfindən müharibənin dayandırılmasını istirham etsin.

***"Azərbaycan" qəzeti, №31 5 təşrini-sani 1918.***

*Səh. 4.* **Xəbərlər:** Şuşa və Ağdam ilə teleqraf müxabiratı təcdid edilmişdir. Qaryağin ilə Şuşa arasında teleqraf və poçta münasibəti başlanmışdır.

***"Azərbaycan" qəzeti, №33 7 tşrini-sani 1918.***

*Səh. 1.* **Bakı, 20 məhərrəm.**

Qarabağ xüsusda bir neçə gün əvvəl Tiflis qəzetlərində bəzi şayiat dərc edilmişdir. Həmin şayiat ümumən Azərbaycan türklərinin böyük bir heyrətinə bais olması şübhəsizdir. Qəzetlərin dediginə görə İstanbulda hazır olan erməni heyəti sədrəzəm İzzət Paşa həzrətlərinə bilmüraciə Qarabağa türk qətəatı (قطعات) göndərilməsindən vaz keçməsini istida etmişlər. Göstərdigimiz mənbədən olan digər bir şaiyat dövr edir ki, Xəlil Paşa həzrətlərinin erməni cümhurəiyyətində olduğu zaman eyni istidanı erməni nümayəndələri mövmi əleyh paşa nəzdində dəxi etmişlər və Xəlil Paşa bu xüsusda təşəbbüsatda bulunmağını vədlər etmişlər. İzzət Paşa həzrətləri isə Azərbaycanın kəndisinə aid və həman məmləkətin mənafei üçün böyük bir əhəmiyyəti hayı məsələyə müdaxiləsi beynəlmiləl qəvaninə riayət nöqteyi-nəzərində nə şəkil və nə surətdə olacağı başqa bir məsələdir.

Lakin Qarabağı üsyançılar əlindən qurtarmaq üçün oraya nəql edilən qətəatımız bilümum və baş komandanlığı ilə məhəlli hökumət nümayəndələrinin nə vəziyyətdə bulunub-bulunmuyacaqları hal-hazırda bizim fikrimizi işğal edən məsələlərdir.

Eşitdiyimzə görə, Qarabağ, ələlxüsus oranın dağlıq cəhətləri üsyançılardan təmamən təmizlənməmişdir. Üsyançılar müqabillərinə kəsrət qüvvə gördükdə silahlarını götürüb dağlara və başqa möhkəm köylərə fərar ediyorlar və köylərdə yalnız ixtiyarlarıyla cocuqları buraxıyorlar. Onlar aman bayrağı çıxarıb təslim olurlar. Eyni zamanda mükəmməl bir surətdə müsəlləh olmuş gənclər öz qüvvələrini müharbədən mühafizə etməklə bərabər, başqa mövqelərə toplaşıb dürlü-dürlü su niyyətlər və müqətətanə fikirlərlə uğraşıyorlar. Deməli, silah daşımağa qabil olmayan

ənasürlə bir tağım səmimi sülhcu qruplar arada sülh və müsalimət arzusundan nəşət edən kəndi məsruriyyətlərini izhar etdikdə müsəlləh gənclər pusquda hazır və amadə durub vəziyyətin dəgişməsinə müntəzir olurlar.

Burası Qarabağ türkləri üçün pək vəxim və dəhşətli bir hal doğuruyor.

Qarabağ islamlarının asayiş və həyatı bizcə bir dəfə qəti bir surətdə təmin edilməli ki, gələcəkdə onlar təhlükə təkrarından bilkolliyə məsun qalsın.

Bu xüsusda nə kimi tədbir və binagüzarlıqlar və nə dürlü siyasət işlənilməsi hökumətimizə və komandanlarımıza aid məsələdir.

Lakin buasını unutmamalıdır ki, Bakı məmləkətimizin cismini, bədənini təşkil etdikdə, Qarabağ Azərbaycanın ruhunu, onun damağını təşkil ediyor.

Bakı Azərbaycanı maddi cəhətdən təmin edərsə, Qarabağ onu mənəvi cəhətdən təmin edən bir ölkə olduğu hər kəscə məlumdur. İndiyə kimi Azərbaycan türklərinə ruhi və mənəvi bir sərvət verən, onları ziyalı və münəvvər qüvvələrə malik edən Qarabağ və yenə də Qarabağ olmuş desəm, burasını heç bir azərbaycanlı inkar edəməz zənnindəyəm. Bunun üçün Qarabağı əlimizdə bərk-bərk saxlamaq bizim üçün həyat və məmat əhəmiyyətinə hayız bir məsələdir.

Burasını təkrar dər xatır edib də bu yolda ciddi sərəncamlar itxaz ediləcəginə bütün ümidimizi bağlıyoruq.

***"Azərbaycan" qəzeti, №35 10 təşrini-sani 1918.***

*Səh. 2.*-də Əhməd bəy Ağaoğlu haqqında material var.

Məhəmməd Əmin Rəsulzadə.

***"Azərbaycan" qəzeti, №37 12 təşrini-sani 1918***

*Səh. 3.* Müəllimlərimiz az, həm də əksəri türk dilini yaxşı bilmədigindən şimdiki şərait altında müəllimligə yaramaz idilər. Bunları türk məktəbi müəllimliginə hazırlamaq üçün qabaqcadan Gəncə, Şəki və sayirlərində müəllimlər kursları açılmışdır. Burada 200-dən ziyadə müəllim hazırlanmışdır. Eyni zamanda müəllimlərin miqdarını artırmaq qəsdilə darülmüəllimin məsələsinə artıq diqqət verilərək ibtida Qori darülmüəllimini Qazax şəhərinə köçürülmüş və islah edilmişdir, Gəncə darülmüəllimini milliləşdirilmişdir. Bakı darülmüəllimatı dəxi darülmüəlli-

minə mübəddəl edilərək milliləşdiriliyor. Bunlardan maəda Zaqatalada və Ağdamda bir darülmüəllimin açılması layihəsi verilmişdir.

İki darülmüəliminlərdən birisinin nə üçün Şuşada degil, Ağdamda açılmaq istənildiginin səbəblərini sordum. Nazır həzrətləri kəndi mülahizələrini izah buyurdular. Bəndə dəxi zənni acizanəmi ərzlə darülmüəlliminin Şuşada olmasının Ağdamda açılmaqdan daha əvvəli olduğu haqqında mülahizələrimi söylədim. Nazır həzrətləri darülmüəlliminin Şuşada açılmasına hüsni-təvəccöh ibraz etdilər.

*Xəlil*

***"Azərbaycan" qəzeti, №41 16 təşrin -sani***

*Səh. 4*. **Şuşadan:**

Şuşadan "K" qəzetəsinə xəbər verliyor ki, bir neçə erməni başçıları həbsdən azad edilmişrədir.

***"Azərbaycan" qəzeti, №46 21 təşrin.***

*Səh. 1.* **Maliyə nəzarətində.**

Əmr №14. Vasili Butsenko ilə Mixail Atamaşkin Ağdam xəzinəsinə gələn gündən dəftərxana qulluqçuları vəzifəsini müvəqqətən ifaya buraxılırlar.

***"Azərbaycan" qəzeti, №47 22 təşrin.***

*Səh. 1.* **Azərbaycan Milli Şurasında.**

Layihə qanuniyə məvada.

3-cü maddə: Əsasən mövcud olan 44 əzayə əlavə olunacaq ə`za bu nisbətlə cəlb olunacaq:

1. Əhaliyi-islamiyə tərəfindən – Bakı – 5
2. Göyçay uyezdi – 2 (biri şəhər, biri uyezd)
3. Cavad – 2 (biri şəhər, biri uyezd)
4. Quba – 3 (biri şəhər, 2-si uyezd)
5. Lənkəran – 2 (biri şəhər, biri uyezd)
6. Şamaxı – 2.
7. Gəncə – 3 (biri şəhər, 2-si uyezd)
8. Ərəş – 2.
9. Cavanşir – 1.
10. Zəngəzur – 2.
11. Qazax – 1.
12. Cəbrayıl – 1.

13.Nuxa – 2 (biri şəhər, biri uyezd).
14.Şuşa – 2 (biri şəhər, biri uyezd)
15.Zakatala – 2 (biri şəhər, biri uyezd)

b) Əqəliyyət təşkil edən millətlərdən: erməni əhalisi tərəfindən 8 Gəncə erməni əhali komitəsindən, 8 Şuşa erməni əhalisi komitəsindən, 5-də Bakı erməni komitəsindən.

***"Azərbaycan" qəzeti, №56 5 kanuni-əvvəl.***

*Səh. 3.* Ermənilər haqqında məqalə

**Qarabağ əhvalı**

Ağdam milli komitəsindən və Ağdamda yaşayan Şuşa şəhəri sakinləri tərəfindən Azərbaycan hökumətinə gələn teleqraflardan görünür ki, Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının dağbasar hissələrində toplanmış olan erməni üsyançıları tərəfindən müsəlman əhalisinə olmazın zülmlər ediliyor. Andronikin dəstəsi Şuşaya hücuma hazırlanıyor. Vəlyum Şuşanın 20 çağırmaq (verst) bir məsafəsində "müsəlmanlar" adlanan mövqedə vuruşma gediyor. Yuxarıda adları yazılmış qəzaların erməniləri də Andronikin dəstəsinə qoşularaq əməliyyatda iştirak ediyorlar.

Bu hadisələr əhalinin həyəcanına və işdən-gücdən qalmalarına səbəb oluyorlar. Bunun üçün Ağdam milli komitəsi teleqraflarla hökumətə müraciət edərək buna qarşı təcili tədbirlər itxazını (اتخاذ) rica edir.

***"Azərbaycan" qəzeti, №57 6 kanuni-əvvəl.***

*Səh. 2.* **Erməni xürucu.**

**Rəisi-vükəla Fətəli xan Xoyski həzrətlərinin**

**General Tomsona məktubu**

Azərbaycan Cümhuriyyəti rəisi-vükəlası Fətəli xan Xoyski həzrətləri Bakı şəhərinin hərbi qubernatoru general Tomsona bu məzmunda bir məktub göndərmişdir:

"Bununla bərabər dünən gecə aldığım iki teleqramın surətini cənablarımıza göndəriyorum. Əşbu teleqlarmlardan cənabınız, Andronik komandası altında fəaliyyətdə bulunan quldur dəstənin müsəlmanlar üzərinə açdıqları vəhşilikləri görəcəksiniz. Bu ittifaqdan istifadə edərək, ehtiramımı ərzlə qəbulini rica ediyorum"

Sədri-vükəla: Xoyski.

**Teleqramların surəti:**

Qaryagindən:

Bir neçə gündür ki, Zəngəzur qəzasında müsəlmanları Andronik dəstələri kəsməkdədirlər. İşbu kəndlər dağılıb yəğma edilmişdir: Aşdərə, Manzepit, Noğut, Sanani, Bitnazır, Qarzaniyəm, Şamilu, Raziyədam və qeyr başqa kəndləri də bu fəlakət gözləməkdədir. Bir çox ölən və yaralanan vardır. Fəlakətdən nicat tapmış əhalinin bir hissəsi İrana keçmiş, bir hissəsi isə Ərəs boyu yerlərində məskənsiz, sərgərdan dolaşıyorlar. Böylə fəlakət Cəbrayıl və Şuşa qəzasını da təhdid altına alacağı mühəqqəqdir. Andronik dəstəsi müsəlmanları qırmağı qət etmişdir. Qafqasiyadakı müttəfiqlərdən utanmayaraq quldur andronik öz fəna hərəkətlərindən əl çəkmiyor. Rica ediyoruz ki, müttəfiqlər və Azərbaycan cümhuriyyəti nümayəndələrindən mürəkkəb bir komisiyonun göndərilməsi barəsində lazımı tədbirləri itxaz edəsiniz. Komisiyon möhlətdə (مـحـلـتـد ه) erməni zülmətlərilə aşina ola biləcəkdir.

Cəbrayıl qəzası müsəlmanlarının nümayəndələri: Hüseyn Bəyov, Cəmil Vəzirov, Ağayev, Eyvazov.

Cəbrayıldan:

Zəngəzurda ermənilər əllidən ziyadə müsəlman kəndini dağıtmışlardır. Ölən və yaalananların hesabı minlər ilədir. Andronik beş minədək bir qoşun ilə üçüncü gündür ki, Zabuxu mühasirə altına almışdır. Bunun qəsdi Şuşa qalasına yol açmaqdır. Türk komandanı getmişdir. Qəza müdiri bir fəaliyyət göstərmiyor. Əhali İrana qaçıyor, təşkilat yoxdur. Rica ediyoruz ki, heç olmasa şimdi müttəfiqlərin nəzərlərini buraya cəlb edəsiniz. Beşinci dairənin bütün kəndləri yəğma edilmişdir. İkinci, üçüncü və dördüncü dairələrin də bir hissəsi dəxi yəğma edilmişdir.

Milli Şura sədri: Cəmil Sultanov.

***"Azərbaycan" qəzeti, №58. 7 kamini-əvvəl.***

*Səh. 3.* **Azərbaycan parlamanını təbrik**

Ağdam – Qarabert əhalisi əhalisini doğmuş Azərbaycan Parlamanını səmimi qəlblə təbrik etməklə öz mətnçininə etminan izhar ediyor, gələcək fəaliyyətində parlamana müvəfəqiyyət diləyir.

Müvəkkil: İbrahimov.

***"Azərbaycan" qəzeti, №61. 10 kanuni-əvvəl***

*Səh. 1.* **Teleqraf xəbərləri**

**Qarabağda**

Ağdamdan Azərbaycan hökumətinə bu ilə bir teleqraf çəkilmişdir:

İngilis və fransız heyyəti Andronik ilə məhəlli ermənilərin müsəlmanlar əleyhinə heç bir təcavüzdə bulunmuyacaqları vədinə zamin olduqdan sonra dünən Tərtərə varid olmuşdur. Dünən Şuşadan rəsmi xəbər alınmışdır ki, ermənilər Zavıx dairəsində müharibə başlıyıb bir neçə evləri yandırmışlar. Şuşa və Əsgəran ətrafında olan dağlarda 400-500 nəfərdən ibarət müsəlləh erməni dəstələri zahir olmuşlardır. Müttəfiq dövlət nümayəndələrinin və ermənilərin vədiyə vədi, məlum olduğu kimi, əhval dəxi də fənalaşmışdır. Ermənilərə məlumdur ki, Türkiyə əsgərlərinə ermənilərə güllə atmamaq əmri verilmişdir. Bu şərait ilə şübhə yoxdur ki, Şuşa asanlıq ilə ermənilərin töməsi olacaqdır. Erməni dəstələrinin Şuşa və Əsgəran yaxınlığında nümayan olmaları yolu bağlamaq arzusu ilə həll edilir. Şuşanın özündə bir çox ermənilərin əsgəri libasda zahir olmaları həyəcana bais olub silah daşımına qadir olan müsəlmanları şəhəri tərk etməgə məcbur etmişdir. Bu tövür kəskinləşmiş halət çok davam edə bilməz. Xahiş edirik ingilis və Türkiyə komandanlığı, sazişə girəsiniz. Bununla bərabər, xahiş edirik Tomsona bəyan edəsiniz ki, bu əhvalı nümayəndələri ilə deyil, ancaq onun özünün iştirakı və ciddi tədbirləri ilə xilas etmək olar.

Milli komitə üzvləri:
İ.Musayev, Əli bəy Behbudov.

***"Azərbaycan" qəzeti, №62. II kanuni-əvvəl.***

*Səh. 1.* **Qarabağ əhvalı.**

Andronik xürucu münasibətilə hökumətə zeyldəki teleqraflar çəkmişlərdir.

Cəbrayıldan:

Məlum ediyorum ki, Zəngəzur uyezdi müsəlmanları böhranlı bir hal keçirməkdədirlər. Dörd tərəfdən atəş və qılınc ilə əhatə edilmişlərdir. Andronik Zəngəzurdan və Şuşadan qoşunlarımızın getdigini eşidərək dərhal Şuşayı işğal etməgə hazırlaşmağa başlamışdır. Onun işarəsi ilə bütün Zəngəzur, Şuşa və Cəbrayıl uyezdlərinin erməniləri əldə silah olaraq xüruc ediyorlar. Onların böylə ümumi xürucunun məqsədi budur ki, Zəngəzur uyezdini müsəlmanlardan təmizləyib Ararat cümhuriyyəti

ərazisinə qoşsunlar və Andronik Şuşaya getmək yollarında mümkün olan qədər müsəlmanlardan təmizliyib qorxusuz qılsınlar. Üçüncü məntəqənin rəşidə, dilavər müsəlmanları miqdarca az olduqlarına baxmayaraq 6000 nəfərlik quldur dəstəsinin Şuşaya gedən yolunu sinələrilə qapamşılardır. Dörd gündür ki, orada şiddətli uruşma gediyor və Andronik irəli hərəkət edə bilmiyor. Amma bir-iki gündən sonra Şuşa yolunu mühafizə edən müsəlmanların gülləsi qurtarıb, qüvvələri kəsbi-zəif etdikdə iş müsif (مؤسف) bir rəng ala bilər. Uyezdin sair yerlərinin vəziyyəti isə bu qərar ilədir:

Arvad, uşaq, qoca, cavan – fərqi gözləməzdən ümum müsəlmanları tələf, mallarını qarət ediyorlar, kəndlərini yandırıyorlar. Heç yerdən müsəlmana kömək yoxdur. Əllidən ziyadə böyük, kiçik müsəlman kəndi tamamilə yandırılıb, əhalisi bilkülliyə qırılmışdır. Müsəlmanların məşhur müqəddəs ocağı olan "Pirdavdan" dəxi yandırılmışdır. Yalnız binasının qiyməti neçə milyon idi. Müsəlmanları nəhayət dərəcə hiddət və vəhşiliklə qırıyorlar. Hər gün ermənilər müsəlman köylərinə hücum ediyorlar. Şiddətli vuruşmalar oluyor. Uyezddə mütəşəkkil erməni dəstələrinin hücumuna davam edə bilmiyor. Bilatəxir qoşun göndərmək lazımdır. Bircə həftə kömək gəlməsə bütün Zəngəzur və Şuşa uyezdləri, Əsgəran müsəlmanların əlindən çıxacaqdır.

Zəngəzur əxzi-əsgər rəisi.<br>Məlik Namaz Əliyev.<br>4 dekabr, saat $18^{20}$.

Tərtərdən:

Son beş gün zərfində "Uğlad" erməniləri Qaranuş kəndi müsəlmanlarına hücum edərək 3 at və 1350 qoyunlarını aparmışlardır. Atışma nəticəsində qoyunların bir qismi saldırılmış və Cəmşid bəy Vəlibəyovun bir atı ölmüşdür. Başçılardan Mani adlı bir şəxs qətl edilmişdir. Dövlətli nam erməni kəndində 35 ev müsəlman ermənilərlə qarışıq yaşıyorlardı. Düşənbə günü Şuşadan ermənilərə bir məktub gəlmişdir. Məktubun məzmunu bizə məlum deyildir. Ancaq həman məktubu alar-almaz, ermənilər həman qonşularına hücum edərək evlərini, şeylərini, taxıllarını və heyvanlarını qarət edib Ocaqverdi Molla Qənbər oğlu, Eyvaz Novruz oğlu və Sona Şahməhəmməd qızını öldürmüşlərdir. Yerdə qalan müsəlmanlar dağlara, meşələrə dağılmış, bəziləri də yaxında olan müsəlman kəndlərinə qaçmışlardır.

Yoladağ kəndi ermənilərin bir dəstəsi Surxaylı müsəlmanlarına hücum edərək 122 baş mallarını və 45 keçilərini aparmışlardır. Bu hücumda

Kasapet ermənilərindən Makar nam birisi qətl edilmişdir. Digər bir dəstə iki dəfə Qala Şilan müsəlmanlarını 105 baş malını aparmışdır. Məhəlli-hadisədən indicə qayıtmışam. Ermənilər özlərini nəhayət dərəcə cəngcu-yanə bir surətdə apararaq böyük müşkülat ilə təhdid ediyorlar. Qəti tədbirlər görmək lazımdır. Təfsilatını məktub ilə xəbər verirəm. Əhvalat müfəssəl surətdə ingilis, fransa heyətinə xəbər verilmişdir.

Uyezd naçalniki Məlik Abbasov. 6 dekabr, saat 19[55].

(R.K: bunun ardınca Ordubadda Andronikin törətdiyi faciələrdən, bir ildən çoxdur ki, həmin məmləkətin dünyadan təcrid olunmuş şəkildə qalması təsvir olunur).

***"Azərbaycan" qəzeti, №63. 12 kanuni-əvvəl.***

*Səh. 3.* **Qəzetlərdən.**

**General Tomsonun Andronikə teleqrafı.**

"İ.R." qəzetəsi yazır ki: General Tomson Andronikə bir teleqraf göndərib qan tökməkligi tezliklə dayandırmağı tələb etmişdir. Teleqrafda deyilir ki, Andronik təcavüzündən əl çəkmədiyi təqdirdə şəxsən cavabdeh olacaqdır.

***"Azərbaycan" qəzeti, №65. 15 kanuni-əvvəl***

*Səh. 3.* **Qarabağ hadisatı.**

Hökumət Gəncədən böylə bir teleqram almışdır: "İngiltərə-Fransa heyəti müsəlman qoşunları və Andronik dəstələrini müharibəyi bitirməgə dəvət etdikdən sonra müsəlmanlar müdafiə xətlərini buraxıb getdilər.

Quldur Andronik bundan istifadə edərək Türkiyə və Qafqasiya ermənilərindən mürəkkəb dəstələrinə köylü ermənilər ilə bərabər müsəlman kəndlərinə hücum etmək əmrini verir. İşarəyə görə bütün ermənilər qalxıb yaxın müsəlman kəndləri üzərinə düşərək vəhşiyanə bir surətdə müsəlmanları kəsməgə başlamışlar. Bunlar qadınların döşlərini kəsib səbilərin ağzına verirlər. İki nəfər qadını soyundurub buraxmışlar.

Kanuni-əvvəlin 9-da 12-dən ziyadə müsəlman kəndlərini xərabə etmişlər. Hal-hazırda on nəfər müsəlman qadını ermənilərin əlində əsir-dir. Rica ediyorum ki, qoşun göndərəsiniz.

Zəngəzur qəza qayimməqamı.
Məlik Namaz Əliyev.
11 kanuni-əvvəl, saat 11[55].

**Qarabağa heyət əziməti**

Daxiliyyə naziri Qarabağa doktor Mehmandarov cənabları naminə bu məzmunda bir teleqraf göndərmişdir: “Bu gün Qarabağ və Gorusa mühəndis Rüstəm bəy Sultanovun məyətilə ( معیتیله) İngiltərə heyyəti azim olmuşdur. Bunlarla bərabər iki danə də zirehli avtomobil göndəriliyor. İngilislərin bir hissəsi mühafizədən ötəri Şuşada qalacaqdır.

Daxiliyə naziri: Cavanşir.

*“Azərbaycan” qəzeti, №67. 18 kanuni-əvvəl,*

*Səh. 3.* **Azərbaycanda Andronikin məktubu.**

“Horizon” qəzetəsində Andronikin bir məktubu dərc edilmişdir. Bu məktub Qarabağda Andronikin və daşnaqsütun firqəsinin təqib etdikləri məqsədi aydınlaşdırıldığından tərcüməsini qarelərimizə təqdim ediriz. Andronik yazıyor ki:

“Qafqasiya ermənilәri faciənak qara günlərində o zaman ki, Türkiyə ilə Ermənistan cümhuriyyəti arasında sülh əqd edildi bən özümün və qoşunumun Ermənistan daxilində yaşamamızı lüzumsuz və qeyri-mümkün ədd edərək dağlar, dərələr və biyabanlar təriqilə müttəfiq İngiltərə qoşununa qoşulmağa getdim. Bu ümidlə ki, onun köməyi ilə Türkiyə [dən] Ermənistanın son parçasını müdafiə edək. Fəqət taleim müvəffəqiyyət etmədi və Naxçıvan ətrafındakı müsadimədən sonra tarixi Qarabağ dağlarına keçdim ki, hürriyyətpərvər və qeyri müti ruhumuzu başqaların alçaq hakimiyyəti altına verməyin.

Şimdi üç aydan ziyadədir ki, Qarabağın dağlarında, dərələrindəyiz. Bənim dəstəm Qarabağa girən zaman çox ağır günlər idi. Qoşunlarım nizamsız, saldatlarım yorğun və pərişan, qaçqınlar zəif və qorxmuş idilər. Boynuma almalıyam ki, bu bədbəxtlik mənzərəsini gördükdə bütün müharibə müddətində heç bir təcavüz görməyib qurban vermiş olan yerli əhali bizə qarşı soyuqqanlılıq, rəğbətsizlik və hətta bəzən ədavət ibraz etdilər. Böylə münasibətdən dolayı qoşunum bir az da əksildi. Qaçqınlar aylar ilə açıq havada, dərələrdə ac qalıyordular. Hala da yerləşdirilməmişlərdir. Sisyan və Zəngəzur uyezdinin 8000 evdən ibarət 12-14 min qaçqını yerləşdirə bilmədi. Öylə bir təşkilat yoxmudur ki, bu bədbəxtlərə müavinət etsin?!

Zəngəzur uyezd əhalisi tərəfindən etimad və müavinət görməyərək qoşunumun çoxu Qarabağdan getdi. Bənimlə ancaq bir az saldat qaldı. Bən isəm hiç vəchlə Ermənistan cümhuriyyətinə getməməyi qərar-

laşdırdım. Bu zaman idi ki, vəziyyətin ciddiliyini hamıdan əvvəl anlamış olan Sisian nümayəndələri sentyabrın 4-də vüqu bulmuş olan mahalsyezd xahiş etdi ki, bən Sisiyanda qalıb müdafiə üçün məhəlli təşkilat yapım. O vaxt dəhşətli günlər idi. Qüvvələnmiş düşmən Batum əhdnaməsinə istinadla Sisyan və Zəngəzur mahalları əhalisindən Azərbaycana tabe olaraq silahlarını vermələrini tələb və əks surətdə ciddi tədbir itxazilə təhdid ediyordu. Bəlkə böylə təhdidlər nəhayət bir nəticə verməyəcəklərdi də. Fəqət heç ümid və istinadgahı olmayan əhali bəzi yerlərdə, məsələn, Gümrü ətrafında və Gorusda düşmənin tələbinə əməl və Azərbaycan təbəini qəbul etməgə razı oluyordu. Lakin bənim qəti müqabiləm sayəsində böylə xahişlərə əməl edilməyib Sisyan mahalı tabe olmamağa və axıradək mübarizə etməgə qərar verdi. 20 yaşından 30 yaşınadək cavanlara səfərbərlik elan edilərək dəstələr təşkil olundu və Sisyan hüdudunda səngərləri dutdular. Təhlükənin ciddiyyətini anlıyaraq Sisiandan sonra Zəngəzur və Qapan mahalları dəxi mübarizəyə qərar verərək 20 yaşından 50 yaşınadək ümum kişilər səfərbərlik halına gətirildilər. Bu surətlə Zəngəzur, Qapan və Sisian mahallarının dəstələri bənim qoşunum və Şuşa, Gəncə alayları saldatları böyük bir qüvvə təşkil etdilər. Sisian, Zəngəzur və Qapan sıxı surətdə əlaqədar olduqdan sonra türklərin təhtihakimiyyətinə düşmüş olan tarixi Qarabağı bunlar ilə birləşdirmək məsələsi qalıyordu.

Şuşa şəhəri süqutla tərksilah edilmişdisə də, ətraf kəndlər tabe olmayaraq səbirsizliklə bizim vürudumuzu gözliyorlar. Bu vəchlə bənim və saldatlarımın burada olmamız və buranın səfərbərliyi sayəsində Zəngəzur, Sisian və Qapan mahalları bu vəqtədək hələ türklərə, ya Azərbaycana tabe olmamışlardır. Halbuki Ermənistan cümhuriyyəti nəinki kömək etmək istəmiyordu, hətta bizimlə münasbətə girişmək istəmiyərək əhaliyə tövsiyə ediyordu silahlarını təslim etsinlər və qorxulu bir adam olmaq üzrə Androniki işlərindən kənar edib müsəlləh müsadiməyə səbəiyyət verməsinlər. Hər halda Qarabağ məsələsinin həllində fürsəti fövtə verməməlidir. Zəngəzur, Sisyan və Qapan məsələləri artıq həll edilmişdir. Ümüdvaram ki, Şuşa haqqındakı qərardadımıza da yaxın zamanda əməl edəyim.

Andronik.
27 noyabr 1918-ci il.

**General Tomson və Andronik**

Qarabağda "K slovo" qəzetəsinə xəbər veriyorlar ki, bu günlərdə Şuşaya ingilis heyəti gələrək orada qalmış olan 200 türk əsgərinin şəhərdən çıxması barəsində binagüzarlıq etmiş və Andronik ilə görüşmək üçün Zabıxa getmişdir. Heyət Andronikə general Tomson tərəfindən bir məktub vermişdir. Məktubda guya general Tomson bütün Qarabağın mühafizəsini Andronikə tapşırıyormuş. Bu günlərdə Andronikin öz dəstəsilə Şuşaya vürudu gözləniyormuş. Şuşa ətrafında Sokrat bəy Məlik Şahnazarova 6000 nəfərlik bir əsgər dəstəsi düzəltmiş, Qarabağda sakitlik imiş.

***"Azərbaycan" qəzeti, №68. 19 kanuni-əvvəl.***

*Səh. 1.* **Andronik nə istiyormuş?**

Daşnaqların mürəvvəc əfkarı olan "Nur orizon" qəzetəsində Andronikin əlilə yazılmış bir məktub dərc olunmuşdur. Məktubdan görünən budur ki, "çeteçi" Andronik Batum müqaviləsindən narazı qalaraq dəstəsilə Naxçıvan tərəfə gedir ki, bəlkə İngilis qoşunu ilə birləşib türk ermənilərinin imdadına çata bilsin. Burada məqsədinə nail ola bilməyib dağları aşaraq Zəngəzur mahalına keçir. Əhalinin hüsni rəğbətini qazana bilməyən "çeteçi"lər axırda oradan fərar etməyə məcbur olurlar. Xəcalətdən geri qayıda bilməyən Andronik əhalini müdafiə etmək bəhanəsi ilə orada qalıb özü kimi "çeteçi"ləri başına yığır və bunun nəticəsi olaraq "müdafiəçilik" çapqınçılığa mübəddəl olur. Yəni Sisian, Zəngəzur və Qapan mahallarındakı müsəlman kəndləri tarümar və məzlum əhalisi isə qılıncdan keçirilir. Buralar müsəlman ünsürlərindən boşaldılar. Sonra Qarabağ mahallarına hücumlar yapılacaq və Şuşa şəhəri də daxil olmaq üzrə buraların müsəlmanları qırılıb çatılacaqdır. İştə məktubun müxtəsərcə məzmunu!

Burada diqqətimizi cəlb edəcək bir məsələ vardır ki, Andronik və dəstəsi heç yerdə erməni mehmannəvazlığına rast gəlməmişlərdir. Hətta erməni cümhuriyyəti buna bədəfkar nöqteyi-nəzəri ilə baxaraq cümhuriyyət dairəsindən uzaq olmasını istəmişdir. Zəngəzur erməniləri isə Andronikə əsla məhəbbət göstərməyib, bəlkə, ona qarşı ədavət də göstərmişlər. Bunu məktubunda Andronik açıq-açığa yazır.

Lakin hiyləkar və müdəbbər Andronik, dəstəsinə "Millət müdafiəçisi" ad qoyaraq əhalini özünə cəlb ediyor və axırda da iki millətin arasına fitnəəngiz və şərarət toxumu səpib məramına nail olur. Bu günlərdə Andronikin Şuşa şəhərinə hücumu gözlənir. Əcəba, bir bu qədər kənd dağıdıb, müsəlman qanına yerikləyən Andronikin məqsədinə nail

olmuş ola? Onun məktubundan buna bir işarə görünmədisə də, lakin bu müsəlman yerlərini qılınc zoruyla boşaldıb Ararat cümhuriyyətinə mülhəq etmək və gələcəkdə barışıq konfransında bunu hökumətlərə təsdiq etdirmək niyyəti bu qarətçinin hər əmalından məlum olur.

Keçmiş əsrlərdə də Andronik məsləkli erməni avantyuristləri zühur edərdisə də, hamısının oxu daşa dəyib axırda puça çıxmışdır.

Məsələn, yüz yetmiş il bundan irəli həman Zəngəzurda Barxudar və Qarabəy adlı iki qardaş istiqlaliyyət məqsədilə Naxçıvan xanı tərəfindən göndərilmiş adamların burun və qulaqlarını kəsib xana da elani-hərb sifarişini göndərirlər. Altı gün davam etmiş müharibədən sonra bunların qoşunu şikəstlik tapır və kəsilmiş başları da Naxçıvan xanına göndərilir.

طمع کرده بودم که کرمان خورم
که ناگاه بخوردند کرمان سرم

Ermənilərdən ikinci dövlət Duması vəkili doktor Bahadurov da Dumaya bir layihə təqdim etməklə Qarabağ mahallarının bir çox yerlərini "ermənizənin" iddiası ilə Gəncə quberniyasından ayrılmasını tələb etmişdi. Vaxtilə "İrşad" qəzetəsində bu cənabın iddiaları təhriri-nüfus və etnoqrafi dəlilləri ilə bəndə tərəfindən rədd olunduğu üçün bu gün daha o məsələyə müraciətin ehtiyacı yoxdur.

Androniklər kimi "Qılınc avantyuristlər" ilə bərabər erməni əhalisi arasında "elm avantyuristləri" də az deyil. Məsələn, bir çox mövqelərin türkcə adlarını erməniləşdirmək buraların erməniləri olduğuna uydurma tarixə dəlillər yaymışlar. Əz an cümlə: "Gəncəni – Qanzax, Bərdəni – Partav, Zəngəzuru – Sakeridzur, yaxud, Saxtadzur deyə təhrir etmişlərdir. Lakin bu süni uydurmalar ilə tarix səhifələrini pərdələmək olmaz! Bu gün müsəlman ünsüründən boşaldılmış Zəngəzur mahallarının dağları, çayları təmamən türkcədir: İşıqlı, Tərpənməz, Canqurtaran, Bağlıca, Yan təpə, Üçtəpə, Şiş təpə, Daş təpə, Ölü təpə, Həkərli, Bərgüşad, Bazarçay və qeyriləri. Hətta Həkərli çayı barəsində bir zərbül-məsəl vardır ki, ermənilər də deyirlər: "Həkərli çayı peşman oldu, bir salım duz apardı".

Bu gün türk tarixinə yox, ermənilərin öz tarixinə müraciət olunarsa, oralarda müsəlmanların beş yüz, bəlkə altı yüz il bundan əqdəm yaşamaları məlum olar. Buralarda vənəkələri məbədləri vardır ki, daşlarında həkk olunmuş erməni yazılarını gizlətmək mümkün olmayacaqdır. Məsələn doqquzuncu əsrdə təmir olunmuş (ووزوتنا وه نکی) Vuzutna Vənginin . cəhətindəki daşlarda böylə yazılmışdır: "Hankı xristian bu məbədi xərabə qoya, yaxud bu yazıları silə, yaxud onun mədəniy-

yətinə tənə eyləyə, öylə şəxs Allah yanında məsuldur, hərgah böylə şəxs müsəlmanlardan olursa, Məhəmməd peyğəmbərin hüzurunda minlərcə lənətə giriftar olsun. Tarixi: 1315-də".

Bu yazı bizə göstərir ki, həman məbədin ətrafında altı yüz il bundan əqdəm erməni ilə bərabər müsəlmanlar da yaşarmış.

Bundan daha maraqlısı Tatif məbədində məhfuz bir çox islam əsərləridir. şah Abbas buranı ziyarət etdiyi əsnada məbədin bir daşında ərəbcə yazılmış xitabına deyir: "Ya Allah, bu imarətin təmirində səndən başqa ayrı bir məqsəd yoxdur". Bu gün həman məbədi zinətləndirən şeylərin arasında Şah Abbas bağışladığı bir ipək pərdə ilə bir qəndil vardır ki, imdiyə qədər orada məhfuzdur. Məbədin sandığında otuza qədər islam hökmdarlarının fərman və təliqələri vardır ki, məbədin mühafizəsi üçün erməni məliklərinə və müsəlman bəylərinə yazılmışdır. Fərmanların ən qədimi tarixi-hicriyənin 872-ci sənəsində yazılmışdır. Yəni dörd yüz ildən çoxdur ki, müsəlmanlar bu məbədi himayə etmişlər.

Səfəvilərdən başlamış Nayibüs-səltənə Abbas Mirzə dövrünə qədər tamam İran hökmdarlarının burada fərmanları mövcuddur. Hətta Qarabağın axırıncı xanı Mehdiqulu xan 1819-cu ildə Zəngəzur məlik və kətxudalarına hökm yazmışdır ki, məbədin mənfəətinə olaraq onun xüsusi yerlərindən xərac yığıb Nahrasasına (məbəd rəisinə) təhvil versinlər. Mehdiqulu xanın bu təliqəsi o vaxtkı Qafqaz canişini Yermolov əliylə təsdiq olunaraq on yeddi kənd ilə otuz min desyatın yer Tənif məbədinə verilir. Bu vaqiə göstərir ki, Zəngəzur mahalı Qarabağ xanlığının rəsmi və təbii bir hissəsi olaraq oranın erməni məlikləri və kətxudaları da Qarabağ xanının xəracgüzarı və təəbəsi ədd olunurdu ki, bunu həm rus hökuməti Yermolovun əli ilə təsdiq etmişdir.

Yevropa müharibəsi bizə sübut etdi ki, böylə məsələləri həll etmək üçün androniklərin top-tüfəng zoruna daha ehtiyac qalmamışdır. Var-sunlar daşnaklar gürcülərin Tiflisə, yaxud bir ayrı mərkəzə, bizim kimi onlar da tarixi və etnoqrafi sübutlarını göstərsinlər, ta ki, kimin haqlı ol-ması da İngilis, Firəng, Amrika nümayəndələrinə məlum edilsin. Qafqaz konfransında kim haq qazanarsa nümayəndə həzrətləri də Yevropa konfransında şəksiz haqlılara tərəfdar olacaqdır:

آنرا که حساب پاکست
ازمحاسبه چه باکست؟

İştə daşnaklar əllərindən əsləhələrini buraxıb hesab meydanına buyursunlar, haqlarını desinlər və sairlərin də haqlarını dinləsinlər. Yəqin ki, onda məsələ də bir minval ilə həll olunub gedər. yoxsa, əsləhələrini tərk etməyib yerimizə-yurdumuza zor ilə sahib olmaq istərlərsə, bunun

aqibətində zərərdidə genə də özləri olacağını heç vaxt xatirlərindən çıxartmayıb iki qomşu (qonşu) milləti nahaq yerə təkrar-təkrar fəlakətlərə düçar etməsinlər.

*Fərhad Ağazadə*

*Səh. 3.* **Qarabağ əhvalı.**

Cəbrayıldan Bakıya Daxiliyə Nazirinə teleqraf edirlər: "Ermənilər İngiltərə-Fransız heyətinin müsəlmanlar əleyhinə düşmənanə hərəkətləri qət etmək təklifinə qulaq asmayıb Zəngəzur və Cəbrayıl uyezdlərində müsəlman kəndlərinə hücum etmədədirlər. Dünən Əriş kəndinə hücum edib qoyun sürülərini aparmaqla əhalini atəşə tutmuşlardır. Köməksiz qalan müsəlmanları mühafizə etməkdən ötəri qoşun göndərilməsi haqqında binagüzarlıqda bulunmanızı xahiş ediyorum.

***"Azərbaycan" qəzeti, №70. 22 kanuni-əvvəl***

*Səh. 1.* **Azərbaycan məclisi-məbusanında**

Dördüncü fövqəladə iclas.

Qarabağ əhvalı haqqında

Cümə günü kanuni-əvvəlin 20-də Azərbaycan Məclisi Məbusanının fövqəladə iclası dəvət edilmişdi. Doktor Ağayev həzrətləri saat bir tamamda iclası şu müxtəsər nitqilə açdılar:

Möhtərəm Parlaman əzası!

Bu gün Parlamanın fövqəladə iclası dəvət edilməsinə iki fövqəladə hadisə səbəb olmuşdur. Bu iki əsfnak (اسفناك) məsələ yekdigərilə o qədər mərbut və siği (صيقى) əlaqədardır ki, bunları biri-birindən ayırmaq əsla qayil degildir. Bunlardan birisi neçə gün əvvəl vaqe olmuşdur. O biri isə bir neçə müddət bundan qabaq başlanıb bu vaxtadək də davam etmədədir. Hamınıza məlumdur ki, iki həmsayəmiz olan erməni və gürcü millətləri arasında əlaqə pozulub, hətta müsadiməyə müncər olmuşdur. Rəsmi surətdə elani-hərb edilməmişsə də müharibə qeyri-rəsmi bir surətdə başlanmışdır. Yenə də qan çaylar kimi axıyor, yenə köylər yanıyor, şəhərlər dağılıyor, yenə toplar partlıyor, yüzlərcə adam top və metralyuz (مترالیوز) qurbanı oluyorlar. Guya beş sənəlik müharibə, vəhşiləri doyurmamış, guya beş yillik vuruşma, bayquşları qane etməmişdir. Biz müsəlman nümayəndə və firqələri hələ Tiflisdəikən seyimdə demişik ki, qomşularımızla sülh və müsalimətlə yaşamaq istiyoruz. Bunu yalnız quru sözlə deməyib felən hərəkətimizlə də isbat etmişiz. Gürcü qonşularımız da həmin o fikirdə idilər və böylə də siyasət yürütməgə çalışıyordular.

Lakin üçüncün qonşumuz olan ermənilərdən bəzi məsuliyyətsiz dəstələr vəhşiliklərini yürütərək bizim və gürcü qonşularımızın hüququna təcavüz ediyorlar. Məsələn, Gəncənin üç qəzasında: Şuşa, Cəbrayıl və Zəngəzur mahallarında və Tiflisin Sənayin (سنا ئين) tərəfində toplar patlıyor metralyüzlər qurşunu yağıyor. Həmin bu iki məsələdir ki, bizi bu gün yığışmaya vadar etmişdir. Bu münasibətlə əvvəl Qarabağ məbutları və daha sonra sosialistlər fraksiyası hökumətə müraciətlə böylə istizah vermişlərdir:

Bu axır vaxtlarda varid olan xəbərlərə görə Andronik təhti-komandasındakı qoşun ilə Azərbaycan cümhuriyyətinin hüdudunu keçib Zəngəzur, Şuşa və Cəbrayıl qəzalarında bir çox kəndləri xarab edib, köməksiz xalqın bəzən qırıb, bəzən də səhralara salıyor. Bu əhvalat hökumətə məlumdurmu? Əgər məlum isə nə binadüzarlıq olunubdur.

Bə`d məsələnin təcili surətdə müzakirə edilməsini tələb ediyor. Hökumət tərəfindən rəisi – vükəla Fətəli xan Xoyski həzrətləri izahat verərək deyirlər ki, Zəngəzur əhvalatı tazə bir şey degildir. Bu çoxdan başlanmış bir işdir. Burada əgləşən məbutlara məlumdur ki, bir para ermənilər tərəfindən Qarabağ haqqında bir məsələ qaldırılmışdı. Hələ iyul ayında Andronik başına bir dəstə çeteçi yığaraq İrəvan quberniyasında Gəncə quberniyası hüduduna keçdi (Burasını ərz etməliyəm ki, Andronik Türkiyə təəbəsidir).

O vaxt Azərbaycan hökuməti hələ Gəncədə ikən erməni hökumətinə müraciətlə istizah etmişdi ki, Andronik sizin tərəfinizdənmi iş görür, yoxsa, bu hərəkətlər onun şəxsi təşəbbüsüdür? Onun qoşunu erməni hökumətinə tabedirmi, yoxsa, bu hərəkətləri adi bir üsyan və xüsusi təşəbbüsdür? Erməni hökuməti bizə cavab verdi ki, Andronikin Ermənistan cümhuriyyətilə heç bir əlaqəsi yoxdur, özü də adi bir asidir. Erməni hökuməti özü də onun dəfi və üsyanın yatırılmasını istiyor, fəqət gücü yoxdur, bir iş görə bilmir. Sizə məlumdur ki, Andronik iyul ayında Zəngəzur mahalında böyük fənalıqlar icra edərək bir çox köyləri dağıtdı və nəhayət, Şuşa qəzasına keçərək Əsgəran yolunu bağladı. O zaman Andronik çeteçiləri böyük fəlakətlər çıxarıyorlardı, fəqət Azərbaycan hökumətinin bütün zehni və əsgəri qüvvəsi tamamilə Bakı məsələsinə münhəsir idi. Ona görə də qəti bir iş görə bilməyib ancaq Gəncədən iki dəfə qarışıq erməni-müsəlman deliqasiyasını göndərdi. Lakin bundan da bir şey çıxmadı. Andronik öz əməlində davam ediyordu. Sentyabr ayında Bakı alındıqdan sonra hökumət buraya köçdü və dərhal bu məsələyə diqqət verərək özünə borc bildi ki, Andronik məsələsinə bir əncam çəksin. Ona görə də çeteçilər müqabilinə bir dəstə əsgəri qüvvə göndərdi.

Qoşunumuz müharibə nəticəsində Androniki Əsgərandan çıxarıb Şuşa uyezdindən tamamilə və Zəngəzur mahalının çox yerindən qovdu. Andronik Gorusa qaçdı. Burada demək istəmədiyim bəzi səbəblərə görə qoşunumuz bundan sonra irəli yürüşünü artıq davam etdirə bilməzdi. Bu iş oktyabr ayında idi. O zaman sakitlik hökmfərma oldu. Andronik Gorusda idisə də heç bir hərəkətdə bulunmuyordu. Hətta bir xəbər varid oldu ki, sülh və asayiş artıq pozulmiyor.

Noyabrın ortalarında işlər tamamilə dəyişdi və müttəfiqlərin təklifinə görə türk əsgərləri Azərbaycanın hər yerindən çıxıb getdilər. Övza dəgişib əhval qeyri-müəyyən bir şəkl aldı. Noyabrın 20-dən sonra Andronik yenə baş qaldırıb ayın 25-dən etibarən fəlakətlər çıxarmağa başladı. Böyük fənalıqlar əmələ gəldi. Bu xüsusda hökumətə bir çox teleqraflar gəlmişdir ki, vaxtilə qəzetələrdə yazılmış olduğundan dübarə oxumağa hacət yoxdur. Hamınıza məlumdur ki, Andronik çeteçilərinin əlilə Zəngəzur mahalında nə qədər müsəlman köyləri dağıdılmış, yandırılmışdır. Əhali nə qədər zərər və xəsarətə düçar olmuşdur. Şübhəsizdir ki, hökumət bu işlərə laqeyd baxa bilməzdi. Bəna əleyh biz öz tərəfimizdən lazım və mümkün olan qədər çalışıb tədbirlər gördük, onların müqabilinə əsgəri qüvvə göndərilməsi barəsində teleqrafa binagüzarlıq etdik. Eyni zamanda özümə borc bildim müttəfiqlər nümayəndəsi general Tomsona məlumat verəm. Çünki o bana da deyib, qəzetələrdə də yazılmışdı ki, müttəfiqlərin məqsədi Qafqasiyada sülh və müsaliməti davam etdirməkdir. Bəna əleyh həman bana gələn teleqrafların surətini bir məktub ilə bərabər general Tomsona göndərdim. Tomson dərhal bəzi tədbirlər görməgi lazım bildi. Bən general Tomsona məktubu ancaq xəbərdar kimi yazmışdım. Daha yazmamışdım ki, təvəqqə edirəm bizə kömək edəsən. O özü lazım bildi ki, Qarabağa bir heyət göndərsin ki, onun məktubunu Andronikə yetirsin. Heyət ingilis, türk və erməni nümayəndələrindən ibarət idi. Bundan əlavə, Tomson erməni başçılarına da bir çox teleqraflar çəkdi.

Noyabrın 27-də deleqasiya Şuşaya və Zəngəzura əzimət etdi. Bir neçə gün Şuşada qalıb heyəti-ümum qəza əhalisinə əmnü asayişlə yaşamalarını təkliflə xəbər verdi ki, ingilislər və onların müttəfiqləri heç vaxt xəta və iğtişaşa razı olmayacaqlar. Bir neçə gün Şuşada qaldıqdan sonra diliqa heyyəti Zabux deyilən yerə gedib ki, həman yerdə müharibə oluyordu. İngiltərə nümayəndəsi Andronikin yanına gedib məktubu vermiş və bildirmişdir ki, asayiş bərpa edilməsə bütün məsuliyyət onun öhdəsinə düşəcəkdir. Bundan əlavə sair adamlara da teleqraf çəkmişdi. Çünki o zaman ermənilər çox yerdə baş qaldırıb. Gəncə, Qazax, Cavanşir

və Cəbrayıl qəzalarında quldur dəstələri kimi iş görüyorlardı. Andronikə yazılan məktubu bən görməmişəm. amma özlərinin dediklərinə görə həman teleqraflar məzmununda imiş (teleqraflar oxuyur). Sonra Tomson Şuşadakı diliqalara teleqraf çəkərək Tərtər, Qazax və sair yerlərə də getmələrini tövsiyə etmiş və filhəqiqə onlar da Şuşadan sonra oralara gəlmişdilər. Bu işdən sonra bir neçə gün tam sakitlik oldu. Qəzalardan şikayət xəbəri gəlmədi. Fəqət üç-dörd gün sonra yenə teleqraf-teleqraf üstündən yağmağa başladı ki, Andronik öz dəstələrilə hərəkata davam ediyorlar. Çünki müsəlmanlar İngilis heyətinə inanıb səngərlərindən çıxmışlar və ermənilər həman saət fürsətdən istifadə edərək başlamışlar kəndləri yandırıb, arvad-uşaqları dağlara, meşələrə salmağa. Bu xəbər yetişən kimi biz əlimizdə olan hər növ tədbirləri gördük və dekabrın 3-də Tomsona böylə bir məktub yazdım: (oxuyur). Aldığımız teleqrafların da surətini göndərdim. Biz əsgəri qüvvə göndərməklə bərabər Tomsondan da xahiş etdik ki, tədbir görsün. Tomson Zəngəzura yeni bir heyət göndərməgi lazım bilib xəbər verdi ki, bu səfər heyət əsgəri surətdə olmalıdır. Bu heyət 15-ə qədər ingilis əsgəri və zabiti, 2 zirehli avtomobil və bir nəfər bizim nümayəndəmizdən ibarət idi. Bunlar Şuşaya getmişdilər. Fəqət heyət hələ qayıtmamış və nə etdikləri barəsində bir xəbər yoxdur. Şuşadan o tərəfə getmələri haqqında məlumatımız yoxdur.

Heyət gəldikdə, yaxud, cavab alındıqda sizə bəyanat verməgə özümü borclu bilirəm. Qəzetələrdə bir xəbər vardı ki, guya general Tomson tərəfindən ol dəfə Andronikə məktub göndərildikdə Qarabağın omur idarəsi guya Andronikə tapşırılmış imiş. Şübhəsizdir ki, böylə olseydi hökumətimizin kökünə əl atmış olardılar. Əgər böylə olsaydı Azərbaycanın hüququna təcavüz edilməmiş olurdu. Halbuki biz var qüvvəmizlə Azərbaycanın hüququnu müdafiə edəcək və heç kəsə yol verməyəcəgiz ki, kənardan gəlib Azərbaycanın hüququna təcavüz etsinlər (Gurultulu alqışlar).

Aşkardır hökumət laqeyd baxa bilməzdi ki, başqaları gəlib Azərbaycanda hakim olsun. Bu xəbərləri eşitdikdə bən təhqiqata başladım. Bən əmin idim ki, mədəni hökumət hüququmuzu təpikləyib əlimizdən almazlar. Zənnim doğru çıxdı. Buna bir çox sübutlarım da var. Əmin olunuz ki, Tomson tərəfindən Andronikə qəzetlərdə deyilən kimi məktub yazılmamışdır. Bən heyət gedən zaman Tomsona dedim ki, Qafqasiya çox heyətlər görmüşdür. Söz ilə degil, başqa yol ilə icrayi-təsir etmək lazımdır.

Sonra yenə alınan teleqramları oxuyaraq nitqinə davamla rəisi-vükəla həzrətləri deyirlər ki, bu surətlə müttəfiqlər ilə lazım olan tədbirləri

görmüşəm. Bunlardan başqa öhdəmizdə xüsusi vəzifələrimiz də vardır: əsgəri qüvvəmizin silah gücilə hərəkət etməsi haqqında əmr verilmişdir. Bu xüsusda müfəssəl məlumat vermək istəmirəm. Andronik və çetesinin məqsədi Zəngəzur və Şuşa qəzalarını Azərbaycandan ayırıb Ermənistana mülhəq etməkdir. Bunların müqabilinə əsgəri qüvvə göndərildikdə bir qədər sakit olub sonra yenə fürsət tapan kimi işə başlıyorlar. Azərbaycan keçmişdə və hazırda heç vaxt ixtilaflı məsələləri silah güciylə həll etmək istəməmişdir. Hərgah böylə məsələlərin həlli üçün silaha sarılmaq lazım gəlmişsə məcbur olmuşuq hər bir ixtilaflı məsələyi sülh ilə həll etməyə çalışaraq qonşularımıza da böylə təklif etmişik. Azərbaycan hökuməti erməni, müsəlman və sairənin qanı tökülməmək üçün var qüvvəsilə çalışmışdır. Yenə bu uğurda çalışmalıyız. Əgər silaha sarılmaq məcburiyyətində qalsaq, hamı bilməlidir ki, bizi vadar və məcbur etmişlərdir. Hökumət namından deyirəm ki, biz bu məsələnin qansız, zərərsiz həllinə çalışıyor və çalışacağız. Əks surətdə hökumət silah qüvvəsilə Azərbaycan Cümhuriyyətini hər bir təcavüzdən mühafizə edəcəkdir (mərkəzdən və soldan alqış).

*(ardı var).*

*Səh. 2.* **Qarabağ əhvalı ətrafında.**

General Tomsondan Azərbaycan rəisi-vükəlası Fətəli xan Xoyski həzrətinə 20 kanuni-əvvəldə böylə bir məktub gəlmişdi:

Rəisi-vükəla Fətəli xan Xoyskiyə

Dövlətli əfəndim!

"Znamya truda" qəzetəsinin 17 kanuni-əvvəl tarixli nömrəsindəki – ceneral Tomson tərəfindən Qarabağın mühafizəsi ceneral Andronikə verildigi xəbəri həqiqətə müvafiq degil və əsasən xalidir.

Bakuda müttəfiqlər qoşunu komandanı naminə General Tomson.

***"Azərbaycan" qəzeti, №71. 23 kanuni-əvvəl 1918.***

*Səh. 1.* **Azərbaycan məclisi-məbusanında.**

IV fövqəladə iclası (ardı).

Əhməd Cövdət – Əfəndilər! Bugünkü iclasın təcili surətdə çağrılmasına səbəb iki məsələ haqqında məclisi-məbusan sədrinə sosialistlər namından verilmiş məktub olmuşdur. Bu iki məsələnin həlli bütün Zaqafqaziya zəhmətkeşləri üçün pək mühümdür. Biri Qarabağ hadisəsi, digəri gürcü-erməni müsadiməsidir. Qarabağ məsələsi mahiyyətcə ikinci məsələ ilə əlaqədar və şəkil cəhətindən bərabərdir. Məlumdur ki, Qarabağda üç-dörd aydır sakitlik yoxdur. Andronik başına bir dəstə yığıb kəndləri dağıdaraq insanları məhv ediyor. Hökumət qoşunu və məhəlli əhali müqabilə

və müqavimət etdikdə çəkilməgə məcbur olmaqla bərabər sonra yenə öz işinə başlıyor. Bu işlər nə üçün oluyorlar? Bu dəstənin başında duran kimdir və məqsədi nədir?

Andronik məşhurdur. Türkiyədə çetebaşı idi. Osmanlıda uzun müddət müharibə edərək müsəlman və ermənilərin qanları tökülməsinə səbəb olmuşdur. Avropa müharibəsində Qafqasiya cəbhəsində Türkiyə əleyhinə dava ediyordu. Hərb zamanı onun hərəkəti müharibə tərzində olmuyub, zülmü aləmə aşkar olmuşdur. Sonra Andronik İrəvan, Naxçıvan və Ordubad mahallarına və oradan İrana keçmişdir. Yolda müsəlman kəndlərini dağıdıb xarabazara döndərmişdir. Hər tərəfdən qovulduqdan sonra da Qarabağa gəlmişdir. Onun dedigi nədir? deyir ki, bən buranı Ermənistana tabe etmək istiyorum. Rəisi-vükəlanın buyurduğu kimi, Andronikin kim olduğu erməni hökumətindən soruldduqda, Ermənistan hökuməti Androniklə əlaqədar olmadığını, onu quldur kimi tanıdığını bəyanla, onunla necə bilirsiniz rəftar ediniz, – deyə, cavab veriyor. Andronik bura erməniləri ilə əkaqədar olmadığından yeni tökülən qanlara heyfi gəlmiyor. Dağılan xanimanlara yürəgi yanmuyor. Bən deyərəm ki, Andronik insaniyət düşməni olmaqla bərabər, yalnız müsəlman kəndləri degil, erməni kəndlərinin də dağılmasına bais oluyor. Burada gizli bir məsələ vardır: – Qarabağ mahalının Azərbaycan əlində qalmasına mane olaraq firqəsi orayı Ermənistana qatışdırmaq. Bu fikir ermənilərin baş firqəsi olan “Daşnaqsütun”un məramıdır. Bu firqə hətta Petroqradda Qafqasiyanın təqsimi məsələsi həll olunarkən bir layihə təqdim, Zəngəzurun Ermənistana ilhaqını tələb etmişdi. Bu məsələyə Tiflisdə dubarə baxılıb, nahiyə mərkəzi əmələ və əsgər şurası tərəfindən rədd edildi. O vaxt torpaq və hüdud məsələlərinin həlli üçün bir komisiya təşkil edilmişdi. O zaman millətlər ayrılmamış olduqlarından məsələ də ümumi idi. Şimdi isə burası bir dövlət məsələsi olmuşdur. Hərçənd erməni hökuməti bizə deyor Qarabağla işimiz yoxdur, Qarabağı istəmirik və Andronik ilə əlaqəmiz yoxdur, lakin işin mahiyyəti bundadır.

Əfəndilər, bizim firqəmiz və ümum sosyalistlər camaatın və bütün kəndlilərin mənafeini güdüyorlar. Biz hər vəqt böylə məsələlərin silah gücüylə degil, sülh ilə həll olunmasına çalışmışıq. Bu məsələlər güzəşt və hökm vasitəsilə həll edilməlidirlər. Bu gün bunca qurban verilən cahan müharibəsi bitdi. Lakin ixtilaflı məsələlər həll olunmadılar. Bunların həlli üçün hələ ümumi konfrans vaqe olacaqdır. Bu gün hər tərəf məsələnin silah gücüylə həllini zərərli görüyor.

Hərgah Ermənistan ilə Azərbaycan, ya Gürcüstan arasında müharibə vüqu bulsa, bu millətlər məhv olarlar. Bu hərb-hərb degildir.

Çünki müharibə edən böyük dövlətlər hərb qanununu riayə ediyorlar. Likən Qafqasiyada müharibə millətləri zəhərləyib, olmazın fəlakətlərə düçar ediyor. Qafqasiya məsələsi rəsmi müharibəyə bənzəməz. Hazırda Qarabağda dava oluyor. Ermənilər müsəlmanlar ilə uruşurlar. Biz böylə müamilənin bitirilməsini tələb ediyoruz. Bizim fikrimizcə, məsələ sülh ilə həll olunub orada yaşıyan millətlər hüsni-idarə edilməlidir. Gərək erməni və gərəksə müsəlman üçün Ermənistandamı, ya Azərbaycandamı yaşamağın heç fərqi yoxdur. Əlbəttə, bir millətdən ötəri öz iradəsilə yaşamaq daha yaxşıdır, fəqət həyat məsələsi gəldikdə böylə fikirlərdən əl çəkməlidir. Qarabağda yalnız müsəlmanlar degil, ermənilər də zərər görüyorlar. Bu gün bir müsəlman kəndi, sabah bir erməni kəndi dağılıyor. Bunlarda yaşayanlar həp insanlardır. Hər iki tərəf zərər çəkib tələfat veriyor. Bizim təklifimiz budur ki, bu məsələ silah gücüylə degil, sülh ilə həll edilməlidir. Fəqət, əfəndilər, Andronikə bir quldur kimi baxmaq olmaz. Onun müəyyən bir məqsədi var – erməni ünsürünü Azərbaycandan ayırıb Ermənistana tabe etmək.

Lakin bu surətdə də məsələyi sülh təriqilə həll etmək olardı. Amma o cür ki, Andronik başlamışdır, böylə olmaz. Rəisi-vükəla buyurdu ki, deleqasiya göndərilməsindən bir fayda çıxmadı. Fəqət zənnimizcə bəzən ziyadə səylə fayda hasil oluyor: Madam ki, erməni camaatının burada razılığı yoxdur, deməli, heyyəti-mürəxxisə göndərilməsindən bir nəticə çıxar. Bir də vaxtilə Andronik İngilis xidmətində idi, onlardan pul alıyordu. Bu surətlə ingilizlər vasitəsilə Andronikə icrayi – təsir etmək olar. Onu Zəngəzur mahalından çıxarmaq lazımdır. Əks surətdə nə müsəlmanlar rahat ola biləcəklərdir, nə ermənilər. Lakin, əfəndilər, biz bir böylə nümayəndələr göndərmək tərəfdarı olmaqla bərabər istəriz ki, bu məsələnin sülh ilə həlli haqqında ermənilər dəxi təşəbbüsatda bulunmuş olsunlar. Ancaq biz buna tərəfdar ikən Qarabağdakı tufana, evlərin dağılmasına ailələrin kəsilməsinə göz yörtüb duramayız. Qarabağda və sair yerlərdə erməni və müsəlman camaatının müdafiə və mühafizəsi üçün hər vəqt hazır qüvvəmiz olmalıdır (alqışlar). Oraya iki danə ingiliz zirehli avtomobili göndərilməsi azdır. Bir də ingiliz qüvvəsinin getməsini biz istəməzdik. Biz istəyirik ki, oraya Azərbaycan qüvvəsi göndərilsin (alqışlar). Oraya gedən qüvvə camaatın öz içindən çıxmış olmalıdır ki, camaat da bilsin ki, gələn qüvvə onun hüququnu müdafiə edəcəkdir. Biz nə qədər hərb tərəfdarı olmasaq da bu vəsf Qarabağda qüvveyi-cəbriyyə icrasını da rədd etməyib bilaəks istiyoruz.

Sonra Mahmudov Mustafa bəy səs alaraq deyir:

Möhtərəm məbuslar!

Qarabağ məsələsi haqqında o ki, lazım idi söylədilər. Bu məsələdə sizin fikrinizi mühüm bir nöqtəyə cəlb ediyorum: Rəisi-vükəlanın və natiqlərin nitqlərindən bu anlaşıldı ki, guya Andronik ilə erməni hökuməti arasında bir əlaqə yoxmuş. Andronik Türkiyə təəbəsi olub sənəti çete düzəldərək mubarizə etmək imiş. Pəs böylə olanda o kimdir? (soldan daşnaq). Bu bir quldur, bir asi imiş. Böylə isə onun dutulub yöldürülməsi lazımdır. Likən böylə bir adamla müttəfiqlər nümayəndəsi arasında irsal-mərsul varmış və Qarabağ ətrafının mühafizəsi ona tapşırılmış imiş.

Sədr – Rəisi-vükəla o məzmunda irsal olmadığını bəyan etdi.

Mahmudov (nitqinə davamla) – çox gözəl! Arzu olunardı ki, böylə irsal-mərsul olmasın. Böylə isə bu məsələ barəsində “Musavat” firqəsi parlamana boylə bir formilə təklif ediyor (oxuyur).

Vinoqradov – Bu gün bən iki pək ağır məsələ münasibətilə danışıyorum. Əvvəla, insan qanı axıyor bu qanlı qətala xitam verməlidir. Biri də budur ki, biz rus nümayəndələri burada nə olduğunu, nə danışıldığını anlamırız. Fəqət hiss ediyoruz ki, müdhiş bir vaqiə var, qardaş qanı axıdılıyor. Biz təvəqqə ediyoruz, yalvarıyoruz, qışqırıyoruz: bəsdir ədavət, bəsdir qan axıdılması, yetər artıq! Bizə artıq qan tömək lazım deyildir. Biz çox məmnun oluyor, təbrik ediyoruz ki, nəhayət, parlaman bu məsələyi açdı. Ciddən əzm ediniz. Lazım gələrsə, rus nümayəndəsi olan bu xırda bir dəstə dəxi bu məsələnin sülh təriqilə həlli üçün sizinlə gedəcəkdir. Gediniz, onlara deyiniz: bəsdir bu müqəddəs qanı axıtdınız! Hər bir məsələyi sülh ilə həll etmək olar. Bizim bu xırda dəstəmiz lazım olarsa, hazırda sizinlə gedib desin:

Bəsdir olan! Aralanın! (Alqışlar).

Şeyxülislamov – Möhtərəm Məclisi-məbusan əzası! Sosialist yoldaşlarım öhdəmə ağır bir vəzifə atmışlardır. Bu vəzifə bir milləti töhmətləndirib, digərini müdafiədən ibarət olmayıb, həqiqətin ayaqlar altına atıldığını və kimlər tərəfindən icra edildiyini aydın göstərməkdir. Qafqasiya millətləri Rusiya inqilabından sonra öz muxtariyyətlərini əllərinə aldıqda bir yerə toplanaraq öz müqəddəratlarını qüvvətli bir əsas üzərinə qurmalı idilər. Fəqət böylə olmadı. Qafqasiya millətləri arasında milli təəssüb başını qaldırdı. Yenə qanlar çay kimi axıdıldı. Biz sosialistlər bu qiyaməti qoparanlar əleyhinə protesto elan ediyoruz. Əgər bu fəlakətlərin qabağı alınmazsa Qafqasiyamız Balkan yarımadası kibi qan dəryasına dönə bilər. Görünür ki, burada xırda millətlər cahangirlik məqsədi təqib ediyorlar. Necə ki, yoldaşım Əhməd Cövdət də dedi, burada adi müharibə yoxdur. Yekdigərini anlamamazlıq müşahidə olunur. Rəisi-vükəla burada deyir ki, hökumət çalışıyor. Amma biz bunu qəbul etmiyəcəgiz. Çünki çalışıl-

mış olseydi qətala xitam verilərdi. Əsl məsələ hüdud məsələsidir. Qanlar bunun üçün axıdılıyor. Hökumət rəisi deyir ki, biz Andronikin erməni hökumətilə heç bir əlaqəsi olmadığı haqqında məlumat aldıq. Lakin bən bu fikrə iştirak edəməm. zira dağlar başında yaşayan xüsusi dəstələrin biri buraya dava edib qan tökmələrinin özü-özündən vücuda gəlməsinə inanılmaz. Məlum oluyor ki, bu hərəkətin hazırlanmış bir layihəsi vardır ki, Sinayin dağlarından Şuşa dağlarınadək toplar guruluyor, qanlar sel kibi axıyor. Bu layihə ermənilər içində böyük mövqe tutan "Daşnaqsütun" firqəsi tərəfindən hazırlanmışdır. Burası Tiflis demokrası müşavirəsində də aydın oldu. Burada məzkur firqənin sərhəd proqramı göstərildi, baxıldı, qəbula keçmədi. o zaman daşnak nümayəndəsi Qarçiyan bu proqram qəbul edilməsə bir daha müşavirəyə iştirak etməyəcəklərini söylədi. Şimdi Azərbaycan və Sinayin dağlarında tökülən qanlar həman bunun nəticəsidir. İnsaniyyət nöqteyi-nəzərindən "daşnaklar"ın bu proqramı qeyri-məğbul bir şeydir. Biz dəxi heç vəqt razı olmarız ki, bu proqram üzərinə Azərbaycan ərazisi Ermənistana verilsin. Zənnimizcə bu qanların günahı tamamilə milli firqələrin, xüsusən özünə sosialist adı verən firqələrin ümumdemokratiya hüzurunda cavabdehdirlər. Biz çalışmalıyız ki, sərhəd məsələsi qan tökülmədən sülh təriqilə həll edilsin. Bu yolda işləməgi gələcək hökumətdən də tələb edəcəgiz. Bu qiyaməti qoparan, ümumqafqasiya asayişini pozub dağları al qana boyayan ancaq "daşnaksütun" firqəsidir. Məültəəssüf burada daşnak yoxdur ki, sözümü açıq onun yüzinə deyim. Azərbaycan hökuməti ermənilər ilə əlaqə bağlamalı, bunun üçün Ermənistana səfir təyin etməli və çalışmalıdır ki, buraya da erməni səfiri təyin edilsin.

Biz məsləkcə müharibəyə zidd olmaqla bərabər, rəsmi davaya şükr ediriz. Çünki orada dinc əhalinin çoxunu mühafizəedici qanunlar var. Burada isə müharibə degil, qətli-am olaraq qoca qarılar, uşaqlar qırılıyorlar. Dinc əhalinin xanimanları dağılıyor. Özləri səfil, sərgərdan çöllərdə qalıyorlar. Bizim parlamana qəti təklifimiz budur ki, hökumət Ermənistan ilə münasibətini aydınlaşdırıb bu məsələyi həll etsin. Ümidvarız ki, yaxın zamanda Qafqasiya millətlərinin konqresi dəvət edilərək millətlər əlaqəsi sazlaşar və bir "konfederasiya" (kökuməti-müştərək) vücuda gətirilər. Böylə olursa nahaq qan tökülməz. Bunu da xahiş edirəm ki, kənardan qüvvə almağa çalışılmasın.

Qarabəyli Qarabəy – Möhtərəm məbuslar! Rəisi-vükəlanın bəyanatından anlaşıyor ki, hökumətimiz lazım gələn tədbirləri görmüşdür. Biz buna inanmalıyız ki, hökumət bu işlərə etidal dəmlə baxa bilməzdi. Fəqət Rəisi-vükəla deyir ki, "əlimizdə olan qüvvə ilə nə qədər mümkündür

çalışdıq və çalışacağız". Doğrudan da, əllərində nə qədər qüvvələri varsa çalışıblar. Likən bununla bərabər Qarabağda Andronik dəstəsi tərəfindən müsəlman kəndləri dağıdılmaqda, evlər, xanimanlar bərbad edilməkdədir. Arvad-uşaq dağlara, meşələrə qaçıyor. Rəisi-vükəla bu işlərin bir daha olmayacağına təminat vermədi, verə də bilməzdi. Biz də bundan artıq tələb edə bilməriz. Çünki bir adam, bir hökumət ancaq əlində olan qüvvəsi qədər iş görə bilər. Böylə qüvvənin olmadığını bilməklə bərabər bən vətənimi də çox istiyorum, millətini də çox seviyorum. Vətənimin bir qarış torpağının ermənilərə verilməsini istəmiyoram. Gördünüz ki, Qarabağa ingiliz heyəti-mürəxisəsi göndərilməsindən bir şey çıxmadı. Deməli, bizim öz qüvvəmiz olmalıdır. Valiniz də olan qüvvənin həpsini toplamalıdır ki, bu hərəkətlərin qabağını öz qüvvəmizlə alalım. Hökumətə deməliyiz ki, hazırda onun əlində bir qüvvə olmalı idi. Gərək bu vəqtədək bir tədarük görülmüş oleydi. Görülməmişə barı bundan sonra tədbirlər görməlidir. Rəisi-vükəla verdigi bəyanata qarşı razılığımızı bəyan etməklə bərabər parlamanımız hökumətdən tələb etməlidir ki, hökumət qüvvə düzəltsin ki, Andronik və onun kibilər tərəfindən baş göstərən hərəkətlərin qabağı alına bilsin. Böylə hərəkətlərin önü indidən alınmazsa, mümkündür ki, "daşnaqsütun" proqramının tələb etdigi çay hüdudilə də qənaətlənməyərək gələcəkdə bəriyə də atlasınlar. Sonra gəlib Gəncəyi də almaq istəsinlər ki, o surətdə artıq istiqlaliyyətimizdən bir əsər qalmaz. Benaəleyh bu uğurda imdidən qəti surətdə hazırlıqlar görülməlidir. (sağdan və mərkəzdən alqış).

*(bitmədi)*

***"Azərbaycan" qəzeti, №72 24 kanuni-əvvəl***

Qismi-rəsmi

Məclisi-məbusan rəisi həzrətlərinin əmri

№17.

Şuşa şəhəri əhali Camal Paşazadə həmin 1334 sənəsi kanuni-əvvəlin 18-ci günündən etibarən Məclisi-məbusan idarəsi müqid dəftərdarlığına təyin ediliyor.

Azərbaycan Məclisi-məbusanında

Dördüncü fövqəladə iclas.

(Keçən nömrələrdən mabəd)

Qabaq nömrələrdən mabəd)

**Qarabağ haqqında**

Abdulla bəy Əfəndiyev – Möhtərəm məbusan! Aləmşümul müharibə yavaş-yavaş qurtarmağa yüz qoyaraq mübarikə elan edilən zaman vətənimiz müharibə yükü altında inləyirdi. Mütarikə hələ vətənimiz tamamilə bizə qarşı ədavət göstərən tayfalardan təmizlənməmiş elan edildi. Fəqət bununla bərabər millətimiz mütarikə qanununa tabe oldu. Bu fikirlə ki, qomşularımızla həll edilməmiş qalan ixtilaflı məsələlərimizi sülh konfransında həll ediriz. Zira böyük millətlərin Avropanın möhtəşəm əsgəri və texnika qüvvəsilə həll edəmədiyi məsələləri biltəb biz dəxi silah gücilə həll edəməzdik. Biz böylə zənn etdik ki, qomşularımız da mübarikəyə tabe olacaq və amali-mülbələrinə (ملبه) tamamilə nail olmamışlarsa, istəkləri bilkülliyə əllərinə çatmamışsa boylə məsələlərin həllini konfransa məhvəl edəcəklərdir. Məültəəssüf zənnimiz yanlış çıxdı: bir qədər keçməmiş ixtilaflı məsələlərin həlli və ümumi sülh konfransında Zaqafqasiya millətlərinin müttəhidən fəaliyyətində bulunaraq istiqlalımızı müttəfiqən müdafiə və mühafizə etmələri üçün zəminə hazırlamaq qəsdilə Gürcü hökumətinin təşəbbüsilə Tiflisdə sülh konfransı dəvət edildikdə erməni hökuməti nümayəndə göndərmədi və konfrans baş tutmadı. Aşkar oldu ki, erməni hökuməti Qafqasiya millətlərinin sülhcuyanə siyasətinə ziddir. Biz yenə inanıyoruq ki, bir qədər danışdıqdan sonra saziş hasil olar. Likən zənnimiz batil oldu. Son hadisat göstəriyor ki, onlar saziş axtarmuyor, ixtilafı sülh ilə yatırmaq istəmiyorlar. Açıq deyəlim ki, hazırda vaqe olan hadisə quldur işi olmuyub, ən adi, müəyyən plan üzərinə müəyyən məqsədlə icra edilən bir müharibədən ibarətdir. Senayindən Qarabağadək bir xət boyunda dağlar uzunu təcavüz hərəkatı açmaq adi bir müharibədir. Bunu başlayanlar fürsətdən bilaistifadə naili-məram olmaq istiyorlar. Biz boylə hərəkətlər müqabilinə protesto edərək hökumətimizdən dəxi lazımınca tədbir görməsini, mümkün olan qədər məsələnin sülh təriqilə həllinə çalışmasını tələb ediyoruz. Bəziləri deyirlər ki, hazırda bizim qüvvəmiz yoxdur. Yanlış bir fikirdir. Millət böyük bir qüvvədir. millət görsə ki, Vətən, istiqlal müdafiəsinə qalxışmaq lazımdır, dərhal çeteçilər müqabilində cümhuriyyətimizi müdafiə və mühafizəyə hazırdır. Hökumətimiz millətin boylə hazırlığına istinad edərək məsələyi sülh ilə həll etmək mümkün olmazsa, qüvvə müqabilinə qüvvə çıxara bilər.

Son söz hökumətə veriliyor.

Fətəli xan (natiqlərə cavab verərək) – Sosialistlərdən birisi nitqində dedi ki, hökumət gördügü tədbirlər kafi degildir. Çünki məsələ bu vaxtadək həll edilib qurtarmamışdır. Əgər kafi dərəcə tədbir görülsəydi

ixtilaf indiyədək sülh təriqilə yatırılıb qurtarardı. Fəqət bən dedim və yenə də deyirəm ki, hökumət bu uğurda çox çalışmışdır. Hələ iyul ayında Azərbaycan hökuməti qomşu millətlərə müraciətlə təklif etdi ki, sərhəd məsələsinin həlli üçün bir beynəlmiləl komisyon təşkil olunsun. Bu da həll edə bilməzsə məsələ hökm vasitəsi ilə həll edilsin. Fəqət o vəqt bizim təklifimizə heç bir cavab çıxmadı. İkinci dəfə bir ay bundan əvvəl hökumətin təşəbbüsilə Gürcüstan səfirimiz yenə bu uğurda çalışmağa iqdam etdi və Gürcü hökumətilə bir yerdə Zaqafqasiya konfransı dəvəti üçün layihə hazırladı. Tiflis konfransının dəvətini əvvəlcə biz təklif etmişik. Öylə degil ki, guya onlar təklif etmişlər, biz dəxi razı olmuşuz. Layihə hazır oldu.

Təşrini-saninin onunda iclas təyin edildi. Fəqət Ermənistan mürəxissləri gəlmədilər. Konfrans dörd dəfə təxirə salındı. Ararat hökuməti yenə nümayəndə göndərmədi. Bir hökumət böylə işləri təklif edər, yazar, çağırar. Daha gedib başqa hölumətləri qollarından tutub konfransa gətirməzlər ki?! Bu surətlə hökumət bu uğurda çox çalışmışdır. Və əgər nəticəsiz qalmışsa təqsir Azərbaycan hökumətində degildir.

Digər natiqlərdən Qara bəy, deyir ki, əsgəri işlərə diqqət verilməmişdir. Xayır, böylə degildir! Hökumət bu xüsusda da çox çalışmışdır. Bu barədə müfəssəl məlumat verməgi bəzi səbəblərə görə lazım bilmiyorum və nə edildigini bir gün deməK istəmiyorum. Ancaq burası var ki, bir çox işlər görülübdür. Qoşun təşkilatı işləri məşhur general Mehmandarova mühəvvəl edilmişdir və əsgəri işlər üçün parə müzayiqə edilmiyor.

Bə`d Əhməd Cövdət sosialistlər fraksiyası tərəfindən v sədrə Musavat tərəfindən edilən təhriri təklifləri (formulaları) oxuyurlar.

Beş dəqiqə tənəffüs elan ediliyor.

Tənəffüsdən sonra:

Məhəmməd Əmin: – Müsadiənizlə ümum fraksiyalar tərəfindən müttəfiqən qəbul edilmiş olan formulayı oxuyorum:

“Vaqe olan istizaha cavabən hökumət rəisinin Qarabağ məsələsi və bu vilayətdə vəhşiliklər icra edən Andronik çetesi haqqında verdigi izahatı eşidərək Azərbaycan məclisi-məbusanı vətənin təmamiyyət mülkiyəsi, Azərbaycan cümhuriyyətinin heyniyəti, cümhuriyyət əhalisinin təmini-asayeş və hürriyyətinə aid olan məsələdə görəcəyi daha qəti siyasi və daha şiddətli və əsgəri tədbirlər icrasında məbusan heyətinin daima himayət və etibarına məzhər olacağını bəyanla növbədəki məsələlərin müzakirəsinə keçiyor. Təklif ittifaqara ilə qəbul olunur.

*Səh. 4.* **Zəngəzur qaçqınları**

Omuri-xeyriyyə nəzarəti Cəbrayıl qəza qayimməqamından aldığı teleqramdan məlum olur ki, Zəngəzur qəzasından 252 kişi, 245 qadın (cümlətan 497) bir kənd əhalisi qaçıb Cəbrayıl qəzasına gəlmişlərsdir. Bunların özlərilə heç bir ləvazimatı, əşyası yoxdur. Bu zavallılar böyük köməgə möhtacdırlar.

Buna benaən omuri-xeyriyyə nəzarəti bu qaçqınların ehtiyacının nə dərəcəyə qədər vara biləcəgini bilmək ilə bərabər onlar üçün bir iaişə məntəqəsi açmaq haqqında teleqraf ilə acil bir binagüzarlıqla bulunmuşdur.

Ha böylə Qaryagin qəza qayimməqamı teleqramına cavabən teleqram verilmişdir ki, gələn qaçqınlar üçün bir iaişə məntəqəsi açmaq vacibdir.

*Səh. 4.* **Azərbaycanda**
**Quberniya əhvalı**
**Qarət və atışma**

Cavad uyezdinin naçalniki Gəncə qubernatoru adına göndərdigi bəyannamədə Cavad uyezdinin halını və bu axırlarda burada baş verən şuluqluq barəsində böylə yazır:

Bu ayın əvvəllərində Qarapirimli kəndinin əhli Cəmşid bəy Vəlibəyov öz adamlarından xəbər alır ki, Ağdərə erməniləri dəstə ilə onun qara mal otlağına hücum edib 1350 baş qoyunlarını və bir neçə də atlarını qarət edib aparıblar. Mal sahibi dərhal atlanıb, adamlarını götürüb qarətçilərin dalısınca düşübdür. Kətdən 5-6 verst məsafədə qarətçilərə rast gəldikdə, bunların arasında atışma başlanıb. Nəticədə, Cəmşid bəyin öz atı yaralanıb və bir neçə də ermənilərdən qətl edilib. Axırda da qoyunları buraxıb qaçıblar. Məlum olub ki, qətl edilən ermənilərin birisi məşhur erməni qoçusu Qara Sarkisin yeznəsi Markar və yaralananlar da Maki, Usup, Matasan adlı ermənilərdirlər.

*Səh. 4.* **Erməni vəhşiligi**

Cavad uyezdində olan Davşanlı adınlı erməni kəndində cümlətan 35 ədəd müsəlman xanəvadəsi var imiş. Bu ayın əvvəllərində Şuşadan bir nəfər süvari bir məktub gətirib Davşanlı dayirəsində komitə üzvü olan Nikolay Sarovxanova vermişdir. Bu məxfi məktubun məzmunu barəsində ermənilər və ya ki, müsəlmanlar sual etdikdə bunlara böylə cavab veriblər ki, guya məktub Şuşada olan İngilis və Fransa heyəti tərəfindən gəlibdir ki, ermənilər ilə müsəlmanlar gərək yaxşıca rəftar edib biri-birilə dustanə

yola getsinlər. Bu xəbər müsəlmanları nə qədər sevindiribsə də, amma axırda nəticəsi çox peşimançılıq gətiribdir.

Bu vəqiədən bir az keçmiş gecə qaranlığı düşən kimi müsəlmanlar əhatə ediliblər. Səbəbini xəbər aldıqda, ermənilər deyiblər ki, gərək hamı atılan və kəskin əsləhələrimizi bizə təhvil verəsiniz. Əhatə edilmiş müsəlmanlar çarəsiz qalıb onların tələblərinə əməl etmişlər. Likən təkcə Eyvaz Mollanovruz oğlu və bir də Ocaqverdi Mollaqənbər oğlu bunların tələblərinə əməl etmək istəməyiblər.

Müsəlləh ermənilər dərhal bunları tutub vəhşiyanə bir surətdə öldürüblər. Hətta Ocaqverdinin özündən başqa övrəti Sona Şahməhəmməd qızını da həman surətdə öldürüblər. Müsəlmanların silahlarını alandan sonra ermənilər əvvəlcə mal-qaradan başlayıb axırda tamam ev müxəllifatlarını da (مخلفات) qarət etməgə başlayıblar. Bütün müsəlmanların xəliçə-palaslarını, yorqan-döşiklərini, buğda, un və arpa-samanlarını daşıyandan sonra, kişi və övrətlərinin paltarını da soymağa başlayıblar. Bu halları görcək bu 135 evin müsəlmanları biltəman dağlara, daşlara qaçıblar. Bu müsəlmanların oradaca qılınclara çəkilib qırılmamaqlarına səbəb olan bir tərəfdən həman kəndin məşhur ermənilərindən Balasan bəy və oğlanları olubdur ki, onlara qaçıb gizlənməyə yol veriblər və o biri tərəfdən də bu olub ki, ermənilər qarət etdikləri malları bölmək üstündə biri-birləri ilə dava etməgə başlayıblar.

Bu kətdən qaçıb gizlənən biçarə müsəlman ailələrini Bəy Əhmədli, Kəngərli və Tarnavut kəndlərinin camaatı öz evlərinə aparıb müavinətdə bulunublar. Motuq mənbələrdən xəbər veriyorlar ki, Şuşadan gələn məktubda bunu yazıblarmış ki, əhalinin əksəri erməni olan mahallarda əqləb təşkil edən müsəlmanlar gərək tezlik ilə oralardan çıxarılsın. İştə həman məktubun nəticəsi olaraq yüz illərlə çigin be çigin yaşayıb, həmişə dostluq və qardaşlıq ilə gün keçirən iki qonşuların əlaqələri bir gecədə fasilədən dəgişib, dostluq düşmənçiligə mübəddəl olub, nahaq qanlar tökülüb, xanimanlar viran edilib, heç bir günahın sahibi olmuyan hər iki qonşu daimi düşmənligə vadar edilmişlər".

***"Azərbaycan" qəzeti, №76. 1 kanuni-saniyi-əvvəl 1919-cu il***

*Səh. 4.* **Mirzə Əziz Musazadə.**

Cəbrayıl qəzasının ikinci dairə müfəttişi xəbər veriyor ki, 30 nəfərədək musəlləh erməni, Əfəndilər kəndi sakininin 12 baş qara malını aparmışlar. Canilər erməni Sur kəndinə qaçıb gizlənmişlər.

Qarazinli kəndi sakinləri Həsən Hacı Qurban oğlu və Muxtar Qara oğlu Ağarı kəndindən qayıtdıqları əsnada Noraşen kəndi yanında 6 nəfər müsəlləh ermənilər tərəfindən qarət edilmişlər.

Cəbrayıl qəzasının ikinci dairə müfəttişi xəbər veriyor ki, Baliyand kəndi sakinləri Cəfər Əliəkbər oğlu və Nəsir Məhərrəm oğlu Vaneq kəndinə buğda və dərz satmağa getdikləri əsnada yolda ermənilər tərəfindən qarət edilib qətl edilmişlər.

***"Azərbaycan" qəzeti, №77 2 kanuni-saniyi-əvvəl1919 sənə***

*Səh. 3.* Omuri-xeyriyyeyi-nizami tərəfindən Qarabağ mahalına omuri-xeyriyyə işləri müdirinə Zəngəzur qəzası namından verilmiş ərzihala görə əmr edilmişdir ki, oradakı qaçqınların dərəceyi-ehtiyacını təxfif etmək üçün binagüzarlıqda bulunsun. Parlaman üzvü Cavad bəy Məlik Yeqanov tərəfindən parlaman sədri namına verilmiş müxtərəsi məzmunu ilə bərabər yenə əşbu müdirə yazılmışdır ki, qaçqınlara müavinət üçün bitəvəqqüf binagüzarlıqda bulunsun.

***"Azərbaycan" qəzeti, №79 5 kanuni-saniyi-əvvəl 1919.***

*Səh. 3.* Qarabağ və Qazağa xüsusi məmuriyyət ilə parlaman əzasından mürəkkəb bir heyəti-mürəxxisə ezam olunmuşdur.

***"Azərbaycan" qəzeti, №80. 6 kanuni-saniyi-əvvəl 1919.***

*Səh. 1.* **Kəza (كذ ا) Zəngəzur cəhətində.**

Nə qədər ki, türklər Qarabağda idilər, erməni yırtıcıları müsəlmanlar ilə "pişigim-pişigim" ediyor idilər və öz "ixlas və sədaqət"lərini bəyan ediyordular. Elə ki, türklər getdi, həman "müxlislər" qurt kimi qomşu müsəlmanların üstünə düşüb onların qanlarını axıtmağa şüru etdilər.

Bakı cəhətində bir nəfər erməninin burnu qanıyanda özlərini yırtan və müfəttişləri bizim əleyhimizə təşviq edən erməni və rus qəzetələri nə üçün bu minlərcə tələf olan məsum islam əhaisindən bir ləfz böyləsə söyləmiyorlar?

Və nə üçün Ermənistanda və Qarabağda islam əhalisinə edilən müzalim bir nəfər ermənin qarət edildigindən və ya bir nəfər rus kəndçisinin bir girvənkə arpası alındığından naşı edilən bağırtı və çığırtıdan xəfif çıxıyor?

*Səh. 1.* **Məhv olan millət kütləsinin naləsi**
**Qarabağ və İrəvan müsəlmanlarının əhvali-faciəsi.**
**Andronik eşqiyasının müzalimi.**

Kanuni-saninin dördüncü günü Ordubad müsəlmanlarından bir nəfər nümayəndə sifətilə əlində Zəngəzur və Ordubad müsəlmanlarının əhvali-məlaləngizi müxatirələrilə bir qaç sənədlər götürüb gəlmişdir.

Məktubların birindən anlaşıldığına görə yollar çox xətərli olduğu üçün nümayəndələr gəlməyə çox qorxuyorlar. Bu bir nəfəri də Allahapənah göndərmişlər, ya öləsi, ya qalası.

Oranın əhvalından nümayəndənin verdigi məlumat artıq dərəcədə acınacaqlı və qəmfəzadır. Andronik eşqiya dəstələri qarşılarına düşən müsəlman kəndlərini müqavimətsiz olursa, əzəlcə yəğma və qarət ediyorlar, kəndləri odlar ağzında napədid ediyorlar. O ətrafi dağıdarkən ona bu barədə ingilizlərdən əmr verdigini bildiriyor (?!). Zəngəzur və İrəvan mahalında olan müsəlmanların bu tezlik ilə imdadına gedən olmazsa, bu vəhşi ermənilər oladakı müsəlmanları yox etməkdən heç də çəkinməyəcəklər.

**İmdad diləyi**

Əşbu nümayəndənin gətirdigi bir məktubda Ordubad müsəlmanlarının halı bir az da aydın təsvir ediliyor.

Biz də bu məktubun lisanına toxunmadan dərc ediyoruz: "Bəradər! İşlər günü-gündən şuluxlaşır. Böylə ki, şəqi ermənilər İrəvan tərəfindən başlayıb müsəlman köylərin dağıdıb qətl və qarət ediyorlar. Bir tərəfdən Qarabağ erməniləri Qarabağ köylərini dağıdıblar və dağıtmağa məşğuldurlar.

Həmin ki, ləhvaz çabı, Əldərə, Nüvədi, Əli oxçu, Şabadun, Mədən, Qara göl, Qara çəmən, Şainli və Burunlu, Əsgərlər kəndi, Təhi, Vətənəziz, Tovut, Mərziyyət təmamən məhv və tarmar olubdur. Bəzisi salamat qalıb İran və Ordubada gəliblər. İmdi isə küçələr, məscidlər yetim uşaqlar və bisahib övrətlər ilə doludur. Bu məzlumlar acından və sovuqdan gündə on beş nəfərə qədər ölürlər. bizlərin halı çox fəna özümüz də səfərbərlik halında yaşayırız. Gecə-gündüz bilaaram səngərlərdə və pusquda olub əsgəri təlim yapmaqdayız. Qərəz, bilməyirəm səbəbi nə isə Allah bizlərdən nəzərini götürüb ki, ölümə müstəhəqik. Yenə rəbbicəlildən əlimizi yüzməyirik və axırımıncı nəfsimizədək müdafiə etməgə hazırıq. Görək Allahi-zilşan nə yapacaqdır. Ölümdən qorxmuruz, lakin heyf olsun ki, bizim islam hökuməti bu anadək bu tərəflərin halını nəzərə almıyor. Məgər bizlər məhv olandan sonra bizim halımıza qalacaqlar?

Məgər millәti-islam şәqi ermәnilәrin ayaqları altında әzilib gedәndәn sonra ayılacaqlar? Axır ki, bu kağız sizә vüsul olan kimi hökumәtә, әhaliyә vә bәlkә cәmi şәhәrlәrә, qәzetәlәrә, әcnәbi dövlәtlәrә, Gürcü qonşumuza qışqırıq salıb dünyaya bizlәrin halını xәbәrdar edәsiz. Böylә olmaz ki, bir ucu İrәvan, bir ucu Şuşa, bir milyon islam hamısı ermәnilәr әlindә mәhv vә nabud olsun. Əcәba. nә yazım? Bisahib qalmağımızımı söylәyim, dağılmağımızımı söylәyim? Yainki dağılan köylәrin әhalisinin sәhralarda acından vә savuqdan sızıltısını şәrh edim? Vә yainki millәti-islamın ölüm yuxusuna getmәsinimi yazım? Xülasülkәlam, yazmaq ilә başa gәlmәz. Görәk bәlkә Xudavәndi-әhәdiyyәt bir sәbәb sala, bizlәri dә bu bәladan vә bu fәlakәtlәrdәn qurtara. Əlbәttә, bizim bu halımızı qәzetәlәr vasitәsilә bu gün cahana bildirmәlisiniz ki, bәlkә bizlәrә bir yerdәn bir sәrәncam çәkilә. Ümidimiz hәqqәdir. ayrılıq әlimizi sizә uzadırıq, bәlkә görüşә bilmәdik.

***"Azərbaycan" qəzeti, №82 8 kanuni-sani 1919.***

*Səh. 2.* Qarabağda vә Zәngәzur mahalında bandalar degil, oralarda müntәzәm vә mütәşәkkil mәşhur general Andronik ordusudur ki, şu ordu Türk ordusilә müqabilәdә bulmuşdur.

Zәngәzur vә Şuşa mahallarında Andronikin yapdıqlarını inkar etmәk, gözlü olub da dünya işini görmәm demәk kibi bir şeydir. Burasını Andronik kәndi belә inkar etmiyor.

***"Azərbaycan" qəzeti, №87 14 kanuni-sani 1919.***

*Səh. 3.* **Qarabağ əhvalı**

Qarabağa göndәrilmiş vә ifayi-vәzifә bәdindә bu günlәrdә qayıtmış olan komisiya әzasından parlaman mәbusu Qara bәy Əlverdibәyov cәnabları ilә vaqe olan müsahibәmizdәn böylә anlaşılıyor ki, Qarabağ uyezdindәn hamısından artıq ağır hal keçirmәkdә olan Zәngәzur vә saniyәn Şuşa uyezdidir. Zәngәzurdan gәlәn mürәxәsislәrin ki, onlardan biri Baxşı bәy Soltanov, digәri Xudabәxş Soltanov vә biri dә Bәhlul Əfәndizadә cәnablarıdır. Sözlәrindәn anlaşıldığı üzrә Zәngәzurda ermәnilәr tәrәfindәn dağılan vә xarab edilәn kәndlәrin әdәdi yüz on doqquz paradır ki, bunların qırx mindәn artıq olan әhalisi qırılan qırıldıqdan sonra yerdә qalanları yer vә yurdlarından qaçıb Qarabağın sair yerlәrinә sәpәlәnibdirlәr. Bu qaçqınların halı o dәrәcәdә fәlakәtlidir ki, yazılmaq ilә qurtarmaz.

Türklər Zəngəzur tərəflərində olarkən taxıl yığıb dörd-beş anbar doldurubdurlar ki, əqəllən otuz-qırx min put taxıl ediyor. Məbus əfəndi məzkur mürəxxislərin dəxi istidasına görə hökumət yanında təvəssüt edir ki, bu buğdanın heç olmasa bir qədəri Zəngəzurdan gətirilib Şuşa uyezdinə dağılmış olan ac qalan qaçqınlara verilsin.

Şuşa uyezdinin özündə də aclıq, xəstəlik davam etməkdədir. Yaxşı ki, Ağdamda, Ağdamın öz əhlindən olan iki nəfər doxtor olub, naxoşlara və xəstəligə qarşı böyük bir heyət ilə iş görməkdədirlər. bunlar bedunetəmənna öz xərclərilə naxoşları tədavi edən kimi əhaliyə dəxi kəmalirəğbət ilə kömək edib, lazım olan ev, mənzil və sair köməkləri muzaiqə etmiyorlar. Bu doxturlardan birisi Bahadır bəy Əliverdibəyov və o biri də Fərrux bəy Ağakişibəyovdurlar. Təəccüb burasıdır ki, buraya “Diviziyonnu vraç” sifətilə bir nəfər cavan doxtur gətirilib bu iki nəfər doxturların üzərində hakim yerində təyin edilibdir. Halbu ki, həman vraç Əbdullah Həmid Qənizadə yeni kursu qurtarmış və ola bilsin ki, heç qurtarmamış olub bilik və təcrübə işlərində nə Bahadır bəyin yerini verə bilər, nə də Fərrux bəyin.

Şuşa uyezdində ermənilər quldurluqlarında davam etməkdədirlər. Hələ məbus əfəndi orada olarkən uyezd qaimməqamı Abış bəy Qalabəyov namına Şuşa pristavından raporlar gəliyordu. Bunlar ilə müntəzəm mübarizə lazımdır.

Ağdam camaatı, Məbus Əfəndinin sözünə görə, hökumətdən bunu da istida edirlər ki, Ağdamın özündə xəzinə şöbəsi açılsın ki, bu xüsusda sair yerlərə müraciət etmək məcburiyyəti aradan götürülsün.

Bilümum Qarabağ əhalisi ərzaq və xəstəlikdən isrət çəkdikləri kibi manufaktur malının yoxluğundan dəxi əziyyət çəkməkdədirlər. Hökumətimizdən təvəqqə olunur ki, oraya ağ, bez və bu kibi arşın malı göndərilsin ki, xəlq özünə tuman, köynək hazırlaya bilsinlər.

Posta-teleqraf işləri dəxi arzu edilməyən fəna bir haldadır. Məktublar və teleqramlar vaxtlı-vaxtında çatmıyor. Bir çok yerlərdə teleqraf işləmiyor. Bular dəxi pis gündədir. Yevlax-Şuşa yolu bir çox yerlərdə yağış və sel nəticəsi olaraq dağılıb, arabakeçməz olubdur.

Şübhəsizdir ki, lazımi diqqət yetirilib ciddiyyət ilə girilərsə, bu fənalıqların qabağı alınıb dəxi rahat yaşamaqla şikayət yeri qalmaz.

### *"Azərbaycan" qəzeti, №88 15 kanuni-sani*

*Səh. 4.* **Fəhlə həyatından.**

Qarabağdan tazəcə gəlmiş olan parlaman üzvü Məlik Yeqanov Qarabağ əhvalı haqqında və Andronik hərəkatı barəsində müxtəsər məlumat vermişdir. Məlik Yeqanov demişdir ki, hal-hazırda Qarabağda olan 46 mindən ziyadə müsəlman qaçqınları Bakıya gəlmədədirlər. Onlara burada pərvayiş vermək lazım gələcəkdir.

*Səh. 4.* **Qarabağ qaçqınları.**

Qarabağ qaçqınlarının əhvalını ögrənib müavinət etməkdən ötəri omuri-xeyviyyə nəzarətinin qaçqınlar şöbəsinin müdiri Klenevski (كلـه نـه فـسقـى) başda olmaq üzrə xüsusi bir komisiya Qarabağa azim olunmaqdadır. Omuri-xeyriyyə naziri Nazirlər Şurası müdirinin ixtiyarına lazımi qədər un buraxılması üçün (borc təriqilə olmuş olsa da) binagüzarlıqda bulunmasını bundan əlavə "kinə-kinə" və qeyri dərmanlar buraxılmasını xahiş etmişdir.

*Səh. 4.* **Qarabağda.**

Yanvarın onunda Zəngəzur uyezdinin naçalniki Ağdamdan Nazirlər Şurasına bu məzmunda bir teleqraf göndərmişdir:

"Eydlərdə mayor Gibbin (گـيـبـبـون) başda olmaq üzrə İngiltərə heyəti ilə görüşdüm. Burada müsəlman və erməni nümayəndələrinin iştirakı ilə müttəfiq dövlət qoşunlarının komandanı ceneral Tomsonun əmrinə müvafiq müsəlmanlarla ermənilər arasında olan hər cür düşmənanə hərəkət qət olunub adi həyat bərpa edilməsi qərara alınmışdır. Bu qətnamə əhaliyə dəxi xəbər verilmişdi. Bu əhvalatdan sonra ermənilər dəstə-dəstə rahatca Şuşa yolu ilə Şuşaya və Gorusa getməgə başlamışlardır. Bunu Heydər dəxi təsdiq edər. Ermənilər Andronik dəstəsi başında olmaq üzrə verdigi vədlərinə vəfa etməyib otuza qədər müsəlman kəndlərini dağıdıb əşyasını qarət etmişlərdir. Qaçıb canını qurtarmıyanlar vəhşiyanə bir surətdə qırılmışılar. Bu barədə hər dəfə xəbər verilmişdir. Üç gün bundan irəli Mayor Gibbi görüb müşaiyət etdikdən sonra pristavdan xəbər aldım ki, dördüncü uçastokda ermənilər Razdərə kəndini yer ilə yeksan edib əhalinin bir hissəsini qırıb tələf etmişlərdir. Müttəfiq dövlət nümayəndələri burada isbat vücud etdigi halda müsəlmanların bu cür vəhşiyanə tələf olmaları cəzasız keçir. Ermənilər bu işlərin hamısını türkiyə qaçqınlarından ibarət olan Andronik dəstəsi boynuna atırlar.

Əhalinin xahişinə görə bu əhvalatı sizə xəbər verib Andronikin öz dəstəsilə bərabər Zəngəzur uyezdindən çıxıb getməsi üçün təşəbbüsatda bulunmağınızı xahiş edirəm. Bundan əlavə adi həyat bərpa edilməsi üçün müqəssirlərin cəzaya giriftar olmaları haqqında tədbirlər itxazını rica edirəm. müsəlmanlar həyəcana gələrlərsə də məhəlli hökumət onlara da mane olur.

Zəngəzur uyezdinin naçalniki Məlik Namaz Əliyev Gəncə qubernatorundan böylə bir teleqraf almışdır: "Cəbrayıl uyezdinin naçalniki teleqraf ilə xəbər verir ki, ermənilər müsəlmanlara hər cür təcavüzdə bulunmaqda davam edirlər. Üç gün irəli Qarakənd erməniləri Ağdam-Qaryagin yolunda gedən müsəlmanları təqsirləri olmadığı halda qarət edib öldürmüşlərdir. Yol bağlanıbdır. Kömək yoxdur. Lazımı binagüzarlıqlarda bulunmağınızı xahiş edirəm".

*"Azərbaycan" qəzeti, №89 16*

*Səh. 4.* **Azərbaycanda.**

Cəbrayıl uyezdindən teleqraf.

Qubernator müavini Xaricə Nazirinə böylə bir teleqraf göndərmişdir: "Hal-hazırda Cəbrayıl uyezdindəyəm. Zəngəzur uyezdinin naçalnikindən böylə bir teleqraf aldım: "Dördüncü uçastokda olan Razdərə kəndinin ermənilər tərəfindən dağıdılması haqqında göndərdigin teleqrafa əlavə olaraq müttəfiq komandanına təqdim etməkdən ötəri xəbər verirəm ki, Zəngəzurda ermənilər ilə müsəlmanlar arasında adi həyat bərpa etməkdən ötəri mayor Gibbun başda olmaq üzərə İngiliz heyətinin dəvətnə görə camaat vəkilləri yanvarın yeddisində üçüncü uçastokda Teymur Müsqunlu (تيمور موسقونلى) kəndinə cəm olduqları zaman Ucan camaatının kəndxudası səvari gəlib Andronik qoşunlarının böyük bir dəstənin Fərican kəndinə hücum edib bu saat orada atışma davam etdigini xəbər vermişdir. Bunu da əlavə edirəm ki, İngiltərə heyəti bura varid olandan indiyə qədər otuzdan ziyadə müsəlman kəndi ermənilər tərəfindən dağıdılıb əhalisinin çox hissəsi öldürülmüşdür. İngiltərə heyəti təftişat olacağını vəd edib ermənilərin qabağını almaqdan ötəri heç bir tədbir görmüyor.

***"Azərbaycan" qəzeti, №90 17 kanunui-saniyi-əvvəl***

*Səh. 3.* **Nəzarətlərdə**

**Daxiliyə nəzarətində.**

Qarabağ dairəsindəki qaçqınlara müavinət etmək və onların halını bilmək niyyətilə oraya Məclisi-məbusan üzvləri təhti-idarəsində bir heyəti-məxsus gediyor. Buna görə dünən Daxiliyə Naziri əvəzində olaraq onun müavini General Sadıq bəy Ağabəyov Gəncə valisi və Şuşa Cavanşir uyezd naçalnikinə bu məzmunda bir teleqraf çəkmişdir: “Qarabağ dairəsində yaşayan qaçqınların halını bilib onlara müavinət etmək üçün Məclisi-məbusan əzası təhti-idarəsində gedən heyəti-məxsusəyə lazım görülən məzahirat göstərmək və onlara lazım gəldikdə qarovul verməgi sizə təklif edirəm”.

Dünən Daxiliyə Naziri həzrətləri Gəncə qbernatoru naminə bir böylə teleqraf göndərmişdir:

“Qarabağ fərarilərinin əhvalını möhlətdə təhqiq edərək müavinətdə bulunmaq qəsdilə buradan başda parlaman əzası olmaq üzərə xüsusi bir komisiyon oraya azim olmuşdur. Bən teleqrafa onları hər halda müavinətdə bulunmağı xəbər vermişəm.

Omuri-Xeyriyyə, nəzarəti, nakə (ناکعه) ticarət və sənaye nəzarəti ilə istilağə gəlmişlər ki, Bakıdan Yevlax moqüfünə Qarabağ fərarilərinə paylanmaqdan ötəri 100000 (yüz min) arşın beş göndərilsin.

Omuri-xeyriyyə və Naf nəzarəti Daxiliyə nəzarətinə müraciətən rica etmişdir ki, müfəttişliklər məmuriyətini küçələrdə qalmış evsiz və pərəstarsız cocuqları darülitamə göndərmək barəsində lazımı binagüzarlıqlarda bulunsun. Bununla bərabər, xəbər vermişdir ki, şəhərdə misri yatalaq xəstəliyi hökmfərma olduğu üçün Bakıya qaçqınlar və işsizlərin gəlməsi məmnu edilməlidir.

***"Azərbaycan" qəzeti, №91 19 kanunui-saniyi-əvvəl (15 yanvar 1919-cu sənə).***

*Səh. 3.* Daxiliyə Naziri həzrətlərinin Qarabağ haqqındakı məruzəsini istima etdikdən sonra qət edilmişdir:

Daxiliyə Naziri həzrətləri tərəfindən pişnəhad edilmiş məruzə qəbul edilsin. Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında müvəqqəti olaraq bir ceneral qubernatorluq ixtiyarati Daxiliyə Nəzarəti məruzəsində göstərildiyi qədər olacaqdır.

***"Azərbaycan" qəzeti, №92. 20 kanui-sani 1919 sənə.***

*Səh. 4.* Qarabağ qaçqınlarına müavinət etməkdən ötəri Klenevski (گله نه وسقی) ixtiyarında olan komisiyaya təyin edilmiş ərzaq Nəzarətinin kargüzarı Çerdanova tapşırılmışdı ki, mühilində ərzaq işləri ilə aşina olub müfəssəl məruzə təqdim etsin.

***"Azərbaycan" qəzeti, №94 22 kanuni-saniyi-əvvəl***

*Səh. 4.* **Şuşada məişət.**

Yanvarın 19-da Şuşadan gəlmiş olan bir nəfərin rəvayətinə görə, Yevlax-Şuşa şosse yolu tamamilə xətərsizdir. Yevlaxdan Şuşayadək fayton min manat pul alıyor. Şuşada həyat tamamilə sakitdir. Əhali puldan ötəri böyük müşkilat çəkiyor. Bakı və Zaqafqaziya pulları ümumi pulu kimi işliyor və camaət kəmalü meylü həvəs ilə alıyor. Şuşada qar yağırsa da, fəqət havası Bakıdan istidir. Hər gün Şuşada 10-dan 12-yədək ölənlər oluyor. Yeddi min nəfər erməni fərarilərindən ancaq üç mini salamat qalmışdır. Bazarda camaat ev əşyalarını satıyor, fəqət pul olmadığından xahanı az oluyor. Arpa çörəginin girvnkəsi bir manat qırx qəpik, buğda – iki manat, üç manat yarım; mal əti iki manat yarım, çay və qənd Bakı qiymətindədir. yağ 22 manat, cövhərin girvənkəsi 2 mnat 20 qəpik. Əvvəl 5 manat, hətta neçə vaxt bundan əvvəl 10 manat idi. Poçta teleqraf müxabirəsi olmadığından pul qıtlığı müşahidə olunuyor. Gərək Şuşada və gərək ətrafda olsun ermənilər ilə müsəlmanların arası düzəlir.

*Səh. 4.* **Andronikin əmri.**

Vərəndi, Tizağ, Xacun və Cavanşir baş komandanlarına, ümum komisarlara və erməni əhalisinə:

Bu əmrnamə sizə vüsul olan kimi tatarlar və türklər müqabilinə dava hərəkatını biltəxir yatırasınız. Müttəfiqlər bizdən tələb ediyorlar bilatəxir dava hərəkatını yatıraq. Müttəfiqlər nümayəndələri İngiliz və fransız kapitanları bənim yanıma gələrək bəyan etmişlər. Bundan böylə Qafqasiyada müharibəyə məhəl verməmək təhti-qərara alınmışdır. Türk qoşunları bilatəxir getməlidirlər. Bakı və Batum ingilizlər əlindədir. İngilizlər Tiflisə hərəkət ediyorlar ki, ümum məsələlər sülh konfransında həll edilməlidirlər. Müttəfiqlər nümayəndələrinin bana vedikləri bir məktubda baş komandan ingiliz ceneralı Tomson bəni x\bərdar edibdir ki, bundan sonra hər dürlü düşmənanə hərəkat erməni məsələsinin həllinə zərər ye-

tirər. İmza etdi: General mayor Andronik. Surətinin mətni ilə düz olduğunu təsdiq ediyoruz. İmzalar: Şuşa yeparxiya naçalniki. Yepiskop Vaqan.

Şuşa bələdiyə rəisi Gerasim Məlik Şahnazaryan.

Əmrnamə noyabrın 19-da göndərilmişdir.

*"Azərbaycan" qəzeti, №95 23 kanuni-saniyi-əvvəl*

*Səh. 2.* **Erməni fitnələri.**

**Qarabağ erməni milli şurasının Bakı erməni milli şurasına müraciəti.**

Artıq təəssüf olsun ki, Qarabağda olan ermənilərin nümayəndələri bu günədək Bakıya gəlib də öz dərdlərini söyləməgə və öz ağır hallarını bildirməgə imkan bulmamışlardır. Buna səbəb Yevlax-Şuşa yolunun xüsusən dəmir yolların bizim üçün xətərli olmasıdır. Digər tərəfdən teleqraf Azərbaycan hökuməti əlində olduğundan özümüzün böhranlı halımız barəsində məlumat verməkdən məhum olmuşuz. Şuşadakı ingiliz heyəti indi bileyn inanmışdır ki, əvvəlkilərdən artıq bir fəna şərait altında yaşayoruz. Hər bir dəfə biz Qarabağ ermənilərinin ağır halları barəsində İngiliz komandanlığına ərzi-hal etdikdə, onlar teleqraf ilə bu halları Bakıya bildirib Şuşaya İngiliz qoşunlarının göndərilməsinin lazım olduğunu bildirmişlərdir.

Bizim bu haqlı olan tələbimizə bu vaxta qədər heç bir əhəmiyyət və etina verilməmişdir. Şuşada olan İngiliz komandanlığı dəfəat ilə bizə "tatar" dəstələri qarşısına çıxmaq üçün gücsüz olduğunu bildirmiş idi və onun kömək barəsində Bakıdan İngiliz komandanlığından etdigi tələbi daima nəticəsiz qalmışdır.

Azərbaycan qoşunları və Türk əsgərlərinin biz erməniləre etdikləri zülm barəsində doklad edən biz erməni nümayəndələri İngiliz heyətinə etdigimiz dokladın hər bir maddəsi barəsində sübutlu materiallar vermişik. İngiliz heyətinə müraciətimiz ilə bizim halımız yaxşılaşmaq degil, dəxi də fənalaşdı və mümkündür ki, az bir zamanda halımız dəxi də fəciyanə olsun. Türklərin hökmranlığı zamanı biz öz vətənimizi, namusumuzu və millətimizi müdafiə ediyorduq. İngiliz heyətinə vürudundan sonra onlra böyük ümid bağlayıb adi yaşayışa başladıq və ümid ediyorduq ki, İngilizlər gəldikdən sonra bu qətlü qətala bir intəha verilər. amma imdi anlayoruz ki, biz öz sadədilliyimizin qurbanı olmuşuq. Bizim böylə halımıza qarşı ceneral Tomsonun sükutu nədən məş`ət ediyor? Burası inkar edilməyən bir həqiqətdir ki, hər gün Qarabağ ermənilərinə düşmənlər təcavüz ediyorlar. Bütün yollar üzərimizə bağlıdır, hər gün bizi hər bir tərəfdən mühasirə ediyorlar. Ceneral Tomson hətta öz əfsərlərinin tele-

qramını da bietina qoyur. Bu isə dəxi də bizim ağlar halımızı və üç yüz min nəfərdən ibarət olan Qarabağ ermənilərinin ağır vəziyyətini fənalaşdırıyor. "Azərbaycan" qəzətəsində hər gün yalan teleqramlar dərc edilərək Qarabağ ermənilərinin müzalimindən həbs ediyorlar. Bu yalan xəbərləri təkzib etməkdən məhrum olmuşuz. Protestamız da bir yana çatmayur. Çünki teleqrafxanələr azərbaycanlıların əlindədir. Bizim əl-ayağımız bağlı olduğundan ədalətli səsimizi sizə yetirməkdən məhrum olmuşuq. Heç olmazsa siz ceneral Tomsonu inandırınız ki, Qarabağa qoşun göndərmək fərzdir. Bunu da məlum ediriz Qarabağda olan ermənilərin nümayəndələri İngiliz heyətinə məlum etmişlər ki, gərək Türkiyə qoşunları və gərək "tatar" dəstələri əleyhinə olan mübarizə ancaq öz qüvvəmiz ilə olmuşdur, kənardan kimsə bizə kömək etməmişdir.

Bütün il müddətində biz hər növ müsibət və cəfalara dözmüşük və çox fədakarlıq etmişik. İmdi biz arzu ediyoruq ki, sülh konfransında müqəddəratımız həll edilənədək Qarabağın omuri-iradəsini ingilizlər əllərinə alsunlar və təvəqqə ediyoruz bu halda ingiliz komandanlığı qarşısında təşəbbüsatda bulunasınız. Bunu da mümkün olduqca tez ediniz. Əks surətdə qayət müdhiş müsadimə törüyə biləcəkdir.

Cəbrayıl uyezdində məhəlli Azərbaycan hökumət məmurları silahları təslim və hökuməti etiraf etmək üçün bizə ultimatum vermişdir. Hərgah siz yubansanız biz öz dərdimizi sizə və ingilizlərə xəbər verməkdən və müavinət istədikdən qəti surətdə məhrum olacağız. Çünki teleqraf, poçta və yollar Azərbaycan məmurları əlindədir, bizlər amansız bir surətdə tələf olacağız.

Bunu da lazım bilirik sizə xəbər verək ki, yanvarın 5-dən Azərbaycan qoşunları, Qarabağda qalan Türk əsgərləri və Türk zabitləri başda olmaq üzərə Ağdamda olan quldur dəstələri ərkani-hərbi təşkil etmişlərdir. Buraya bir çox mühəmati-hərbiyə, top və pulemyot gətirilməkdədir. Neçə mindən ibarət bir dəstə Zabux dərəsinə göndərilib həmin uçastoku işğal etmişdir. Digər tərəfdən Əsgəran yolu zəbt edilib, Xan kəndinə tazə dəstələr göndərilmişdir. Bunlar hamısı aşkar surətdə göstəriyor ki, Azərbaycan məmurları tədric ilə bizi cəbhədən və arxadan mühasirəyə salırlar. Bunların hamısı keçəndən sonra gözləməlidir ki, günlərin bir günündə onlar bizə ultimatum verib təslim olmağımızı tələb etsinlər. İngiltərə heyətinin hər bir təklifinə dürüst əməl edib biz başlanmış olan hərəkatın qabağını almaq üçün heç bir tədbir görmüyürük. Bunula da biz öz ehtiyacımız üçün təhlükə vücuda gətirib təbiri-digərlə bütün Qarabağ ermənilərinə biz özümüz qəbr qazıyoruq. Bu dediklərimiz boş sözlər olmuyub, acı bir həqiqətdir ki, sizin diqqətinizi buraya cəlb edirik. Qoy

sizə məlum olsun ki, il yarımdır bizim əlaqəmiz bütün dünya ilə kəsilmişdir. Camaatımız, xüsusən kənd əhalisi maddi cəhətdən xeyli üsrət çəkməkdədir. Kəndlilər öz həyatlarını təmin etməkdən ötəri bütün ev şeylərini palaz-paltarlarına qədər bazara çıxarıb satmışlardır. Maddi cəhətdən üsrət çəkməkdə olan əhalinin təmin edilməsi məsələsi də lazımi məsələlərdən biridir. Özümüzü idarə etməkdən ötəri xüsusən bütün mənasilə aclıq çəkən əhalini doyurmaq üçün böyük bir məbləğ lazımdır.

Sədr: İşxanyan, şura üzvləri – Şahnazaryan və Astuvatorov, katib – Ter Mikailyans.

Yanvarın 12-də yazılmış olan Qarabağ erməni Milli Şurasının məruzəsinə əlavə olaraq şura Şuşa şəhərində olan İngiltərə heyətinə xəbər verir ki, Əsgəran cəbhəsində Azərbaycan əsgərləri 16 dəgirmanı dağıdıb taxılları zəbt etməklə erməni əhalisini taxıl ügüdmək imkanından məhrum etmişlərdir. Azərbaycan əsgərləri Əsgəran dairəsində olan kəndlərin yeməli şeylərini və qara malını çıxarıb aparmaqdadırlar. Bir neçə mindən ibarət Azərbaycan və Türk əsgərləri Türk zabitləri başda olmaq üzərə Zabux dərəsini işğal edib Cəbrayıl, Qaryagin uyezdində olan erməni kəndlərinə hücum etməgə başlamışlardır. Məhəlli Azərbaycan hökuməti məmurları Cəbrayıl uyezdində olan erməni əhalisinə ultumatum verib silahları təslim etməgi və tabe olmağı tələb etmişlərdir. Az bir miqdarda olan Azərbaycan əsgərləri Xankəndi ilə Əsgəran arasında olan Şuşa yolu boyunda əməliyyatdadırlar. Bu qərar üzrə Qarabağın ermənilərilə məskun hissəsi mühasirə halındadır. Heç bir tərəfdən düşmənanə hərəkət olmaması üçün Bakıda olan müttəfiq qoşunları baş komandanı ceneral Tomsonun teleqraf ilə verdigi əmrə və Şuşa şəhərində olan İngiliz heyətinin elanına görə erməni əhalisi bu əmrlərə tabe olub bu tövr başsızlıqların qabağı alınması üçün müttəfiq komandanlığı tərəfindən tezliklə binagüzarlıq veriləcəgini səbrsiz bir halda gözləməkdədir.

Şura üzvləri: İşxanyan, Şahnzaryan, Şahnəzərov,
Ter-Astuvatsatorov, Ter-Mixaylov.

*Səh. 1.* **Fitnələr qarşısında.**

Hökumətimizin və müttəfiqlər ordusu komandanı General Tomsonun tədbirləri sayəsində Andronik vəhşiliyi dayandırıldı. Andronik “Yar və ənsarına” məktublar yazıb “müharibə” bitdigin elan edir. Top və tüfəng hücumları ara verdi. Zənn edilirdi ki, bir qədər qulağımız dincələr,

baş-beynimiz rahat olar, qəlbimizin təşvişi sakit olub, yorunuq əsəblərimizin sızıltısı dayanar.

Likən heyhat! Bu zənni o adam edə bilər ki, daşnaqların xilqət xüsusiyyətlərinin təğazası və təbiəti-milliyələrinin icabatı olan "niş" vurmaq xasiyyətlərindən bixəbər ola!

Androniklərin top və tüfəng hücumlarının arası yenicə kəsilmişdi ki, bu gün özümüzü başqa növ hücumlara məruz qalmış görüyörük. Bu yeni hücumlar iftira və böhtan hücumlarıdır ki, daşnaqların "Vperyod" qəzetəsinin dünənki nömrəsi başdan ayağa qədər bu iftira və böhtanlar ilə doludur.

Top və tüfəng ağzından çıxan güllələr daşnaq və əmsalı ağzından çıxan söyüş və yalan sözlər ilə əvəz edilibdir.

İftira, böhtan və əsassız ittihamlardan ibarət olan bu sözlər zatən General Tomsona qarşı bir nümayişdir. Yəni, ey General Tomson! Sən ki, bizim Androniklərimizi dayandırmağa məcbur etdin, indi gör. Azərbaycan müsəlmanları bizim başımıza nə oyunlar açırlar, nə zülmlər edirlər. Halbuki bunun təqsiri sənin boynuna gəlir. Çünki bu işdə ehmallıq edən və Azərbaycan türklərinə "cürət" verən sənsən!

Bugünkü nömrəmizdə tərcümə edilmiş olan Şuşa erməni komitəsi nümayəndələrinin "şikayəti" mülahizə edildiyi üzrə azərbaycanlıların "zülmündən" və General Tomsonun "qeydsizligindən"dir.

Likən zənn etmirik ki, bu "şikayətnamə" müttəfiqlər komandası rəisinə ermənilərin arzu etdigi təsiri "bəxş" edib də "məzlumların" halına can yandırtsın. Tomsonlar erməni "şikayətlərini" Ləvəndrə məhafilində dinləmiyorlar ki, inanmamağa haqları olsun. Tomsonlar Qafqasdadırlar, işin içindədirlər. Kimin kimdən şikayət etməgə haqqı olduğunu görürlər, görməsə idilər Androniklərin həddini özünə bildirməzdilər.

Azərbaycanın Azərbaycan hökumətinə tapşırılmasını təsdiq etmiş olan general Tomson Azərbaycan torpağında həman hökumətin hökm və qanunu icra ediləcəyini bilmiyormu ki, ermənilərin – "Azərbaycan hökuməti bizi tərkslah etdi" – kimi nahaq şikayətlərinə məhəlgüzar olsun. Əlbəttə, bir dövlətdə ki, bir ünsür iğtişaş və nizamsızlığa mail ola və bu meylini hüsula gətirmək təşəbbüslərinə silah gücilə girişə, bu "məğşuş" ünsürün müsəddiq hökumət tərəfindən tədiyə və tərksilaha məcbur ediləcəgi təbii və qanuni bir əmrdir.

Azərbaycan torpağında yşayan ünsürlərin Azərbaycan hökumətini tanıması və tanımaq istəmədikdə bu əmrə məcbur edilməsi dəxi müvafiqi-qanun və ədalət bir işdir ki, daşnaqların – "Azərbaycan hökuməti bizi

itaətə məcbur ediyor" – deyə, bu yoldakı şikayətlərin nə qədər boş və əsassız olduğunu özü-özündən aşkar surətdə bildirməkdədir.

Guya Azərbaycan qoşunu və "müsəlləh tatarlar" səbəbsiz olaraq erməni kəndləri üzərinə hücumlar edib əhalini qətlü qarıt edirlər deyə şikayətin dəxi ətraflı bir surətdə təhqiqə böyük bir ehtiyacı vardır. bu təhqiqin nəticəsi meydana çıxıncaya qədər həman "şikayət"lərin bizim gözümüzdə iftira və böhtandan ibarət olacağı da dəlil və əsassız degildir.

Daşnaqların Androniklər vasitəsilə üzərimizə atılan top və tüfəng güllələrini dəf etmək, bunların iftira və böhtanlarını rədd etmək işindən çox asandır. Çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira quramaq ustadlığı ilə məşhurdurlar. Odur ki, bu günə "danoslar" hücumuna və iftiralar "niş"inə qarşı qəlbimizi bir o qədər də sıxmayıb, Sədinin:

Nişi-əqrəb nə əz rəhi-kinəst,
İqtizayi-təbiətəş inəst.[1]

- beytilə mütəsəlli ola bilərik. Likən bununla belə özümüzü "əqrəb"lərdən qorumaq hər bir cəhətcə borcumuzdur. Çünki bunların "nişi" kin yüzi ilə olsun, ya təbiətlərinin iqtizası olsun – insanın canını ağrıdır və əziyyətə səbəb olur.

*Hacıbəyli Əziz.*

***"Azərbaycan" qəzeti, №101. 20 kanuni-saniyi-əvvəl 1919.***

**Qarabağ haqqında**

Təqribən bir ay bundan əvvəl idi ki, Qarabağdan gələn ahü fəryadlar həm hökumətimizi, həm də camaatımızı təciz (تعجيز) etməkdə, Azərbaycan torpağının bir hissəsinə xüsusi bir nəzər yetirilməsini tələb edirdi.

**Nə olmuşdu orada?**

Ermənilərin generalı ədd olunan Andronik öz xunxar dəstəsilə Qarabağın Zəngəzur adlanan uyezdi üzərinə tökülüb müsəlman əhalisini qətlü qarət kibi quldurlara məxsus əməllərilə tədhiş edib buraları müsəlmanlardan təmizləmək istiyordu. Şübhəsizdir ki, hökumətimiz Azərbaycan türklərinə qarşı icra edilən və rəva görülən bu vəhşiliklərə göz yuma və istimdad fəryadlarına qulaq asmaya bilməzdi. Hökumətimiz ingiliz komandasının nəzərini dəxi bu günə vəhşi əməllərə cəlb edib Andronikin əmali-vəhşiyanəsinə nəhayət çəkdirdi.

[1] tərcüməsi: Əqrəbin çalması kinli olması ilə əlaqədar deyil,
Onun təbiəti bunu tələb edir.

Andronik fitnəsi nəticəsi olaraq Qarabağın hal və övzai öylə bir fövqəladə surət kəsb etdi ki, hökumətin bu cəhət haqqında xüsusi qeydkəşliyinə böyük bir ehtiyac görünüb ciddi tədbirlər itxazı lazım gəldi.

Bu tədbir nə olaylardı? – Qarabağı işlər düzəlməyə qədər müvəqqəti olaraq ümumi idarə təhtindən ayırıb xüsusi bir idarə altına almaq ki, əvvəla, Qarabağın fövqəladə haləti, mərkəzi hökumətin ümumməmləkət qeydkeşliyi işinə xələl yetirməsin, yəni hökumət bütün diqqətini yalnız bir Qarabağa münhəsir etmək məcburiyyətində qalmasın və saniyən Qarabağ dəxi fövqəladə halətinə görə lazım olan xüsusi tədbirlər itxazından məhrum edilməsin. O idi ki, hökumət Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir uyezdindən ibarət olan Qarabağı xüsusi bir general-qubernatorluq şəklinə salmaq əmrini lazım və vacib bildi. Mərkəzi hökumətin vəkili yerində olan general-qubernatora hökumətdən bir para fövqəladə ixtiyarat veriləcəkdir ki, Qarabağın fövqəladə halətini adi bir surətə salmaq yolunda o ixtiyaratdan istifadələr etsin.

Təkrar edirik ki, aclıq, azar, yolsuzluq, əmniyyətsizlik şuriş, narazılıq və sair bu kibi hadisələrdən əmələ gələn bu fövqəladə halət Andronik avanyurasının nəticəsindən nəşət edən bir vaqiədir. Benaəleyh hökumətimizin Qarabağda general-qubernatorluq təşkil etmək tədbirinə dəxi Andronik hərəkəti səbəb olmuşdur.

Andronikin Azərbaycana hüduduna soxulub da vəhşiliklər icra edərkən, hökumətimiz Ararat hökumətinə müraciət edib Andronikin oraya qarşı münasibəti nə olduğunu istifsar etdi. Ararat hökuməti isə Androniki rədd edib: "Onun bizə heç bir dəxli yoxdur, xudsər bir bir adamdır" – deyə, cavab verdi. Andronikin dəxi öz tərəfindən erməni hökumətindən "küsdügünü" təkrar-təkrar söyləməgi mövqeyi gələn yerlərdə müzaiqə etmiyordu.

Erməni hökumətinin Andronikdən üz döndərib də incimiş olduğuna və bunun da o hökumətdən küsməginə safdıranları və ya işbilənlərin nə nəzərlə baxdıqları başqa məsələdir. Hər halda, biz erməni hökumətinin sözlərinə inanmağı qərar qoyub və Andronikin erməni hökumətinə dəxli olmayan xudsər bir quldur olduğu nöqteyi-nəzərdə dayanıb öz torpağımızı və öz əhlimizi bu quldurların əlindən xilas etməgə çalışdıq və bilaxirə bu işdə müvəffəqiyyət hasil etdik. Bədən Androniklər tərəfindən vurulmuş zərbələrin yaralarını sağaltmaq üçün o zərbələrə uğramış olan yerlərimizi öz məsləhətimizə görə xüsusi bir idarə altına alıb general-qubernatorluq təşkil etmək istədik.

Halbuki, bizim bu tədbirimiz Ararat hökumətinə xoş gəlməyibdir. Bu xüsusda protest edib "Ermənistan ərazisi hüququna təcavüz" olunur deyir.

Bu əhvalatı eşitmiş olan "Naşe vremya" adınlı erməni qəzetəsi ki, Bakı erməni milli komitəsinin naşiri-əfkarıdır – birdən-birə qorxuya düşüb – Allah eləməsin ki, bu işin axırı müharibəyə müncər ola – deyib, nədənsə "müharibə" sözünü tez meydana atır və gözləmədigimiz bir halda erməni cümhuriyyətinin halı fəna və müşkil bir surətdə təsvir edib, müharibə olursa, bu hal daha fəna bir şəklə girəcəgindən bəhs ediyor və bəhsinə "ciddiyyət şəkli" vermək üçün ümumazərbaycan demokratiyasına müraciət edərək "provakatsiyaya uymayun" – deyə xəbərdarlıq etməklə hökumətimizin tədbirini fitnə və provakatsiya adlandırır.

Quldur Andronikin vəhşiliklərinə qarşı məzəmmət yolu ilə bir söz belə ağzına almayan və biləaks Andronikin bir erməni "qəhrəmanı" sifətilə sənaxanı olan və onun bütün vəhşiliklərini təsvibə çalışan bu qəzetə, hökumətimizin bu tədbirini gözü yummadan fitnə adlandırıb məsələnin nədən nəşət etdigi haqqında bir söz belə söyləmiyor və tez "müharibə" sözünü meydani-mətbuata çıxardıb bu sözlə Azərbaycan demokratiyasını qorxutmaqmı istiyor ki, bəlkə bu qorxu yüzindən Qarabağın general-qubernatorluq təşkilinə xələl yetirilsin və ya həqiqətənmi bu işin müharibəyə müncər olacağından və müharibə olursa erməni cümhuriyyətinin halı fəna bir surətə düşəcəgindən təşvişə düşüb – burası bir dürlü anlaşılmıyor. Bəlkə, tərəfi-müqabilin "zəif olduğunu" bizə işarə edib də bizi davaya qızışdırır ki, müharibəni biz başlayaq və bassaq da, basmasaq da təqsir bizim üzərimizə düşsün! Hər halda bu qəzetənin tez "müharibə" sözünü ortaya salması və erməni hökumətini zəif bir halda təsvir etməsi şayanidiqqətdir. Bizə qalırsa, əminik ki, hökumətimiz Qarabağda general-qubernatorluq təşkil etmək istərkən erməni hökuməti ilə müharibəyə girmək ehtimalını heç xəyalına belə gətirməmişdir. Çünki Qarabağ bizim – biz bizim. Öz yerimizdə, öz torpağımızda nə səyaq "adminstratif" şəkillər yapacağımız bizim öz işimizdir. Erməni hökumətinin və ya erməni milli komitəsinin bu cürə işlərimizə qatışmağı heç bir həqləri olmadığını özləri bilmiyorlarsa, o halda siyasətin ibtidai qaydalarından bixəbər və cahildirlər. Özgələrdən öyrənsinlər və əlavə dutalım ki, Qarabağda general-qubernatorluq təşkili "erməni ərazisi mənafeinə toxunur" həman saət müharibə etmək lazım gəlirmi? Və bir də erməni-gürcü müharibəsindən sonra, hər tərəfin və müttəfiqlər komandasının da rəyi bu cürə hüdud məsələlərini konfranslarda, danışıqla, sülh və sazişlə həll etmək qərarı itxaz olduqdan sonra hüdud məsələsinə aid olan bu işdə dəxi saziş və danışıq

lazımından bəhs etmək əvəzinə, tez müharibə sözünü araya salmaq da "Naşe vremya"nın məqsədi, öz fitnəkarlıq xasiyyətini bildirməkdirsə, zəhmət çəkməsin, özünüz ondan da bilirik, yox, bizi qızışdırmaq və ya sınamaq isə, onu da anlıyacaq qədər dərrakə və fərasətiniz vardır.

Aramızda müharibə olarsa, erməni cümhuriyyətinin halı fəna olacağına şübhəmiz yoxdur. Likən hər halda biz müharibə xəyalında degilik. Biz öz daxili islahat işlərimiz ilə məşğuluq. Müharibə etmək istəseydik əlimizdə böyük bəhanəmiz dəxi vardı. Halbuki, indi müharibəyə heç bir tərəfin heç bir bəhanəsi yoxdur. Ararat hökuməti şükr eyləsən ki, biz onun – "Andronikin bizə dəxli yoxdur" sözünə inanıb da Androniki xudsər bir quldur sifətilə torpağımızdan rədd etdik. İndi də o quldurun hərəkati-vəhşiyanəsindən dolayı əhalimizə varid olan zərər və ziyanlar rəf etmək işilə məşğuluq. Əgər bizim bu işimizdən erməni cümhuriyyətinə və erməni "ərazisinə" bir xələl yetirsə bu xüsusda göz yummadan protest etmək və ya müharibədən söz salmaq, fitnə və pravakatorluqdan başqa bir şey degildir.

*Hacıbəyli Əziz.*

*Səh. 4.* **Qarabağa Ərzaq Nəzarəti tərəfindən vəkil göndərilməsi**

Ərzaq Nəzarəti Qarabağ mahalında, yəni Cavanşir, Şuşa, Zəngəzur və Qaryagin uyezdlərində ərzaq işlərini qaydaya salmaq üçün öz tərəfindən bir nəfər vəkil gndərməgi təhti-qərara almışdır. Bu vəkil özü ilə həman mahalların əhalisinə paylamaq üçün külli miqdarda ərzaq və sair zəruri mal aparacaq.

***"Azərbaycan" qəzeti, №103 2 şəbat 1919***

*Səh. 3.* **Azərbaycan və Ermənistan.**

Azərbaycan hökumətinin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını xüsusi bir ceneral-qubernatorluğa ayırması münasibətilə Ermənistan hökumətinin protesto etdigi xəbər verilmişdi. Şimdi Ermənistan hökumətinin protestosuna cavab olaraq Azərbaycan hökuməti Ermənistan xariciyə nazirinə böylə bir teleqraf göndərmişdir: İrəvan: Ermənistan hökumətinin xariciyə Nazirinə. Azərbaycan Cümhuriyyətinin Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur uyezdlərini müvəqqət ceneral-qubernatorluğa ayırması qərarına görə sizin hökumətinizin protestosu əsassızdır. Çünki məzkur qəzalar Azərbaycanın ayrılmaz parçalarıdır. Azərbaycan hökuməti ali idarə qanununca öz torpağında olan əhalisinin bilafərq millət və məzhəb həyatını, namusunu və malını məsuliyyətsiz adamların keyf mai-

tasından mühafizə etməsi bir tək hüququ degil, hətta məzvi (مضوی) vəzifəsidir. Buna görə bizim hökumətimizin məzkur qəzalara ceneral-qubernator təyin etməsi Ermənistan hökumətinin hüquqi-mülkiyəsinə təcavüz degildir. Bilaəks sizin hökumətinizin bu münasibətlə protesto etməsi bizim daxili işlərimizə müdaxilə etmək təşəbbüsü olmaq üzrə həqqi-hakimiyyətimizə təcavüz deməkdir.

Nömrə 176 – 31 yanvar
Xariciyə Naziri əvəzinə
Ədil xan Ziyadxanov.

***"Azərbaycan" qəzeti, №104. 3 şəbat 1919***

*Səh. 2.* **Məqsədləri nədir?**

Bu günlərdə Ermənistan hökuməti namından Ermənistan xariciyə naziri Tiqranyanın hökumətimizə çəkdigi protesto teleqramı zənnimcə hamuyu təəccübləndirsə gərəkdir. Ələlxüsus teleqramın son cümləsindəki "Ermənistanın ərazi hüququna təcavüz" ibarəsi təəccüb degil, heyrətimizi moucib oluyor. Məsələ yenə qara bəxtli Qarabağın məsələsidir. Nüfuzca müsəlman əhalisi erməni əhalisindən bir neçə kərə artıq olduğunu erməni statistiqçiləri də etiraf etdigi bir halda mövqeyi-coğrafiyası ilə Azərbaycan təbii bir sərhədli olduğu göz qabağında ikən və imdiki Azərbaycanı təşkil edən xanlıqların içində Qarabağ xanlığı tarixdə ən məşhurlarından ədd olunurkən bu gün erməni milləti və onun bin dürlü bəla və məşəqqət ilə həqqi-istiqlal qazanmış hökuməti yenə də gözlərini Qarabağdan çəkmək istəmiyor və orayı idarə etmək üçün olunan təşbişlərə qarşu protesto ediyor. Bu cəsarətə artıq siyasi protsto degil, başqa dövlətin daxili idarəsinə qarışmaq namı verilməlidir ki, buna da heç bir müstəqil hökumət təhəmmül edəməz. Ələlxüsus Ermənistan kibi yeni törəmiş, gələcək mövcudiyyəti əsaslı şübhələri mövcub olaraq ərazi hüdudu bir işareyi-sualdan (?) ibarət olan bir dövlət qomşusunun dxili hərəkatını xaricdən tənqidə qalxışması qətiyyən lüzumsuzdur. Ermənistan böylə bir təşbişdə bulunarsa açıqdan-açığa "nə bən yaşayacağam, nə səni yaşamağa qoyacağam" – demiş oluyor. Ermənistanın Qarabağa ümid etməsi degil "samoopredeleniya" əsasına hətta ən ibtidai məntiqə belə sığmaz bir röyadır ki, bu röya təbir edilərsə nəticədə yenə dəhşətli mənzərələr, yenə mədəniyyət və ülfət yerinə xərabələr görünər. Hal-hazırda Ermənistanın cüzvi olan bir çox yerlər gərək əhalinin milliyyəti etibarilə, gərək tarixi vəsiqələrin şəhadətilə Azərbaycanın məhz dostluq və asayişin xələldar olmaması

niyyətilə və hər üç cümhuriyyətin qazandığı həqqi-istiqlalın möhkəmləşməsi xatirəsi üçün o yerlər barəsində bir kəlmə olsun danışmuyur. Çünki əgər qomşu cümhuriyyətlərin arası pozulursa, bundan şübhəsiz bir yabançı qüvvə müstəfid olacağı bədihidir.

Bu gün Azərbaycan hökuməti əgər Şuşa və Cavanşir qəzalarını bir general-qubernator təhti-idarəsində dolandırmaq istiyorsa, bundan yeganə məqsəd yalnız oralarda asayiş və intizam bərpa edib neçə vaxtdan bəri asudəlik yüzi görməyən əhaliyi yenidən rahət və mədəni yaşamağa dəvət etməkdir. Böylə bir təşbişin önünə çıxmış asayiş və intizam tərəfdarı olan bir cümhuriyyətdən degil, pərişanlıqdan istifadə edib qara fikirlərini yürütmək xülyasında olan macərapərəstlərdən gözlənməlidir.

Bir dəfə diqqət olunsun: Azərbaycan kəndi daxilində olan iki mahalı idarə etmək üçün general-qubernator təyin ediyormuş. Bu isə başqa bir qomşu dövlətin "ərazi hüququna təcavüz" imiş. Bəncə burada məntiq aramaq böylə lazım degil. Yalnız bunu düşünməlidir ki, qurdun qarnı doymaq üçün quzuya hər nə nəhv ilə olursa bir günah, bir təqsir ixtira etməlidir. Likən Azərbaycan millətinin də öyləcə sadədil quzulardan olmadığını kimsə sübut edəməz.

Heç olmazsa bunu düşünməli idi ki, Qarabağa general-qubernator təyin etmək orayı Paris konfransının qoyacağı qanunların təhtindən çıxarmaq degildir. Həpimiz ədalətinə inandığımız o məhkəmənin mübahisəli ərazi haqqında çıxardığı qərardadlara qədər hər hökumət sərhəddi daxilində kəndi başına idarə etməlidir. Bu idarəyə qarışmaq qomşu dövlətin beynəlmiləl hüququna riayətdən imtina etməkdir. Məsələyə bitərəfanə baxan olursa, bizim "Ermənistanın ərazi hüququna təcavüzümüzü" degil, onların Azərbaycanın beynəlmiləl hüququna təcavüzünü görər.

*Əli Yusif.*

***"Azərbaycan" qəzeti, №105 4 Şəbat 1919.***

Burada ötən nömrədəki (104) "Məqsədləri nədir?" məqaləsi olduğu kimi təkrar verilib.

***"Azərbaycan" qəzeti, №107. 6 şəbat 1919.***

*Səh. 4.* **Andronik.**

Andronik Ermənistan hökumətinə təklif ediyor ki, Zəngəzurda erməni idarəsi təsis etsinlər. General yorğun olduğuna görə Zəngəzurdan gedəcəgini bildiriyor.

Karvansara namı ilə yad edilən kənd şimdi ermənilər tərəfindən "Yidjevan" deyə təsmiyə edilmişdir. Erməni Ceneral Qaraxanov Ermənistan hökuməti tərəfindən sülh konransına nümayəndə təyin edilib. Parisdə öncə gedən erməni nümayəndələrinə qoşulacaqdır.

***"Azərbaycan" qəzeti, №109. 9 Şəbat 1919.***

*Səh. 3.*

Şuşa-Zəngəzur, Cəbrayıl-Cavanşir General-qubernatorluğu.

Azərbaycan Cümhuriyyət hökumətinin qərardadı ilə Şuşa-Zəngəzur-Cəbrayıl-Cavanşir qəzaları xüsusi bir General-qubernatorluğa ayrılaraq Doktor Xosrov paşa bəy Soltanov həzrətləri geniş vəkalət ilə oraya General-qubernator təyin edilmişlərdir. Soltanov cənabları təşkilat yapmaqda mahir, yorulmaq bilməyən bir camaat xadimi, xalqın ruhunu, ehtiyacını bilən bir ictimai təbib olub neçə yildən bəri türk-islam xalqının məhəbbətini qazanmış çalışqan bir zat olaraq tanınmışdır.

Qars fəlakəti, Ərdəhan dəhşətləri, Trabzon vəhşətləri əsnasında hər tərəfdən düşmənlər ilə məha olduğu hər dəqiqə hər cəhətdən bin maniələr çıxarıldığı bir zaman Xosrov bəy həzrətlərinin ibraz etmiş olduqları ciddiyyət və fəaliyyət bizi əmin ediyor ki, bu dəfə də öhdlərinə düşən ağır vəzifəyi həsən ifa edəcəkdir.

Yeni general-qubernator həzrətləri şənbə günü gecə saat 12-də məhəlli-məmurlarına əzimət etmişlərdir. Onunla bərabər İngiltərə komandanlığından mayor Monq Meyson, kapitan Darbişer və 6 zabit, dörd xidmətçi əsgər ilə gediyorlar.

Bunlarla bərabər Bakıda bulunan İngiliz qoşunu. əsgəri dəxi gediyor; fəqət. . bədən geməyib Yevlax müqəffənidə qalacaqdır.

Soltanov həzrətləri bu vəzifəyi hkumətin təkrar təklifindən ziyadə parlaman məbusanları və bütün mahal əhalisi nümayəndələrinin tələb dərəcəsinə varmış israrı nəticəsində öhdələrinə almışlardır və bu gün oraya məhz işləmək və yenə işləmək üçün gediyorlar.

General-qubernator həzrətləri gələcək vəzifələrinin həsən ifası uğrunda fəaliyyət və tədbirləri haqqında görüş əsnasında lütfən bizə böylə məlumat verdilər:

Bən adətən danışmaqdan ziyadə işləməyi seviyorum. Ona görə vətəndaşlarının ricasını qəbulla oraya çalışmağa, işləməgə gediyorum. Orada praktik iş çoxdur; fəaliyyətə geniş meydan açılıyor. Bu da bənim üçün çox xoşdur.

Üsuli-idareyi-Soltanov həzrətləri böylə təsəvvür ediyorlar: Məhəlli-iqamət, əlbəttə, Şuşa şəhəri oluyor. Buradan Şuşaya gedərkən General-

qubernator həzrətləri mümkün olan qədər Şuşayadək yollarda əhali ilə görüşüb dəlil, dəlayil, nəsihətlərlə camaatı işə aşina edəcəklərdir.

Şuşaya getdikdən sonra bir-iki gün orada qalaraq sonra Cəbrayıl, Zəngəzur qəzalarını gəzəcəklərdir. Səfərdən qayıtdıqdan sonra Daxiliyə Naziri həzrətlərinin rizası ilə Şuşada bir şura təsis edəcəklərdir. Məzkur şura hər qəzadan 5 nəfər olmaq üzərə 20 adamdan ibarət olacaqdır. Hər qəzadan 5 nümayəndənin üçü kəndli, biri tacir, biri bəy olacaqdır. General-qubernator həzrətləri təkrar ediyorlar ki, kəndli nümayəndələri xalqı zorluyan qolu çomaq, camaat içində dövlət və sair ilə nüfuz tapmış adamlardan olmuyub, biləks, rəhm, mürvət, insaf, ədalət və mehribanlıq ilə tanınmış kənd nümayəndələrindən olacaqlardır. Məzkur şura hər iki həftədə bir dəfə yığışıb bir həftə müşavirədə bulunacaqdır.

Burada millət, din fərqi qoyulmayacaqdır. Mahalda istər müsəlman, istər erməni, istər sair millət olsun – hər kəs camaatın mənfəətini füqərayi-kasibənin xeyrinə çalışmaq istəsə, hər kəs camaat mənafeini kəndi şəxsi mənafeindən yuca tutub ciddən çalışmaq arzusunda olsa, General-qubernator həzrətləri özü məəlməmmnuniyə işə cəlb edəcəklərdir. General-qubernatorluq dairəsində bilafərq millət, məzhəb və din, hamuyu qənaətləndirəcək, razı bir ağacıq, demokratik bir idarə paydar ediləcəkdir.

Şuşada türk dilində "Cümhuriyət" adlı bir qəzetə çıxarılacaqdır. Hətta qəzetəyə böylə hanki millət həvəslə iştirak etmək istəsə qapu açıq olacaqdır.

General-qubernator həzrətləri mahalda fuqəraya satdırmaq üçün külli miqdarda qənd, çay, sabun və sair zəruri şeylər aparıyorlar. Məzkur şeylər mahalın ən fəqir əhalisinə mənfəətsiz (mayasına) satılacaqdır.

Bundan əlavə, mahalda xəstəlik olduğundan General-qubernator həzrətləri üç təbib, bir neçə felşer, lazım olan miqdarda dərman (dava) və yüz dənə çarpayə aparıyorlar. Şuşada füqəra üçün 100 yataqlıq bir misri xəstəxana açılacaqdır.

Məmləkətin ən ağır, millətin ən fəlakətli bir dövr keçirməkdə olduğu son 4 il ərzində özlərini ciddi fəaliyyətlərilə tanıtmış olan Soltanov həzrətlərinin bu dəfə yenə camaatın ağır günlərində fəryada çatacaq, vəzifəsini həsən ifa edəcəginə ümidvarız.

Cəlil

***"Azərbaycan" qəzeti, №113 13 şəbat***

*Səh. 1.* **Başlanır!**

Erməni quldurlarının – istər Andronik olsun, istər onu göndərənlər olsun hərəkati şeytaniyəsindən dolayı Qarabağ üzərində əmələ gəlmiş olan şərait fövqəladə nəticəsi olaraq Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl uyezdlərindən ibarət olan Qarabağı xüsusi bir general-qubernatorluq halına salıb bu ağır məmuriyyəti Xosrov bəy Soltanov cənablarına tapşırdıq. Bizim bu əməlimiz ki, daxili işlərimizə aid bir əmrdir və heç bir kəsə dəxl və təsərrüfü yoxdur. Ararat hökumətini deyindirdi. Ararat hökuməti həmişəki adəti üzrə haqsız olaraq deyindi. Likən hökumətimizdən həq və sabit bir cavabşafı alıb hələlik rəsmən kiriməyə məcbur oldu.

Fəqəd Ararat hökuməti ağzını yumdusa da əvəzində qeyri-rəsmi ağzını açdı. O ağız paytaxtımızda çıxan və üzərimizə bilamühabə və beduni-həya sögüşlər göndərmək cürətində bulunan daşnakların "Vperyod" adınlu qəzətə adlandırdıqları küçə vərəqləridir.

Bu qəzətə Qarabağa General-qbernator təyinindən bəhslə "başı" (ibtida) sərlövhəli bir məqalə yazıb ortaya fitnə və şeytənət yumağı atıb Qarabağ ermənilərini bu sözlə Azərbaycana qarşı iğtişaşa dəvət edir.

"Qarabağda Azərbaycan general-qubernatorun peyda olması yerli əhalinin hissiyyati-xüsumətpərvəranəsinə moucub olmaya bilməz". "Müxtəsər, yerli əhali tərəfindən tanınmaq istənilməyən bu yeni hökumət, Qarabağ ermənilərinin ona qarşı müsəlləh üsyanı üçün asan bir fitnə olacaqdır."

"Azərbaycan hökumətinin böylə imperyalizm məqsədinin nəticəsi ancaq qan tökülməsinə və mümkündür ki, Qarabağ ermənilərinin hürriyyət yolundakı mübarizəsinə kömək etmək istəyən erməni hökuməti ilə Azərbaycan hökuməti arasında müharibə müsadimələrinə müncər olar".

Bu sözlərdən aşkardır ki, daşnaqlar, qəzetələri vasitəsilə Qarabağ ermənilərini Azərbaycana qarşı müsəlləh üsyana təşviq və təhrik edirlər. Deyirlər ki, qorxmuyun, siz üsyan başladıqdan sonra erməni hökuməti bəhanə tapıb sizə kməyə gələr.

Bu üsyanın müsəlləh olacağına da qəzətə əmindir. Çünki Qarabağ ermənilərinin daşnaqlar tərəfindən mükəmməl surətdə silahlanmalarını gözəlcə biliyorlar. Bəli! Bunu biz də biliyoruq; və burasını da yaxşıca biliyoruq ki, madam ki, erməni milləti içində daşnaq partiyası mövcuddur, nəinki Qarabağda, bəlkə ümum Qafqazda müsəlləh iğtişaş davam edəcəkdir. Millətin gözlərini daşnaqların siyasətini görməmək dərəcədə örtmüş olan bu partiya erməni millətini tamam-kamal məhv və nabud etdirməyincə şeytənətindən əl çəkmiyəcəkdir.

Bizim öz yerlərimizə sahib olmaq əməlimizi daşnaqlar "imperyalizm məqsədi" deyə adlandırırlar; çünki Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın yerləri ermənilərin yeri imiş! Və o qədər mübahisəli imiş ki, onun həllini Paris konfransından gözləmək lazım gəlirmiş!

Likən Qarabağ məsələsinin həllini Paris sülh konfransından gözləmək icab etdiyini, saf dürunlar nəzərində "sülhcuyanə" göünmək qəsdilə ortaya atan daşnaqlar bizi inandıra bilməzlər ki, o konfransın hökmünə tabe olub da birkərəlik kiriyəcəkdir.

Azərbaycanı Azərbaycan türklərinə tapşırmış və erməni quldurlarını Azərbaycan torpağı olan Qarabağdan qovdurmuş olan General Tomson və milyonların sözlərinə qulaq asmaq və nəzəri-etinaya olmaq istəməyən daşnaqlar, əminik ki, Paris konfransında haq və doğru olacağını ümid etdiginiz hökm və qərardadlarını pəsənd etməyib bizləri. Ümumi-Qafqazı və bəlkə bütün dünyanı müsəlləh üsyanları ilə daim təciz etmək qəsdində olacaqlar. Özgənin iki gözünü çıxartmaq üçün özünün bir gözünü qurban etmək politikası yolunu dutmuş olan daşnaqlardan, nəticəsi hər vəqt erməni millətini fəlakətdən-fəlakətə salan "müsəlləh üsyan"lardan başqa özgə bir qabiliyyət gözləmək üçün calul və qabil olmaq lazım gəlir, pis başlanır!

Daşnaqlar Qarabağ ermənilərini bizə qarşı üsyana dəvət edirlər; bu üsyanın açıq-açığına qəzətə vasitəsilə elanı daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir. Paytaxtımızda bizimlə diz-dizə oturan daşnaqların bihəyalığı bu dərəcə olduğu halda, özgə yerlərdə oturanlarınkı nə dərəcədə olacağını təsəvvür gətirmək olar.

Gözlərimizi dörd açmalıyıq: ermənilərə etibar yoxdur, çünki "millət xadimi" olan daşnaqlar bu milləti etibarsız bir dərəcəyə çatdırdılar; "müsəlləh üsyanlar" törətmək və müharibəyə səbəb olmaq üçün bunlar aşkara və gizlin işlər görüb bizi qafil edə bilərlər. Bu qəflətin nəticəsində başımıza bəlalar gələ bilər. müsəlləh üsyanlar çıxartmaq işində çoxdan bəri təcrübə hasil etməklə "ustad" olmuş daşnaqların hər bir əməlinə şübhə ilə baxıb zəif yerlərimizi qüvvətləndirmək ümum bədənimizi xainanə zərbələrə qarşı zirehpuş etmək işində möhkəm durmalıyıq.

Lənət başlayana gəlsin!

Hacıbəyli Əziz.

*Səh. 2.* **Ermənistan hökumətinə nota.**

Azərbaycan Cümhuriyyəti Xariciyyə naziri Ermənistan hökumətinə bu məzmunda bir nota göndərmişdir:

İrəvan – Ermənistan Cümhuriyyəti Xariciyə nazirinə. Son günlərdə Azərbaycan hökumətinin aldığı məlumatdan anlaşılır ki, erməni dəstələri başda əfsərlər olmaq üzərə Göycə gölü yanında Azərbaycan torpağına keçərək bu yaxınlarda Qızıl Vəng, Subatan Zağalı, Şəhab və sair kəndləri dağıtmışlardır. Məzkur kəndlərin kişilərinin bir hissəsi qətl edilib, bir hissəsi isə qaçmaqla (canını) qurtarmışdır. Bir çox arvadlara təcavüz edilmişdir. Həman məlumat bu sözlərlə qurtarır ki, onu da olduğu kimi təfsilən bildirirəm:

Şəhab kəndi sakinlərindən bir arvad bir çox təcavüzlərə məruz qaldıqdan sonra, xəbər vermişdir ki, Şəhab kəndində bütün kişilər qətl edilib, uşaqları isə təndirə salıb yandırmışlardır. Sonra kənddən səkkiz arvad çıxarıb onların namusuna təcavüz etdikdən sonra buraxmışlardır. Göycədə vaqe olan bu dəhşətlər barəsində müxtəlif yerlərdən gələn xəbərlər yekdigərinə müvafiqət ediyor. Ona görə bu işlərin vaqe olduğuna heç şübhə yeri qalmıyor. Azərbaycan toprağında müntəzimən erməni qətəatı tərəfindən bu cür hərəkətlərin icrası və dinclik ilə yaşayan müsəlman başına bu qədər fəlakətlərin gəldigi bizim hökuməti müşkil və çıxılmaz bir halə salıyor. Millətin artıq səbr kasası dolmuş, bizim camaat hökumət ünvanına kinayələr atıb deyirlər ki, bu cür vəhşilərin zülmlərinin qarşısına çıxmağa hökumətdə güc yoxdur və hökumət yalnız protesto teleqrafları ilə iktifa ediyor. Hökumətimiz ehtiyat ediyor ki, öylə bir zaman yetişər ki, ehtirasat ilə əsaslanmış və günü-gündən kəsbi-şiddət etməkdə olan xalq həyəcanının qabağını ala bilməz və bu həyəcanı fitnəkarlıq ilə alovlandıraraq qabağına gələn hər şeyi məhv edər. Hərgah Ermənistan hökuməti qeyri-məsul şəxslər tərəfindən degil, məsul erməni qoşunları tərəfindən müsəlmanlara rəva görülən bu qədər zülmlərin qabağını almaq üçün tədbirlər itxaz etməzsə və Azərbaycan hüququna urulan bu zərbələrin önü alınmazsa və bu işləri görən müqəssirləri cəzasına çatdırmazsa o zaman bizim hökumətimiz məcbur olacaqdır ki, bu işdən çıxacaq məsuliyyəti öhdəsindən atsın. Bu notanın surəti eyni zamanda Qafqasiyadakı müttəfiqlər komandanlığına verilmişdir.

Xariciyə naziri əvəzinə:
Adil xan Ziyadxanov

**Vükəla şurasında**

Ağdamdan rəisi-vükəla naminə alınan teleqramın surəti. Yeni general-qubernatorun təyini əhali tərəfindən məmnuniyyət və rizaməndlik ilə qarşılaşmışdır. Yevlaxdan Ağdamadək bütün yolda məclisi-məbusan və hökumət şərəfinə nümayiş olmuşdur. Yüzlər ilə süvarilər bizim arvadlarımızı yol uzaq ediyordu. Cümə günü Şuşa şəhərində qəza qayimməqamları və millət xadimləri müşavirəsi dəvət edilmişdir. Burada idarə barəsində müzakirat da bulunmuşdur. Əlbəttə ki, müşavirə nəticəsi xüsusi hökumət deklarasiyasında elan ediləcəkdir. Türk lisanında olmasının təsdiqi haqqında məruzəsindən sonra qət edilmişdir! Komandanın türkcə olması təsdiq olunsun.

*Səh. 4.* **Ərzaq işləri. Qarabağ bezləri.**

Ərzaq nəzarətinin Qarabağ Ceneral-qubernatorluğunda olan vəkili ərzaq nəzarətinə yazır ki, Qarabağ ceneral-qubernatorluğuna buraxılan bezləri təhqiq etməgə başladım. Birinci növbədə məhəlli uyezdini naçalniklərə və ictimai müəssisələrə təmimnamələr göndərib nə zaman, nə qayda ilə və harada əhali ehtiyacı üçün alınmış manufakturlar haqqında məlumat verilməsini istədim. İndiyə qədər üç ittifaq kəşf edilmişdir ki, ticarət və sənaye nəzarətinin icazəsilə buraxılan bezlər gedib yerinə çatmamışdır. Birincisi, 25 min arşın bezdir ki, Şuşa şəhər ərzaq komitəsi və onun sədri Məhəmməd Təqiev ixtiyarına buraxılmışdır. İkincisi, 10 min arşın bez və ağ Malıbəyli kənd camaatının vəkili Mir Mehdi Ağamirzadəyə buraxılmışdır. Bundan ancaq Malıbəyliyə min arşın bez və 400 arşın ağ gəlib çatmışdır. Üçüncüsü, Zəngəzur uyezdi Müsəlmanlar kənd camaatına 4000 arşın buraxılan bezdir. Hər üç ittifaqda cinayət edən şəxslər Ceneral-qubernator cənabları tərəfindən qanuni məsuliyyətə cəlb edilmişlər.

*Səh. 4.* **Qaçqınlar əhvalı**

Omuri-xeyriyyə nəzarəti müdiri Səfərov Şuşadan Məclisi-məbusan sədri namına böylə bir teleqraf göndərmişdir: "Qarabağda qaçqın məsələsi daimi bir hal kəsb etmişdir. Ərzaq şeylərinin məccani paylanması hamu qaçqınların əxlaqını fəna bir hala salmışdır. Ərzaq şeylərinin bu cür təqsimində gözlənən ciddi müavinət görünmiyor. İnsafsız müftəxorlar vücuda gəlmişdir ki, pulsuz ərzaq şeyləri verilməsini tələb edirlər. Bununla da qaçqınlar arasında müftəxorluq kəsbi-şiddət etməkdədir. Hər gün yüzlərcə bədəni salamat adamlar omuri-xeyriyyə idarəsi ətrafına toplaşıb ərzaq şeyləri verilməsini tələb edirlər. Evsiz-eşiksiz qalanları təmin etmək

mümkün olmadığından o biçarələr müavinətsiz qalırlar. Qocalardan və uşaqlardan ötəri darülşəfqə vücuda gətirib bədəni salamat olanları işə cəlb etmək əvəzinə omuri-xeyriyyə idirasə indiyə qədər ancaq pay təqsim etməgə məşğul olmuşdur. Bununla bərabər Qarabağın hamu qaçqınları toxumaq işini yaxşı bilirlər. Odur ki, bunları işə cəlb etmək mümkün olar və onlara verilən paylar da zəhmətaqq verilir ki, bununla da hökuməti böyük məsarifdən azad etmək olar. Çünki qaçqınları doyurmaq üçün yüz milyonlarca pul lazımdır. Keçmişlərdə qışlağa köçən köçərilər özlərini dağılmışlar və talanmışlar cərgəsində hesab edib Şərur və Zəngəzur uyezdlərindən olduqlarına görə təxəssisat tələb edib deyirlər ki, "vəqti ki hökumət verir, nə üçün olmuyaq?".

Qaçqınlar aldıqları şeylərə pul verməyə məcbur edilməsələr heç bir tədbir ilə xəyanətin qabağını almaq olmayacaqdır. Bu da qaçqınları işə cəlb etməklə mümkün olar. Hərgah böylə olursa o zaman həqiqətdə müavinətə ehtiyacı olanlar üçün darülşəfqə və iaişə məntəqələri açmaq olar. Qarabağda ucuz qiymət ilə külli miqdarda yun və pambıq vardır. Qaçqınları işə qoymaq ilə hökumət bir zərər etməz, eyni zamanda müftəxorluğa bais olmuyub həqiqi müavinət göstərməklə bərabər mənfəətsiz və küllü məsarifdən özü də azad olar. Bundan əlavə Qarabağda əkilməmiş xəzinə yerləri vardır. Bu yerlər boş qalmasın deyə qaçqınları əkinçiligə də cəlb etmək olar. Əhvalatı sizə xəbər verib vəqt az olduğuna görə tezliklə binagüzarlıqda bulunmağınızı xahiş ediyorum".

***"Azərbaycan" qəzeti, №148. 2 aprel 1919***

*Səh. 1.* **İcbari qərardad**

Ərzaq təşkilatının ikinci maddəsi müvəqqəti hökumət qərardadının 4-cü maddəsi ərzaq işləri barəsində olan xüsusi şuranın 9-cu və 10-cu maddələrinə görə 1915-ci il qanununun 1760, 1917-ci il qanununun 358 və 1073-cü maddəsinə görə Qarabağ General-qubernatorluğundan: Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur mahallarından hər növ taxıl çıxarmaq qadağandır.

Bu icrayi-qərardadı xələldar edən şəxslər 29-cu mddə moucibincə təhti-məsuliyyətə alınacaqdırlar.

30 mart 1919.

Ərzaq naziri: K.Lizqar.

*Səh. 3.* **Sair şəhərlərdə**

(31 mart münasibəti ilə)

Mərkəzi tətil komitəsi və “Musavat” firqəsi naminə Gəncə, Şuşa, Qazaq və Bərdədən bir çox teleqraflar gəlib. Məzkur şəhərlərdə dəxi ümumi tətil davam etdigi və camaatın məscidlərə cəm olub dua və Quran xətm edildiği bildirilmişdir.

*Səh. 4.* **Ərzaq işləri**

Ərzaq nəzarəti Şuşa, Zəngəzur, Cavad və Cəbrayıl uyezdləri General-qubernatoruna xəbər verir ki, Cəbrayıl qəza qayımməqamının yazdığına görə Ərzaq nəzarəti tərəfindən Cəbrayıl uyezdi əhalisi arasında paylanmaqdan ötəri Miralayev ixtiyarına buraxılan bezin yarısı 15000 arşın Cəbrayıl uyezdi əhalisi arasında arşını 5 manat 25 qəpikdən paylanmışdır. Bu barədə tədqiqatda bulunmağımızın nəticəsini xəbər verməginiz rica olunur.

*Səh. 4.* **Qarabağ haqqında İngiltərə əsgəri heyətində rəsmi məlumat**

İngiltərə komandanlığı bütün Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdləri əhalisinə icbari surətdə əməl etməkdən ötəri elan edir ki:

- 1919-cu il martın 10-dan Azərbaycan hökumətinin qətnaməsinə görə doktor Sultanov Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdlərinə general-qubernator təyin edilib İngiltərə komandanlığının müavinətindən istifadə edir.

- Davam edən qanunlar moucibincə bütün əhalinin ehtiyacını bilkülliyə rəf etməkdən ötəri General-qubernator nəzdində altı nəfər müsəlman və ermənidən ibarət bir şura təşkil edilir.

- İngiltərə komandanlığı nümayəndəsi sifətilə həmin şuraya İngiltərə heyətndən bir zabit daxil ola bilər.

- General-qubernatorluq dairəsində olan xidmətçilərin məvacibi və başqa xərclər Azərbaycan hökuməti xəzinəsindən verilir.

- Hamı mübahisəli məsələlər sülh konfransında həll ediləcəklərdir.

- General-qubernatorluq dairəsində olacaq əsgəri qətaat hərəkatı əvvəlcədən İngiltərə heyətinə xəbər verilməlidir.

- Bu məlumat ilə İngiltərə hökuməti göstərir ki, General-qubernatorluq dairəsində qanun və asayişi qoymaqdan ötəri General-qubernatora həvalə edilən vəzifələrə əməl edilən zaman General-qubernator tərəfindən və onun təşkilatlarından verilən hər bir əmrlərə, tədbirlərə bilatərəddüd

əməl etməlidir. İngiltərə komandanlığı hər bir qanuni tədbirlərə müavinət edəcəkdir.

Bakıdan İngiltərə qüvvəsi komandanı polkovnik D.Şattalovert.
2 aprel 1919 sənəsi. Bakı.

**Şuşa Müdafieyi-milliyyə heyəti tərəfindən.**

Müdafieyi-milliyyə heyəti-ictimaiyyəsi bununla ümum şəhər və qəza camaatına elan edir ki, Türk hökuməti şəhərimizdə hökumət etdigi vəqt özü üçün neçə nəfərdən mürəkkəb köməkçi və yaxud xəzinədən götürdüyü sırada əvvəl dəfə olaraq özünə xəzinədar qərar verdigi Saleh Hüseynov, ikinci olaraq İsgəndər Nəsirov isə üçüncü Seyid Məşədi Zülfüqar Axundov olub da Türk ordusu Qafqazdan çəkilənə kimi yox – bu günə kimi öz xəzinədarlığında davam etdigindən Müdafieyi-milliyyə heyəti-ictimaiyəsi Hilali-əhmər cəmiyyətilə bərabər lazım və vacib bildikdə bir dəstə müfəttiş komissiyası təşkil etsin. Həmin niyyəti qövldən felə götürüb zeyldə mühərrir doqquz nəfərdən ibarət bir müfəttiş komissiyası təşkil etdi. İştə müfəttiş komissiyası: Doktor Fərhad bəy Ağayev, Doktor Tağı Kərimov, Kərbəlayi Ələkbər bəy Səidəyov, Məşədi Məcid Süleymanov, İsa Səfərov, Məşədi Məhəmmədəli Hüseynov, İsmayıl Hacıyev, Məşədi Şirin Ələsgərov və Murtuza Əsədov. Balada mühərrir komissiya iki gicəgə ibarət olsun. Rəbbül-axər ayının 4-5-ci gecəsindən artıq diqqət və etina ilə məzkur Məşədi Zülfüqarovda olan istər hökumət binagüzarlığı ilə olan mədaxil-məxarici, istər müdafieyi-milliyyə üçün toplanan pulun və sərfinin haqq-hesabını layiqincə verdikdən əlavə neçə rəqəm və neçə rəqəmdə igirmi min manatdan ziyadə balada mühərrir Məşədi Zülfüqarın əlində ki, camaatdan bir kimsədə belə xəbərdar olmadığı hesabı götürüb təyin etdigimiz müfəttiş komissiyası haqq-hesabın artıq dərəcə münəzzəm olduğundan dolayı və şəhərimizdə əvvəl dəfə olaraq bu cür müsəlman içində hesab layiqli apardığını gördükdən izhari-təşəkkür etməklə bərabər Məşədi Zülfüqardan məmnun qaldıqlarını məclisə təqdim etdilər.

Məclis 62 nömrəli Müdafieyi-milliyyə heyəti-ictimaisi məzbətəsində qeyd etdikdən əlavə olaraq Məşədi Zülfüqardan izhari-təşəkkür edib də və camaata elan etməgi lazım və vacib bildi.

Müdafieyi-Milliyyə Cəmiyyətinin sədri: Kərim Mehmandarov.
Katib: Zeynəlabdin

**Erməni nümayəndəsi Şuşada**

Erməni teleqraf acentəligi aprelin dördündə xəbər verir ki, Ermənistan Şurayi-vükəlasının qətnaməsi və baş komandan general Tomsonun razılığına görə Mixail Arzumanov Şuşada İngiltərə komandanlığı nəzdində erməni siyasi nümayəndəsi təyin edilmişdir.

***"Azərbaycan" qəzeti, №153 9 neysan 1919***

*Səh. 4.* **Azərbaycanda füqəraya**

Şuşadan bizə yazırlar:

Novruz bayramı münasibətilə Şuşa müsəlman cəmiyyəti-xeyriyyəsi əhalinin yoxsul təbəqəsinə 4050 arşın bəzzaziyə malı, 25 put səbzə, 8 put yarım çay, 35 girvankə sabun, 68 put 30 girvankə buğda (qovurqa üçün) və hər nəfərə 20 manat pul paylamışdır. Bütün müstəhəqlər 2700 nəfər imişlər.

Bu əşyayı əhali arasında təqsimə Həmidə xanım Cavanşir və doktor Kərim bəy Mehmandarov cənabları çox səy etmişlərdir. Cəmiyyətin müvəffəqiyyətinə Qarabağ əsgəri valisi Xosrov Paşa bəy Soltanov cənabları dəxi artıq himmət göstərmişlər.

***"Azərbaycan" qəzeti, №154 10 neysan 1919***

*Səh. 4.* **Rüşvət və möhtəkirliyə çarə**

Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Soltanov həzrətləri mühərririnə Qarabağa dair verdiyi müfəssəl məlumatında rüşvətxor məmurlar və möhtəkir tacirlər barəsində nə kimi tədbirlər itxaz etdigini də söyləmişdir. Rüşvətxorlqda müttəhim olmuş beş nəfər pristav o cənabın hökmü ilə xidmətlərindən məzul olunaraq təhti-mühakiməyə alınmışdır. O, cənabın təsəvvürüncə kimdən nə miqdarda alınmış rüşvətlər sübut olunarsa, məhkəmənin qətnaməsilə haman rüşvətlər məhkum pristavlardan alınaraq sahiblərinə qaytarılasıdır.

Verə bilmədikləri halda məhkumların əmvali-mütəhərrikə və qeyri-mütəhərrikləri zəbt olunub satılacaq və bundan hasil məbləğ də sahiblərinə qaytarılacaqdır.

İştə rüşvətxorluğu əsasından baltalamaq üçün qubernatorun bu tədbiri ən gözəl bir çarədir.

Sabiq rus qubernatorları dövründə rüşvətxorluq adi işlərdən sayıldığı üçün hər polis məmuru vəzifə başında müəyyən bir rüşvət zoru ilə dayana bilirdi. Pristavlar qəza qayimməqamlarına, qubernatora ildə filan qədər "pişkəş" verərək yerlərini möhkəm möhkəmləşdirirdilər. Söz yox-

dur ki, bu peşkəşlərin müqabilində əvəzi biçarə əhalidən yüz minlərlə alınırdı. Təsadüfən rüşvətçi pristavdan qubernatora bir şikayət verilsə idi, öylə "Təhmasib oyunu" təftişlər yapılırdı ki, axırda cəza rüşvət alana degil, rüşvət verənə olurdu. Odur ki, Rusiyada ac qaçmış pristavlar bir neçə il Qafqazda xidmət edib... – aparmışlardır, arabalar dolusu fərşlər daşımışlardır.

Rus rüşvətxorluğu bir dərəcədə kəsbi-şöhrət etmişdir ki, bir vəqt almanların məşhur Bismarkı Rusiyadan qayıdarkən demişdir: "Rüşvətxorluq ən məhlək bir azar kimi Rusiyayı tarümar edəcəkdir. Filhəqiqə öylə də oldu. Pəs, rüşvətxotrluğun əsasına öylə bir zərbə vurulmalıdır ki, cavan vətənin ədalətinə və asayişinə heç bir xələl toxunmasın. Qarabağ qubernatorunun zikr etdigimiz binagüzarlığı sair hakimlər tərəfindən qəbul olunursa rüşvət məsələsi daha sürətlə tərk olub gedərdi.

Öz tərəfimizdən bunu da əlavə etməliyiz ki, rüşvət alanlardan başqa, rüşvət verənlərin də əmalına diqqət olunsun ki, hankı məqsədin yolunda bu rüşvətlər verilir. Qətlü qarət kimi cinayətləri pərdələmək üçün rüşvət verən ağaları da təhti-mühakiməyə almalıdır və bu surətdə geri alınmış rüşvətlər sahiblərinə qaytarılmayıb beytülmalə təhvil verilməlidir – zənnindəyəm.

Soltanov həzrətlərinin də gizli təşəbbüslərindən biri də möhtəkirlər ilə başladığı mübarizə təriqidir ki, şayani-diqqətdir. Şuşa şəhərinin məhtəkir tacirlərindən biri qubernator tərəfindən həbs olunur. Bu şəxs bir qədər həbsdə qaldıqdan sonra camaat namına alıb-satdığı manufakturdan qazandığı yüz əlli min manat pulu öz riza və xahişi ilə füqəraya paylamaq üçün qubernatora təslim ediyor. Haman pul novruz bayramı münasibətilə şəhərə üç min füqərası arasında təqsim edilmişdir. Bu günlərdə Qarabağdan gəlmiş bir nəfərin rəvayətinə görə Şuşa şəhərinin füqərası bi ilki kimi bayramı xoş keçirməmişdir.

Hamı müşahidə edirmiş ki, zəngilər ilə bərabər miskinlər də bayram şadyanalığına iştirak ediyorlar! Qubernatorun bu tədbiri günahkarları cəza və füqəraya şəfa olduğundan şayir yerlərdə də icrası mətlubdur. Bu vaxta qədər əhali naminə bir çox mallar alınıb kənar yerlərdə də satılmışdır. Bunların əmalü hərəkatını təftiş və nəzarətsiz buraxmamalıdır. Əlalxüsus camaat vəkillərinə məsuliyyəti daha şədid və daha ciddi olmalıdır ki, mənfəəti-milliyyə mənfəəti-şəxsiyyəyə qurban kəsilməsin.

Bu iki məsələdən başqa qubernatorun bir çox sair binagüzarlığı olmuşdur ki, şayani-təhsindir. Lakin o cənabın qarşısında ən ağır bir məsuliyyət varsa, o da imdilik köçəri məsələsidir ki, onun da mahiranə bir

surətdə və asan vəchlə həllini dörd göz ilə ümumən azərbaycanlılar və xüsusən də qarabağ əhalisi gözliyor, müvəffəqiyyətinə də inanıyor.

*Fərhad Ağazadə*

***"Azərbaycan" qəzeti, №160 11 neysan***

*Səh. 1.* **Məclisi-məbuşanın 14 aprel axşam iclasında**

Deputat Cavanşir bəyin çıxışı (tənəffüsdən sonra)

Hökumət rəisi bu gün öz bəyannaməsində Azərbaycanın hər yerini adbaad çəkdi, nə fikri olduğunu söylədi. Hətta Lənkəran, İrəvan, Naxçıvan uyezdləri adını da çəkdi. Amma ən mühüm Qarabağ adı çəkilmədi. Məlumatımıza görə Qarabağ məsələsi bəyannamədə var idi. Fəqət bilmirəm kimin xatirəsi üçün bu gün bəyannamədən götürülmüşdür. Məlumdur ki, Qarabağ həlakətdə idi. İmdiyədək orada müsəlmanlar Andronikin əlindən çox böyük cəfalar çəkirlər, çox qurbanlar vermişlər. Hətta yüzə qədər kənd xarabaya dönmüşdür. Onlar gözləyirdilər ki, hökumət bəyannaməsində Qarabağ məsələsi zikr ediləcəkdir. Hökumət, özünüz bilərsiniz ki, oraya general qubernator göndərib və ona böyük ixtiyarlar vermişdir. Bizim arxamızda duran üçüncü böyük hökumət də ona geniş vəkalət veribdir ki, Qarabağ müsəlmanlarını düşmənlər əlindən xilas etsin. Bu gün isə hökumət rəisi bu barədə bir söz danışmadı. Öylə nəzərə gəlir ki, guya Qarabağ məsələsi qurtarıb.

Yerdən səslər: Qurtarıbdır.

Cavanşir (davam edir): Sizdən ötəri ola bilər ki, qurtarıbdır. Amma bizdən ötəri hələ qurtarmıyıbdır. Qarabağ əhlindən bir nəfər Şuşadan o yana adlaya bilməz. Hər kəs getsə, ölümdən savayı bir şey görməz. Necə ki, bu gün Lənkərana gedib-gəlmək mümkün degildir, öyləcə Qarabağın dağlarına keçmək mümkün degil. Biz ümid edirdik ki, hökumət bu gün Qarabağ məsələsi haqqında tədbirlər görəcəyini söylər. Amma bu məsələ barəsində heç bir şey eşitmədik. Bilmirən hökumətin bu barədə nəzəri nədir. Qarabağ məsələsinə münasibətiniz böylə ikən bəyannamənin qalan hissələri haqqında "İttihad" fraksiyasının formulasına iştirak etməyiniz də . . . . . münasibətimiz isə hökumətin gələcək fəaliyyəti ilə məlum olacaqdır.

Sədr: Söz hökumət rəisi Nəsib bəy Yusifbəylinindir.

Nəsib bəy: Möhtərəm məbuslar! Mənim bəyanımda nə qədər mübahisəli yerlər və məsələlər varsa, o xüsusda sözümü dedim. Çox mübahisəsiz məsələr vardır ki, hökumət o xüsusda söz söyləməgi artıq bilir. İrəvan, Lənkəran, Tiflis sözü oldusa, o da ondan ötəridir ki, onlar müba-

hisəlidir. Qarabağ xüsusunda mübahisə yoxdur. Onun üçün də mən mübahisəli olmuyan məsələ haqqında bir söz belə söyləməgi artıq bildim.

***"Azərbaycan" qəzeti, №172***

*Səh. 4.* **Azərbaycanda. Qarabağ**

Qarabağda ermənilər ilə müsəlmanlar arasında olan münasibəti və ermənilərin general-qubernatorluğuna tabe olmalarını düzəltmək üçün Polkovnik Şatelvort Qarabağa əzimət etmiş idi. Məhəlli məmurlar nümayəndələri Şateloverti istiqlal etməkdən ötəri Yevlaxa gəlmişlər. Yevlaxdan Qarabağa qədər Şatelovertin otomobilini süvari dəstəsi müşayiət etmişdir. Süvarilərin qabağında Azərbaycan bayrağı təməvvüc edirmiş. Can kəndinin yanında Şateloverti fəxri qaravul dəstəsi istiqbal etmişdir. Polkovnik Şatelovert Şuşaya varid olduqdan sonra Qarabağın erməni əhalisi nümayəndələrin ictimasında iştirak etmişdir. Polkovnik Şatelovert ermənilərə etdigi müraciətində Azərbaycan hökumətini etiraf etməgə dəvət ilə İngiltərə komandanlığının bu nöqteyi-nəzərdə olduğunu söyləmişdir. Qarabağ əhalisi İngiltərə nümayəndəsini fövqəladə şadlıq ilə istiqbal etmişdir.

"Aşxanavord" erməni qəzetəsinin Şuşadan aldığı məlumatda deyilir ki, Qarabağ ermənilərinin Azərbaycana mülhəq olub-olmamalarını aşkar etməkdən ötrü Qarabağın erməni əhalisi nümayəndələrinin ictimai vaqe olmuşdur. Həmin ictimaidə İngiltərə pokovniki Şatelovert dəxi iştirak etmişdir. İctima Azərbaycan hökumətini təsdiq etməgi qərara almışdır. Bu münasibətlə Şatelovert erməni nümayəndələrinə bir sual verib bu cür qətnamə çıxarmaqla kimə ümidvar olduqlarını xəbər almışdır. Erməni nümayəndələri cavab vermişlər ki, onlar həmin o müttəfiq dövlətlərə ümidvardırlar ki, ermənilər onların mənafeindən ötəri bu qədər qanlar töküb və qurbanlar vermişlər. İctimain bu qətnaməsinə baxmayaraq polkovnik Şatelovert sabahı günü bir elan nəşr etmişdir ki, Qarabağ Azərbaycana mülhəq olur və Azərbaycan General-qubernatoru doktor Soltanov eyni zamanda İngiltərə nümayəndəsi hesab olunur.

***"Azərbaycan" qəzeti, №184. 19 mayıs.***

*Səh. 3.* **Qarabağda**

Qarabağ ermənilərinin beşinci ictimainin köçəri məsələsi haqqında qətnaməsi:

"Qarabağ ermənilərinin beşinci ictimai köçərilərin, Qarabağın ermənilər ilə məskun yerlərindən yaylağa hərəkət etmələri məsələsi

müzakirə edilib və bu məsələnin iki qonşu millət arasında mehriban qonşuluq münasibəti saxlamaq üçün əhəmiyyətini nəzərə alıb İngiltərə komandanının təminatı və İngiltərə əsgəri dəstələrin mühafizəsi altında köçərilərin yaylağa köçüb getmələrini lazım görür. İngiltərə komandanlığı və əsgərləri hər iki tərəfdən üz verə biləcək hadisələrin qabağını almaq üçün tədbirlər görməlidir. Bunlardan əlavə köçərilər silahsız olmaq şərtilə keçib getməlidirlər. Hər iki tərəfdən varid olacaq xəsarəti aşkar edib əvəzini almaqdan ötəri erməni kəndlilərindən və müsəlman köçərilərindən ibarət bir beynəlmiləl komitə vücuda gətirilməsi lazımdır. Xəsarətin əvəzi üçün bu komitə məhkəməsiz və istintaqsız qərar çıxaracaqdır.

***"Azərbaycan" qəzeti, №188. 26 mayıs***

*Səh. 3.* **Qarabağda**

Qarabağ general-qubernatoru xəbər verir ki, Oxan kəndi kəndxudasının verdigi xəbər mocibincə Zəngəzur uyezdinin naçalniki mayın 6-da 1003 nömrə ilə xəbər verir ki, zəngəzur uyezdində Panislu və Qurtyolunu adlı erməni kəndləri rayonunda Oxçu Atqız, Pir Dövdan, Buğacıq, Tey və başqa kənd əhalisindən 58 nəfər kişi və arvat mis mədənləri təriqi ilə düyü, buğda və qeyri şeylər ilə yüklü at, qatırlar ilə yaylağa getdikləri əsnada ermənilər tərəfindən həlak edilmişlərdir.

Yenə həman uyezd naçalnikinin mayın 4-də 1908 nömrə ilə verdigi xəbərə görə Murbayazet uyezdində erməni quldur dəstələri məhəlli müsəlman əhalisini tamamilə məhv etməkdədir.

Müsəlman kəndlərinin hamısı dağılıb, ölümdən xilas olanlar isə ətrafa qaçmışlar. Şuşa uyezdində Hacı Şamilin rayonuna, Zar Zabil, Zur, Ənkəlisə, İlcə, Qaraqoyunlu, Qaraqoyunlu-Hüseynqulu, Ağalı, Qayabası, Qoşabulaq, Saryəvi, Daşkənd, Qovkənd, Surcavaniqdağ kəndlərindən on minə qədər Tuğ və Bayazet qaçqınları gəlmişdir. Şişqaya, Aşağı Məzrə, Qara İşa, Canəhməd, Saretxaş və Kasama kəndləri qaçqınları Gəncə uyezdinə rəvan olmuşlar. Uyezdni naçalnikin verdigi məlumata görə bu bədbəxt qaçqınlar yolda şiddətli borana düçar olub 600 nəfərə qədəri dağlarda həlak olmuşdur.

***"Azərbaycan" qəzeti, №198. 8 həziran***

*Səh. 3.* **Qarabağ. Şuşa müsadiməsi.**

Son günlər Şuşa hadisatı barəsində bin dürlü şaiyələr çıxmaqdadır. Bu hadisənin təfsilatı hələ məlum deyilsə də, əlimizdə olan bir qədər məlumatı qarelərmizə təqdim ediyoruz: Hamu biliyor ki, ermənilərin bəzi

qismi Qarabağı Ermənistana mülhəq etmək fikrində olub bu vəqtədək hələ Azərbaycan hökumətini qəbul etmiyordu. Hökumətimiz nə qədər çalışdısa da, erməniləri sülh təriqilə tabe edəmədi.

Bununla bərabər Şuşada post, teleqraf, xəzinə və sayirə kibi mühüm dövlət müəssisələri Ermənistanda olduğundan böyük əngəllər çıxırdı. Nəhayət, neçə gün əvvəl post idarəsini Şuşanın müsəlman hissəsinə köçürmək istədikdə müxalif ermənilər ilə əsgərlərimiz arasında xırda bir müsadimə vaqe olmuşdur. Müxtəsər bir atışmadan sonra ermənilər hökuməti qəbul, silahlarını təslim və sairə kimi tələblərimizi qəbul edərək sülh və asayiş bərpa edilmişdir. Hal-hazırda Şuşada nizam və müsalimət bərpadır.

Mütəəssüfanə müsadimədə təsadüfən bir neçə ingilis əsgəri qətl edilmişdir (hadisənin təfsilatı sonra).

**Ermənistan desisəsi.**

Ermənilərin Qarabağ haqqındakı suyi-niyyətləri barəsində bir çox sənədlər kəşf edilmişdir. Bunları şimdi dərc ediyoruz, gələcəkdə əlimizə düşdükcə biltərcümə dərc edəcəgiz. Hələlik ələ keçən sənədlər bunladır.

***4 aprel 1919, nömrə 1056.***

Cənab polkovnik Zaqafqaziyadakı İngilis qoşunları komandanı ceneral Tomson ilə olan və edilən danışığa görə Qarabağın erməni hissəsinin idarəsi üçün ingilis komandanlığı nəzdində nümayəndəliyə təyin ediliyorsunuz.

Ermənistan xariciyə naziri Ter Akopyan cənab polkovnik Mixayil Arzumanyana Ermənistan cümhuriyyəti Daxiliyyə nəzarəti. 4 aprel 1919. Qarabağ erməni milli şurasına hökumətin vədəsinə görə Arzumanyan İngilis komandanlığı cünbündə nümayəndəliyə təyin edilir. Hökumətin qərarına görə, orada idarə təşkil etmək üçün hər ayda dörd yüz min rubla göndərilir. Sizin hesabınıza Zəngəzura milyon manat göndərilmişdir. Sizin danışığınıza görə Arzumanyan general Tomsonun hüzurunda təşəbbüsatda bulunur. Var qüvvəmiz ilə çalışmalısınız ki, bizim ilə və Zəngəzur ilə əlaqənizi möhkəmləndirəsiniz.

Daxiliyə naziri (imza).

Alicənab Ermənistan rəisi vükılası. 4 may 1919.

Sizə məlum edirəm ki, general Şatelvort Bakıda bənə bəyan eylədi ki, Ermənistan hökuməti Azərbaycana razılıq vermişdir ki, müvvəqqətən Qarabağı və Zəngəzuru idarə eyləsin. Ona məktubu sənəd vermədi, amma

Qarabağ heyətinin rəisi mayor Mak Musen bir mayda onun ilə bərabər Gorusda olarkən bana dedi ki, Ermənistan hökuməti ilə olan ixtilafə görə Gorusdakı erməni milli şurasını qəbul etmiyoruz, onun nümayəndəsi Şahnazaryansı da Ermənistan hökuməti qəbul etmiyor. Təvəqqə ediyorum bu barədə bənə məlumat verəsiniz. Zira Qarabağ və Zəngəzur Azərbaycanı yaxınına burxmağa ümid etmirəm ki razı olsunlar. Göndərirəm sizə teleqram, çünki məsələ çox mühümdür. Benaəleyh Rubeni də göndərirəm ki, sizə müfəssəl məlumat versin. Qalan mətləbi ru be şifahi sizə bəyan edər.

Arzumanov.

Şuşa erməni hökuməti nümayəndəsi Arzumanyana 1919-cu ildə, may ayının 9-da alınmışdır.

Ermənistan hökuməti heç bir vəqt kimsəyə rizasını verməmişdir. Hökumət qalıyor, hökumət 1559 köçəriləri buraxmağa razıdır.

Generalı katib Ter Akopyan.

***"Azərbaycan" qəzeti, №200. 10 həziran 1919.***

*Səh. 2.* **Erməni qəzetlərinin məlumatı**

**Qarabağda**

Qarabağda müsəlmanlar iqtisadi cəhətdən erməniləri baykot etdigi üçün mayor Lissen kapitan Ğanzuna mühəvvəl etmişdir ki, baykotun götürülməsi xüsusunda doktor Sultanov ilə danışmaqda bulunsun. Alınan məlumata görə, Soltanov qəti surətdə baykotun götürüləcəyini bəyan ilə əlavə eləmişdir ki, bu tədbir dövləti bir tədbirdir.

***"Azərbaycan" qəzeti, №205, 16 həziran 1919.***

*Səh. 3.* **Qarabağ məsələsi**

Qarabağ məsələsinin ülh və asayiş ilə həll edilməsi xüsusunda nə qədər qəzətlərdə məqalələr, nəsihətlər yazıldısa da, siyasi məhfəllərdə, məclislərdə və parlamanda nə qədər mübahisələr, sübut və dəlillər gətirilib Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olması danışıldısa da, əql və məntiq ilə işi həll etməkdən həmişə uzaq qaçan daşnaqlar axirüləmr genə də yüzlərcə fəqir və bigünahların qanlarına bais olub yüzlərlə uşaqları atasız qoyub, xanimanları viranə qalmağa bais və səbəb oldular.

Qarabağa general-qubernator təyin edilmiş Soltanov cənabları, budur, tamam dörd aydır ki, gah Şuşadakı İngilis nümayəndələri ilə və gah

bilzat ermənilərin sərkərdə və nümayəndələri ııə mulağatda bulunub məsələnin qan tökməlsizin həll edilib qurtarmasına çalışmaqda idi. Dəfəəat ilə yığıncaqlar, iclaslar olub laəqəl ingilislərin özləri dedikləri kimi, sülh konfransının axırına kimi Qarabağın hökuməti erməni və müsəlmanlardan mütəşəkkil bir idarənin əlinə tapşırılmasında inadlı ermənilər genə də razı olmayırdular. Bu razı olmamaqları bir tərəfə dursun, hətta Şuşada oturub bütün Qarabağın ermənistanını çulğalayıb hər iki, üç həftədən bir milli qurultaylar qurub əhalini dinc və sakit öz işinə getməgə buraxmuyor idilər. Bütün bu günahlar haman beş-altı nəfər İşxansyanslar ilə Şahnazaryanların inad və hirslərinin nəticeyi-mənhusələri idi ki, axirüləmr iyunun beşindən başlayıb genə Qarabağ səhralarını, dağlarını və meşələrini günahsız insan qanına və ahü naləyə boyadı.

Şuşada olan milli komitənin “siyasəti” nəticəsi olaraq bu axırlarda heç bir gün yox idi ki, Şuşanın ətraf kəndlərinin yavuqluğundan keçən Şuşa yollarında ermənilər müsəlmanlara hücum edib qətlü qarət etməmiş olsunlar.

Böylə ayrı-ayrı ittifaqlar çoxalıb axırda ümumi bir partizan davasına mübəddəl olmuş idi. Ermənilərin hücumları gündüz günorta çağı beş-altı nəfər yol ilə keçən müsəlmanların mal və atları ilə bir yerdə oğurlanması və hətta meyitlərinin də verilməməsi hətta ingilisləri də heyrətə salmış idi.

Bu axırlarda şöldə, yollarda olan hadisələr yavaş-yavaş şəhərə də sirayət etmiş idi. İyunun ikisində üç nəfər müsəlmanlardan şəhərin erməni hissəsidə dutulub tərksilah edilməsi camaatı bir az həyəcana salmış idi. Bu tərəfdən də şosse ilə gedən köçərilərə erməni hissəsi tərəfindən daimi güllələr atılıb və hərdənbir hücumlar edilib, at, qoyun oğurlanmasında əfkari-ümumiyəyə pək fəna təsir etməkdə idi.

Şuşanın erməni hissəsində müsəlmanlara olan hücumlar, hədələr o qədər artmış idi ki, poçta, dövləti xəzinə və sayir dövləti idarələrə müsəlmanların gediş-gəlişi kəsilmiş kimi idi. Hətta erməni hissəsində Azərbaycan hökumətinin tərəfindən nəşr edilmiş tazə pulları da qəbul etməyib alış-veriş etmiyor idilər.

Qarabağın və baxüsus Şuşa şəhərinin əhvalını və həyati-ictimaisini bilənlər özləri biləcəklər və təsəvvür edəcəklər ki, iş bu məqama yetişəndə həyati-ümumi hankı bir halətdə oluyor, ermənilər qəsdən və ümdən get-gedə əfkarı və ruhları həyəcana salıb dəstə-dəstə bazarında və şəhər kənarlarında gəzmək ilə özlərinin bir hücuma və ya davaya hazırlanmalarını sübut edir idilər.

Ayın beşinci günündə müsəlman hissəsində olan bir neçə nəfər erməni sənətkarları: dərzilər, xərratlar, xəncər, tüfəng ustaları saat on tamam olan kimi qapılarını bağlayıb əcələ ilə öz məhlələrinə getdilər. Bu əhvalatdan yarımca saat keçməmiş idi ki, erməni hissəsindən əvvəlcə meydançadan, sonra qazarma və Üçmix tərəfindən tüfənglər açılıb köçərilərə və müsəlman hissələrinə güllələr yağdırmaqla başlanıldı. Dərhal ermənilər dəstələr ilə öz səngərlərinə çəkilməgə başladılar. Bununla bərabər yüz nəfər kimi müsəlləh ermənilər Zastav tərəfdə köçərilərin salamatlığı üçün və onları yola salmaq üçün qoyulmuş mühafizə dəstəsinə hücum edib onları tərksilah etməgə qəsd etmişlər. Bunların arasında bir az atışma olub 3-4 nəfər əsgər və bir nəfər də zabit yaralanıb. Axırda bir nəfər əsgər tərəfindən açılmış əl bombası ilə hücum edənlərdən bir neçəsi yaralanıb, yerdə qalanı da qaçmağa üz qoyublar.

İşin əvvəlində qarma-qarışıq düşən kimi ermənilər hücum edib köçərilərdən bir neçə nəfər kişi və övrət və bir qədər mal-qaralarını dutub öz aralarına aparmışlar.

Bu əhvalat əhaliyə yetişən kimi dükan, bazarı bağlayıb hərə tüfəngini götürüb bir türfətüleyndə səngərləri dutub dəvaya amədə oldular. Şuşadakı batalyonun cavan əsgərləri ildırım kimi hücum edib əhali ilə bir yerdə erməni hissəsinin qabağında olan ermənilərin ən mühüm olan “Üçmıx” adlı səngərlərini işğal etdilər. O gün sübhdən başlanmış atışma axşamadək davam etdi.

Bu arada ingilizlərin nümayəndələri gəlib general-qubernatora vədə verdilər ki, işi sülh ilə qurtarmaq üçün qubernator hankı tələbləri edirsə onlar erməniləri məcbur edəcəklər ki, tələbat qəbul edilsin. Bu əhvalatdan sonra əhalini sakit edib cuş-xüruşa gəlmiş milli qəlyanı saxlamaq istəyən general qubernator-həzrətləri olmazın zəhmət və məşəqqətlər ilə ancaq ikinci gündə atışmanı kəsib sakitlik sala bildi. Ermənilərin həyasızlıq dərəcəsinə çatmış qaba hərəkətləri orada-burada namərdanə hücumları əhalini o qədər təngə gətirmiş idi ki, uşaqdan böyüyə kimi hamı istəyirdi ki, birdəfəlik bu işə bir xitam çəksinlər.

Ceneral-qubernatorun ingilizlər vasitəsi ilə erməni hissəsinə verdigi ultimatumu hələlik bu iki mətləbdən ibarət idi: Birisi, ermənilərin mərkəzi milli komitəsi əzalarının Azərbaycan dairəsindən nəfi edilmələri və ikincisi, Azərbaycan qoşunu ilə erməni hissəsindəki qazarmanın işğal edilməsi. Ultimatumun əvvəlinci maddəsi həman gün əmələ gətirilib. İngilizlər erməni mərkəzi komitəsinin 4 nəfər üzvlərini həbs edib general-qubernatorun idarə nümayəndəsi ilə Azərbaycan sərhəddinə kimi nəfi

edilməyə göndərildi. İkinci maddə üçün iki gün vəqf istənildi ki, orada olan erməni qaçqınları oradan çıxarılıb, qazarma təmir edilsin.

Ancaq bu maddələr qəbul ediləndən sonra qubernatorun tərəfindən təyin edilmiş nümayəndə Səməd bəy Cəmillinski və bir neçə nəfər də ingiliz zabitləri müsəlmanların səngərlərini gəzib qubernatorun hökmünü və atışmanın kəsilməsini onlara elan etdilər.

Ayın yeddisində sübh saat altıda ultimatumun ikinci hissəsi də qövldən felə gəldi. Şuşada olan batalyon və general-qubernatorun xüsusi kanvoyu (Kürdlər) nizamı ilə batalyon komandirinin təhti-komandanında olaraq erməni hissəsinə keçib kazarmanı işğal etdilər. Bu iş tamam şəhərin həyati-ümumisinin genə də öz qaydasına keçməsinə bais oldu. Məlum oldu ki, şəhərdə olub daima əhalini qarışdıran və Azərbaycanın ziddinə gedən ermənilərdən bir çoxu həmin gecə şəhərdən çıxıb qaçıblar.

Bu intriqaçı və müfsidlərin şeytənətkaranə halları nəticəsiz qalmadı. Haman o adamların təşviqləri ilə yol ilə keçən köçərilərə Qayıbalı kəndində hücum olub imiş. Əvvəlinci gündə Qayıbalı kəndlilər hücum edib köçərilərdən bir neçəsini öldürüb imişlər. Üçüncü gündə köçərilərin dalısı da gəlib güclənəndən sonra onlar özləri bir yerə yığılıb haman Qayıbalı kəndinə hücum ediblər. Axırda ermənilər qaçıb, arvad-uşaqlarını qoyub meşələrdə gizlənirlər. Köçərilərdən kəndə gəlib haman kəndi yandırmağa başlayıblar. Bu əhvalat qubernatora çatan kimi, filfour öz adamlarını göndərib kəndi yanmaqdan saxlamaq istəmişsə də, amma iş-işdən keçibmiş. Odur ki, fövrü həman kənddən qaçan arvad-uşaqları yüz nəfərə kimi qubernatorun adamları yığıb öz mənzilinə gətiriblər. Qubernator bunlara artıq mehribanlıq edib dərhal çörəklərini verdirib istirahətlərinə çalışmışdır.

Həmin əsr hücum edib köçərilər ilə dava başlayan Bəhlul, Kərkicahan və Daşaltı kəndləri də köçərilər tərəfindən əhatə edilib yandırılmaq istənildiyi zaman qubernator xəbər dutub bu kəndləri yanmaqdan xilas etmişdir. İmdi bu saat Şuşada sakitlikdir. Həyat öz ümumi qaydasına girmişdir. Likən şaiyə və rəvayətlər var ki, ermənilər dəstə bağlayıb Əsgərana hücum etmək istiyorlar.

Tazədən vüqu bulacaq əhvalatı yazaram.

*Məhəmməd Sadiq Axundov*

***"Azərbaycan" qəzeti, №209. 20 haziran 1919,***

*Səh. 3.* **Qarabağda (rəsmi)**

Qarabağ general-qubernatoru Soltanov böylə teleqraf göndərmişdir:

Hal-hazırda mənim təhti-idarəmdə olan general-qubernatorluq dairəsində Zəngəzurdan başqa hər yerdə sakitlikdir. Şuşa-Yevlax yolu açılıb, qorxusuzdur. Yevlax-Şuşa yolunun qorxulu olduğu barəsində buraxılan yalan şaiyələrə xahiş edirəm inanmayasınız. Məmurlara əmr olunmuşdur ki, sərnişinlərə hər cür məlumatda bulunsunlar.

General-qubernator Soltanov.

**Şuşadan**

Bir neçə nəfər məsuliyyətsiz və laqeyd daşnaqların müfsidələri nəticəsi olaraq Şuşa ətrafında başlanılmış qətabü qarətlərə Qarabağ qubernatoru Soltanov cənabları tərəfindən itxaz edilmiş ciddi və qəti tədbirlər sayəsində bir xitam çəkilmişdir. Daşnakların "idraklı", "durbin" politikalarının nəticəsi bu oldu ki, bir neçə min aclar və çılpaqlar artıb, onsuz da möhtac və pərakəndə düşmüş erməni füqərayi-kasibəsinin əziyyətini artırdılar. Bu axırkı hadisələr nəticəsi olaraq Yevlax-Şuşa yolu bağlanmış kimi idi. Yol kənarındakı erməni kəndlərindən gəlib-gedənləri güllələbaran edirdilər və buna görə də Ağdamda, Xankəndində 3-4 yüzə kimi yol ilə gedib-gələnlər saxlanılmış idi. Amma imdi tamam yol ilə qarağullar düzülüb, polis nəfəratının miqdarı artırılıb. Yol genə qabaqkı kimi asudəlik ilə açılmışdır.

Üç gün bundan qabaq Daşaltı və bir də bir neçə başqa erməni kəndlərindən ağsaqallar və vəkillər gəlib general-qubernator cənablarından artıq rizaməndliklər etdilər. Məlum oldu ki, Şuşada dava başlanan kimi, Daşaltı kəndinin erməniləri qaçıb gedib imişlər. Kənd bütün müxtəlifat və mal-qarası ilə qaravulsuz, sahibsiz qalıb imiş. Bu xəbər general-qubernatora çatan kimi polis nəfəratından qaravul təyin edilib Daşaltı kəndi səlamətlik ilə saxlanılıb, dübarə öz sahiblərinə qaytarılıbdır. Ağsaqqallar kənd əhalisinin imzası ilə qubernatora (priqovor) təqdim edib, özlərinin Azərbaycan hökumətinə tabe olmaqlarını məlum etmişlərdir. Sonradan xilas ediblər ki, qubernator tərəfindən xüsusi məmur gəlib onların kəndlərində lazım olan starşinə və sair məmurları intixab etsinlər. Ağsaqqallar munu da deyirdilər ki, bu günə kimi ancaq bir neçə nəfər məlum adamlar onları naməlum bir "komitə"nin qorxusu altında saxlayıb cəbrən mane olurdular ki, qubernatorun yanına gəlməsinlər. Komitənin

gözə görünməyən qüvvəsi və nüfuzu barəsində bunlara həmişə vədələr verib hərdənbir Şuşada iclaslar çağırıb özlərinin qətnamələrini zor ilə bizə qəbul etdirib sonra ümumən bizim adımızdan elan edirdilər. və hər kəs də ki, bunların dediklərinə əməl etmiyor idi fövri küçədə güllələtdirirdilər. Nümunə üçün ağsaqqallar Xankəndi yüzbaşısı Movsesin bazar içində güllələnməsini göstərdilər. Məlum olur ki, Movses bir sülhpərəst, insaflı yüzbaşı imiş. Bunların dutduğu məslək və yolun ermənilər üçün xatalı bir yol olduğunu bilib qoymuyur imiş ki, bunların nüfuzu Xankəndi ermənilərinə sirayət etsin. Və bunun üçün də qətl edilibdir. Bu qarışıqdan da bir neçə gün qabaq erməni hissəsində çörəyin girvankəsi üç manata çıxmış idi. Yollar bağlı olduğuna görə erməni hissəsində çörək bilmərrə yox olmuş idi. Dava qurtaran kimi ermənilər və baxüsus ruslar dəstələr ilə müsəlman hissəsinə gəlib özlərinə azuqə alır idilər. hamidan artıq erməni hissəsindəki qaçqınların halı məhlək idi. Onların aclıqlarını bilən kimi general-qubernatorun təklifi ilə azuqə nəzarətinin Qarabağ vəkili Axundov yüz put buğda unu alıb qaçqınlara verdi. Və həmçinin sayir erməni cəmiyyətlərinə də özləri üçün un almağa izn verildi.

Şuşa yolu ilə köçərilərin yolu genə tazədən açılmışdır. Lakin Cavanşir və Cəbrayıl uyezdlərində köçərilərin yolu hələ bağlıdır. Erməni kəndləri köçəriləri buraxmıyorlar.

Burası hamıya məlumdur ki, köçərilər gərək öz yolları ilə dağlara və yaylaqlara getsinlər. Onları yaylaqlardan saxlamaq diri-diri qəbrə basdırmaq kimidir. Buna görə də hərgah erməni kəndləri genə inad edib köçərilərə məmaniət göstərmək istəsələr şübhəsiz ki, oralarda da bir toqquşma olasıdır.

Buna görə də General-qubernator cənabları lazım olan sərəncamda bulunub ki, bəlkə toqquşmasız köçəriləri öz yaylaqlarına keçirtsinlər.

Şuşa uyezdində bəzi vicdansız və məxluqun rahatlığını, insancasına yaşamaqlarını istəməyənlər rədd edilib. Buralar asudəliyə çıxıbsa da, lakin Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdlərində hələ onlar çalışmaqdadırlar. Lakin burasını onlar bilməlidirlər ki, "Çaqqal uluya-uluya öz başına qal gətirər" məsələi müfadınca onlar ancaq öz başlarına qal gətirəcəklər. Amma əsl vaqiədə isə Qarabağda ermənilər ilə müsəlmanlar yaşayıblar, yaşayırlar və bundan sonra da yaşamağa məcburdurlar. Onların müftənlikləri, hoqqabazlıqları ancaq özlərinə və öz ətaflarına ziyan yetirəcəkdir.

*Məhəmməd Sadiq*

***"Azərbaycan" qəzeti, №210. 24 həziran 1919.***

*Səh. 1.* **Qarabağ hadisatı**

Naxçıvanın səssiz-küysüz, qeylü qalsız, dava və münazəsiz olaraq erməni hökuməti tərəfindən işğalından sonrakı bu işğal Azərbaycan Cümhuriyyətinin mənafeyi-həyatiyyəsini xələldar etmək idi – zənn olunurdu ki, ermənilər daha Qarabağ məsələsində inadlıq etməyib hirslərini soyumuş və iştəhalarının şiddətini azalmış hesab edərlər. Likən bu belə degilmiş.

Nə adi və nə də siyasi nəzakəti başa düşməyən erməni başçıları Qarabağ adınlı toprağımıza sükunət edən erməni əhalisini – bu əhalinin xahişinə rəğmən – Azərbaycan hökumətinə tabe etməmək yolunda daha böyük inadlıq göstərib İngiltərə baş komandanlığının təklifini də rədd etməkdən çəkinməlidir.

Azərbaycan hökumətinin səbr kasası doldu. Köçəri mövcünün hülulu isə əhalini dəxi böyük müşkülat qarşısında qoyub arada bir acıq və əsəbiyyət törətməginə səbəb oldu: Ermənilərin inadlığı və hökumətimizin hövsələsi bu acığı və müsibəti getdikcə artırıb Qarabağda bu gün-sabah bir qeyz və qəzəb partlanğıcı zühur edəcəgini naçar qoymuşdu.

İşin bu yerə gəldigini və bunun nəticəsi nə ola biləcəyini həqqilə anlamış olan general-qubernator Xosrov bəy Soltanov həzrətləri bunun qabağını almaq və qırğına mane olmaq üçün Qarabağ erməni başçılarının inadını sındırmaq üçün hökumət əlilə, yəni qanuni bir yol ilə həll etmək əmrinə mübaşir oldu və olub da. Erməniləri itaətə məcbur etdi, daha doğrusu, erməni camaatini xudsər və qeyri-məsul "komitet"lər qurqusundan xilas edib cəmaətin öz meyl və arzularını hüsula gətirdi.

İndi ümumi qırğına mane olan, erməni "komitet"lərin şərini ümumqarabağ əhalisi üzərindən dəf edən, hökumət əmrini layiqincə yerinə yetirən Xosrov bəyi alqışlamaq, ona mütəşəkkür olmaq, ondan rizalıq etmək əvəzində – onun əleyhinə danışılan sözlər və hərəkatını fəna bir surətdə göstərən qeybətlər eşidirik. Hətta onun geri çağrılması məsələsi dəxi meydanda söylənilməkdədir.

Biz bu növ fikrə mayilik ki, Soltanov Xosrov bəyin əleyhində danışanlar, onu layiqsiz bir hakim olduğunu degil, biləks fəzləsilə ləyaqət sahibi, bacarıqlı və iş görən bir Azərbaycan məmuru olmasından qorxuya düşən və gözləri götürməyənlərdir.

Əgər Qarabağ müslümanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaatı tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası, Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətlü qarət ocağı

olmuşdu. Bu həqiqəti Qarabağın müsəlmanları da, ermənilər də Qarabağ hadisəsini təhqiq üçün məhəlli-məzkurə getmiş olan xüsusi komissiya dəxi iqrar və təsdiq etdigi bir halda Xosrov bəyin əleyhinə danışmağın mənası nədir?! Qarabağı ixtilal və iğtişaşa şövq etmək niyyəti degilmi?

Şimal təhlükəsinin vücudu meydanda olduğu bir halda bizim başımızı Qarabağ şuluqluğuna qatıştdırmaq istəyənlər Qarabağın iğtişaşından mənfəət aparanlar əlbəttə səy edəcəkdilər ki, Soltanov kimi layiqli bir hakim Qarabağdan kənar edilib, bu yerdə hər bir macəraculuq üçün meydan hazırlansın. Likən biz əminik ki, Soltanov Xosrov bəyin xidmətlərini layiqincə təqdir edən və bu məsələnin ətrafında dolandırılmaqda olan intiriqalardan kəmalınca xəbərdar olan hökumətimiz əvvəla öz daxili işlərinə qatışmaq istəyənlərə yol verməz və saniyən Azərbaycanın mühüm bir cüzi olan Qarabağı şuriş və iğtişaş atəşinə ilqa etməgə və Qafqazda nizam və asayiş mühafizəsi əmrinə mükəlləf olan müttəfiqlər komandanı dəxi bir tağım müzərr adamların ilhah və israrına məhəlgüzar olmuyub bu yolda hökumətimizin tərəfini iltizam etməgi səlah görür.

*Hacıbəyli Üzeyir*

***"Azərbaycan" qəzeti, №210. 24 həziran 1919.***

*Səh. 3.* **Qarabağdan**

Azərbaycan Cümhuriyyətinin və Türk millətinin azadlğını və istiqlaliyyətini boğmaqdan ötəri üstümüzə hücum edən qara qüvvələr çarəsinə və tədbirinə nə qədər əhəmiyyət verilmək lazım isə bir o qədər də Qarabağda, Qarabağ məsələsinə etina və əhəmiyyət verməgi vacib bilirəm. Çünki beş-altı ay tamam Qarabağda olub, Qarabağın həyati-ictimasını, əhalinin amal və əfkarını öyrənib və Qarabağ məsələsi ətrafında işlənilən siyasətləri təcrübə ilə anlayıb hədiqin ilə təkrar ediyorum ki, Qarabağ məsələsinə gərək pək artıq əhəmiyyət verilsin.

İmdi bu saat Qarabağda ermənilər müsəlmanlar ilə genə də dava başlayıblar. Genə də kəndlər yandırılıb, evlər talan edilib, insanlar heyvan sifəti gətirib əllərində silah yolları kəsdirib yüz illərcə qapubir qomşuluqda yaşadıqları əmi oğlu, xalaoğlanlarını qırırlar. Dava zamanında hər iki tərəf biri birinin yoxluğuna, puç olmasına tədbirlər dörüb çalışırlarsa da, amma hər iki tərəf bunu həmişə zikr edirlər ki, "genə də Allah şeytana lənət eləsin!. Bizi dinc, fəraqət yaşamağa qoymayırlar!." Hər kəs Qarabağın halını, övzasını, qarabağlıların istədiklərini bilmək istərsə, gərək Qarabağ xalqı ilə danışsın, bilafərqi-məzhəb həm ermənin və həm də müsəlmanın kəndçisi, zəhmətkeşi ilə danışsın və sonra da bilsin

ki, həm Ararat hökuməti öz Arzumanyan, Tiqranyan, Şaxnazaryanları ilə və həm də bunları təşviq və təhrik edənlər Qarabağın insancasına zindəganlığını, qarabağlıların səadət və asayişini istəmiyorlar.

Bu davadan qabaq hər yekşənbə günü Ağdam bazarına 2-3 min nəfər erməni gəlib bazarın alış-verişinin 90 prosenti ermənilərin əlində idi. Bazarda satanların da, alanların da əksəri dağ tərəfdən gəlmiş ermənilər idi. Ermənilər bazara kömür, göyərti, xəlçə, palas və şallar, taxta və odun və sair bu kimi şeylər gətirib satıb əvəzində müsəlmanlardan arpa, buğda, darı və sairə yeyinti şeylər alıb aparırdılar. Çox zaman olurdu ki, hökumət nümayəndələri qaçqınlar üçün, əsgərlər üçün və sair idarələr üçün qəlləcat almaq istəyəndə ermənilər əlindən bazarda heç bir şey tapa bilməyir idilər.

Bir dəfə müsəlman dükançı ilə bir nəfər erməni müştərinin böylə bir müsahibəsinə rast gəldim:

Dükançı: A balam, ay qonşu, bu gün bazardan azına bir milyon manatlıq buğda, arpa alıb aparmısınız, amma özünüz də Azərbaycan hökumətinə tabe olmaq istəmiyorsunuz! Hərgah bu hökumət sizin ola idi və çörək də sizdə ola idi, sizin hökuməti tanımaq istəmiyənlər ilə siz də böylə rəftar edərdinizmi?

Erməni – A canım, doğru sözü gizlətmək heç insaf degil, Hərgah siz müsəlmanların çörəgi olmasa, heç bir nəfər erməni öz çörəgi ilə dolana bilməz. Genə Allah sizdən razı olsun ki, siz bu qədər insaflısınız. Allah mərdümazara lənət eləsin! Bizə nə qalıb ki, oturub Azərbaycan ilə dava edirik. Çörəgimiz ondan, dolanışımız ondan. Hər kəs ki, istəmir, qoy getsin İrəvana. Amma bir neçə nəfər mərdümazarlar yığışıb gündə bizə bir hökm yazıb, min cürə fokuslar çıxardırlar. Hər kəs gəlir deyir pul ver, amma heç bir nəfər gəlib çörək vermir. Hələ buyruq buyurur!. Deyir ki, komitet belə buyurur!.

Həqiqətdə belədir. Qarabağda hökumət məsələlərini həll etmək üçün nə top-tüfəng, nə də diplomatlıq lazım degildir. Qarabağlılar ancaq buna qərar versələr ki, hər kəs öz çörəgi və öz pulu, ticarəti ilə dolansın, o vaxt məsələ bir az vaxtında özü-öz başına həll edilər. Budur, neçə zamandır ki, erməni mahallarına müsəlmanların yolu bağlıdır. Qaryagin, Xaçın, Gorus və sair erməni kəndlərinin içindən keçən yollar hamısı müsəlmanlar üçün bağlıdır.

Amma Yevlaxdan Şuşaya kimi Şuşa yolu ermənilər üçün nəinki açıqdır və hətta onların əmniyyəti, səlaməti üçün Qarabağ hökuməti tərəfindən xüsusi tədbir, xüsusi sərəncamlar da görülmüşdür. Hərgah vaxtı ilə bu tədbirlər bu insancasına sərəncamlar erməni tərəfindən dəxi

görülsə idi və "gəmidə oturub-gəmiçi ilə dava eləməgə" yol verilməsə idi və bu günkü qovğalar olmaz idi və nə də həmişə sülhpərvər müsəlman kəndçilərini məcbur etməz idilər ki, axırda özləri üçün əllərində silah ilə yol açmağa qədəm qoysunlar. Bunu hər kəs bilir ki, insana çörək, su lazım olan kimi, Qarabağın aşağı tərəfində, aranlarında yaşayan müsəlmanlar üçün də yay fəslində yaylaqlara köçmək lazım və vacib bir məsələdir. Hərgah müsəlmanları yayda yaylaqlara, dağlara buraxmazlarsa, onların canlarına, mallarına qəsd etmək deməkdir.

Bu əhvalatı ermənilər özləri də bilib təsdiq edirlər. Və hətta ermənilərin Şuşada olan beşinci siyezdləri də bunu bilib qərar vermişlər ki, gərək müsəlmanlara köç yolu versinlər. Bununla belə Cavanşir, Qaryagin və Zəngəzur yolları genə də köç üçün açılmayıbdır. Bir tərəfdən müsəlmanlara deyirlər ki, köçərilərin əmniyyəti, səlamətligi təmin edilmişdir, o biri tərəfdən yolları açmayırlar. Odur ki, axırda camaat təngə gəlib imdi hərə özü-öz başına çarə qılmaq fikrinə düşüblər.

İmdi, bu saat camaat içində çox böyük danışıq vardır. hər yerdən, hər mahaldan adamlar gəlib Qarabağ hökumətindən xahiş edirlər ki, onlara öz təbii yolları ilə getməgə izn verilsin. Onlar heç bir siyasi və hökuməti işlərə qarışmaq istəmiyorlar. Ancaq bunu istiyorlar ki, öz yolları ilə yaylaqlarına keçsinlər. Bu iş zahiri nəzər ilə çox da mühüm görünmüyorsa da amma Qarabağın əhvalına xəbərdar olanlar biləcəklər ki, bu məsələ Qarabağ üçün həyat-məmat məsələsidir. Ona görə də məsləhət olar idi ki, hökumətimiz bu barədə ciddi bir sərəncam görüb məsələyə artıq əhəmiyyət versin.

Çox şükürlər olsun ki, Şuşada və yavuq kəndlərdə yandırılmış bir balaca alavı Qarabağ qubernatoru artıq səy və kuşişləri ilə söndürə bildi. Amma bu alav böyüyüb ətraflara dağılarsa yəqinimdir ki, nə qubernator və nə də başqaları bu bəlaya heç bir çarə tapa bilməyib içindən çox böyük fənalıqlar nəşət etməsin. Hər halda ciddi tədbirlər lazımdır.

*Məhəmməd Sadiq*

Bəd-əltəhrir! Vüquat qəbilindən bunu xəbər verə bilərəm ki, Daşkənd deyilən bir erməni kəndindən müsəlləh ermənilər Ağa körpüsü tərəfdən Şuşa yolunun qabağına çıxıb yol ilə gəlib-gedənləri gülləbaran ediyorlar. Bir neçə gün bundan əqdəm şəhərə un və buğda gətirən bir malıbəyli furqonçunun qabağını kəsib gülləbaran edəndən sonra furoqnun atlarını açıb aparmışlar. Furqonda gələn un və buğda qubernator tərə-

findən erməni qaçqınları üçün gətirilirmiş. Yolu kəsənlərin başçısı bir neçə gün bundan qabaqlara kimi Ağa körpüsü deyilən qarağul postunda uryadnik vəzifəsini ifa etməkdə idi. Şəhərdə şuluqluq düşən kimi həmin uryadnik Muxan da öz atını və tüfəngini götürüb həman Daşkəndə qaçıb orada quldurlar dəstəsinə sərkərdə olubdur.

Amma əsl həqiqətə baxsaq görərik yalnız Qarabağda deyil, bəlkə ümum Azərbaycanda hökumət xidmətlərində minlərcə Muxan kimi qulluqçular vardır ki, bu gün hökumətdən məvacib alıb, qulluq edib, sabah hökumətin düşməni olub yolkəsən olurlar. Buna da gərək bir çarə edilsin.

*M.S*

***"Əkinçi". 15 fevral Rusiya, 1876.***

Keçən yanvarın 19-da Şuşa şəhərində, yəni Qarabağın Şuşa qalasında teleqraqfxan açılıb.

***"Əkinçi", 23 avqust Rusiya, 1876.***

Qarabağdan yazırlar ki, cənab qinyaz Üsmiyevin mülkündə bir hacı Molla Ələkbər adlı şəxs maşın ixtira etmək fikrinə düşüb ki, öz-özünə düyü döysün, təmizləsin və bir də çox dərin çaydan su çıxartsın.

***"Əkinçi", 8 sentyabr Rusiya, 1876.***

**Məktubat**

Bizim dostlardan bir xarici yazır ki, bir ay bundan sabiq Ş. şəhərində bir karvansaranın hücrələrində dükanları olan mötəbər müsəlmanlardan xəbərləşib bildim ki, onların heç birisi "Əkinçi" qəzetini gətirtmir. Buna çox təəccüb edib onlardan sual elədim ki, niyə qəzet gətirdib oxumursunuz? Mənə cavab verdilər ki, onu çox oxumaq istəyirik, amma qiyməti artıq olduğuna gətirdə bilmirik. Ona binaən mən onlara məsləhət elədim ki, siyahı ilə yığıb bir qəzet gətirtsinlər ki, onu tamam karvansarada hücrəsi olan oxuya bilsin. Bu səbəbə mənim dostum Hacı M. siyahı açıb başladı pul yığmağa. Amma zikr olan hücrə sahiblərindən bir şahıdan (6 qəpik) artıq verən olmadığına bir manat yarımı yığa bilməyib, ol siyahını mənə verib söylədi ki, iş başa gəlmədi. Çünki zikr olan karvansarada hücrəsi olanların əksəri tavanadır, onların bəzi, məsələn, ağa Q. ildə 20-30 min manatlıq alış-veriş edir, ona binaən bu xəsislik onların biqeyrətliyinə dəlalətdir. Buna bir in ol siyahını cənabınıza göndərib

təvəqqə edirəm ki, beyadi-gariyi-milləti-islam onların adını qəzetə salasınız.

Zikr olan siyahıya baxıb orada bizim tanışlardan bir neçəsinin ismini gördük. Əlhəqq, onların hamısı əhli-tavanadırlar və məzkur ağa Q.nın 40-50 min manata tavanası çatar. Ona binaən zeyldə yazılan kağıza bavər etməyib ol siyahını qəzetə salmadıq. Amma cənab ağa Q.-dan iltimas edirik ki, əgər o kağız doğru isə sifariş ilə ya siyahı ilə 8 qəpik yığıb bir kağız yazıb bizə məlum eləsinlər, biz mədyun olarıq ol qədər müsəlman qardaşlarımız qəzet oxumağa xahişmənd olsalar, onlar üçün bir qəzet müftə göndərək.

*"Əkinçi", 22 sentyabr Rusiya, 1876*

**Məktubat**

Doğrudur, bizim müsəlmanlar arasında arif və qanacaqlı əşxaslar çoxdur, amma bizim bəzi işlərimizə baxan gərək bizi Dəşti-qıpçaq əhli hesab etməsin. Buna səbəb oldur ki, biizm adəti-qədimə zəmanə rəftarı ilə düz gəlmir. Biz qanacağımızı artıqmağa səy edəndə adəti-qədimələri dəyişdirməyə səy etmirik. Məsələn, 15-20 gün bundan sabiq bizim Şuşa şəhərində axşamdan bir saat keçmiş 7 əlixəncərli adam .bəyin oğlu .bəyin sərkərdəliyin ilə .xanımın evinin üstə tökülüblər ki, onun qızını aparsınlar. Qızı və anasını zəxmdar ediblər, amma ətrafda sakin olanlar haraya gəldiyinə qızı apara bilməyiblər. Təəccüb bu deyil ki, belə iş bizim içimizdə büruz edib. Amma təəccüb budur ki, hamı silist edənə deyib ki. bəy tək olub, onun yoldaşı olmayıb və dəxi bunu fikir etmirlər ki, gələn səfər məzkur bəy bir qeyri babanın qızını aparacaq və bir də cənab .bəy özü haraya gələnlərin qabağına çıxıb deyir imiş: nə var? Övrət uşaq doğur, getməyin.

Mərhəba bizim qədimi adətlərimizə. Bu bizim işlərmiz, bu bizim qüvvətli cavanlarımız, bu da bizim . atamız.

*"Əkinçi", 22 sentyabr Rusiya, 1876.*

16-cı nömrədə yazmışdıq ki, Qarabağda cənab Hacı Molla Ələkbər düyü döyməkdən və çaydan su çıxarmaqdan ötrü maşın ixtira etmək fikrinə düşüb. İndi bir şəxs bizə danışdı ki, ol cənab hər iki maşını tamam edib və Qarabağda bir icma bina olub ki, hər kəs xahiş etsə o maşınları aparıb onun yerində quracaq. Zikr olan icma Əlvənd qəryəsində ki, Kür çayının kənarındadır, bir az yer içarə edib su çıxardan maşının çarxlarını gətirib bu halda Badkubə şəhərində adam göndərib ki, əhəng və qeyri

mayəhtac alsın. Ol icmanın adamı deyib ki, iki aya maşın qurulub tamam olacaq və maşının 36 növçəsi olacaq, hər birinin deyişi bir çərək qədərdə və onların hamısından birdən su çıxacaq.

Doğrudur, çarx ilə su çıxarmaq çətin deyil, amma bu qədər su çıxarmaq təəccübdür, ələlxüsus, Kür çayının Əlvənd olan yerindən ki, orada su çox lal axır.

***"Əkinçi", 22 dekabr Rusiya, 1876***

Noyabrın 27-də Moskva şəhərindən. Bu günlərdə Qarabağdan mənə iki dəftər göndəriblər; birisi cənab mirzə Ələsgərin qəzəliyyatı və həcvidir ki, gəncəli cənab Mirzə Mehdinin üstə yazıb və birisi cənab Mirzə Mehdinin cavabıdır.

İnşayi-Mirzə Mehdi 22 vərəq üstə tamam olub. Mirzə Ələsgərin inşası dəxi ziyadədir. Xudaya, bu cənabların azğınlığından nə qədər nalayiq sözlər çıxıb!. Ey Ağa Mirzə Mehdi, fədayət şəvəm[1], atanın pambıq atan olmağı oğula nə eyib edər? Bizim əyyanda xanzadəlik, bəyzadəlik ağıl və elm ilədir. Firəngistanın Prudon adlı hükəması deyib: mən fəxr edirəm ki, mənim yeddi arxa ata-babam rəiyyət olub. Ey Ata Mirzə Ələsgər, bu qəzəldən çifayda ki, demisiniz:

Bu nə naz, bu nə qəmzə, bu nə işvə, nə rəvi,
Bu nə qaş, bu nə gözdür, bu nə sərvi-xoş yeriş.

Bu həcvlərin barəsində artıq danışmağı özümə eyb hesab edib zikr olan cənablara ərz edərik ki, siz çəkən zəhmət nahaq zəhmətdir, ondan nə bizə və nə bizim övladımıza bir nəf yoxdur. Belə zəhməti öz millətinizin yolunda çəkin ki, malı yoxdur, elmi yoxdur, elm tapmaq ona müşküldür.

*Nəcəf*

***"Əkinçi" 9 iyun Rusiya, 1877.***

**Şuşa qalasında olan əxbar**

Rəbiüssani ayının 20-ci günü bir seyyidə övrət bir baqqalın yanına 5 put düyü gətirir satmağa. Baqqal düyünü çəkəndə qul verib[1] onu 3 put hesab edir. Hərçənd seyyidə fəryad edir ki, mənim düyüm 5 putdur, amma baqqal qulaq asmayıb onu qovur. Seyyidə ona nifrin edir ki, Allah sən məni yandıran təki səni də yandırsın. Haman gecə baqqalın dükanına

[1] Qurbanın olum.
[1] Yəni: aldadıb.

od düşür və onun meymənətindən 40 baba dükan və 2 dəst imarət və o dükanlarda olan əşxasların şeylərinin nisfi bittamam yanıb, tələf oldu. O dükanların və evlərin sahibləri Səfi bəyə və Hacı Rzaya və orada sakin olanlara təxminən yüz min manat zərər yetişdi. Zikr olunan baqqal, onu oğlu və bir neçə hammal dükanlarda yanıb, vəfat etdilər. Və bir də erməni məhləsində bir Harsei gecələr qudurmuş heyvan kimi divanəvar gəzir və hər bir qəviheykəl adam qabağına çıxa, yırtıcı heyvanat kimi ona həmlə edir, ta sübhə kimi. Elə ki sübh oldu yuxuya gedir, ta axşam olur, axşam genə bu qəbil.

Bu ayın 15-də şəhərin qərbi tərəfinə yarım arşına yavıq qar gəldi və çox soyuq oldu. Və bir də bir türkman Cavanşir mahalında bədgüman olub öz öz övrətinin və bacısının başını kəsib. Sonra boynuna alıb ki, mən öldürmüşəm.

**Hadiyül-Müzillin Qarabaği**

Qalada yanğı olmağına sözüm yox, lakin onun səbəbi barəsində lazım bilib ərz edirəm ki, əgər hər bir şəriətdən xaric iş görənə Allah qəzəb eləsə, gərək bu halda bizim hamımıza qəzəb eləsin və bir də tutalım, zikr olan baqqala seyyidəni aldatmaqdan ötrü və cənabani-Səfi bəyə və Hacı Rzaya mərsiyəxana pul verməməkdən ötrü və ya imam ehsanı paylamamaqdan ötrü Allah qəzəb eləyib. Görəsən biçarə hammalları və dükanlarda sakin olanların taxsırı nə imiş? "Əkinçi",

***"Əkinçi" 31 mart Rusiya, 1877.***

Qarabağdan yazırlar ki, ağköynək barəsində bizim qəzetdə yazılan sözlərdən ötrü bəzi avamlar bizi həcv edib, hətta istəyirlər imiş bizdən ərizə versinlər ki, guya ol sözlər məzhəbə dəyən sözlərdir. Əgər bu xəbər doğru isə, Hadiyül-Müzillin həqiqət qarabağlı isə, Qarabağın anlayan kəslərinə ərz olunur ki, gözünüz aydın olsun.

***"Əkinçi" 31 mart Rusiya, 1877.***

**Daxiliyyə**

Məlumdur ki, xristianlar öz ölülərini üçüncü günü basdırıllar və lakin elmi-hikmət aşkar edir ki, bəzi vaxtda insan elə yuxuya gedir ki, onun nəfəsi kəsilir, bədəni soyuyur, xülasə, belə yuxu ölümə oxşuyur, amma bir neçə gündən sonra genə yuxdan ayılır. Belə ölü ilə həqiqət vəfat edənin təfavütü budur ki, həqiqət ölünün bədəni bu bir neçə gündə çürüyür, amma belə ölüyə oxşayanın bədəni çürüməz və əgər bir həftəyəcən

belə yuxuya gedən ayılmasa, onun ağzına ət suyu tökmək gərək ki, acından ölməsin. Bu səbəblərə 30 il bundan əqdəm İngilisin London şəhərində və bu halda tamam Avropanın böyük şəhərlərində camaat bir imarət təmir elədib, vəfat edənləri orada onun bədəni çürümək başlayıncan saxlayıb, sonra dəfn edir və həqiqət belə ölü hesab olunan kəslərin bəzi yuxudan ayılır. Çünki bizim adətimizə görə mərhum olanlar dəxi tez basdırılır, ona binaən bizim yuxuya gedib, ölü hesab olunanlarımız dəxi ziyadə basdırılır. Bu səbəbələrə yaxşı olurdu ki, bizim qəbiristanlıqlarda hər camaat bir imarət təmir edib, mərhum hesab olunanları zikr olan qayda ilə saxlayıb, sonra dəfn edəydi.

Çünki Hadiyül-Müzillin Qarabaği kimi avamlar hər bir elm sözünü eşidəndə onu şəriətə namüvafiq hesab edib, bizi həcv edib lənət oxuyurlar, ona binaən lazım bilib onlara ərz edirəm ki, Xudavəndi-aləm buyurub ki, ölünü basdırın, dirini basdırmağı, yəni insanı öldürməyi qadağan edib və sizin ağlınız naqis olduğuna ölüyə diridən təfavüt verə bilməz və bir də, ey əvamünnas, hər bir hikmət sözünü eşidəndə deyirsiniz ki, bu şəriətə rəxnə vurur. Bavücudi ki, o söz sizin avamlığınıza rəxnə vurur. Məsələn, sizin əqidənizə görə başmaq, papaq geymək də, dizi üstə əl ilə çörək yemək də şəriətin şərtlərindəndir.

***"Həyat" qəzeti, №57, 2 avqust 1905-ci il.***

**Qarabağ xəbərləri**

"Mşaq"ın 163-mci nömrəsində oxuduq: Şuşa hadisələri. Bizim ümidimiz dürüst olmadı. Bir qan tökücü meydanına döndü və qardaş qanını tökən tamaşagah oldı. "Mşaq"ın dünənki nömrəsində avqustun 15-də günortadan sonra vaqe olan qəmavər hadisələri xəbər vermişdük. Biz hədsiz teleqramlar alduq, hansıları ki başlanmış atışmaların barəsində xəbər verürlər. Təftiş olunmamış xəbərləri yazmaqdan biz ehtiraz etdük ki, bizim qareləri səhvlərə və ixtifaflara salmayaq. Bu hadisə bizim hamumıza bilümum və Şuşada qövm-əqrəbası olanlara bilxüsus artıq dərəcədə hüzn təsir edübdir. İki gündür bizim idarəmizə əhval bilməgə gələnlər ilə doludur. Bu xəbəri Kislovotiskidə Canişini-Qafqazın hüzurinə pişnəhad olmağa gedən erməni vəkillərinə məlum etdik və bu barədə Canişini-Qafqazın müavini Sultan Kərim Gəraya dəxi əhvalı ərz etdik. Bizə məlumdur ki, Gəncə vitse-qubernatoru cənab Baranovski bu bədxəbər teleqramı alana kimi təcil ilə Şuşaya rəvan oldı. Elə bilürik ki, Şuşa yeparxiya rəisi yepiskop Aşot bu xəbəri cənab Katalikosa məlum edübdi. Necə ki, bizim qarelərə məlumdur, hadisənin əvvəlimci günü erməni və müsəlman tərəfindən ölənlərin ədədi 15 qədərdi. İkinci güni, yəni dünən

avqustun 17-də qilü qal davam etməkdə olubdur və onların ədədi 45 nəfərə kimidir. Bunlardan 11 nəfəri ermənidir və 34 nəfəri müsəlmandır. Böyük qorxu və vahimə var ki, şəhərdə ittifaq düşən həyacan ətrafa dağılub, erməni və müsəlman arasında çox böyük dairə götürsün, hansı ki hər iki tərəfə çox böyük zərər yetürür. Hansı tərəfə zərər olsa da, ümum bədbəxtlikdir, çünki qonşuların zəbti kəsildi və gələcək narazılıqlar, intiqamlar və ümumi hücumlar içün səbəblər əmələ gəldi. Yenə və yenə vacibdir bu vahiməli kinayətləri dayandırmaq içün lazımeyi-əlaclar olunsun. Bu günə bizim torpağımızda olan hadisələr bizim təvarixlərə tazə qara sütunlar daxil edüb.

***Həyat qəzeti, №74. 29 sentyabr 1905-ci il***

**"Mşaq"ın iftirasına cavab**

"Mşaq" və sayir erməni ruznamələrindən bəzisi sərapa yalan yazıb hər bir növ hadisatı, hər bir növ ittilaatı öz idarələrində, öz xahişlərinə görə tazədən təxmir etmələri bizə bir o qədər də təəccüblü görinmiyor, zira ki, hər bir erməni mühərriri ol ruznaməyə imtiyaz alan gündən əvvəlinci niyyəti yalan olub hər bir etiqad ki istəsə, öz qazetlərinə yalan təriqilə peyvəst etmək qəsdində olur. Bizə onların bu növ rəftarı adi bir halət olub onlara bilmərrə etina etməgdən qeyr çarə yoxdur. Ümidimizcə bu ruznamələrin sayir millətlərdən – ruslardan və qeyrdən olan qazetləri də bu ruznamə adlanan qaralanmış kağız parçalarını bir az mütaliə edəndən sonra bizim etiqadımıza ricət edirlər. Bəzi yalanlar var ki, inkarı – bədihidir. Məsələn, bir şəxs desə ki, gün bədənimi qızdurur, amma istinin mənbə`i gün degil, ona gülərlər və heç kəs onun sözünə inanmaq istəməyüb ona inkari – bədihi edən dellər. Bizə erməni ruznamələrinin rəftarlarından artuq sayir ruznamələr və qarelər haman ruznamələri akisi-etiqadi-camaat hesab edib onlara o nəzər ilə baxmaqlarıdır. İftiralarından birisi də "Mşaq"ın 177 nömrəsində "Şuşadan gələn məktub" adlu dərc etdiyi cəfəngiyyatdır. Avqustun 26-da yenə erməni və müsəlmanın nafiz şəxsləri injener Canumyansın imarətində general-qubernator Taqayşvilinin hüzurinə cəm olub vüqu olmuş hadisələrə dair göftgu edirlər idi. Müsəlman bəgləri bu barədə bimərrə erməniləri müqəssir bilub dedilər: "Ermənilərin komitələri var, hansıları ki, Qafqazda erməni-müsəlman tayfasının arasında dəhşətlü və xunriz hadisələr törədiyorlar, həmçinin də Şuşada. Hərgah məzkur komitələr olmasa erməni-müsəlman qırğını əsla mümkün olmaz. O komitələri tərk etmək lazımdır. Şol vəqt Qafqazın diriligi əzəlki sakit və rahət halına düşər". General-qubernator onlara böylə cavab verdi: "Cənablar, Rusiyanın hansı tayfasının komiteti, ya inki

firqəsi yoxdur. Rusiyada hamı tayfanın sosyal – demokrat firqələri vardır, həmçinin nasyonalist (milli) firqələri vardır ki, bunlar tək öz millət mənfəətlərini ediyorlar. Bu töv firqələr və komitetlərdə erməni camaatında onların kilsə əmlaklarını dövlət alandan sonra əmələ gəldi və neçə – neçə terrorlar əmələ gətürüb xüruc etdilər ki, məzkur əmlaklar geri qayıtsın. Şimdi əmlaklar geri qaytarılandan sonra komitələr də, firqələr də təbirdir ki, gərək öz başlarına tərk olunsunlar.

Buraya kimi yazılanlar doğrı. Ondan o yana yazılan hamısı yalan, iftira və quraşdırmadır. Əsla general-qubernator müsəlmanlara xitabən "Sizin də komitəniz var, bizə məlumdur" və qeyr sözləri söyləməyüb. Qubernator deməyüb ki, "erməniyə sataşan olmasa o hərəkət eləməz". Amma buna bənzər deyüb: "Siz müsəlmanlar bətəbən müharib, igid və səlahşur tayfasınız. Yəqin siz hücum edüb bu ticarətdən qeyr şey bilməyən tayfanı sıxmısınız. Belədirmi? Buna cavabən müsəlmanlar: "Xeyr, belə degil", – deyüb yuxarıda zikr olan komitet fəqərəsin açub. Bundan əlavə qeyr bir məclisdə ki gənə rəsmi məclis idi, general Taqayşvili erməni komitetinin zühuri barəsində böylə bir təsəvvürat zikr edib: "Erməni oxucıları neçə il bundan müqəddəm gedüb Avropanın bir para şəhərlərində ixtilalçı firqələr ilə tapışdılar və orada haman firqələr ermənilərə qayıdub öz vətənlərində şuriş qayırub dad və fəryad eləyub Avropadan mədət istəməgi və bu vəsilə ilə özləri içün müstəqil bir səltənət almağı tövsiyə etdilər. Ermənilər bu xəyali-xama inanub qayıtdılar öz vətənlərinə. Gördilər ki, bu işə pul lazımdır, pul hasil etmək içün bir komitet təyin edüb əvvəl ermənilərin öz həsbul-xahişlərinə görə pul yığmaq istədilər. Gördilər ki, əmələ gəlmür, ondan sonra təzəllüm və terror səyaqilə başlayub bir neçə tüccar ermənilər öldürdilər. Mötəbərandan bir neçəsi öləndən sonra qorxaq adamlar öz var-yoxın götürüb komitənin qabağına tökdi. Erməni komitəçiləri bir belə pulı görüb, səltənəti-zadı yaddan çıxarub başladılar pullarıyla keyf etməgə. Bu barədə camaatdan yetişən bir para narazılığı görüb özləri iş görən qələminə vermək içün başladılar bir para heç bir təqsiri olmayan rus hakimlərin və qulluqçıların öldürməgə ki, camaat deməsün ki, bunlar ancaq pulları yeyürlər və iş görmiyorlar. Rus qulluqçılarına bu növ təzəllümi başlayandan sonra komitəçilər qorxub silah cəm etməgə başladılar. Müsəlmanlar isə qabaqca bu işə kənardan baxırdılar. Sonra ermənilər ruslara etdigləri təzəllümi görüb fikirləndilər: onları dəxi rusu həmdərdi oldıqları içün təhti-təzəllümə olalar. Ona görə müsəlmanlar dəxi hazırlaşdılar özlərin mühafizət etmək içün. Əlbəttə, bu növ hazırlaşmağın axırı bir belə nəticə verəcəkdi". Bunlardan qeyr general Taqayşvili bu qovğa barəsində bir şey

deməyüb və ümidvarıq ki, gərək cənab general Tayqaşvili onun dilindən qayrılub "Mşaq" ruznaməsinə dərc olan iftiraları özi rədd eləsin. İndi məlumunuz olur ki, Zəngəzur uyezdinin naçalniki Avalyanikin dilindən qayrılan iftiralar dəxi "Mşaq" və sair erməni ruznamələrinin karxanəsində toxunma mallardır.

*Müslim*

### *Həyat qəzeti, №86. 18 oktyabr 1905-ci il*

**Xüsusi müxbirimizdən**

Şuşa. Sentyabrın 21-də Xankəndi qəsəbəsi yanında Volgski polk kazakları tərəfindən dutulmış student Melkumyan ilə qabaqda realnı məktəbində oxumuş Ruben Yüzbaşyansın quldur dəstəsində keçən il Şuşa şəhərinin dalında qətl edilən hökumət yüzbaşısı İşxanovun tüfəngi və Xunaşin deyilən ermənilər öldürən müsəlmanın atını tanımışlar. Haman kazaklar dutmış dəstədə 7 nəfər yaraqlı erməni var idi. Mərqumlar kilitli təqsiz sahibi ola-ola prokuror nadzoru tərəfindən xilas olmışdılar. Amma cənab general Taqayşvilinin əmrilə mərqum quldurları tazədən dutub dünən qazamata (məhbəsə) salmışlar. Növbətdə duran saldatı qayadan uçurub sentyabrın 29-cu gecəsində qaravulun 3 danə tüfəngini oğurlayan erməniləri dəxi qazamata salmışlar. Onlardan biri realnı məktəbdə oxuyan Muşiq Bəgləryans və digəri Tiflis polkunun saldatı erməni Aleksan Manvilyansdır. Onlar təqsirlərini bir-birinin üstə aturlarsa, bu günlərdə Padara və Daşbulağ erməniləri müsəlman mülkədarı Məhəmməd ağa Əbərxanovun 500 başdan artıq mal və heyvanını aparmışlar. Heyvanlar və həm də çobanlar indiyədək tapılmamışlar.

### *Həyat qəzeti, №90. 28 oktyabr 1905-ci il*

*Erməni mətbuatı*

*"Nordar"ın 25-mci nömrəsinə yazurlar.*

*Şuşadan 4 oktyabr.*

Şimdi Xaçın və Sarov kəndlərinin ətrafında erməni ilə müsəlman arasında çox böyük qətl və qal var. Həsənqala adlu erməni-müsəlman kəndi yanur və kənddə yanqu o qədər dəhşətli və vahiməlidir ki, gecələr Ağdamdan Bərdəyə kimi alov hamı ətrafı işıqlandırur. Hərçənd yol üstə düzülən kazaklara hökm olmış ki, bitəfavüt hamının yarağını alsunlar, amma Ağdam və Bərdə tərəfdən yaraqlı müsəlmanlar xırda dəstələrlə Xaçına tərəf getməgdədirlər.

### *Həyat qəzeti, №96. 6 noyabr 1905-ci il*

*Erməni mətbuatı*

*("Nordar"ın 35-mci nömrəsindən)*

**Bəglərin əməlləri**

Şuşa. 17 oktyabr. Ən nüfuzlu bəglərdən birisi Cəfər bəg Vəzirov Ağdamda bər əksi-dövlət və bər əksi-erməni sözlər nəşr edübən, ətrafın cəmi müsəlmanlarını məscidə yığub Qurana and versünlər ki, nə pristav, nə də bir qeyri hökumət əhli tanımasunlar və hər bir binagüzarlığı 1896-1897-mci sənələrdə Gəncə qubernatoru Daznanya təyin ediyor və təftiş vəqti Vəzirovun proğramması zühura çıxur və nəticəsi bu olur ki, Vəzirov 3 ay Tiflis həbsxanasında əgləşür. Həbsxanadan azad olub vətəninə müraciət edən kimi Vəzirov artuq səy ilə öz vətəndaşları arasında panislamizm təbliğinə şüru ediyor, ta ki, öz iblisanə səbəb və fürsət düçar oluyor.

Avqustun 14-də, yəni Şuşa iğtişaşından 2 gün əqdəm, Vəzirov Şuşanın bəglərindən bir məclis cəm etdi, əz an cümlə haman məclisdə Cavad ağa Cavanşir, Səlim bəg Rüstəmbəgov, Bahadur bəg Qalabəgov və Məhəmməd ağa Əmrənovlar da var idilər. Məclisin üzvləri qazının hüzuruna gedüb orada böylə qət etdilər ki, Şuşa ermənilərinə hücum edüb, özlərini qırub, dövlətlərini qarət etməgdən ötri hər bir bəg öz mahalından Şuşaya 300 nəfər yaraq-əsbablı süvarələr gətürsünlər. Bu məsləhət olan kimi uyezdlərin kəndlərinə qasidlər göndərildi ki, zeyldə zikr olunan vədlər öz süvarilərini götürüb tez Şuşaya gəlsinlər. Hüseyn ağa Cəbraildən 300 süvarə, Adgözəl bəg Cavanşirdən 300 süvarə, Cəfər bəg Vəzirov Hindarxı, Kəngərli, Göy təpə, At yeməzli və Beşdəkli kəndlərindən 300 süvarə, Səlim bəg Ağcabədi, Zəngişallı, Mahruzlı, Əftəli və Novruzlı kəndlərindən 300 süvarə; Cavad ağa Cavanşir Saybalı, Seyidli və Ağdam kəndlərindən 300 süvarə, Bahadır bəg Xıdırlı və Abdal Gülablı kəndlərindən 300 süvarə və Məhəmməd ağa Kürtlərdən və Zarıslılardan 300 süvarə.

Zikr olunan bəglər öz dəstələrilə Şuşaya varid olunca şəhərin müsəlmanları onları gözləməyüb avqustun 16-sında qırğın başladılar bu məqsud ilə ki, gözlədikləri qarətləri özləri aparsunlar, likən məqsudlarına çatmadılar. Avqustun 17-dən 18-dək yuxarıda zikr olunan bəglər öz süvarilərilə şəhərə varid olub dəstə-dəstə qazının hüzuruna gedürlər idi. Burada Qurana and içəndən sonra molla onların qabağında mərsiyə oxuyor idi. Dəhşətli dava beş gün müdavimət edəndən sonra müsəlmanların mübaşirləri gördilər ki, ermənilər onlar içün hazırlanmış xörək degillər ki, əlləri ilə tənavül edələr. Və buna bər-əks ermənilərin 1-2 xırda dəstələri

minlərcə müsəlman dəstələrini şiddətlü zərbə yetürürlər. Belə olan surətdə müsəlmanlar qazıdan təvəqqe etdilər ki, ermənilərdən barışıq təvəqqe etsün. Müsəlmanların igitlərin dəstələrindən bir hissəsi Şuşada qırıldılar və qalanları kəndlərə müraciət edən vaxt Əskəran adlı yerdə erməni igitlərin vəhşətli gülləbaranına fəda oldılar.

Bu hadisələrdən sonra məzkur Vəzirovun hökmi ilə müsəlmanlar ermənilərin Ağdamda bulunan ipək və ərəx karxanalarını odlayub çırağvan etdilər. Vəzirov müsəlmanlara söz vermiş idi ki, onların bağların üzümüni qeyri karxanaların sahiblərinə artuq qiymətə satacaqdır bir manatdan. Amma nəticəsi bu oldı ki, Ağdam müsəlmanlarının ümdə güzəranlarını keçürən üzümün putunu Gəncədə bulunan Almaniyalı karxanaçıları 25 qəpiyə də almadılar və çüriyüb tərk oldı.

Şimdi haman Vəzirov Ağdamda əgləşüb müsafir erməniləri söydirür və müsəlmanlara bərk qadağan edüb ki, ermənilərə heç bir şey satmasunlar. Malakanlar dirilik sursatı almaq içün Ağdam bazarına gedüblər imiş. Vəzirov onlar alduqları şeyləri meşoqlarından boşaltdırub onları hədələmişdir ki, hərgah ermənilərə bir şey satsalar, onlar da qırılasıdırlar.

İdarədən: Daha bundan artuq qıpqırmızı yalan və laf – güzaf etmək olmaz. "Nordar" qəzetəsinə yaxşı məlumdur ki, Şuşa qovğasını başlayanlar ermənilərdir ki, yaxşı bu işə aylarca hazırlaşmışdılar və həmçinin məlumdur ki, hansı igitlər kazarmada övrətlər tumanının altında gizlənürdilər və kimlər çöllərə töküldi. Lakin qəzetə özinə və öz oxucularına təskinlik verür və yaxşı edir, çünki böylə qəzetələrdə ki, erməniləri müsəlmanlar barəsində iştibaha salub qovğaya vadar etdilər, bəglər barəsində yazmağı da məhz kizb və iftiradır. Cümlə Şuşaya məlumdur ki, Cəfər bəgin and vermək maddəsi Xublarov işi deyilən cinayətdə zühur etdi. Bu işi Cəfər bəg açmışdı və Xublarov illərcə həbsdə yatub boğazını kəndirdən çox müşgülata qurtardı. Sonra Xublarov intiqam məqamına gəlüb haman and iftirasını düzəldib Cəfər bəgi işə salmaq fikrinə düşdi. Cəfər bəg isə həbsdən bir həftə də belə qalmayub bəraət zimmət etdi. Şimdi bu iftiranı tazələndirməgdən məqsəd nədir? Qeyr bəglərə gəldigdə bu haman Cavad ağa Cavanşir və qeyrləri deyir ki, erməni dəstələri onları: "Getsə Cavad ağa, getsə Cavad ağa" – deyə-deyə istiqbal edirdilər? Bu haman bəglər degil ki, ermənilərin müsəlmanlara etdigləri cəbr və zülm və qan tökməsini örtüb qoymadılar ki, müsəlmanlar hərəkət etsünlər? Bu haman bəglər degil ki, minlərcə ermənilər mühafizət edüblər? Şimdi nə oldı?!

Əcəba, erməni qəzetələri bu iftiralar iləmi istiyorlar ortalığa saziş versünlər?! Daha bəs degilmi? Haçanadək? Nə üçün ermənilər öz qəzetələrinə qadağan etmiyorlar böylə iftira yazmasunlar? "Həyat" məhz

sülh və saziş xatirəsi içün doğrunı da yazmaqdan çəkinür. "Həyat"ın fikrinə bu məqamda Rusiyanın bu halında, Qafqazın bu övzaında böylə yazılar külli zərərdən savay bir nəticə verməz. Əcəba vəqt degilmi ki, bir az özimizə gəlüb, əqlimizi başımıza cəm edək?

***Həyat qəzeti, №98. 9 noyabr 1905-ci il***

Nədir bu dövri-qəmavər, nədir bu həngamə
Ki dutdı xitteyi-Qafqası bir zülami-bəla.

Boyandı nafilə al qanə tağ ilə daşlar,
Vüsudinə bilmür şəxs bir dəqiqə bəqa.

Məgər bu möhnətə, ya Rəbb, nihayət olmayacaq,
Qitaldən çəkub əl, xəlq rahət olmayacaq.

Əlaqələr kəsilüb xəlqə yüz veribdi ziyan,
Şu kinə atəşi hər yerdə oldı daməngir.

Dutubdı xuyi-bəhayim nədəndir insan
Gəlüb təlatümə hər yan daşubdı bəhri-fəsad.

Məgər bu möhnətə, ya Rəbb, nihayət olmayacaq,
Qitaldən çəkub əl, xəlq rahət olmayacaq.

Bu bəhri-fitnə, İlahi, gəlübdi cuşə nədən,
Edübdi qərqi-təhəyyürdə pirü bürnanı.

Girübdi xəlq silah silah altda, bir-birin toğrar
Ki, pişi-çeşminə turmaz əyalü həm canı
Əcəb gönüllər olub səxtruy çün ahən

Məgər bu möhnətə, ya Rəbb, nihayət olmayacaq,
Qitaldən çəkub əl, xəlq rahət olmayacaq.

Dutubdı vəlvələ bumü bəladı sərtasər,
Edər cidalə həvəs xəlqi-məstü bipərva
Nədir bu əsri-tərəqqidə bu xiyali-əbəs
Olubdı silsilə cünban fitnə hər ədna
Gəlür vüquə aman bisəbəb müsadəmələr

Məgər bu möhnətə, ya Rəbb, nihayət olmayacaq,
Qitaldən çəkub əl, xəlq rahət olmayacaq.

*İbrahim Tahir Müsayev*

***Həyat qəzeti, №104. 20 noyabr 1905-ci il***

*Erməni mətbuatı*

Oktyabrın 11-dən Şuşadan "Nordar" qəzetəsinə (nömrə) 36 böylə yazurlar:

Uyezd kəndlərindən təhlükəli xəbərlər gəlür: müsəlman dəstələri bəglərin mübaşirligi ilə erməni kəndlərini talan, qarət və yer ilə yeksan ediyorlar. Şuşa və Cavanşir uyezdlərindən 8-dən yuxarı erməni kəndləri odlanub talan olublar. Əhalilərindən kimisi xəncər ilə doğranublar və kimisi bir tövr xilas olub, başını götürüb hərə bir tərəfə qaçublar. Şimdi dava Sarov adlı erməni kəndinə yetişüb, kənd əhalisinin halı çox hiddətlidir. General-qubernator bu ətrafdadır və bir nəfər Hamazas adlı şəxsi dutmağa səy ediyor. Məzkur şəxs müsəlmaların gözündə bir tikan olubdur. Ayın 8-də 50 nəfər Yevlaxdan Şuşaya müraciət edən ermənilər Ağdamda talana giriftar olublar. Minə qədər müsəlləh müsəlmanlar dilijanları və faytonları saxladub. Günün günorta çağı hökumət xidmətçilərinin gözlərinin qabağında hamı müsafirləri talan edüb köynəklərinə kimi aparmışlar. Soyulan ermənilər Yevlaxdan yola düşməmişdən qabaq Gəncədə general-qubernatorun hüzuruna qəbul olunub və yolların təhlükəli olduğunu izhar edüb ariz olmuşlar ki, onları Şuşaya ötürməgə qoşun versün. General Taqayşvili onlara cavab vermiş ki, yolda heç bir şey ola bilməz və özi cavabdehdir və yenə iki nəfər kazak verür. Kazaklar Ağdama çatmamış diyorlar ki, onlara buyuruqdur ki, haman yerə kimi müşayiət etsünlər və geri qayıdurlar.

Haman güni şəhərdən 18 verst kənarda Turşsu adlı postanın yanında Zarıslı müsəlmanların bir dəstəsi 4 nəfər Daşaltı və bir nəfər Qaraqışlaq ermənilərin üstünə tökülüb birisini məcruh etmişlər, qalan 4 nəfəri qaçurmuşlar. Müsəlmanlar onların yol ulağlarını aparmışlar.

Yenə haman güni pristav Bəhram bəgin göstərməgi ilə uyezdni naçalnik Avaliyani 14 nəfəri bigünah Qaraqışlaq ermənilərini həbs edüb Şuşaya göndərdi. Bunları o barədə müqəsir edürlər ki, sərhədlərində bulunan Ağonis adlı müsəlman kəndini odlamışlar. Bu kəndin müsəlmanları öz qomşu kəndliləri ilə ittifaq edüb minlərcə dəstə hazır edüb erməni Qaraqışlaq kəndinə təcavüz etmişlər ki, bu kəndi də Minkənd kimi qarət edüb, insaf etməyüb hamusını qırsunlar və qorxaqlarını müsəlman elə-

sünlər. Şimdi erməni kəndçilər ondan ötri həbs olunublar ki, cürət, qoçaqlıq ilə öz canlarını və var-yoxlarını mühafizə edüblər və müsəlmanın dəstələrinə karlı zərbət yetürub kəndin sərhədindən geri qaytarublar.

***Həyat qəzeti, №61. 9 sentyabr 1905-ci il***

**Qarabağ xəbərləri**

Qarabağda neçə illərdən bəri ermənilərin kəmali-sürətlə gələcəkdə gözlənilən bir böyük müharibəyə, bir əzim müqatiləgə hazırlaşmağı müşahidə olunurdısa da, məhəll müsəlmanları zatən erməni tayfasının artuq şəci`i, artuq rəşid olmağıan layiqincə bələd olduğundan bu hazırlaşmağa əsla məna verməyüb bilmərrə etina etmiyordı. Nədir ki, fikrinə belə gətürmiyordı ki, bu növ arşun və tərazudan qeyr bir şey tanımayan millət birdən – birə tüfəng, ya qeyr silah götürüb müsəlman ilə dava eylər. Bu inanmamaqdan, bu kəmetinalıqdan naşı müsəlmanlar hətta özlərinə məxsus silahlarını dəxi artıq qiymətə ermənilərə saturdılar və hər kəsdən qabaqda ermənilər tərəfindən müsəlman tayfası əleyhinə vüqui mümkün bir ixtilala, bir hücuma işarə olunurdısa da, bəqəyir əz rişxənd və qeyr əz istihzah heç bir şeyə bayis olmıyordı, amma o biri tərəfdən erməninin hazırlaşmağı imtidad tapmaqda idi. Bu hazırlaşmaq əməldən məxfi bir halətdə idisə də, erməni kəlisa və məktəb əmlakı dövlət tərəfindən zəbt olunandan sonra aşkara meydan tapdı və qövmiyyət və sayir məcmələr açıq meydana girüb aşkar silah cəm etməgə müntəzəm qoşun sayaqında könüllilər cəm etməgə məşğul oldı. Bu haləti görən müsəlmanlar ermənilərdən bir az şübhəyə düşüb və onlardan büruzə gələn tək-tək məmurlar və sayirləri barəsində olan təzəllümi görüb bir növ ayıqlıq meydana gətürdilərsə də, ermənilər müsəlmanları təkzim edüb: “bu hazırlaşmaq hər halda sizin içün degil, ” – deyüb müsəlmanları gənə qəflət yuxusına saldılar. Baku, Naxçıvan, İrəvan füqəratından sonra ermənilərin əsl məqsədi müsəlmanlara bir növ təb`in olundısa da Qarabağ erməniləri bu dəfə dəxi tazə bir yol tapıb müsəlmanları iğfal etməgə müvəffəq oldılar. Bu dəfə başladılar ki, “bizim yerin əhalisi sayir yerlərin əhalisinə bənzəməz, bizlər qədimdən dost – qonşı, hətta qövmlər belə varuq”. Bizim sadədil müsəlmanlar da gənə bu təzvirə inanub sakit, salim öz yerlərində oturdılar. Keçən avqust ayının əvvəlindən ermənilər orada – burada başladılar yavaş-yavaş açıq-açığa müsəlmanlara təzəllüm etməgə və onlardan bir-bir, iki-iki orada – burada öldürməgə. Avqustun 8-də gecə saat 2-də ermənilər müsəlman arasında vaqe küçələrin birində 4 nəfər erməni bir nəfər şəhər fənərlərin yandıran iranlu biçarənin üstinə düşüb məzlumi xəncər ilə doğradılar. Binəva ölməkdən qabaq ancaq bu təqriri verə bildi

ki, onı öldürən 4 nəfər erməni idi və bihəmeyi – səbəb onı öldürdilər. Haman qəddar şəxslər biçarə iranlınun fəryadına gələn qonşu müsəlmanları dəxi oda tutub özləri qaçdılar. Bu zülm müsəlmanlar arasında bir para şurişə, bir para həyəcana bais oldısa da, tərtib olunmuş müsəlləh komissiya tərəfindən gənə islah olundı. Haman günlərdə Vanq adlı qəryədə müsəlman köçərilərinin üstünə iki-üç yüzdən ziyadə erməni atlusı tökülüb köçəriləri qətl və qarət etmək xəbəri dəxi müsəlmanları həyəcana gətürdi. Amma bu şuriş də gənə haman komissiya tərəfindən islah olundı.

Avqustun 16-cı güni saat 9-a yaxun müsəlman hissəsinə yaxun erməni qəbiristanınm hissəsində bir kazak bir ermənini silahdan təxliyə etmək istiyor və erməni silahını verməmək istədigi halda onı öldürir. Bu xəbər bais olur ermənilərin özlərindən bir paralarının şəhadətinə ki, qəbiristan həvalisində qətl olunan ermənini kazak öldürüb, etina olunmuyor və qövmiyyət tərəfindən bir neçələri başlıyor erməniləri iğva etməgə ki, bu şəxsi müsəlmanlar öldürüb və bu şayiə ilə haldan çıxmış erməni camaatı başlıyor bazarda vəlvələ və şuriş etməgə. Bu halda qövmiyyət tərəfindən diş həkimi Maşuryan başlıyor ki, tazə bir xəbər də var. Şəhərdən bir az kənar müsəlman kəndi Zaraslının yanında müsəlmanlar 4 erməni öldürüblər. Bu xəbər şurişin və ermənilərin dəstə-dəstə olub orada-burada müşavirə etməsinin artmağına bais olur. Bu halda kilsədan nazik naqus çalınur. Bazarda camaat cəm olan əraminə filtövr özin salur kilsəyə. Amma bu xəbəri gətürən Maşuryan və onun yoldaşları Atabekov və Doluxanov atlara süvar olub çapırlar İrəvan qapusı deyilən məhəllə, guya ki, Zarasluda qətl olunan ermənilərdən xəbər gətürmək istiyorlar. Bir azdan sonra ermənilər kilsədən çıxub hər kəs dağılur öz evlərinə və bir qədər fasilədən sonra hamı qayıdır bazara. Amma hamı müsəlləh və silahların dükanlarda pünhan edirlər. Bu dəmdə erməni bazarının yuxarısından Maşuryan, Atabekov və Doluxanov bir nəfər yaralu erməni ata mindirüb yarasından qan axa-axa bazar aşağa gətürirlər və hər yerdə ki, ermənilərin izdihamın görürlər, bir nitq deyüb "müsəlmanlar bizi qırır" – deyüb fəryad edirlər. Bu haləti görən ermənilərdən bir neçəsi erməni bazarilə ötən Molla Qara nam bir nəfər qoca kəndlü müsəlmanı öldurürlər və onun dalınca bir nəfər iranlı hammalı öldürürlər. Bu güllələrin səsi erməni meydanına yetən kibi haman meydan bir dava meydanı surətin alur. Nə qədər ki bixəbər və biittila müsəlmanlar erməni bazarında var, əksərin öldürürlər və haman Zarıslu şayiyən təhqiq etmək içün erməni bazarından yuxarı gedən polismeystr Xosrov bəy Fuladova otuzdan yuxarı güllə aturlar.

Müsəlmanlardan erməni hissəsində onların əksərin haman gün ermənilər öldürür və haman saat qabaqda müəyyən olunmuş evlərdən və

səngərlərdən və uca yerlərdən müsəlman hissəsin gülləbaran edüb yollardan, küçələrdən ötən müsəlmanları öldürməgə başlayurlar. Bu əhvalatı görəndə müsəlmanlar dəxi öz bazarlarında olan ermənilərdən bir neçəsin öldürürsə də, qalanların 60-dan ziyadə adam şəhər ağsaqqalları himayət edüb öz evlərində saxlayurlar. Dava başlanan kimi Köçərlü deyilən erməni hissəsinə müttəsil məhəllədə qonşu erməni gəlüb öz qonşusı müsəlman Abbas bəg nam müsinn kişini hiylə ilə evindən çağırub öldürür. Ondan sonra ermənilər tökülüb haman Abbas bəyin oğlın və qardaşı oğlın öldürüb evlərinə od vururlar və başlıyorlar haman məhəllədə olan müsəlman evlərin odluyub, övrət-uşaqların qırmağa və evlərin qarət etməgə. Bu əvvəlinci gün müsəlmanlar bir növ heyrətdə öz gözlərinə inanmaqsızın ancaq zəif müdafiədə bulundılar. Ermənilərsə gəldikcə təzəllümlərin arturub müsəlman hissəsin bilmərrə təxrib etmək fikrinə düşdilər. Məhəll kazarmasından haman dava başlanan kimi qaçub erməni qardaşlarına mülhəq olan 15-ə baliğ erməni saldatları dəstələrin qabağında irəlü yeriyüb müsəlmanlara hücum etdilərsə də, müsəlmanlar genə canü dildən dava etmək fikrində olmayub haman güni və gecəsi ancaq zəif bir müdafiə edirdilər.

İkinci gün tezdən genə ermənilər qəddaranə hərəkətlərində bulundılar. Köçərlü məhləsindən 8-10 ev dəxi yandırub əhalisin qırdılar və əhalidən bir parasına yaxunda vaqe kazarmadan göndərilən saldatlar imdad edüb kazarmaya göndərmək istədigi halda ermənilər saldatlardan 2-sin öldürüb, 7-8-i də məcruh etdilər. Ermənilərin bu növ bihəyalığın görüb ağsaqqallar tərəfindən saxlanılan müsəlmanlar haldan və itaətdən çıxdılar və birdən hücum etdilər ermənilərin üstinə. Bir tərəfdən də odlağa odlaq əvəz etməgə başladılar. Ermənilər nə qədər müsəlləh idilərsə də, müsəlmanın bu hücumuna tabavər olmayub yavaş-yavaş geri oturmağa başladılar və özlərinin vaqeən hər bir səngəri Port-Artur səngərlərinə müqabil səngərlərin təxliyə etməgə şüru etdilər. Müsəlmanlar isə gəldikcə qəzəbləri artub artıq rəhm-insafı kənar etdilər və başladılar erməni hissəsin dörd tərəfdən odlamağa və qaçan erməniləri qırmağa. Üçüncü-dördüncü gün müsəlmanların qələbəsi ən böyük dərəcəyə yetdi. Ermənistanın ən gözəl bazarı içində olan böyük mağazirilə Xandəmirovun teatrı, mirovoy sudyanın dəftərxanası, məktəbi-nisvan və nə qədər böyük imarətlər var idisə, hamusı sərasər yandı. Ermənilər kəmali-cəbənilə müsəlmanların qabağından qoyun sürüsi kimi qaçub özlərin kazarmaya salmağı qənimət bildilər. Müsəlmanlardan tədadən iki qat artuq erməni camaatı şəhərdən qaçub biyabanlara düşməgə müsəmməm oldılar. Qövmiyyət igitlərindən çoxusı çignində dört qatardan patron və əllərində beşaçılan tüfəng özlərin

kazarmada saldatların taxtının altına salmağı qənimət bilüb cəmi Ermənistanın mühafizəsin 5-10 nəfər qaçmağa qadir olmayan gülləçilərə tapşurdılar.

4-ci gün müsəlmanların qələbəsinin ən şiddətli halında ermənilər birdən məscidin səhnində qubernator Baranovski və arxamandrit Aşot göndərdilər. Arxamandrit ağlaya-ağlaya başladı camaata yalvarmağa: "Dəxi bəsdir, dəxi Ermənistan dağıldı, ermənilərə yetər tənbeh oldı", – deyürdi. Bu sülh sözi meydana çıxan kimi müsəlmanlar hamusı birdən güllə atmaqdan əl götürüb sakit oldılarsa da, ermənilər bir para səngərlərdən güllə atmaqda müdavimət etdilər. Hətta qaıdub öz mənzilinə gedən qubernatora dəxi bir neçə güllə atdılar. O gün axşama kimi müsəlmanlar bir güllə belə atmadılar. Ermənilər isə güllə atməgdə müdavimət etdilər. Axşamına müsəlmanlar bu haləti görüb tazədən hücum etdilər və üz bürünmədən getdilər erməni meydanına. Sabahı gün tezdən ermənilər külliyətən öz təhlükəli halətlərinə məqərr olub genə bir neçə axır vəsilələr ilə müsəlmanları qorxuzmaq və onlara hiylə etmək fikrinə düşdilər. Bu gün 3-4 dəfə bomba və top atdılarsa da, haləti-təbiidən çıxmış müsəlmanın irəlü yeriməsinə əsla təfavüt etmədi və müsəlmanlar gəldikcə irəlülədilər. Haman gün günorta zamanı güclü saldat kazak ilə muzıka və qabaqlarında məhəll hökumətlərinin məmurları onlardan qabaq cəmi erməni ruhaniləri qabaqlarında kəlisa baydaqları əllərində xaç və İncili-şərif gəlüb töküldilər məscidə və haman saat gətürdikləri baydaqların birin vurdılar məscid minarəsinə ki, ermənilərin evlərdə pünhan olub güllə atanları görüb güllə atmasun. Məscidin içində genə yeparxiyalni naçalnik ağlayub müsəlman camaatından təvəqqe elədi ki, ermənilərin təqsirindən əl götürsünlər. Müsəlmanlar genə güllə atmaqdan sakit oldılarsa da, haman bu ruhanilər və qeyriləri məsciddən çıxub gedən vaxt müsəlman meydanında erməni evlərinin birindən atılan güllə ilə bir müsəlman qətl olundı. Amma müsəlmanlar buna da mütəhəmmil olub davanı əbədi qət etdilər.

O gün axşama kimi erməni evlərindən və səngərlərindən güllə atıldı, amma müsəlmanlar qubernatora və öz rüəsalarına verdigləri sözə görə bir güllə dəxi atmadılar. Sabahı gün müsəlmanlar öz evlərində saxladıqları erməniləri salamat öz evlərinə qaytardılar. Erməniləsə sağ qalan müsəlmanlardan ancaq 5-6 nəfəri azad edüb sübhdən sonra realnı məktəbin təmirində fələlik edən və əvvəlinci gündən dutulmış 17 nəfər o biçarə iranlu fələlərin başlarını kəsdilər. Bir bu qədər namərdligə, bir bu qədər qəddarlığa, kəmfürsətligə mütəhəmmil olub öz verdigləri sözün üstə duran müsəlmanlar sülhdə baqidirlər. Dava qət olandan sonra məlum oldı ki, müsəlman hissəsində olan erməni dükan və mağazası hamısı salamat

və şeylərinə əl vurulmamış qalur. Amma erməni bazarında olan müsəlman dükanların ermənilər öylə dağıdub ki, heç bir asar qalmayub. Müsəlman tərəfndən qətl olunan və yaralanan cümlətan yüzdən əksigdür. Erməni tərəfdən isə neçə yüzlərə baliğ olmağı yəqindir. Amma özləri nədən isə ölənlərin hesabın gizlədirlər. Müsəlmanın cümləsi igirmiyə qədər evi yanub, amma ermənin yanan evi və dükanı, mağazası 600-dən əksük olmaz.

*(Mabədi var)*
*Müslim*

***"Həyat" qəzeti, №155. 16 iyul 1906-ci il***

*Xüsusi müxbirimizdən*

Şuşa şəhərinin və uyezdin əhvalına dair bizim sualımıza Ağdamdan belə teleqram göndərilübdir: "Şuşada müqatilə vardır. Şəhərdə və uyezddə olan müsəlmanların əhvalı ağlanmalıdır: müxabirə kəsilübdır. Hər dəqiqə top gurultusu eşidilür."

----

Şuşadan teleqram vurular: Sərhəddə müsəlmanlar bir ermənini boğazlayular. Əhval Qalaşçabovun mənzilinin yaxınında olubdur. Polisə gələn gibi müsəlmanlar onları güllələyüblər. Bir neçə güllə Qalaşçabovun mənzilinə dəgibdir. Polisə geri çəkilübdir. General topçı dəstəsinə əmr edübdir ki, müsəlmanların səngərlərini güllələsinlər. Məhəlli saldatlardan ikisi öldürülübdir.

***"Həyat" qəzeti, №156. 17 iyul 1906-ci il.***

**Qafqas xəbərləri**

"Tiflisski listok" qəzetəsinin verdigi xəbərlərə binaən Şuşa şəhərinə teleqram kəsilübdür. Bənaəleyh Şuşaya göndərilən teleqramları Tiflis posta-teleqraf kantorı qəbul etmiyor.

***"Həyat" qəzeti, №157. 18 iyul 1906-ci il***

**Qafqas həvadisi**

Şuşada erməni-müsəlman davasını yatırmaqdan ötrü 16-sında iyul 3-minci topatan batalyonı Şuşa şəhərinə rəvan olacaq.

***"Həyat" qəzeti, №158. 19 iyul 1906-ci il***

Tiflis. Şuşada olan nizamsızlıqlar mötəbərlərdən xırda-xırda xəbərlər alınur. Əhval görinür ki, ağırlaşubdır. Çünki general Qoloşçapov öz

təhti-ixtiyarında olan qoşundan başqa strelkovı batalyonı dəxi tələb edübdir. Alınan xüsusi xəbərlərə görə Şuşanın ətrafına çox köçəri müsəlmanlar yığılubdır. İyulun 7-də beş Əsgərən kəndini dərədə Şuşadan 30 verst kənarda müsəlmanlar əhatə edübdirlər. Əsgəran qalasını ermənilər işğal edüblər. Ermənilərə kömək içün 100 kazak göndərilübdir. İyulun 15-də qordler iki erməni kəndinin üstə hücum edüb Şuşaya daxil olmaq istəyüblər. Qalaşçapov onları güllələyübdır. Şuşada yanğu yenə davam edürdi. Yanğu işıqı müsəlman hissəsinin üstində imiş.

*"Həyat" qəzeti, №162. 25 iyul 1906-ci il*

**Qafqas xəbərləri**

Cümə axşamı şeyxülislam və müfti cənabları canişin müavini Mitskeviçin yanına gedüb və Şuşadan gələn teleqramları təslim edüb, Şuşa həvadisi-müəssəfəsini yatırtmağı, general Qoloşçapovı xidmətdən kənar etməgi və işi istintaq etməgi canişindən iltimas etdilər. Müşarəleyhin iki təvəqqeləri qəbul olunub. Qoloşçapovun əzli haqqında olunan təvəqqe nədən isə məqbul olmayubdır.

*"Həyat" qəzeti, №164. 27 iyul 1906-ci il*

**Qafqas həvadisi**

Qarelərimizə məlumdur ki, Qafqaziya şeyxülislamı və müfti həzrətləri bir neçə nəfər başqa adamlar ilə məən Qafqaz canişini qraf Voronsov-Daşkov cənablarının yanına varub Qoloşçapovun Şuşa uyezdindən kənar olunmasını iltimas etmişdilərsə də, vəli rəvanilərimizin məzbur rica və təvəqqei məqbul olmayub canişin tərəfindən rədd olundı. Likən Qoloşçapov və Kazarov "cənabları" isə dilsiz-ayağsız yetim balaların ağlar gözlərinə və suzişli nalələrinə bilmərrə etina etməyüb top gülləlləri ilə müsəlmanların evlərini yer ilə yeksan ediyor. Neçə-neçə qüyur, rasid cavanlar güllələr və şaşkalar qurbanı olurlar. Məzlum olanların nalə və zarları Qoloşçapov kimi bir zalım hakimin daş yürəgini yumşaldub insaniyyət hissini qamçılədikcə, müsəlman qardaşlar, Vladikafkaz kimi uzaq bir bələdənin insaniyyət və islamiyyətpərvər əhalisindən və səmimi qardaşlarımızdan kəndimizə yardım etmək qoxusu və ətri gəlür.

Qafqaz canişininə 20 iyul Vladiqafqazdan göndərilən teleqramı "Terek" qəzetəsində mütaliə etdik, məzmunu budur: "Biz, ümum Dağıstanın, Qafqazi-Şimaliyyənin və Qorski ürəfaların nümayəndə və vəkilləri Zaqafqaziyada vaqe Şuşa şəhərindəki qarındaşlarımızın məqami-təhlükə və tələfatda bulunduqları xüsusda ali dərəcədə qorxulu xəbərləri aldıq.

Məzbur xəbərləri təsdiq qılmaq məqsədilə "Moşuq" mənbədən 18 iyul çəkilmiş atidəki teleqramı dərc ediriz: "Dünənki gündən Şuşada atışma sakitləşübdirsə, lakin hal təhlükəli və xətərlüdir. Qoloşçapov erməni məhləsinin ortasına hicrət edübdir. Qoşun isə can fədailərə iltihaq edüb bunlar ilə məən müsəlmanların üstünə hücum ediyorlar. Amma müsəlmanlar hər bir tərəfdən müntəqe olunub, kənardan köməkləri dəxi yoxdur. Köçərlü evləri, məscidləri ilə və Məhəmməd ağa Dadalının bir hissəsi kazakların adilə bimərrə tələf olubdur. İnsan qurbanı hənuz az isə də, vəli müsəlmanların namüsavi davada bulunduqları cəhət bilmərrə fövti-qətl olunub qurtarması intizar olunur. Düzəngahlar qanuna müvafiq hərəkatda boyanaraq hənuz şiddətlü həyəcan ediyor. Məfhum olanlardan belə anlaşılur ki, rəsmən verilən teleqraf xəbərləri bilümum müvafiqi-həqiqət degildir. Və bu isə dəxi yəqinən cənabınıza sərahətən məlum və vazehdir. Qarındaşlarımızın bu halı bizləri nəhayət dərəcədə məğmum və məhzun edübdir. Zaqafqaziya məhmum Qafqazda rahat və farağatlığı qorumaq xahişində bulundığımız surətdə sizin uca olan cənabınızdan Şuşa müsəlmanlarını xilasi-möhkəmi-nizam və sülh qurmaq məqsədilə fövqəladə tədabir icra etmənizi müxlisanə rica edirik. General Qoloşçapovun destinini o komandir Qazarovun kənar olunmalarını lazım və vacib görüb təvəqqe və iltimas edəriz".

İmzalar: Doktor Təhlət, dava vəkili Sanayev, sabiq Dövlət Duma üzvü Eldarxanov, general-leytenant Dudarov, general-mayor Quşov, polkovnik Sanayev, knyaz Xasay Utsimyev, Dağıstanın ruhani qazısı Yusif Zahidov, student Birsanoqo Ujaxov, Əndris Almazov, Soslanbek Liyanov, Sardol Cambutov, Albast Hacı Tutayev, Qurbakov.

*Mütərcim: A.Ə.Qasımov*

### *"Həyat" qəzeti, №166. 29 iyul 1906-ci il*

**Qafqas həvadisi**

23 iyul axşam saat 8-də Şuşadan "Alığ" qəzetəsinə teleqram göndərüblər: "20 iyul bir əfsərin təvəqqeinə görə general Qoloşçapov, Ağa Rzanın yanmış evindəki səngərdən erməniləri kənar edüb müsəlmanlara özlərini mühafizət etmək məqsədilə təslim qıldı. Likən 21 iyul axşam saat 7 sülh barəsində danışıq etməkdən ötrü məzbur səngərin yanından ermənilər əsləhəsiz keçirdilər. Səngərin qabağında general Qoloşçapovun adyutantı səkkiz nəfər saldatlar ilə durmış idi. Müsəlmanlar qəflətən bunların üzlərinə od açdılar. Bir nəfər saldat ölüb, iki nəfəri məcruhdur.

Ermənilərdən bir neçə nəfəri yaralanubdur. Ermənilər dərhal səngəri aldılar və atışma yenidən başlayub tamam gecə davam etdi.

22 iyul. Ermənilər müsəlmanların şiddətlü hücumunı rədd etdilər. Burda bir bardağ neft və cındır əski tapdılar. Yəqinən bunlar erməni evlərini yandırmaqdan ötrü hazırlanmışdılar. Müsəlmanlardan ölən çoxdur, ermənilərdən 15 nəfəri yaralıdır.

22 iyul. General Qoloşçapov ruhaniləri və çox camaat cəm edüb müsəlmanları barışığa dəvət elədi isə, müsəlmanlar razı olmadılar və dedilər ki, ermənilər aturlar.

26 iyul. Külli camaat ruhani və əskərlər muzıka çala-çala şəhəri müsəlman və erməni çastından gəlüb keçdilər. Müsəlmanlar Gövhər ələmi Səkinskinin məşhur səngərini general Qoloşçapova verdilər".

***

**14 iyul.** Şuşadan "Mşak" qəzetəsinə atidəki teleqramı göndərübər: "Tiflisdən irsal olunmuş canişinin adyutantı knyaz Amilaxari varid oldı. Cümə gününün atışmasından sonra yaralu olanlar azdır. Səngərləri boşaldmağı general Qoloşçapov tərəfeynə hökm qıldı. Sülh və səlah komissiya erməni üzvləri Bakı müsəlmanlarından təvəqqe edüblər ki, tez barışıq etmək məqsədilə bilətəxir azim olsunlar".

***"Həyat" qəzeti, №186. 21 avqust 1906-ci il***

**Teleqraf xəbərləri**

Şuşa. 50 nəfər Şaxnazarovun çaxır zavodunun üstə düşübmüş. Sahibkarın arvadı bir fə`lə ilə bərabər öldürülüb, bir neçə fə`lə dəxi yaralanubdır. Uyezddə 30 müsəlman erməni biçinçilərinin üstinə düşmişlər. Zəngəzur uyezdində erməni-müsəlman hadisatı vüqu olmaqdadır.

Tiflis. Alınmış xəbərlərə görə Şuşa və Cavanşir uyezdi müsəlmanlar ilə ermənilərin arası pozulmaqdadır. Bəzi yerlərdə vüquat başa gəlməkdədir. Yanub və qətl-qarət olunan dört kənddir. Mis zavodu ilə Kirosun arasında əlaqə kəsilübdür. Bir zavod dağılubdur. Naxçıvan uyezdində də halət həyəcanlıdır.

***"Həyat" qəzeti, №189. 24 avqust 1906-ci il***

**Teleqraf xəbərləri**

General Qoloşçapov Gəncə quberniyasının Şuşa, Zəngəzur, Qazax və Cavanşir uyezdlərinin müvəqqət general-qubernatorluq mənsəbindən azad edilür. Onun yerinə general Baeveyr təyin edilür.

***Həyat qəzeti, №190. 26 avqust 1906-ci il***

Tiflis şəhərindən alınan xəbərlərə görə Şuşada general Qoloşçapov iqamət edən evin altına lağım atılubdır. Güman olunur ki, bu sui-qəsdi edən müsəlmanlardır. İstəyürmişlər ki, mənzilini dağıtsunlar. Bu gün erməni Qriqoryan Sinod məskəni olan Üç kilsədən alınan xəbərlərə görə Eçmiadzində rus ermənilərinin əvvəlimci mərkəzi vükəla ictimai güşad edildi.

***"Həyat" qəzeti, №192. 28 avqust 1906-ci il***

**Qafqas xəbərləri**

Böylə xəbər verirlər ki, general-leytenant Qoloşçapov Şuşadan Tiflisə müraciət edübdir.

***"İrşad" qəzeti, №96, 24 may 1907-ci il***

**Xüsusi müxbirimizdən**

Ağdamdan

Məlum ola ki, bizlər Pirzadlı camaatı Şuşa uyezdlərində olan qəryələrin hamısından çoq əfsürdə və üsrətlə dolanuruq, çünki keçən il bizlərin ziraətlərimizi və bağlarımızı dolu dögub və çəgürtkə yeyübdir. Qeyri ətrafımızda olan kəndlərin ziraətləri ilə bahəm burada hökumətə ərizə pişnəhad etmişdik. Şimdi Şuşa uyezdinin kənlərinin dolu döğənlərinə və çəgürtkə yeyənlərilə hökumət tərəfindən ianə pulı verilübdir, amma bizlərə bir binagüzarlıq yoxdur və Şuşa uyezdinin cənab naçalnikinə şikayət edib təvəqqe edirük, bizlərə buyurur ki, sizə ianə pulı çıqmayubdur.

*Pirzadlu camaatı*

***Həyat qəzeti, №38. 28 iyul 1905-ci il***

**Şuşadan məktub**

Həqiqətdə "Həyat" həyatbəxş və baisi-tərəqqiyi-millətdir, likən bir para əlfazi-ərəb və qeyr əlsənə ki, "Həyat"da istimal olunur, bənim təsəvvürimə görə mütaliə edənlər üçün çoq düşvardır, çünki özinüzə məlumdur ki, camaatın mindən biri ancaq əhli-savad və mərifət ola bilər, baqisi əvam və bisavaddır. Pəs belə olan surətdə bə məzmuni-kələmün-nas ələlqədır üquluhum lazımdır ki, əvamünnası özlərinin mərifəti qədərincə danışdırmaq sizin özinizə məlumdur ki, bisavadlı əhli-elm və mərifət ilə bərabər qoymaq olmaz. Çünki əhli-elm nə qədər çətin ləfz və qəliz ibarət

olsa mütaliə vaqtı mətləbin məzmuninə görə ləfznin mənasın biləcək. Amma bisavad adam içün çoq müşkildir bilmək və bir ləfzin mənasın bilməyən vaqtda tamam mətləbi itürür və mütaliə etdiği qazetlər və kitablar ona heç nəf qətürmir. Ona görə mümkin olan qədərdə hərçənd bizim dil o qədər kasıbdır ki, bimüavinəti – sayir əlsənə müşkildir istimal. Gənə asan ibarət ilə yazmaq camaatı artucaq şövqə gətürub həvəsləndirir. İstida budur ki, siz elə xəyal etməyəsiniz. Mən sizə diqqət dutub irad edürəm nə Vallah, bənim adətim belə şeylərdən degil. Məhz əvamünnası bənim təsəvvurimə görə belə işlər ilə asan tərgib etmək olar. O cəhətə görə zəhmətəfza oluram və illa bir əlahiddə fikrim yoqdur. Çoq ola bilər ki, mən səhv etmiş ola biləm.

*Cəfər Vəzirov*
*İdarədən*

Məktubu eynən kəmali-məmnuniyyətlə dərc ediriz. Mühərrir guya üzr-xahiş edən kimi olub qəzetənin qüsurunu görgəzməsi bizə xoş gəlməyəcək zənnindədir. La vallah! Böylə degil! Vəqti fövt edüb qəzetə barəsində yazanlar qəzetəyə etina və diqqətlərini izhar ediyorlar. Bu isə bizə bundan artuq əvəzi-mükafat olamaz-biz qüsursuz-səhvsiz degiliz. Qəzetə işi bir müşkili-hər günlüğ və sürətlə olan işdir. Böylə işdə həmişə xəta və səhv mümkündür. Bizim təmmənamız-təvəqqemiz oxucularımızdan həmvarə bizim səhv və xətamızı görkəzüb onların islahına işarə etməgə bizə minnət qoymalarıdır. “Həyat”ı sevənlər tərəfindən bizim işimizin pişrəftinə bundan artuq xidmət olamaz.

Likin istimal etdigimiz dilin bir az müşkül olmağı barəsində üzrümüz var. Əlbəttə biz bacardıqca gərək sadə avam dildə yazaq. Qəzetədən məqsud onun mətalibini cümlə insanlar oxuyub istifadə etməgdir. Amma nə etməli! Necə ki, məktub sahibi özləri buyururlar. Bizim ana dilimiz çox dar və kasıb dildir. Bəzi mətalibi onda yetürməg mümkün degil. Labüdən ərəb və fars dillərindən əxz olunur. Camaatımız isə məktəb görməməgindən mültəfit ola bilmiyor. Pəs tənha biz müqəssir degiliz. Türklər ədəbiyyat və məzhəbi fars və ərəbdən əxz etməkləri cəhətinə dilləri də türk, fars və ərəbdən mürəkkəb olur. Böylə surətdə gərək bizlər fransızlar kimi uşaqlarımıza həm türək, fars, ərəb öyrədək. İnşaalah “Həyat”ın bir işi də camaatımızı böylə dil, böylə məktəblər güşad etməgə xidmətdir. Likən bunların cümləsilə belə, biz sahibi-məktubdan artuq imtinan edüb işarələrindən faidəbor olarız.

***Həyat qəzeti, №42. 3 avqust 1905-ci il***

Şuşadan novrəsidə **cavanlarımızdan** məktub

"Həyat" ruznaməsinin müdiri – möhtərəmlərinin hüzuri-alilərinə

Şuşa şəhərinin realnı uşqolun müsəlman şagirdlərinin tərəfindən təbriknamə

Ey əz əsər-e qolək-e to aləm delşad,
Peyvəste del-e nazokət əz ğəm azad.
(Ey sənin incə gülündən aləm şad olan
Daima sənin nazik ürəyin qəmdən azad olsun.)

Çün müddəti-mütəmadi vardı ki, öz vətən lisanımızda bir ruznamənin həsrətində olub kəmali-zövq və şövq ilə arzusin edərdük, nəhayət, və əyyami-xücəstə bünyanında və bu avan bəcəhəti-fəşandə cərideyi-müqəddəsi – "Həyat"ın mütaliəsindən didələrimiz pürnur və qəlbimiz şad və məsrur olub, illər ilə çəkdiyimiz arzuya çatub və məqsudi-məramımıza nail olduq. "Ey vəğt-e – to xoş ke vəğt-e ma kərdi xoş" (Ey vaxtı xoş olan, bizim vaxtımızı xoş etdin)

Və biz ətfali-müslimin öz qonşu qoldaşlarımızın müqabilində sərəfkəndə olmadığımız içün bu cərideyi-mübarəkin fəxr və mübahati ilə zeyldə mərqum olan əfradları bir yerə cəm olub uca avaz ilə mütərənnim olduq. Ümid və rica cənabi – alilərdən odur ki, bizim bu acizanə təbrikimizi öz cərideyi-mübarəkinizdə dərc buyurasınız.

Həyatınız bizə, ey rəhnüma, həyat verir,
Rəhi-zəlalətdən qurtarub nicat verür.
Xudaya, şükr ki, zülmətsərayi-qəflətdə
Tapıldı çeşmeyi-heyvan, içub həyat verür.
"Həyat" milləti-islam içün güvaradır,
Bər-əks millət bədxahinə məmat verür.
Bu fəxr bəsdi ki, aləmara "Həyat" səsi
Dutubdur aləmi, qaim eylə "Həyat"ı bizə
Həmişə millətə əhvali-kainat verür.
Amin, ya amin.

***"Həyat" qəzeti, №49. 12 avqust 1905-ci il***

**Teleqraf xəbərləri**

Hacıkənd – Cavanşir uyezdində iki gündür ki, ermənilər ilə müsəlmanlar arasında tüfəng atışması olur. Doqquz adam ölmüşdür. Atışma məhəllinə quberniyanı dolandıran və iki yüz kazak getmişdir.

Avqustun onunda Şuşa uyezdində ermənilər ilə müsəlmanlar arasında artıq xüsumət elədigini xəbər vermişlər. Şuriş və inqilabı qabaqça rəf içün şiddətlü tədbirlər edilməkdədir.

"Həyat" qəzeti, №53. 19 avqust 1905-ci il

Seşənbə güni təyin olunmuş Baku millətlər arasına sülh və islah verən məclisin iniqadı məclis üzvləri yığılmadığından başa gəlmədi. Məclisdə hazır Kərbalayi İsrafil Hacıyev cənabları hazirunə xəbər verdi ki, Şuşadan ona həyəcanlı bir teleqraf gəlmiş. Bu səbəbdən hazirun qərar qoydılar ki, Şuşa şəhər idarəsinin rəisinə, müsəlman qazısına və erməni yeparxı keşişinə teleqraf çəksün, Bakı məclisinin adından sülh və islah təmənnasını istida eləsünlər.

***

Avqustun 17-də məzkur məclisin rəisi Şuşa uyezdinin naçalnikinə böylə teleqraf çəkmiş: Bakı şəhərində həyəcanlı qeyri-məsdəq şayiələr olduği içün Şuşa şəhərinin surişinin barəsində müfəssəl xəbər verməniz istida eləyürəm.

***

Şəhər idarəsinin rəisi Kamil bəy Səfərəliyevə böylə teleqraf gəlmiş: Şuşa şəhərindən şəhər idarəsi rəisi əvəzi Kələntərov! Hərçəhd Şuşa yolunda gəlub-gedəni capqun etmək səbəbincə camaat təşvişdədir, vəli Şuşada hənuz əhalinin rahatlığı və asayişi pozulmamışdır.

***"Həyat" qəzeti, №54. 30 avqust 1905-ci il***

**Qarabağ əhvalatı**

*Şuşa vüquatı*

"Novoye obozrenie" 77-ci nömrəsində böylə xəbər verir Şuşaya çəkilən teleqraf xarab olmağı cəhətindən Tiflisdən dəfəatla Şuşaya göndərilən suallara cavab yoq.

Ağdam ilə Şuşa arasında yol kəndlərdən gələn müsəlman dəstələri ilə dolu. Tiflisdə səhih xəbər olmadığına görə camaat arasında növbənöv bimənə və əslsiz sözlər gəziyor.

***

Şuşada erməni və müsəlman surisi artmaqdadır. Şuşa qubernatoru getmiş.

***

Şuşadan Şeyxülislama böylə məzmunda bir teleqram çəkilmiş: Ermənilər müsəlmanları qırıyorlar, əlac qılınız.

***

Şeyxülislam cənab Axundzadə avqustun 20-sində Qocurda canişini – Qafqaz sərdari-əfxəm qraf Voronsov-Daşqof həzrətlərindən Kislavodiskidən böylə teleqram almış: Tiflis, Şeyxülislama: Sizdən istida edirəm təcilən gedəsiz Şuşaya, yerli məmurlara sülh məsələsində kömək verməgə. İmza qraf Voronsov-Daşqof

***

Haman günü cənab Şeyx Qocurdan gəlüb Tiflisə. Gecəsi çıxmış Şuşaya.

***

Tiflis. İran generalnı konsulu Şuşadan öz məmurundan böylə teleqram almış: İki gündür erməni və müsəlman atışmaqdadırlar. Vurulan müsəlmanlar arasında iranlılar dəxi var. Cənab generalnı konsul Gəncə vitse-konsuluna, Gəncə quberniyasında sakin olan iranlıların canlarını və mallarını mühafizə eləmək çarəsinə buyurmış. Katalikosa isə özi böylə teleqraf çəkmiş: Məna verilən xəbərlərə görə Şuşa və Baku erməniləri yerli əhali ilə atışanda iranlıları dəxi aturlar. Çünki böylə hərəkətlərin nəticəsi İran erməniləri içün yaxşı olmaz. Sizdən təvəqqe edirəm öz camaatınızın nəzərini işin bu nöktəsinə səlb edəsiniz.

***

Buna cavabən Katalikos böylə teleqraf çəkmiş: "Ermənilər özlərini müsəlmanların həmlələrində mühafizə eləmək məqsədilə yaraq yapmış. Şuşa arxiyepiskopuna gələcəkdə suriş olma əsaslarını buyurmışam. Sizdən istida edirəm kuşiş edəsiz ki, qomşu və bir vətən cəhətilə qardaş olan iki millət yek digərini qırmasınlar. Allahdan bu iki millətin həmişəlik sülhdə olmağın arzu edirəm."

***

"Qafqaz" qəzetəsi verən xəbərə görə Şuşa müsəlman dəstələri ilə əhatə olunub. Məqtulların 8 nəfəri erməni, 81 nəfəri müsəlman və bir neçəsi də rusdurlar. Şuriş edənləri sakit eləməkdən ötri qoşun göndərilub.

***

"Mişaq" qəzetəsinin 165-ci nömrəsində Şuşadan ayın 18-də saat səhər 6-dan böylə teleqraf xəbəri veriliyor: Halətimiz çox böyük təhlükədə. Əskərlər ilə atışan müsəlmanların məcruhlarının hesabı naməlum. Ermənidən 10 nəfər məqtul, 20 nəfər məcruh. 2 gün bundan qabaq Tiflisdən Şuşaya təcilən qruzinski polkun 2 batalyonu (təxminən min əskər) çıxmış.

Şuşadan gələn teleqramlar

1) Ətraf və əknafda qırğın var. Şuşada sakin olan İran dövləti təbəələri və vəkilləri Muxtarov Mirzə Musa, Seyid İbrahim və Məşədi Əkbər Muxtarov

2) Əskəran deyilən yerdə ermənilər müsəlmanlardan 9 İran dövləti təbəələrini öldürdilər. Ağa körpüsi deyilən yerdə ermənilər müsəlmanları öldürmək ilə kifayət etməyib, nə`şlər ilə çox pis və naşayistə əməllər edirlər. Bu şurişə bilmərrə qatışmayan İran dövləti təbəələrinin ölmüşin, itmişin, batmışın hədd-hesabı yoxdur.

3) Avqustun 16-da ermənilər başlamış qırğın vəqtində erməni küçələrində müsəlmanlardan 7 nəfər hammal olub və səkkizi yaralanubdur. Realnı uşkolanın tikilən imarəti üstində işləyən 18 nəfər İranlı hammalını ermənilər dutub, avqustun 20-də sülhdən 4 gün keçmiş cümləsini öldürüb, doğruyub, nə`şləri üstində artuq mərtəbədə bəd əməllər edüblər.

***

General-mayor Taqayşvili avqustun 25-də canişin həzrətlərinin ümuri-mülkiyyə müavininə xitabən Şuşadan teleqraf ilə əxbarati-atidə bulundu: "Həm Şuşa şəhərində, həm də Yevlaxdan Şuşaya qədər olan bütün yol üzərində əmn və asayiş təmin edilmişdir. Əhali hökumətin mövqeyi-icraya qoydığı tədbirlərə əmniyyətnamə göstərdi. Sayır uyezdlərin xəlqini təskin və təmin içün tədabiri-müstəcilədə bulunıyorum. Bu məqsədlə bir də müntəxəb deputatlar dəvət edildi. Lazımdır ki, bunlar quberniyanın səriən və külliyən təskini içün verilən fövqəladə əmrlərdən və görülən tədbirlərdən xəbərdar edilsünlər."

***

Ermənilərin ruhanisi Aşotdan Tiflisdə atidəki teleqraf yetişübdir: Avqust 24, saat 8.10 dəqiqə. “Böyük bədbəxtlik Şuşa Qarabağ şəhərində vüqu buldı. Avqustun 14-də silahlanmış ermənilər və müsəlmanlar arasında şiddətli vuruşma vüquə gəlüb, avqustun 20-minci zöhrinədək imtidad etdi. Sülhdən sonra bilindi ki, şəhərin gözəl hissəsi – erməni tərəfi tamamən yanqudan yanıb. Güllə və yanğudan ölən insan tələfindən savayı dörd yüz ev yanqundan puç olmışı o cümlədən şəhər idarəsinin evi mərizxanə, sudxana nisvan şkolası, aptek, teatr və tamam erməni məhzənləri neçə can çörəksiz və mənzilsiz və məişətə güzərənsız qalubdır. Erməni tərəfinin böyük hissəsi xarabalığa mubəddəl olubdur. Zərər milyonlarcadır. Cəmi əhalini xeyratə iqdam etməgə dəvət ediriz. Hər kəs bacaruqca kömək etsün. Şəhərdə ziyadə bahalıqdır. Günahsız və nahaq zərər yetişənlərə əgər tezlig ilə pul ilə və əşya ilə kömək olunmasa, onların bilmərrə fövt olmaqları şübhəsizdir. Camaata kömək yetürən məclis tərəfindən təvəqqe edürəm ki, yardım olunan pul və əşyanı irsal etsünlər.

Şuşa yeparxa naçalnikinə və qəzetələrin idarələrinə. Şəhərdə aramı-tamamdır.

Bu halda təhqiq olunan əhvalata görə belə məlum olunur ki, Şuşada və onun həvalisi Ağdamda ermənilərə mütəlliq olan cəmi zavod və fabrikalar şurişçilər ilə puç olubdur. Çün ermənidən qeyri tayfanın zavodu və fabrikası olmadığından aşkardır ki, tamam karxanicat puç olubdur.

***"Həyat" qəzeti, №55. 31 avqust 1905-ci il***

**Qarabağ xəbərləri.**

**Şuşada vaqe olan hadisələrə dair**

Avqustun 16-da ermənilərin başladığı qırğın avqustun 21-nədək imtidad çəkdi. Bu qırğına səbəb o olmışdı ki, ermənilər yalandan xəbər salmışdılar ki, guya Zarıslı müsəlmanları şəhərdən kənar dört erməni öldürmüşlər. Bu xəbəri ermənilər eşidən kibi haman dəm kəlisada zəng çalub yığıldılar oraya və bir az zamandan sonra oradan çıxub getdilər evlərinə ki, silah götürüb cəm olsunlsr. Bu halda dəxi bir Maşuryan adlı erməni gəlub camaata bir qanı tökülən erməni göstərib dedi ki, bunı müsəlmanlar edüblər, hansılar ki, hər bir yerdə erməniləri öldürürlər. Və bu sözlər ilə erməni camaatını cuşa gətirdi. Ona binaən ermənilər haman saat oradan keçən iki müsəlmanı öldürdülər və ondan sonra tökülüb İran dövləti təbəələrinin dükanlarını və özlərini qətlü qarət etməgə başladılar. Və qalabəgi müsəlman Fuladova çox güllə atdılar. Bu əsnada dəxi ermənilər qabaqca möhkəmlənmiş mövqelərdə cəm olub, müsəlman məhləsinə güllə yağdırdılar. Və o güni axşam çağı 70 yaşında qoca kişi Abbas bəgin

evini və səhərisi Fərzəli adlı müsəlmanın evini yandırdılar. Və qoşun böyügi İvanovun əmrilə yanğunı keçürməgə gələn saldatlardan ikisini öldürüb çoxunu yaraladılar. İş böylə olan surətdə müsəlmanlar özlərini mühafizət etmək için silahlanub ermənilərin mövqelərini işğal edüb, özlərini dəxi qırdılar və sonra ermənilərin evlərinə od vurdular. Külək olmağına görə yanğu erməni məhləsinin hər yerinə yayılub, çox böyük evlər və mağazalar tələf etdi. Onda ermənilər avqustun 21-də öz ruhanilərilə və mötəbər şəxsləri ilə cəmləşüb gəldilər baş məscidə ki, müsəlmanlar ilə sülh etsünlər. Müsəlman camaatı haman dəm güllə atmağı kəsüb sülhə mübaşirət etdilər və hal anki ermənilər güllə atmaqdan əl çəkməyüb sülh olan əsnada Şirin Əliyev adlu 1 müsəlmanı öldürmüşlər. Sülhdən sonra müsəlmanlar dutduqları 65 erməniləri xilas etdilər. Amma ermənilər dutdıqları müsəlmanların az nəfərini xilsa edüb, yerdə qalan 18 günahsız hammalı sülhdən sonra nahaq yerə öldürmüşlər. Sülh olmuşsa da, gənə ermənilər müsəlmanlardan öldürməkdədirlər. Şuşanın ətrafında şose yolda Əskəran və Xocalı delinən yerlərdən ermənilər gəlüb gedən müsəlmanlardan 70 adam öldürmüşlər. Hətta Şeyxülislam şəhərə gələndə Əskəranda bir qədər dayanmağa məcbur olmuşdur. İkimci polisə uçastokunda ermənilər müsəlman kəndləri olan Salakətni, Divan Əlilər və Qaradağlunun üstə tökülüb soyğunçuluq etmişlər.

Qəribə və Şayani-diqqət bu əhvaldır ki, müsəlman məhləsində olan erməni mağazaları və dükanları salamat qalub, amma erməni məhləsindəki müsəlman dükanları təmiz dağılub, qarət olunmuşlar. Bundan əlavə ermənilər Ballıca delinən yerdən qubernatoru gülləyə basub, Xocalı stansiyasına qayıtmağa məcbur etmişlər. Hər iki tərəfin tələfatı çox artıqdır. Şəhərdə taxıl olmamağa görə aclıq var. Şəhərin əhvalı çox yamandır. Poçt və teleqraf idarəsini erməni məhləsindən müsəlman məhləsinə keçürmişlər.

***

"Tiflisski listok" qəzetəsi yazır: Şuşadan Tiflisdə olan arxiyepeskop Qaragin Satunyanın adına böylə teleqram çəkilmiş: Şuşa, 25 avqust. Bu gün cənab voyenni qubernator erməniləri və müsəlmanları şəhərdə əmn və asayiş qət məsələsini tədqiq etmək için ictimaən məşvərətə dəvət etdi. Qubernator şiddətlü nitqdə ermənilər özlərini ancaq mühafizət edərək xeyli maddiyə zərər çəkməklərini göstərüb uyezddə şurişi sakit etmək için cəm olanlara tədbirlər görməsi təklif etdi. Qubernator təvəqqe edirdi ki, əhaliyə təskinlik verilüb və inqilabçıları aram edüb xəbərdar etsünlər ki, sülhi sındıranlar haqqında ən şədid tədbirlər olacaqdır. Ge-

neral Taqayşvili gələndən bəri şəhərdə asayiş tam hökmfərmadır. Ümidvaram ki, onun tədabiri-şədidəsilə uyezdi dəxi sakit etmək olur. Atmarasa və Varanduya kazak göndərilmişdir.

*Yepiskop Aşot*

***"Novoe obozrenie" 178-ci nömrəsində yazıyor:***

Avqustun 19-cı gününün axşamınadək Şuşadan teleqraf olmadığına görə xəbər yox idi. Axşamı sakitlik xəbərləri alındı. Görinür ki, axır günlərdə şəhərin ora-burasında atışmaq hələ davam etməkdədir. Hər iki tərəfdən məqtul və məcruh az degil. Hər iki mötəbəranların ciddi-cəhdinə görə ayın 19-da axşam sülh olundı. Erməni məhləsində çox evlər yanub. Teleqraf ağacları məftülləri ilə həmçinin yanub və ona görə müvəqqəti teleqrafxanə məhləsində Rəfibəgovun evində tərtib olundı.

***

Qafqaz qəzetəsinin xəbərinə görə ayın 18-də Bakudən Şuşaya əskərlər göndərilmiş. "Arşaloys" nam erməni qəzetəsinin idarəsi avqustun 20-də Şuşadan ayın 18-dən çəkilmiş böylə teleqraf xəbər verür: Ermənilər əskərlər ilə bərabər bir neçə min müsəlmanları gerü oturtdılar. Erməni evləri və əskəri mərizxanə (voyenni lazarit) yanmaqdadır.

***

Məzkur qəzetənin müxbiri böylə bir xəbər verür: Şəhərin yanan məhəllələrini tamaşa etdim, evlər tamamən yanublar. Yanmış erməni evlərinin qədəri iki yüzə gibi var. Vayenni lazarit, şəhər idarəsi, mirovoy sud, bazar və teatr həmçinin yanublar. Ələ bir şey götürmək mümkün olmayub. Azərxanayə 76 yaralı erməni gətürüblər. Ermənidən məqtul 48 nəfərdir, əskərlərdən 14 adam yaralanub. Müsəlmanlardan ölən çoxdur. Akulis kilsəsində müqəddəs şeyləri bihörmət edüblər. Kilsə şeylərinin bir qismini və bir neçə surətlər aparublar. Böyük surət güllə ilə düşüb. Divarda rusca yazılmış: "İsəvilər laimdırlar". Cavanşir yüzbaşısının möhrilə möhrlənmiş müsəlman dilində bir bioqroqnamə tapılmış kilsədə və bir neçə də Quran vərəqi. Cəmi erməni karxanələri və zavodları yanmaqdadırlar. Zəngəzurda 19 erməni məqtul, Gorus müsəlmanları ilə əhatə olmış isə də, hələ sakitdır.

***

"Mişaq" qəzetəsinin xəbərinə görə Şuşada sülh olundı. Qəzetə bu sülhün həmişəlik və əsli olmağını arzu edir. Gəncə vitse-qubernatoru öz

tərəfindən iki tərəfi barışdırmaq xüsusində çox səy etməkdədir. Vəli naməlum kimsələr müsəlman arasında cürbəcür vəhşiyanə sözlər buraxıyorlar ki, guya müsəlmanlara kömək gələcək və bu növ sözlər camaatı yerindən oynadıyor. Cənab Baranovski Gəncəyə, Qazağa, Şəkiyə və quberniyanın qeyr cəhətlərinə teleqramlar etmiş və aranı pozmamağı istida etmiş. Məqtul və məcruhların hesabı hənuz naməlumdur. Qırğın Şuşanın ətrafındakı kəndlərdə dəxi vaqe oldı. Şuşada müsəlman və erməni evlərindən yananı az degil. Erməni evlərini yandıran altı müsəlmanlar olmuş ki, yandırub şəhərdən qaçublar. Üç yüz kazak və iki batalyon piyada öz generalları Takayşvili ilə yoldadırlar. Ingilis qəzetlərinin müxbiri Qordon Braun Şuşaya gedir.

***

Avqustun 21-də Tiflis şəhər idarəsinin rəisi Şuşadan böylə teleqram almış: "Sülh olundı. Camaat erməni ruhaniləri ilə bərabər şəhəri dövr etdi. Camaat sakitdir." İmza: Yepiskop Aşot, Şəhər idarəsinin rəisinin yerini dolandıran Kələntərov, qazı Oruczadə, Cavad ağa Cavanşir.

***

Gəncə qubernatoru Şuşadan böylə teleqram edər: "Şurişə sədd çəkildi: erməni və müsəlman sülh etdilər. Çörək ilə pul lazım. Əskərlər burada qalmaqdadırlar."

***

Şuşa vüquatı barəsində rəsmi teleqraf xəbəri: "Ayın 16-da bir neçə nəfərin qovğa eləməsi səbəbindən Şuşa əhli yaraqlanub iki tərəf oldılar."

***

Erməni qəzetəsi "Taraz"ın idarəsinə

"Həyat"ın baş mühərriri Əhməd bəy Ağayev tərəfdən böylə kağız göndərilmişdir:

"Cənab mühərrir əfəndi!

Mana böylə xəbər verdilər ki, sizin "Taraz" qəzetənizin 26-cı nömrəsində dərc olmış Şuşa şurişinə dair bənddə mənim barəmdə bir böhtan yazılmışdır. Böylə ki, məzkur bəndin müsənnifi: "Şuşa şəhərinin mübaşirəti kim ilə olubdur?" soruşaraq yazır ki, şayiələrə binaən şurişdən müqəddəm və şuriş vəqti guya mən, Əhməd bəy Ağayev Şuşada idim. Özimə lazım bilirəm sizə izhar edim ki, budur üç ildir ki, mən Şuşaya getmirəm və bu müddətin ərzində bir dəfə də Şuşada olmamışam. Və əlavə diqqətinizi buna cəlb ediyoram ki, "Mişaq" qəzetəsində dəxi bir öylə mə-

nim barəmdə böhtan yazılmasına görə "Mişaq"ın mühərriri Tiflisdə sülh və islah verən şəxslərin məclis iniqadı vəqtində mənim özimdən üzr istəyüb, əfv etməsini istida etmişdi.

Sizdən artıq təvəqqe edirəm ki, bilətəxir haman böhtanı rədd edəsiniz, çünki o gunə böhtan və kizblər ilə işin həqiqətini bilmək olmaz. Ancaq həqiqəti sitr və gizlin etmək olar və hal an ki bu həngamə bizdən ötri bu qanlu hadisatun həqiqi səbəbini bilmək ən ümdə mətlubdur."

*Əhməd bəy Ağayev*

***"Həyat" qəzeti, №56. 1 sentyabr 1905-ci il***

**Qarabağ əhvalatları**

Şuşada və ətrafında sadir olan hadisələr barəsində əhvalat cəm etmək içün ingiliz yazıçısı Qordon Braun Şuşaya rəvan olmışdı. Müşarəleyh iki gün Ağdamda qalmağa vadar olduqdan sonra bir növ Şuşaya varid olub və müfəssələn əhvallar cəm edüb Tiflisə qayıtdı. Müşarəleyh şimdi Bakudə və qeyr yerlərdə olan xəbərlərin barəsində əhval cəm etməkdədir.

***

Şuşa. 26 avqust. Vanq (Hadrut). Keşiş Ter-Voskanyan xəbər verir ki, İran tərəfdən hədsiz-hesabsız silahpuş olmuş müsəlmanlar ermənilərin üstə basqu etmək niyyəti ilə Aras çayının bu tərəfinə keçüblər. Amaras Vanqın böyügi məlum edir ki, Vanq bilmərrə qarət olunub və şeylərini aparublar. Cəmi erməni binaları odlanubdur. Halət çox pisdır.

*Yepiskop Aşot*

***

Erməni "Mişaq" qəzetəsinin 168-mci nömrəsində böylə yazmışlar:

Şuşada müsəlmanlara hədsiz erməni evləri odlamaq məqdur oldı. Müsəlman məhəlləsindən Topxanaya kimi evlər və mağazinlər hamusı yanub çırağvan oldı. Böyük mal və əmlak yanub. Müsəlmanlardan çox adam qırğına gedüb, nə inki ermənilərdən. Amma ermənidən də azacıq qırılmayubdır. Bizə gələn xəbərlərə görə 70 nəfər erməni qırılub və o qədər də yaralanubdur.

***

Tiflisdə nəşr olunan "Novoye obozreniye" qəzetəsində oxuyuruq:

Şuşadan yazıyorlar: Avqustun onundan Şuşa həyəcanlı bir halətdə idi ta ki, avqustun 16-da axşam saat beşdə birdən atışma başlandı. Atışma 17-mci gecəsi dayandı isə də, vəli gənə başlandı. Kazaklar məkanlarda dayanub erməni könillilləri ilə bərabər müsəlmanları atırdılar. Müsəlmanların hesabı çox idi. Avqustun 18-də sübh müsəlman tərəfində olan evlər başladılar yanmağa. Böylə ki, axşam şəhərin çox adamlı, ən dövlətlü hissəsi yanquya giriftar oldı. Bu haləti-ruhiyyə əziyyət- verən bir mənzərə idi. Erməni tərəfində 150-yə yaxın ev və müsəlman tərəfində əlliyəcən evlər yanmışlar. Avqustun 19-da elə ki, hər iki tərəfdən tələf olub yaralanmışların hesabları artdı və yanqı hər anda tazə evləri əhatə etməsi başladı, müsəlmanların vəkili Cavad ağa Cavanşir erməni ruhaniləri ilə bərabər erməni tərəfində baş və kor küçələri gəzib camaatı sülh və islaha dəvət etdi. Onların əqəbində ermənilər dəstə-dəstə gəzərək: "Huray, sağ olsun Cavad ağa" – deyə-deyə qışqırdılar. Elə ki sülh verənlər köhnə qəbiristanlığa yetüşdilər (bura erməni məhəlləsinin axırıdır) müsəlmanlar başladılar atışmaqı. Sonra müsəlmanlar derdilər ki, onlar sülh başlamağı bilmədigi cəhətindən atmışlar. Ermənilər onların atışmalarına cavab verdilər və tazədən atışma başlandı. Avqustun 20-sində rahatlıq oldı. Bir az zamandan sonra müsəlmanlar öz mötəbər zəvatlarından göndərüb barışmaq xahiş elədilər. Ermənilər şad olub onları istiqbal elədilər. Sülh verənlər musiqi dəstəsi ilə bərabər şəhəri gəzüb müsəlmanları və erməniləri sülh və islaha dəvət eləyüb rahat olmağı tələb edirdilər. Çoxusu öpüşüb ağlaşırdılar. Beş gün şəhərdə bərk atışma olub, şəhərin evləri yanmışdır. Burada Bakuda vaqe olan qırğın olmayub, vəli tulanə atışma olub, yanqı zühura gəlmişdir."

"Mişaq" qəzetəsinin 165-mci nömrəsinə Şuşadan gələn teleqramlar.

17 avqust, saat 3. Bu gün bərk atışma davam etməkdədir. İrəvan darvazasının yanında olan müsəlman evləri yanur. Çox müsəlmanlar saldat kazarmalarına pənah apardılar. Müsəlmanların əyanları barışmaq istədilər, amma qara məxluq onları hədə ilə qorxuzub ermənilər ilə görüşməgə qoymadılar. Bir nəfər kazak, bir nəfər saldat qətlə yetişüblər və iki nəfər yaralanubdur. Erməni könüllülər (dobrovolets) və kazaklar tərəqqi ilə şəhəri mühafizə edürlər. Ermənilər müsəlman yaralularını azarxanəyə aparub yaxşı rəftar edürlər.

Şuşa, 18 avqust, saat 6. Halət hala çox vahiməlidir. Saldatlar ilə müsəlmanlar atışdılar: 11 nəfər saldat və 85 nəfər müsəlmanlardan qətlə yetişdilər. Müsəlman yaralılarının hesabı hala məlum degil. Ermənilərdən on nəfər qətlə yetişüb və igirimi nəfər yaralanubdur.

***"Həyat" qəzeti, №56. 1 sentyabr 1905-ci il***

Şuşa qırğınından sonra Şuşaya gələn xarici müxbirlərindən birisi öz gördüklərindən bizə böylə xəbər verdi: Ağdamdan Şuşaya iki fövc kazak ilə getdim. Şuşanın yigirmi altı verst yaxınlığında olan Əskəran qələsi neçə min ermənilər ilə tolmuşdur ki, Şuşada öz həmdin qardaşlarına köməgə gələn kəndlilərə mane olsunlar. Çünki bu qala Şuşa yolının üstündədir. Qalanın yaxınlığında müxbir iki furqonda dört müsəlman meyiti görmüşdür. Məzkur müxbir Şuşaya həftə üçi gəlüb "Mardi" adlı mehmanxanada istiqamət etmiş. Şəhərdə olan mehmanxanaların hamusı çoq olaraq yanub təxrib olundığına görə doludur. İnsan tələfatı azdır. Sülh olandan sonra şəhərdə rahatlıqdır. Hərçənd müsəlmanlar və ermənilər hər ikisi bir birlərinin məhəllələrinə gəlmiyorlar. Pəncşənbə günü Şuşadan xaric olub. Müxbir söyləyür ki, bir tüfəng səsi gəlmiyordı.

***

Ağdamdan canişini – Qafqazın mülkiyyə cəhətincə müavini avqustun 23-də general Takayşvilidən böylə teleqraf almış: Qabaq göndərilmiş 2 batalyon və 2 fövc qoşun Şuşaya varid oldılar. 1 batalyon və 1 fövc mənimlə bərabər bu gün Ağdama gəldik. Yevlaqdan gələn zaman yolun ətrafında olan kənd əhalisini lazım gəlürdi ki, sakit eləməkçün. Əskəran qələsində bu vəqtəsən dəxi ermənilər davam edüb gələn gedən müsəlmanları və hətta şeyxülislam ilə bərabər gələn qoşunı dəxi atmaqları səbəbincə məzkur əhali həyəcana gəlmişdilər. Bu gün yolda yaraqlı müsəlman dəstələrini öz yaralı və ölülərini götürür ikən gördüm. Belə məlum olunur ki, gecə ayın yigirmi ikisində Əskəran yarğanında hər iki tərəf atışmışlar. Və çün Ağdama yetişən zaman əl saat qoşundan bir dəstəni məzkur yarğanın şimal mədxəlini dutmaqdan ötri göndərdim və qalan dəstə ilə özüm gedirəm və yeddi günlük poştı və qorqusından Şuşaya gedə bilməyən əşxası və un ilə dolu furqonları ki bu vəqtəcən Əskəran Xankəndi nahiyəsində yol qorqulu olub getmək cəhətincə qalmışlardı, dəxi özüm ilə aparuram."

***"Həyat" qəzeti, №58. 6 sentyabr 1905-ci il***

**Qarabağ xəbərləri**

Zeyldə dərc olunan məktub çoxdan yazılub lakin Şuşa və Bakuda olan hadisələrə görə məktub bizə gec gəlüb.

Beşinci gündür şəhərimiz bir həyəcani-föqəladədə, bir hərəkəti-musəfdə yaşamaqdadır. Şəhər əhalisinin hamısının yüzində bir müqəyyədlik bir çətin, bir namərğub işə hazırlaşmaq əlayimi görünür. Tacir, sahibmənsəb, böyük-kiçik – hamı əsl işlərindən əl çəküb, silah, azuqə və qeyr bunun kimi şeylərin fikrinə düşüb. Şəhər bir darül-hərb mənzərəsin ərz edüb mühüm bir dava haləti göstərməgi başlıyor. Bu haləti-müəssəfəyə, bu ağılları heyran qoyan qəlyanə kinə sayir və halətlərdə olan kimi bais qonşılarımız ermənilərin müsəlmanlar barəsində bir para suirəftarlarıdır. Avqustun 6-cı gecəsi şəhər məcməi Qəlubi deyilən ki Ermənistanın ən axır nöqtəsində vaqedir, rəqs gecəsi əncam tapan halda bir erməninin cibindən tapança (revolver) düşüb partlıyor, atılur. Haman saat erməni istilik məşqində olanlarından birisi yerindən qalxub: "qapuları bərk bağlıyin, qoymın heç kəs yerindən tərpənsün" deyüb bir ifadeyi-rəşadət və igitlik edüb müsəlmanlara bir növ hiddətlənürsə də, müsəlmanlardan bu növ saxta və səfihanə igitliyə etina edən olmur. Məgər 1 nəfər cavan müsəlman, bəlkə sinn cəhətincə 1 uşaq yalançı igiti orada öldürmək istiyorsa da, sayir müsəlmanlar ona mane olurlar. Bu növ bəd hərəkətlik müsəlmanlara artuq nagüvara gəlürsə də, məhz şuriş salmamaq, məhz aralıqda olan intizamı götürməmək xatirəsi içün mütəhəmmil olurlar. Sabahı gecə avqustun 7-də gecə saat 2-də şəhər çırağın yandıran Kərbəlayi Məhəmməd Hüseyn adlu iranlu 1 müsəlmanı çırağı ayın tüluindən sonra söndürdigi halda 3 nəfər erməni xəncər ilə öldürüblər. Biçarə müsəlman öldüğü halda cəm olan müsəlmanlara qatillərin haləti-övza və əlbisələrin tövsiyə edüb üçi də erməni olmağın izhar edəndən sonra can təslim edir. Bu vaqiədən 2 saat sonra haman Kərbəlayi Məhəmməd Hüseyn qətl olunan yerə yığılan müsəlmanları beş nəfər erməni tazə tüfəng və tapançalar ilə gülləyə dutur və atışmaq halında müsəlmanların biri yaralanur və 1 ermənıyə dəxi güllə dəyir. Sübh camaat əhvalatdan müxbir olduqda böyük bir qələyan böyük bir hiddətlə bazara cəm olub, topa-topa hal-hazırı müzakirə etməgə məşğul oldılar. Axırda şəhər ağsaqqallarından camaata "qanlunızı ermənilərdən alub verərük" südur edən təminat müsəlmanları bir növ sakit etdi. Haman günin axşamı şəhər idarəsində əncam tapan müslihlərin məclisində bu söhbət müzakirə olundısa da, ermənilər nəinki qanluları göstərməkdən əba etdilər, bəlkə öz adətlərincə bu nahaq qanı müsəlmanların üstünə yıxmağa artuq səy etdilər və xətmi-

məclis “siz də qanluları axtarın, biz də bəlkə tapaq” olundı. Bu xəbər müsəlman camaatın haldan çıxardub böyük bir həyəcana gətürməkdə idi ki, sübh tezdən müsəlman qəbristanına yaxun şəhərdən kənar 1 mövqedə 1 nəfər erməni övrətinin meyiti tapıldı. Bu övrət 1 küçəgərd divanə övrət idi. Bunun boğulub müsəlman məhəlləsinə atılmağı bu növ dəni və namərdanə hərəkətlərə qabil olmayan müsəlmanları dəxi də artqraq mütənəffir etməkdə idi ki, xəbər gəldi ki, Cavanşir uyezdindən Vanq adlu erməni kəndindən Kəngərlü və Cinlü adlu müsəlman elatı yaylaqlardan müraciət etdigi halda ətraf kəndlərin erməniləri bixəbər tökülüb onların üstünə. Onlardan guya İrəvan və Naxçıvan vəqələrində etdikləri qarəti tələb etmək bəhanəsilə bir neçə adam tələf edüblər. Burada belə vazeh oldı ki, bu xəbər Cavanşir və Şuşa uyezdinə yetişən kimi oradan çox atlu haman Vanq deyilən yerə gedüb. Belə isə haman yer ermənilərin halı çox yaman olmağı mübərhəndir. Bu şayiə Şuşa uyezdinə çatan kimi Ağdam deyilən yerdə olan müsəlmanlar Şuşa-Yevlax məbərilə gedən ermənilərdən 150 nəfərə baliğ adam dutub ta Vanq fəqərəsindən sərih əhval gəlincə dustaq edüblər. Hələ indiyə kimi sərih bir əhval yoxdur.

Zənnimcə, Qarabağ ermənilərinin bu növ əbləhanə rəftarı məətəəssüf Qarabağda dəxi şurişə bais olacaq. Amma nə qədər artuq fikir edirsən də, erməni qonşularımızın bu işdən fikirləri, bu fəna işin axırı nə olacağın dərk edə bilməyirik. Məgər bunlar Qarabağın övzai ayrı yerlər kimi olmadığın bilmiyorlar. Məgər bunların öz canlarına, əhlü əyallarına və mallarına rəhmi gəlmir? Bu növ açıq-aşkara ölümə getməgə, bu növ bihəmə çiz bihəmə mənzur tələf olmağa çalışmağa dəlilik-divanəlikdən qeyr bir ad qoymağa özimizi haqlı bilmirik. Bu işlər sayir yerlərdə olan qovğa şurişlərə, qısası isə bu işlərə Qarabağ ermənilərin vadar edən sayir yerlərin ermənilərisə, heyf onların əqlinə, heyf onların tədbirinə.

*Müslim*

***"Həyat" qəzeti, №57. 2 sentyabr 1905-ci il***

**Qarabağ xəbərləri**

“Mişaq”ın 163-cü nömrəsində oxuduq.

**Şuşa hadisələri**

Bizim ümidimiz dürüst olmadı. Bir qantökücü meydanına döndi və qardaş qanın tökən tamaşagah oldı.

“Mişaq”ın dünənki nömrəsində avqustun 15-də günortadan sonra vaqe olan qəmavər hadisələri xəbər vermişdük. Biz hədsiz teleqramlar alduq hansılari ki, başlanmış atışmaların barəsində xəbərlər verürlər. Təftiş olunmamış xəbərləri yazmaqdan biz ehtiraz etdük ki, bizim qareləri

səhvlərə və ixtilaflara salmayaq. Bu hadisə bizim hamumıza bilümum və Şuşada qohum-əqrabası olanlara bilxüsus artuq dərəcədə hüzntəsir edübdir. İki gündür bizim idarəmizə əhval bilməgə gələnlər ilə doludur. Bu xəbəri Kislovodskda canişini – Qafqazın hüzurinə pişnəhad olmağa gedən erməni vəkillərinə məlum etdük və bu barədə canişini-Qafqazın müavini Sultan Kərim Gəraya dəxi əhvalı ərz etdük.

Bizə məlumdur ki, Gəncə vitse-qubernatoru cənab Baranovski bu bədxəbər teleqramı alan kimi təcil ilə Şuşaya rəvan oldi. Elə bilirük ki, Şuşa eyeparxiya rəisi yepiskop Aşot bu xəbəri cənab katalikosa məlum edübdi. Necə ki bizim qarelərə məlumdur hadisənin əvvəlimci güni erməni və müsəlman tərəfdən ölənlərin ədədi 15 qədərdir. İkimci güni, yəni dünən avqustun 17-də qilü qal davam etməkdə olubdur və ölənlərin ədədi 45 nəfərə kimidir. Bunlardan 11 nəfəri ermənidir və 34 nəfəri müsəlmandır. Böyük qorxu və vahimə var ki, şəhərdə ittifaq düşən həyəcan ətrafa dağılub, erməni və müsəlman arasında çox böyük dairə götürsün, hansı ki, hər iki tərəfə çox böyük zərər yetürir. Hansı tərəfə zərər olsa da, ümum bədbəxtlikdir, çünki qonşuların rəbti kəsildi və gələcək narazılıqlar, intiqamlar və ümumi hücumlar içün səbəblər əmələ gəldi. Yenə və yenə vacibdir bu vahiməlü kinayətləri dayandırmaq içün lazımeyi-əlaclar olunsun. Bu günə bizim topraqda olan hadisələr bizim tarixlərə tazə qara sütunlar daxil edir.

***"Həyat" qəzeti, №59. 7 sentyabr 1905-ci il***

**Qarabağ xəbərləri**

Tiflisdən alınan xəbərlərə binaən Şuşa şəhərində sakitlik varsa da, ümum hal və hissiyyat həyəcanlı surətdədir. Bəzi şuşalılar Şuşadan Yevlağa gedən kazak dəstəsilə şəhərdən çıxmışlar. Amma əksərləri cürət edüb şəhərdən kənara çıxa bilməyüb, çünki yollar qorxusuz degil. Ən əlzəm əşya, məsələn: çörək, ət və sayirləri şəhərdə nisbətən baha degildir, amma şəhərdə və ələlxüsus erməni hissəsinə ətraf və əknafdan əşya daşımaq çox çətindir. Ən mütəzərrər səkənə isti libasa möhtacdır.

Artıq kömək lazımdır.

*"Novoe obozrenie"*

***"Həyat" qəzeti, №63. 11 sentyabr 1905-ci il***

**Teleqraf xəbərləri**

"Tiflisski listok". Şuşadan yazıyorlar ki, erməni məcruhlarının arasında "dum-dum" gülləsilə yaralananlar var. Yolda quldurçuluq olduğundan şəhərə azuqə aparmaq kəsilmişdir. Aclıq başlanur.

***Həyat qəzeti, №64. 13 sentyabr 1905-ci il***

Erməni "Arşaloys" qəzetəsinin 2-mci nömrəsində Şuşa hadisələri bu təriq ilə nəql etmişlər.

**Şuşa, 25 avqust**

Axır ki Şuşa da qeyr şəhərlərin bəlalarına mübtəla oldı. Burada da həmçinin erməni-müsəlman qırğını vaqe oldı. Ayın 16-da şəhərimizdə, müsəlman bazarında 2 nəfər erməni və 1 nəfər rus qətlə yetişdilər və bu səbəbdən qırğın od kimi alışdı. Axşam saat 5-in yarısında cəmi şəhər bir-birinə dəgdi. Adamlar pərən-pərən olub çığıra-çığıra hər kəs bir tərəfə qaçdılar. Müsəlmanlar erməniləri qırmağa süru etdilər. Cəmi dükanlar, mağazinlər qapandı. Hər cavan ki yaraq götürməgə bacarığı var idi, özini mühafizə etmək içün yaraq götürdu. Dava və atışma tamam dört gün davam edüb ayın 20-də günortadan sonra aram oldı. Hərçənd əvvəlimci iki günün müddətində müsəlmanlar lazımınca şiddətlü dava etməkdə davam etdilər, nəhayət, onların qırğına gedənləri hədsiz olmağına görə vadar olub barışıq etmək içün ariz oldılar. Amma ermənilər bu təvəqqei qəbul etmədilər. Vitse-qubernator kazaklar ilə bahəm şəhərə varid olub bir az vaxt erməni çastında qalduqdan sonra müsəlman çastına rəvan oldı və şimdiyədək oradadır.

Ayın 18-də şəhərdən ötri bir bədbəxt sübh tülu etdi: Müsəlmanlara ətraf müsəlman kəndlərindən lazımınca kömək gəldi. Vəhşi ordunun dəstələri özlərini köməgə yetürdilər. Ermənilərin müsəlman məhləsinə hamusından yavuq olan evini odladılar. Od alışuban buradan keçüb erməni çastın ən gözəl evlərini bürüməgə süru etdi. Hamı tacirlərin, sənətkarların dükanları və mağazaları viran oldı. O adamlar ki evləri müsəlman məhləsinə yavuq idi, evlərini boş qoyub qaçdılar yuxarı erməni məhəlləsində olan saldat kazarmasına doldılar. Yanqu bir tərəfdən güllələrin partıltısı, o biri tərəfdən adamları bilmərrə şaşdırur idi. Bir kəsə kömək yetürmək qeyri-mümkün idi. Qiyməti hesaba gəlməyən dövlətlər puç olur idi. Hamı şəhər torpağa və külə dönür idi. Adamlar pərən-pərən olub hər kəs öz başını bəladan xilas etməgə qaçurlar idi. Çox az adam oldı ki, öz mağazalarından və evlərindən bir qədər şey kənara çıxarda bildi. Müsəlmanlar öz məhlələrində olan erməni evlərinin hamusını qarət etdilər. Şəhərdə yanqu söndürən maşın yox idi və kazakların da bir iş görməgə mümkünləri yox idi. Və od birəhm puç etməgdə müqavimət ediyordı. Tamam 1 gün yanqu şəhərin imarətlərini viranə qoydı. Ancaq ayın 19-da sübh vəqti şəhərin orta hissəsi, ən gözəl imarətləri və erməni bazarı xara-

ba qalandan sonra yanqunı söndürmək mümkün oldı. İştə yanan evlər və imarətlər: Haxlatyansların və Xononeç Avanesin evi, Tativos Temiryansın, Ter-Mixailyansın, Nikit Amruyansın, İsfəndiyaryansın, Mukailyansın barama qurdun imarətləri və çox-çox evlər, dükanlar və mağazinlər. Yanqunı söndürəndən sonra biz eşitdük ki, barışıq olacaq, amma müsəlmanlar yalan deyirlər idi. Onlar erməniləri aldatmaq istiyorlar idi. Əzəl ki yalov hamı şəhəri bürümüşdi, onlar bu bədbəxtligin barəsində çox heyifsilənirlər idi. Amma vəqti ki od söndi, onlar ilə atışmağa süru etdilər. Ayın 19-da hər iki tərəfin arasında çox şiddətlü, vəhdətlü dava oldı. Hamumız naçar və naümid halda idük, heç yerdən kömək almağa ümid yox idi. Şəhərdə qoşun az idi. Kazaklar və saldatlar işlərin ciddiligin görüb, müsəlmanların üstünə təcavüz etdilər. Müsəlmanların, əiəlxüsus kənd əhalisinin qırğına gedənlərinin canı-hesabı yoxdur. Şənbə güni ayın 20-də sübh saat 11-də şəhər yaman halətdə idi. Müsəlmanlar öz səngərlərindən çıxub ermənilərə tərəf qəddaranə hərəkət edüb yavaş-yavaş yuxarı qalxmağa şüru etdilər. Güllələrin nəriltisi çoxaldı, dəqiqəbədəqiqə gözlüyorduk ki, ha budı müsəlman "əclafı" erməni məhləsinə tökülüb biçarə camaatı od və qılınc bəlalarına mübtəla edəcəkdir. Bu halda rus qoşununın kazarması neçə min övrət-uşaq və kişilər ilə dolu idi. Bircə pənah aparmalı yer ora idi ki, pərən-pərən olmuş erməni övrətləri, uşaqları və qızları qaçıyor idilər. Qoşun polkovniki İvanov artuq dərəcədə tərifə və məmnuniyyətə layiqdir. Müşarəleyh camaatın böylə naçar və hiddətli vəqtində minlərcə külfətlərə imdad edüb kazarmanın qapılarını onlara açdı. Akulyas kilsəsi müsəlmanlar içün bir böyük səngər olmışdı. Şərirlər kilsəyə daxil olub nə qədər bihəyalıq və murdarçılıq var isə əmələ gətürüblər. Yaxşı ki, məzkur kilsənin bəzəkləri və qeyr şeyləri qabaqca götürülmişdi və illa onları da qarət edərdilər. Əlavə kilsənin qəndillərini əziblər, şəkilləri doğrayublar və altarı bihörmət edüblər. Kilsənin 4 tərəfinə parçalanmış və neftlənmiş həsir töküb odlamağa sui-qəsd edüblər, likən məqdur olmadı, çünki igit erməni cavanları oraya yetişüb bir neçələrini güllələrə qurban edüb kilsənin içinə saldılar və bir neçələri də qaçdı. Bundan sonra şəhərin bir neçə hissələrində bir neçə candan keçici cavanlar müsəlman məhlələrinə bir neçə bomba atdılar. Bu halda qəflətən atışma aram oldı. Müsəlmanlar qorxub evlərindən kənara qaçdılar. Mollanı və qazını götürüb rus kilsəsinin qabağına cəm olub, ağ bayraq qaldurmək ilə öz qalib olundıqlarını işarə etdilər. Biçarə camaat bu fərəhnak xəbəri eşidüb bir qədər sakit oldılar. Müqəddəs Aracnort, Nerses Vartapet və camaatdan bir neçə nəfər naqis şəxslər gəlüb barışıq etdilər. Hər iki tərəf əsirləri azad etdilər. Dört gün Şuşada müdavimət edən hali-hərbiyyə bu təriq ilə tamam oldı.

Erməni tərəfindən qırılanların ədədi yüzdən yuxarı degil, likən müsəlmanların tərəfindən tələf olanların ədədi mindən yuxarıdır.

*İ.L.*

İdarədən: Əcəba erməni mətbuatının “sadiq”, “arif” vəkilləri “doğru” məqalələr yazıyorlar! Biri “Mşaq”da yazıyor ki, Şuşada davanın əvvəlimci iki güni erməni müsəlmana qalib oldı. Amma o birisi – Arşaloys bər əksini yazıyor. Davanı Şuşada ermənilər başladuği, onların kilsəsi içində olan şeyləri müsəlman tərəfindən bihörmət olmamağı və buna bər əks ermənilər Saatlı və Kərli adlanan müsəlman məhlələrinin məscidlərini odlamağa neçə dəfə sui-qəsd etdikləri müsəlman çastında olan erməni mağazalarını salamat qalmağı və Ermənistanda olan müsəlman evləri və dükanları hamusı yanub qarət olmağı aləmə məlumdur. Bu vəch ilə erməni mətbuatı bir-birinə müxalif xəbər verməl変ərindən, ikisinin də yalan söyləməgi aşkara oluyor.

***“Həyat” qəzeti, №65. 14 sentyabr 1905-ci il***

**Qarabağ əhvalatı**

Erməni “Mişaq” qəzetəsinin 177-ci nömrəsinə Şuşadan gələn məktub.

Avqustun 26-da erməni-müsəlmanın naqiz şəxsləri injener Canumyansın imarətində general-qubernator Taqayşvilinin hüzurinə cəm olub vüqu olmuş hadisələrə dair göftgu ediyor idilər. Müsəlman bəgləri bu barədə bilmərrə erməniləri müqəssir bilüb dedilər: “Ermənilərin komitələri var, hansıları ki, Qafqazda erməni-müsəlman tayfasının arasında dəhşətlü və xunriz hadisələr törədiyorlar, həmçinin də Şuşada. Hərgah məzkur komitələr olmasa, erməni-müsəlman qırğını əsla mümkün olmaz. O komitələri tərk etmək lazımdır. Şol vəqt Qafqazın diriligini əzəlki sakit və rahat halına düşər”. General-qubernator onlara böylə cavab verdi: “Cənablar, Rusiyanın hansı tayfanın komiteti, ya inki firqəsi yoxdur? Rusiyanın hamı tayfasında sosial-demokrat firqələri vardır, həmçinin nasyonalist (milli) firqələri vardır, hansılar ki tək öz millət mənfəətlərini mühafizə ediyorlar. Bu tövr firqələr və komitetlərdə erməni camaatında onların kilsə əmlaklarını dövlət alandan sonra əmələ gəldi və neçə-neçə terrorlar əmələ gətürüb xüruc etdilər ki, məzkur əmlaklar geri qaytarılsun.

Şimdi əmlaklar geri qaytarılandan sonra komitələr də, firqələr də təbiidir ki, öz başlarına tərk olundılar.

Ikimci, onların ümumi islama dair heç bir rəyləri olmayubdır. Məgər siz müsəlmanların komitələriniz yoxdurmı?”

Müsəlmanlar cavab verdilər ki, yoxdur. Amma general-qubernator dedi: "Şimdi sizin komitələrinizin varlığı və onlara aid növbənöv mətləbləriniz bizim hamımıza çox yaxşı məlumdur. Özünizi safa çıxarmağa heç bir sübutunuz yoxdur". Qubernator izhar etdi ki, öz tifl vəqtindən erməni müsəlmanı tanıyor və xasiyətlərinə bələddir. Ona aşkardır ki, hərgah erməniyə sataşan olmasa, o, sakit qalandır. Amma iztiraba salsalar, ol vəqt özini mühafizə etməgə amadədir.

İdarədən: "Mişaq"ın fövqdə dərc olan xəbərin səhih olmağına bavər etməyüb Şuşa müsəlman əyanlarından məzkur xəbərin həqiqətini idarəyə yazmağı rica edəriz.

*"Həyat" qəzeti, №72. 24 sentyabr 1905-ci il*

**İdarəyə məktub**

"Mişaq" qəzetəsinin 177-mci nömrəsində Şuşadan yazılan məktubun dürüst və həqiqət olmasını arayub da, istidalarına məbni cavabdır. Avqust ayının 16-cı gününə mütabiq Şuşada vüqu bulmuş erməni və müsəlman ixtilalından sonra tərəfeynin ərbabi-lisanın injener Canumyansın evində general-qubernatorun hüzurunda hər gün ictimai doğrudur. Amma müsəlman bəglərinin erməniləri müqəssir dutmaları hər bir cəhətdə sidq vaqedir və sonra cənab qubernator müsəlmanları guya günahkar buyurub onlar ilə böylə bir sual-cavabda bulundığına dair şayiələr iftiradır. Hər ayinə ermənilərin davaya təqəddümi Şuşa şəhrində sakin olan məcmu əmənayi-dövlətə və qubernatora yaxşı məlumdur. Mərhəba olsun ermənilərin böylə kazib yazıçılarına! Zaqafqazın hər bir nöqtəsində ələttəvali düşən erməni və müsəlman davası bir tağım böhtan və iftira nəşr edənlərin saf dərunan milləti iğva etməgindən nişat etmədimi?! Rusiyada, ələlxüsus Zaqafqazda sakin müsəlman tayfasının sadiqülqövl və aəlimulvicdan və öz dövlət mətbuələrimiz tabe bir millət olması dövləti-əliyyeyi-Rusiya əndində vazehdir. Hizb yazsunlar və düşünsünlər.

Şəbpərə gər vəsl-e aftab nəxahəd,
Rounəğ-e bazar-e aftab nəkahəd.
(Tülü`in bəkləməzsə şəbpərə mehri-cəhantabın
Kəm olmaz rövnəqi aləm bilür xurşidi-tabanın)

*Erməni-müsəlman komissiyasının aleni Yusif Musayev*

***"Həyat" qəzeti, №71. 23 sentyabr 1905-ci il***

**Qafqaz xəbərləri**

Qarabulağ Cəbrail uyezdindən bizə yazırlar ki, Şuşa uyezdində erməni Draxdin kəndliləri müsəlman Salaktin kəndinə hücum edüb evlərini odlayub qarət etmişlər və xeyli adam öldürmişlər.

***"İrşad" qəzeti №33, 25 fevral 1907-ci il***

**Qətl cəzasına məhkum**

Şuşa uyezdi əhalisindən A.Qapralans və Q.Qrzumyans nam şəxslər fevral ayının 16-da cəbrən və müsəlləhən Vəliqəf (Vəli?) Knyajiski küçədə vaqe Mosesovun taxta fabrikasına girib 500 manat tələb etmişlər. Mosesov pulu verməyincə onu soyub qızıl saatı ilə bir qədər pulını almaqla və qaçarkən özlərini təqib edən polis məmurları ilə qazaqlar dəxi bir neçə güllə atmaqla müttəhim və müqəssirdirlər.

Divani-hərbdə icra olunan mühakimə nəticəsində hər ikisinin güllə ilə qətl və edam olunmasına qərar verilmişdir.

***"İrşad" qəzeti №35, 28 fevral 1907-ci il***

**Xüsusi müxbirlərimizdən**

**Şuşa uyezdindən**

Müdiri-möhtərəm!

Zeyldəki məqaleyi – acizanəmizi "İrşad" cərideyi – məğrubəsinin möhtərəm sütunlarında lütfən çap eyləmənizi təmənni edərik.

Necə ki özünüzə məlumdur, bizlər Şuşa uyezdində sakin olan Gülablı camaatını ətraf erməni camaatları kəndlərimizdən çıxardub, evlərimizi yandurub və olub-qalanlarımızı qarət edub aparublar və özümüz qaçub hər on ev, igirmi ev bir kəndin küncündə, hava altında qalmışıq. Aclıq bir tərəfdən, soyuq bir tərəfdən Allahi-əzimüşşan heç bir müsəlman qardaşlara bu günü göstərməsün ki, biz çəkirik.

Ba in həmə, bizim öz müsəlman qardaşlarımız ki, olsunlar öz həmqəriyəmiz – Gülablu qəryəsinin sakinləri: Camal Məşədi Abbas oğlı, Baxşəli Mirzə Əli, Cəlal Mirzə Əli oğlu və Məhəmməd İsmayıl oğlı bizim barəmizdə o qədər zülm edirlər ki, hərgah təmamən yazsaq, 10 təbəqə kağızda sığışmaz. Hansı ki, haman Camal nam bu yaxın vaqtlardan bəri Gülablu camaatından 5 nəfər çoq mötəbər adamlar ki, hər bir xüsusda camaata lazım olan kişilər idi, güllə ilə vurub: 4 nəfəri ölüb, bir nəfəri yaralanıb. Məzlumların da hər birinin 7-8 baş yetimləri ac və bisahib qalubdur. Ölənlərin adamları. Gülablu sakinləri Əliqulu İsmayıl oğlı, Cəfər

xan Məşədi Məhəmməd oğlı və Məşədi Məhəmməd Kərbəlayi Əsgər oğlı və yaralu – Məşədi Tağı Kərbəlayi Məhərrəm oğlı.

Əlavə məlum ola ki, məzkur Camal Məşədi Abbas oğlı o yuxarıda adları yazılan bədəfkarlar ilə bu yavuq vaqtlardan bəri bu qədər adamları soyub güc ilə əllərindən alub və heyvanların oğurlayıb aparub ermənilərə satublar.

Hal anki təəccüb burasıdur ki, bizim bu erməni kirvələrimiz bizim üstümüzə tökülüb bizləri bu günə salan zamanlarda bizim bu igidlərimiz nərəyə girmişdilər?!

Likən baisi-təsəlli odur ki, bu halda Allah razı olsun Şuşa uyezdində olan divanlardan ki, onların bu tövr camaata zülmkarlıqların bilub, onları durub dustaq edüblər.

Gülablu camaatının rişsefidləri Rza Həsən oğlu, Məşədi Abbas Mustafa oğlu, Məşədi Tağı Kərbəlayi Məhərrəm oğlı və qeyriləri.

***"İrşad" qəzeti №39, 6 mart 1907-ci il***

**Qafqaz xəbərləri**

**Məadini-meşə imtiyazı**

Üç kəlisa (Eçmiyadzin) monastırının Şişə uyezdindəki meşə və mədənlərini işlətmək üzrə bir neçə nəfər erməni sərmayədarları bir şirkət təşkil etmişlər. Şirkətin sərmayəsi 4 milyon manatdır. Müddəti – imtiyaz 99 il olacaq və hasilatından bir qismi monastıra veriləcəkdir. Sürət və sühulətlə iş görə bilmək içün şirkət fabrika, zavod, teleqraf, telefoni-adi və elektrik dəmir yolları və sairə vüsulə gətirəcəkdir. Keşiş Aşot bu şirkətin naminə Eçmiyadzindən imtiyaz tələb edirmiş.

*"Zaqafqaziya"*

***"İrşad" qəzeti №43, 13 mart 1907-ci il***

**Qafqaz xəbərləri**

Qafqaz qəzetəsinin deməginə görə maliyyə naziri Şuşa şəhri tərəfindən istənilən 30.000 manat ianəni verməgə xəzinənin iqtidarı olmadığını canişinə elam edübdür.

***"İrşad" qəzeti №43, 13 mart 1907-ci il***

**Qafqaz xəbərləri**

Şuşa şəhərinin erməni əhalisi yerli keşiş Yeğişe Ter-Stepanovun hərəkətindən həyəcana gəlübdür. Bu keşiş ildə 2020 manat məvacib alaraq, bununla belə iktifa edəməyub Üç kəlisa monastırına ruhani semi-

narya şagirdlərinə, dul arvadlara və yetim uşaqlara mütəəlliq məbləğləri də xərcləyübdür.

***"İrşad" qəzeti №44, 14 mart 1907-ci il***

Mübarək "İrşad" qəzetəsinin sütunlarında cəmi bəglərin və xanların, əz an cümlə Cavanşir bəglərinin və xanlarının haqlarında elə töhmət və iftiralar dərc olunur ki, adamın başının tükləri biz-biz durur. Bilmirəm "İrşad"a bu xəbərləri yazan şəxslər necə özlərinə belə böhtanı rəva görürlər. Yazıq Cavanşir bəgləri və xanları Sizin haqqınızda? Deyürlər ki, guya siz camaatdan on səkkiz min manat pul cəm edub yemisiniz. Guya filan bəglər faytonları müsəlman qatili naçalnik Pivəvarov çıxub-gedən vaxt Tərtərdə bir həftə məəttəl edübdürlər.

Guya axırıncı Qala davasında bəglər və xanlar Əskəranda and içib camaatı yoldan qaytarublar. Bu sözlərin bir parası böhtandır, belə ki, əvvəla Əskəranda bəglərin hamusı and içməyubdür. Ancaq bircəsi Əskəranda mənim öz yanımda qəsəm etdi o da Qurana xeyr, bir balaca bəyaza and içub ki, ay camaat, bu Quran haqqı içun bu min nəfər altudan heç biri salamat gedüb Qalaya çıxmayacaqdur və bu qəsəmdən ona məzəmmət yoqdur, çünki can şirindir və hifzi-bədən vacibdir. Və hərçənd cənaban bəglərin faytonları müsəlman qanlusı Pivəvarov məzul olub gedən vaxt bir həftə zanyat olmağına Tərtərdə sakin olan Qala camaatı şəhadət edüb. Amma mən yəqin bilürəm ki, haman faytonlar ancaq4 gün zanyat olublar. Gənə 3 güni böhtan çıxdı və bir də bu barədə bəgə məzəmmət yoqdur. Naçalnik ona yaxşılıq etmişdi və bu da fayton göndərməyə bilməzdi və 18 min pul barəsində cənab bəglər gənə cavabdeh degil. Çünki o pula qaravul dutuldı ki, 200 müsəlman kəndlərini 50 erməni kəndindən mühafizə etsünlər. Ancaq bəglərin başı qarışıq olmağına görə qaravulların donluğu çatmadı. Ona görə qaravul məcbur olub camaatdan cəm olan puldan əlavə öz donluqlarını cəbrən yıqdılar. Və burada da heç kim bəgləri müqəssir edə bilməz, çünki quldur dəstələrinə bəg nə eləsün, xan nə eləsün?

İmdi bilürəm ki, belə açıq işi başqa rəngdə yazmaqda müxbirlərin məqsudi nədir.

*Məşədi Mehdiqulu Hacı Şərif oğlı*

***"İrşad" qəzeti №101, 30 aprel 1906-ci il***

**Qafqaz xəbərləri**

**Şuşadan**

27 apreldə Xankəndindən padovod gətirən adamlar xəbər verdilər ki, Malıbəglinin ağsaqqalların ştab pristav çağırubmuş. Ağsaqqallar qayıdan vaqt ermənilər yolda pünhan olubmuşlar. Qəflətən çıxub bu ağsaqqalları dutublar. Məşədi Nəcəfqulu və Məşədi Nərimanı boğub öldürüblər. Bala Hacı Məhəmməd qılçasından yaralıdır. Qaçan adam gəlub daş yolda daş kəsən ermənilərdən ikisin öldürübdür.

***"İrşad" qəzeti №130, 4 iyun 1906-cı il***

"Mşaq"ın yazdığına görə Şuşa uyezdində ermənilərlə müsəlmanların böyük toqquşmaları vaqe olubdur. Müsəlmanlar hücum etdikdə bir neçə erməni ölübdür. Bundan sonra ermənilərin bir hissəsi müsəlman kəndinə hücum edübdir.

Əsgəran qoşun ilə mühafizə olunur.

***"İrşad" qəzeti №138, 13 iyun 1906-cı il***

**Teleqraf xəbərləri**

**Qafqaz**

Şuşa, 10 iyun

Şuşa şəhərinin camaatı Şuşada müsəlmanlar ilə ermənilər arasında qəvi və əsaslı bir sülh əmələ gəldigini xəbər verüb bu bica və bifayda qırğına bir nəticə verilməsi xüsusunda sərfi-qeyrət olunmasını hər kəsdən təvəqqe edər.

*İmza: Şəhər idarə rəisi*
*Qalantarov*

***"İrşad" qəzeti №164, 13 iyul 1906-cı il***

**Şuşadan**

Möhtərəm Kərbəlayi Yusif Hacı Qəhrəman oğlının himmətilə Şuşada Çölqala məhəlləsində 1344-minci ilin səfərül-müzəffər ayının 20-minci günündə güşad olan məktəb bizim islam balaları içün xeyir-mənfəət gətürməgi bizlərə məlum oldı. Bu məktəbin müdərrisi Axund Molla Məhəmməd Həmzə oğlıdır. Bu zat əhli-Şuşadır, on il bundan əqdəm Zəngəzur uyezdinin Gorus adlanan qəsəbəsində qəzavət əmrinə mübaşir olub layiqi-təqdir xidmətlər olubdir. Özi də sabiq "Şərqi-Rus" qəzetəsinin müxbiriydi. Möhtərəm qazetə oxucularımıza məlumdur, Gorus qəsəbə-

sində erməni tayfasını bir para namünasib hərəkətlərinə cənab molla Gorusdan gəlüb öz sevgili vətənində sakin olubdur. Ermənilərin bizə xeyri bu oldı ki, bu zat bizim əlimizə düşüb, uşaqlarımız içün böyük mənfəət yetürür. Uşaqlara verilən dərslər zeyldə yazılan qərar üzrədir: Məktəbdə üç şöbə təyin olubdur. Dərsə saat ikiyədək məşğul olurlar. Məktəbdə çubuq, falaqqa filan yoxdur. Hər gündə 3 sinif dərs təlim verürlər: Birinci şöbədə əlifba oxuyan uşaqlar, ikincidə Quran oxuyanlar üçincidə kitab oxuyanlardır. Əqayidi-diniyyə və əhkami-şər`iyyə, lövh vasitəsilə elmi-hesab dərsi də verürlər. Mülahizə etdigimizə görə, bu üç ayda verilən dərsi bizim müslim balalar üç ildə oxuya bilməzdilər.

*Gölqala məhəlləsindən*

***"İrşad" qəzeti №168, 18 iyul 1906-cı il***

**Şuşa əhvalatı**

Xüsusi müxbirimizdən çəkilmiş teleqramlar

Ağdam – 16 iyul. Şuşa müsəlmanları naçar qalubdurlar. Müsəlman hissəsinin yarısı yanubdır. Qoloşçapov ermənilər ilə bir yerdə iş görür. Atışma bir-iki saat kəsilüb sonra təkrar başlandı. Qoloşçapov dünən yüzdən artıq top atdırdı. Səsi aydın eşidilürdi. Bu topların hamusı müsəlman hissəsinə atılubdur.

Tərtər – 16 iyul. Şəhərin (Şuşanın) müsəlman hissəsinə ermənilər od vurubdurlar. Qoloşçapov müsəlmanları qırdırur. Heç yerdən kömək yoxdur. Ermənilər yolları bağlayubdurlar. Ayın 12-sindən başlanmış qırğın indiyə kimi davam edir. Müsəlmanlar tələf olmaqdadırlar.

Baku general-qubernatoruna Şuşadan gələn rəsmi teleqramın surətidir.

General Qoloşçapova verilən xəbərlərə görə Şuşada hər iki tərəf barışmaq içün ağ bayraq çəkdi. Müsahilə əqd etmək içün hər tərəfdən on beş adam təyin etmək fikrindədirlər. Hər iki tərəfin nümayəndələri surətiqətiədə barışmaq içün sabah saat 3-də yığılacaqdırlar.

**Ağlar günümüz**

Cümlə cahanı vəlvələyə salan, Gürcüstanı tarmar edən, Tiflis gibi cəsim və əzim şəhərləri altı üstinə çevürən İran şahı Ağa Məhəmməd xan Qacar yüz il bundan əqdəm Şuşa gibi bir balaca şəhəri təsxir edə bilmədi! Ol vəqt bu şəhər əsləhəsiz, qoşunsuz, adı dünyada bilinməyən bir xanın əlində idi. Qışılbaş gibi qoşunun qabağında xanın beş-üç çaxmaq tüfənglü nökərləri müqabil durmışdılar.

Xan Şuşa şəhərini Ağa Məhəmməd xan gibi yırtıcıların əlindən həmişəlik azad etmək içün xanlıq ixtiyarından əl çəküb şəhəri öz ixtiyarına rus hökumətinə təslim etdi.

O vəqtdən bəri tamam yüz il keçübdir. Şuşa şəhərinin Ağa Məhəmməd şah gibi bahadırlara məğlub olmağına razı olmayan xan indi sağ olsa idi, nə edərdi? Məhəmməd şaha, Abbas Mirzəyə. basılmayan biçarə Şuşa imdi nə günlərə qalubdır? Kimlərin ayağlarının altında dağılıyor? Arvat-uşağların ahü nalələri qəbirlərdə yatan Qarabağ banilərinə rahatlik verirmi?

Qəhrəmanlara baş əgməyən Şuşa imdi kimlərin əlində xar və zəlil olubdur? Şuşa müsəlmanları hökumətə müxlisanə təb`iyət etməgi hansı bir zamanda şikəst etdilər? Dövlət qanununa zidd və namüvafiq əməlləri hansı bir vəqt törətdilər? Hansı bir anda qəsəmşikəst olub, dövlət məmurlarına ağ oldılar?

Rus generalı Qoloşçapov hansı günahi – kəbirün üstə binəva Şuşa müsəlmanlarını erməni bədəfkarlarına mühasirə etdirüb topların ağzını məzlumların evlərinə bağlatdırıblar? Qazarov gibi erməni əfsərlərinə ixtiyar verüb, şəhərin bir yarısını odlara dutdurur?

Ey vicdansız general! Məgər sütəmər balaların, məsum tifillərin, əlsiz-ayaqsız qocaların, bimar və naçar şəxslərin ərşə dayanan nalələri sizin qulaqlarınıza çatmıyor? Daşdan bərk ürəginizi bir az yumşaltmıyormı?

Yolları bağlayub da şəhəri mühasirə edüb də mənzurunuz müsəlmanları qətli-am etməgdirmi?

Bir tərəfdən erməni güllələri, bir tərəfdən "erməni" generalı Qoloşçapovun topları, bir tərəfdən Qazarovların yandırıcı odları, bir tərəfdən də şəhərin dörd cəhətdən mühasirə olunması – bəs biçarələrin bu günki gündə dadrəsi kimdir? Allah qəlbində – padşah uzaqda, Qoloşçapov da daşnaksyonun, aşotların, komissiyonların rəsmi pişxidməti olubdur?

Cənab Qoloşçapov! Bir şəxsin qəbahəti üstində on iki min müsəlmanı qətlə yetürmək mümkünmidir? Rus qanunlarında buna bir işarə vardırmı? Yoxsa öz rəşadətinizi arvat-uşaqlara göstərmək xahiş ediyorsunuz?

Daha bir əlac qalmayaubdur!

Ey mənim anam və bacılarım! Sizə bir çarə qalmayubdır. Şan və namusunuzu müdafiə etmək içün Dəlikdaş adanlı qayadan atun özünizi üzi aşağa!!

*Fərhad Ağazadə*

***"İrşad" qəzeti №168, 18 iyul 1906-cı il***

**Oradan-buradan**

Qarabağda – Şuşa şəhərində "sülh" olubdur: hər kəs öz "işinə" məşğuldur. Məsələn, hakimin "işi" odur ki, hökm edüb camaatı qırdırsun. Şuşa hakimi haman bu "işə" məşğuldur, qoşunun "işi" odur ki, top və tüfəng atub evləri darbadağın etsün. Şuşa qoşunı haman bu "işə" məşhurdur. Şəhər kişilərinin "işi" odur ki, evi, eşigi darbadağın olanda, qovm-qardaşı qırılanda əlini qoynına qoyub naəlaclıqdan məzlum-məzlum durub baxsunlar. Şuşa şəhərinin kişiləri haman bu "işə" məşğuldurlar. Şəhərin arvatlarının "işi" odur ki, əri, qardaşı, oğlı öldüriləndə başını açub saçını yolub şaxsey təpüb ağız desünlər. Şuşa şəhərinin arvatları haman bu "işə" məşğuldurlar.

Şəhərdə "sakitlikdir", yəni bazar-dükan örtüli, küçələrdə şəhər əhlindən bir zinəfəs tapulmaz, gedüb-gələn yox. Yollar hamusı bağlı. Şəhər "qayda"ya düşübdür: yəni toplar baqaidə atılur. Şəhər dört tərəfdən baqayidə yanub, evlərə top və tüfəng gülləsi dəgüb, hamusı baqaidə dağılur, güllə dəgən adamlar baqaidə ölürlər və öli sahibləri də baqaidə matəm saxlıyorlar.

Qərəz şəhərdə "sülh"dür: hər kəs öz işində, öz gücində və hər yerdə tamam sakitlik bərqərardır. Görünür ki, general Qoloşçapovı Qarabağa "sülh" içün göndərən həriflər çox arif və gələcəgi nəzərdə dutan adamlar imişlər ki, bu gunə təcrübəli iş dutublar. Həqiqət rəvayət edirlər ki, Şuşa şəhərində bu gün "sülh", "qayda" və "sakitlig"in davamı yalğuz bir generaldan asılıdır. Odur ki, onun Qarabağdan çıxub sayir yerlərə getməsini "sülh" tərəfdarları heç bir vəqt arzu etmiyorlar.

*Filankəs (Ü.Hacıbəyov)*

***"İrşad" qəzeti № 170, 20 iyul1906***

**Qafqaz xəbərləri**

**Şuşa əhvalatı**

Ağdamdan Bakudə Hacı Zeynəlabdin Tağıyev, Murtəza Muxtarov, Məhəmməd Həsən Hacinski və Behbud ağa Cavanşir cənablarına böylə teleqram çəkilübdür.

Ağdam, 18 iyul, Şuşada dünəndən bəridir ki, atışma kəsilübdir, amma əhval qorxulu və həyəcanlıdır. Qoloşçapov erməni hissəsinin mərkəzində sakin olub və bütün qonşunu da oraya yığubdur. Qoşun bir çox erməni "can fədai"ləri ilə birləşüb müsəlmanlara qarşu iş görirlər. Müsəlmanlar xaric köməkdən məhrumdurlar. Müsəlman hissəsində (Köçərli),

(Mamayi)nin bir hissəsi və Ağa Dədəli məhəllələri qoşun ilə ermənilər tərəfindən yanubdır. Köçərli məhəlləsində Şahlıq imarət ilə məscid dəxi yanubdır. Adam tələfatı azdır, likən gözlənir ki, bütün müsəlmanları bir-bir qıracaqdırlar. Müsəlmanlar özlərindən neçə dəfə çox olan düşmən ilə dava edüb yorulubdurlar, köməksiz qalubdurlar. Sizdən və Badkubə camaatından istirham ediyoruz ki, Baku canişin hüzurinə iki nəfər çıxarılsun. Və bu iş şiddətli surətdə təhqiq edilsün. Buradan sabah Tiflisə altı adam gedəcəgdir. Onlar "Yryant" mehmanxanasında qalub, səy edəcəglər ki, canişin ilə pəncşənbə güni mülaqat etsünlər.

Lütfəli Behbudov

"Mişaq" qəzetəsinə çatan xəbərlərə görə bu axırımcı Şuşa qırğınında adam tələfatı 60 nəfərdən ziyadədir, o cümlədən erməni tərəfindən üç nəfər qətl olub və 20 nəfərədək yaralanubdır.

İyulun 16-sından T.L-in müxbiri bele teleqram göndərüb: "Dünən Şuşadan bu məzmunda teleqram gəldi." Ermənilər müsəlman bazarının bir tərəfindən girüb, Rus kəlisasından aşağa səngəri dutdılar. Həmçinin də "Şeytanbazar"ın o biri tərəfindən.Müsəlman hissəsi bazarədək yandırılubdır. Ayın 15-də general Qoloşçapov barışıq içün ermənilərin yerişini dayandırdı (??) Hala sülh olmayubdır, danışıq olmaqdadır. Ölənlərin və yaralananların ədədi deyilməgə görə 50-dir. Bu gün hədsiz-hesabsız müsəlman dəstəsi Əsgərana töküldi, likən erməniləri yarub keçə bilmədi. Bu saat Xaramurt, Xaladad, Qaranaq kəndlərində bərk davadır. Müsəlmanlar güclərini Əsgərana toplayurlar.

### *№ 171, 21 iyul 1906*

Tiflisdən. Şuşadan alınan xəbərlər bura müsəlmanlarını nəhayət dərəcədə məyus edir. Şeyxülislam və müftinin adlarına hər gün teleqram gəlir ki, əhvalat sərdara bildiirilsün. Likən o cənablar Mənglis meşələrində istirahətdə olmalarına görə millətə xidmətdən məhrum qalublar.

Ağdamdan gələn həyəcanlı teleqrama görə bu gün bura müsəlmanları sərdarın yanına bir komissiya göndərməglə bərabər, iki yüz kəlməli uzun bir teleqramla Peterburqa baş vəzirlərə müraciət edüb general Qoloşçapovun üzləti və işin təhqiqini istida edüblər.

***"İrşad", № 262, noyabr 1906***

**Xüsusi müxbirlərimizdən**

**Şuşadan**

Noyabr ayının ikinci gecəsi saat bir radələrində şəhərin əvvəlinci çastında kaen obşestvo və zayemnı kredit ki ibarət ola camaat bankından erməni quldurları gəlüb qapuya saxta açar salub açmışlar. Və içəri daxil olub kassa sanduğı olan balaca evin qapusını sındırmışlar.

Hərçənd kassaya açar salub çox səy və təlaş etmişlərsə də, sanduq möhkəm olmağa görə bir şey bacara bilməmişlər. Lotuların əlləri boş çıxmaqdan acıqlanub kassanın künclərində bəraye təzyin təbiyə olunmuş şəbəkələri qırub dağıtmışlar və sonra kassadar yatan otağa girüb biçarənin olub-olmaz paltarın götürmüşlər. Və stolun üstündə çoxlu yumurta var imiş, hamusını sındırmışlar və banka içində olan balı yeyüb getmişlər.

Əz-qəza bazar axşamı olmağa görə kassir tansavalnı veçerə getmiş imiş. Bundan sonra ermənilərin işləri bitdi. Sayir səvadi-əzəm şəhərlər kimi ermənilərdən Şuşa şəhərində də banka və kontorlara təcavüz göründi.

*Kamil*

***"İrşad" qəzeti, № 60, 4 aprel 1907***

**Xüsusi müxbirlərimizdən**

Şuşa əhli tərəfindən mənə olan məzəmmətlərə cavab olaraq bu bəyannaməni yazıyorum ki, məlum olsun ki, Bərdədə səkənə edən Qala əhli şəhərdən külfətlərilə dava vəqtindən qaçub Bərdədə əgləşüb bilmərrə öz vətənlərini unudub başlayublar. Bərdədə rəiyyətlərdən yer alub ev təmir etməgə. Bunların bu əməlləri mənə nagüvara gəlüb mən öz Bərdə əhlimizə qadağan etmişəm ki, Qala əhlinə yer satmıyasınız. Cünki şəhər əldən gedər və haman yer alanları da məzəmmət etmişəm ki, bu işdən əl çəksünlər. Şəhərin abaglığından ötəri mənim bu xeyrxah nəsihətim bir paralarına acı gəlüb kağızlar ilə və sifarişlər ilə Qala əhlinin nəzərində məni müttəhib edüblər.

Halbuki bizim qəsdimiz fəqət həqiqəti kəşf etmək idi.

İdarədən: Kağızın qalanı şəxsi işlərə dair olduğundan çap olunmadı.

***№65 10 aprel 1907***

*Xüsusi müxbirlərimizdən*

**Şuşada Daşnaksiyon tədbirləri**

**Şuşa cavanlarının dəvəti**

Bir neçə vəqt bundan əqdəm erməni inqilabiyun Daşnaksiyon "hifzi-bədən" işini camaata mühəvvəl edüb bir intibahnamə buraqub öz nöqteyi-nəzərini bəyan etmişdi və əlavə bir məclis təşkil edüb şəhərin "hifzi-bədən" işini o məclisə tapşurdı. Bu məclis bir elannamə vasitəsilə camaata məlum etdi ki, kim bilsün nə növ cürəbəcürə əhvalatı nöqteyi-nəzərə alaraq ona tapşurulmuş cavabdəhəndə işin ağırlığını öz boynından atur. Bu hal və özvai və gələcək işlərin məxşuş və qorxulu oldığını, camaatın bimühafizə qaldığını nəzər diqqətə alub, şəhərin davakar və zirək qüvvələri ki həmişə işin ağırlığını öz öhdələrinə götürüb yeridür idilər, yəni o qüvvələr ki cavanlardan ibarətdir, meydanə girüb səy və təlaşə başladılar ki, öz öhdələrindən rədd etdikləri işi nüfuzdan düşmiş halından genə öz mərtəbəsinə qaldırsunlar.

Cavanların bu hərəkət etmələri nəticəsiz qalmadı. Birinci mənfəətləri bu oldı ki, "hifzi-bədən" işinin feli şöbəsi açıldı. İşin cavabdəhəndəligini tazədən boynına çəkdi və sonra hamı camaata elan etdi ki, "hifzi-bədən" işindən ötri bir tazə vükəla məclisi təşkil etmək üçün gərək tazə seçgi olsun. Məzkur feli şöbənin iş başlamağını müşahidə edüb cavanlar zeyldə dərc olunan tələblərini haman şöbəyə izhar etdilər:

1. Cavanlar məclisi hamı donluqlu zinurların (yəni daşnaksiyon saldatlarının) xaric olunmasını tələb ediyor, donluqsız zinurlar (yəni camaat milisyası) saxlanmaq binası qərar olunmaq lazımdır.

2. "Hifzi-bədən" işinin feli şöbəsinin üç nəfər üzvləri: Levon Varazyan, Mikail Qarabegyan və Akop Avanesyan. Bu, ümumi işə ümdə xələl vuranlar olduqlarına görə gərək kənar olsunlar. Çün cavanlar belə adamlar ilə müttəfiqəl-qövl heç vaqt iş görə bilməzlər.

3. "Hifzi-bədən" şöbəsinin o həqiqi üzvləri ki, kənar edilübdirlər, gərək çağırılub öz işlərinə təyin edilsünlər. Ondan qabaq gərək onlardan sual-cavab olunsun nə səbəblərə görə feli şöbədən onları kənar edüblər?

4. Xahiş olunur ki, gələcək vükəla məclisinin seçgisi bilətəxir əmələ gətürülüsün ki, "hifzi-bədən" işi möhkəm bünövrə üstində qərar tapsun. Hal-hazırda ki feli şöbə öz iş görməməzligi ilə camaat arasında intişar etdigi ixtilafata görə kənar olunsun və gələcək gözətlənilməz işlərə sədd çəksünlər.

Bizim bu axırımcı tələbimiz bu halda yeridi və hasil oldı və "hifzi-bədən" işinin vükəla üzvləri intixab olunmağa başlamışdır və biz cavanlar öz namizədlərimizin siyahısını elan edüb onların seçilməsini təklif ediriz.

Camaat! Sizi dəvət edüriz, intixab ediniz o adamları ki, lazım və layiq olacaq dərəcədə "hifzi-bədən" işinin ən ağır və ən cavabdəhəndə təkliflərini yerinə yetürə bilərlər. Bu dəvəti cəmi Şuşa erməni cavanları imza etmişlər.

Bu dəvətnamə "Jamanaq" qəzetəsində çap olumnuşdur.

### *"İrşad" qəzeti, №170, 20 iyul 1907-ci il*

**Tiflis, iyul 17, 1907**

Cümə güni axşam vəqti Bakudən müsəlman xeyriyyə cəmiyyətinin sədrnişini cənab Hacı Zeynəlabdin Tağıyev həzrətlərindən Şeyxülislama və müftiyə teleqram gəldi: "Şuşadan çox-çox iztirabəngiz teleqramlar gəlib ki, onların məzmunini bugünki teleqraf şirkətinin teleqramı qismən təyin edir. Deyillər müsəlmanlar provokasiya hiyləsinə düşüblər və müsəlmanları general Qoloşçapov top alətinə döndərməgdədir, yəni top vasitəsilə müsəlmanlardan meyit qalağları vurmaqdadır. Müsəlmanların hər yandan yollarını kəsiblər. Müsəlmanların üstinə tökülməgdə qoşun ilə ermənilər əlbir olublar. Əhval Baküdə çox dəhşətlidir. Hamı səyləri əmələ gətirin. Canişinə söz keçirin, ta inki qətli –am kəsdirilsin və bunun səbəbləri hərtərəfli təhqiq olunsun. Nəticə xüsusində xəbər verməniz təvəqqe elərik."

Şeyxülislam ilə müfti Mangəlis yaylağının havalarında müsəlmanlara dua edirlər.

İdarə üzvlərinə teleqrafları yetişdi.

Dünən günorta vəqti şiə idarə ruhanisi üzvi irəliki Gəncə qazısı və quberniya məclisinin sədri axund Molla Əli Əsğər Poladzadə, Tiflis məscidi-camenin axundı Hacı Mirbağır Mirheydərov və Ağa Xanlar Hüseynov (bu şəxs fövqəladə həmiyyətli və həqiqi müsəlman damarlı bir kişidir, Allah məsəllərin çox eləsin) bəndənın mənzilinə təşrif gətirdilər. Hamumız bir yerdə sünni idarəxanəsinə gedüb üzvi-idarə Əlaəddin Əfəndi Sübhanqulov cənabları da içimizdə olduğı halda məsləhət etməgə bina qoyduq. Şura qərar verdi ki, Əlaəddin Əfəndi, Axund Əli Əsgər və bəndələri ki, canişin yanında erməni və müsəlman məclisinin üzviyəm, canişinin hüzurinə gedək.

Getdik, canişin bizə cavab göndərdi ki, işin təfsilatı müəzzəm əleyhin mülki köməkçisi Mitskeviç cənabındadır. Ona görə lazım gəlir ki, biz onunla görüşək. Saraydan canişin idarəsinə getdik, görüşdük. Biz üç

idik, onlar da üç oldı: canişinin müavini Mitskeviç, kanselyariya müdiri Petrosyan və erməni-müsəlman sülh məclisinin sədri, canişin şurasının üzvi Viden Baum. Danışıq ümdə bəndələri ilə Mitskeviç arasında oldı.

Bizi canişinin yanına gətirdən haləti təsvir etdik, cənab Tağıyevin teleqrafını nişan verdik, Qafqazın hamı müsəlman əhalisinin nə dərəcədə qəlbi qırıldığını söylədik. Hamıdan əvvəl israr ilə mütalibə etdik ki, qətliamı kəsməgə haman dəqiqə hökm göndərilsin. Cənab Mitskeviç general Qoloşçapovdan gələn teleqramı bizə göstərdi. Şuşadan teleqraf olmadığı içün general Xankəndindən teleqram edir ki, hər iki tərəf sülh əlaməti olan ağ ələmləri qavzıyollar. Hər iki tərəfdən on-on beş adam bir yerə cəm olub müsalihənin şərtləri xüsusində müzakirə edirlər. Bu teleqraf sabahısı bazar güni Qafqaz qazetində basılmışdı. Canişinin naibi və kanselyariya müdiri onlarda olan rəsmi xəbərlər üzündən Qarabağ bəliyyəsin başlanmasını bizə nəql elədilər ki, bir ermənini Qoloşçapovin mənzilinin yanında qətl edüblər. General cinayəti müsəlmanlardan görüb müsəlman tərəfinə silistçi polisaçı göndərüb ki, təhqiqat etsinlər. Müsəlmanlar mümaniət göstəriblər. Onda general qoşun-top göndərüb ki, müsəlmanları qətl və qarət etsinlər, üsyanlarının cəzasına yetürsünlər.

Burada bəndələri şur və həyəcan ilə cavab verdim, dedim üsyan bir dövlətə bir qövmün, bir millətin iki-üç adamı tərəfindən edilən iş degil. Üsyanı camaatlar, qövmlər, millətlər, vilayətlər, ölkələr edirlər. Qarabağ şəhrində, ya vilayətində rus məmuri general Qoloşçapov göndərdigi silistçi və polisaçıya münhəsir degil. Yüzlər ilə məmurlar, minlər ilə saldatlar, kazaklar, strajniklər-filanlar var. Necə oldı ki, silistçinin qabağına düşən bir-iki müsəlman rus dövlətinin bu nümayəndəsinə üsyan etdi, minlərcə, yüz minlərcə, milyonlarca o biri qarabağlılar, o biri müsəlmanlar itaətdə qaldı?

Üsyan adını şiddətlə rədd edirəm.

Bizim başımıza bu axırımcı il yarımın içində hər nə gəlübsə, hamusı ruslara sədaqətimizdən gəlübdür. Bu sədaqətdən bizə xeyirmi çıxdı, zərərmi çıxdı, orası özgə işdir. Hər halda bu sədaqət həqiqi ve fe`lidir. Mən başımı gerü qoyuram ki, nəinki bir güruhun, bir vilayət əhalisinin, bəlkə iki müsəlmanın da arasında heç vəqt böylə danışıx olmayub ki, gəlin rus hökumətinə üsyan edək. Qarabağ faciəsi üsyan degil, provokasiyadır. Ermənilər general Qoloşçapovu özlərinə politika aləti edüblər. Bu hərif də ki əqldən tamamilə bəhrəmənd olmadığını hamı bilir. Bir məchulülhal erməninin məlum degil kimin tərəfindən olunan qətlini dəstaviz edüb müsəlman məhəlləsinə təhqiqçilər yox, poqromçilər, yəni qətl və qarət güruhi göndərüb ki, qabağa düşəni öldürsünlər, yaxsunlar,

dağıtsunlar.Müsəlman nə eləsün, onun yerinə siz olun. Heç zaddan xəbəri olmadığı halda, tökülüllər evinin, arvadının, uşağının üstinə. Qan vurun beyinə. İrz və namus pişkeş veriləsi şey degil, özini saxlaya bilmir. Müdafiə yolında kişiyə, başında börki olana, namərd olmayana hər nə vacib isə ona əməl edər. Bu növ vəqəyə qəsd ilə vücudə gətürilən müdafəyə hankı dildə dövlətə üsyan deyillər. Hankı dövlət ki ədalət ilə bərabər əqlisəlimə sahib ola, böylə birəhval meydanə gələndə müdafiəçinin müdafiəsini təbii görüb o müfsid, o zalim, o mirqəzəb poqromçiyə qətl və qarət ustadına tənbeh etməz?! Hamı Qafqazın müsəlman əhalisi adından mütalibə edirik ki, general Qoloşçapov bu saat Şuşadan geri çağırılsın.

Cənab Mitskeviç bəyanatımızı və bu şiddətli mütalibəmizi canişinə ərz etməgi vəd etdi. Bizə hamusı təslimamiz sözlər dedilər:

"Krım davası oldı. Keçən Şərq (Osmanlu) davası oldı, biz ruslar ilə siz müsəlmanların arasında naqar çıxmadı. İndi də dalaşmarıx"- Mitskeviç dedi.

Cavabında bəndələri: Bəli, yarım əsrdə iki dəfə biz sizin xaçpərəst ələminizin altında öz müsəlman din qardaşlarımız ilə dava elədik. Bunun əvəzində indi siz bizim arvad-uşağımızı Qarabağda qırırsınız. Doğrusunu ərz eləyim. Bizim rus dövlətinə olan sədaqətimiz gündən aşkar olduğundan hamınız yaxşı bilirsiniz. Amma çi fayda. Qafqazdakı böyük rus məmurları indiki vəqtdə öz əqidələrinə görə yox, erməni komitələrinin qatillərinin bombaları və revolverləri qorxusilə iş görürlər. Bizim üstümüzə Qarabağda top gülləsi yağdıran bizim üsyanımız degil, bizim o günahımızdır ki, biz böyük rus məmurlarını öldürmürük.

Cənab Mitskeviç qaş-qabağını turşudub uca səs ilə "yox", – dedi, yəqin ki, qəlbi əlbəttə belədir?-deyirdi.

Gəldik şiə idarəsinə. Bizi böyük bir cəmiyyət gözətləyirdi. Şurayiümmət oldı. Biz canişin məmurları ilə olan mükalimərmizi nəql etdik. Canişinin belə bir halda ki, bizim böyük bir şəhərimizi rus qoşunı bu qoşunların özlərinin şəhadətinə görə (podpolkovnik Vivirin bu günlərdə rəsmi yazdığı raport) ruslara açıqdan asi olan ermənilərin xatirxahı içün yandırır, yaxır, əhalimizi qırır, müsəlman üləmasının rəislərini və Qafqaz müsəlmanlarının rəsmi nümayəndəsini şəxsən qəbul etmədigi müsəlmanlara çox ağır nagüvar gəldi. Müavinin və böyük məmurların təsəlliamiz sözlərindən də bizə kifayət verən bir iş görünmədi:

Qoloşçapov ilə canişin islam bədxahlığında həmdildirlər, ya yox, orası aşkar olunmadı. Padşah imperatora, mərkəzi-dövlətə başımıza gələn müsibəti xəbər verməgə həmsədalığla qərar verildi. Məclisin əmrinə görə

bəndələrin tərəfindən inşa olunan bu teleqrafı vəzirlər şurası sədrnişininə göndərdik:

"Gəncə quberniyasının dört uyezdinin general-qubernatoru general Qoloşçapov ki açıqdan cilovı erməni inqilab komitetinin əlindədir, uyezdin kiçik məmurları lə Şuşa şəhərinin müsəlmanlarının əvam güruhundan iki-üç bisərü panın arasında provokasiya və fəsadəngizlik qəsdilə bir dalaşmaq və mücadilə çıxartdı ki; çürük bir zad olub tamamilə xüsusi bir vəqə`cik idi. Bundan istifadə edüb Şuşadakı qoşunlar və silahlı erməni güruhlarının başında durub dinc və fərağət olan Şuşa müsəlman əhalisinin üstinə töküldi." Güruh-güruh qırğın və uçurtmaq xarablamağ top ilə, tüfəng ilə və hər özgə vasitə ilə qəddaranə yolda cərəyan etdi.

Əyalətimizin, krayımızın, müsəlman əhalisinin hamısını qeyz, heyrət və rə`b basubdır ki, ruslar nə içün bizi qırıllar, qətli-am edirlər. Bəlkə onun içün ki, burada iki müsəlman dövlətinin sərhədində Rusiyaya buralar müntəzəm olandan bu günə kimi biz, müsəlmanlar həmişə rus dövlətinə sadiq olmuşuq? Bəlkə ondan ötrü ki, biz müsəlmanların inandığımız o əqidədir ki, rus dövləti şuriş və inqilabsız tazələnməlidir?

Qafqaz əyalətinin hamı müsəlman əhalisinin adından ehtirami-tamam ilə təvəqqe edirik ki, nüfuzi-icra buyurasınız ona ki, mirqəzəb Qoloşçapov həmin dəqiqə Şuşadan qovulsun, bu naşenidə zülm və qədr maddəsi ətrafı artığ diqqətlə təhqiq olunsun.

Və ələlümum bizim əyalətimizin işləri öylə ləyaqətli, istiqamətli hakimlərə və böyük məmurlara tapşırılsın ki, onların istiqamətinə təsiri ola bilməsin. Nə qızılın və nə inqilabçı əlilə caninin və ömrinin əlindən alınmasının qorxusı. Söz çoxdur, amma iş də çoxdur. Bu dəfəlik bundan artığ yazammadım. Vəqə`nin burada cərəyanının surətini peydərpey yazacağam.

*Məhəmməd Şahtaxtinski*

***"İrşad" 27 aprel 1907-ci il, №78***

**İrşadın xüsusi teleqraf xəbərləri.**

Dünən idarəmizə böylə bir teleqram gəlmiş. Ağdam 24 aprel

Şuşa və Cavanşir uyezdlərinin cümlə düz yerlərini çəgirgə alıb. Əkinlər və çəmənlər tərk olmaqdadır. Cəgirgə qıran fılə çox azdır. Aclıqdan fəryad edir. Naümidlik əla dərəcəyə çatıb. Lazım olan yerlərdən xahiş edin ki, fələnin ədəbi artıb və dövlət tərəfdən çörək, neft almaq üçün və fələ dutmaq üçün ianə verilsin.

Doktor Mehmandarov və Tavandarov

İdarədən: İanə komitəsinin diqqətini bu teleqrafa cəlb edib də ümid ediriz ki, komitə təcili olaraq lazım olan iqdamatı edəcək ki, tezliklə bu qədər əhalinin imdadına çatılsun. Minlərcə milyonlar aclıq və üsrətdən tələf olmaqdan başqa gələcəkdə də bir mövqe ümidləri qalamıyor, guya gərdişi- dövranda bu biçarələrə zülm və əziyyət etməgə mühəyyadır.

Ənvai- əqsami-məşəqqətlərlə əkdigi əkinlərə göz dikub aclığa və üsrətə gələcəkdə bolluq olar ümidilə tab gətürən əhalinin bəlayi-nagahan gibi nazil olmuş çəgürgə bu ümidini də əlindən alur. Böylə bir haləti-naümidlikdə biçarələrin ümidinə qalan bu biçarələrin qeydinə qalan əşxas yüzlərini bizə çövürüb bizdən imad istəyürlər! Bizdən hökumət əndində çalışmaq təvəqqeini ediyorlar. Ümidvarız ki, bizdən də həmiyyəti-milliyə və qeyrəti-islamiyyə məhv olmayub. Əlimizdən gələni edəcəsiz ki, tezliklə bu biçarələrin imdadına çataq!

***"İrşad" qəzeti, 29 may 1907, №99***

**Xüsusi müxbirimizdən**

**Şuşadan.**

"Tazə həyat" ruznaməsinin 21-mci nömrəsində "Zəngəzur əhvalatları" ünvanında xəbəri oxuyub cənab müxbir qərəz və əfsad yolu ilə Zəngəzur əhvalatında beğtədən Qarabağda bağat əhvalatlarına köməkdə nainsat töhmətqulig gördügimizə görə iqameyi- həqq üçün bu neçə kəlməni yazmağa məcburuq! Keçən sənə Qafqaz camaatı barama toxmını az saxlamağa görə bağların hamusı salamat qalırdı. Ona binaən biz hər hal Bursadan gəmlikdən xəbərdar olub bilmişik ki, bu sənəbarama toxmı çox az hasilə gəlüb. Biz zeyldə müsəmma olan 5 nəfər şəxs kompaniya olub bir nəfərimizi ki, ibarət ola, Məşədi İsgəndər Nəsirovdan göndərmişik gedib Türkiyəyə gedib Bursadan gəmlikdən 19 min korobka toxum cəm edib göndərib buraya. Biz də həmin toxumun 6 min korobkasın Kəbirli Cavanşir uyezdinə Ağdam mahalına, 8 min korobkasın Cəbrayıl uyezdinə dizaq mahalına, Min korobkasın Zəngəzur uyezdinə Çay mahalına nisyə füruş etmişik. 11 abbası, 12 abbası, qərar ilə Tiflis şəhərində postatoxum füruş olub. 2 manatdan 13 abbasıya kimi Nuxu şəhərində, 2 manat 50 qəpikdən 3 manatadək Kaspeyski krayda, 3 manatdan 5 manata kimi Rəşt dairəsində, 3 manat 21 qəpikdən, 4 manat 50 qəpikdən bizim bu iştirak edub. Qarabağ mahalına bir bu qədər toxum gəturdigimizə bais olub camaatın dəstəgir olmayub əskük qiymətə toxum almağına bizim toxumun füruşundan bəd bir qara əşxaslar yəşxiyobdan 8 min korobkayadək alublar 2 manat 7 qəpiyə. Bizim zəif natəvan millət qardaşlara füruş ediblər hər korobkasın 3 manat 80 qəpiyə nəğdə əlavə birin

Cəbrayıldan, Cəvanşirdən, Malaman, Ağdam, Bərdə yanlarından, Tərtər yanlarından gedüb Tiflisdə 11 abbasıdan 13 abbasıya kimi toxum alub gətirüb mahallarda mənfəətinə füruş edüblər.

Bəd Şəxi Şəxıyev özü burada Dəha əhlinə 13 min korobkayadək toxum füruş edub nağda 2 manat 70 qəpikdən 3 manat yarımadək. Hamıya məlumdur ki, bu sənə 3 sənədir ki, Gəncə quberniyasına bir nəfər toxum satan gəlməyub iğtişaş olmağa görə. Nəhayət müxbir sahib qərəz ilə biinsaf və hirs alış verişdən heç bir şey zikr etməyub bizim haqqımızda olan iftirani iştihar verür, biz yazdığımız mətalibi həqq mülahizə təhqiqini hamu müsliminə həvalə edirük. Qövlümüz xilaf olsa, bundan ziyadə töhmətə sözavar olmaluyuq. Məhz şərti müsavat və ədaləti gözləmək yolilə bizim bu sənə çəkdigimiz zəhamatın nəticəsində bir 5 nəfər hər bəlǝddə olan müsəlman qardaşlarımıza xəbər verüb, təvəqqe edüb çağıruruq bizim bu sənətdə mahir olub səriştəlü olmağımıza görə hər kəs xahiş etsə, az tənxahla yainki çox tənxah ilə təşrif gətürsünlər. Kompaniya olub bu sənə hasilə gələn baramanı müştərək alaq və həmişəlik ittifaqımız olsun. Hər bir böyük işlərdə kompanya olub milləti irəlü aparaq və gələcəkdən ötrü ipək barəsində böyük binalar qoyaq cəmi böyük partiya işlər biz müsəlman camaatının əlindədir. Hərgah biz müttəfiq olsaq, ümid var ki, hər bir işi öz qaydası ilə aparaq sairlərə də möhtaclığımız olmasun və təşrif götürən camaat gərək iyun ayının 5-ci gününədək təşrif gətürsünlər.

*Məşədi Süleyman Əsgərov, Rüstəm Cavadov, Əbutalıb Əsgərov*
*Məşədi İsgəndər Tağıyev.*

**Xojavənddən**

Biz Xojavənd sakinləri Şuşa uyezdinə olan qəryələrin hamusından əfsürdə və müstəhəqq ianə olmuşuq.

Çünki 2 il bundan əqdəm və bu il çəgürgə və dolu bizlərin ziraətlərimizi bilmərrə tərk edibdür. Və bu barədə Şuşa uyezdində çəgürgə yeyən və dolu dögən camaatlar hamusı və bizlər hökumətə ərizə pişnəhad etmişüg. Şimdi onlara hökumətdən böngüzarlıq olub ianə pulu verilibdür. Amma bizlər hələ gözləyürik, bir xəbər yoxdur və məlum ola ki, bizlərin yerlərimiz çox azdır və mədaxilsizdir, çünki Xunaşində bir cüci yerimiz var idi, ondan bir az nəftərdar olurduq onu da hökümət bizdən cəbrən 8 il bundan əqdəm alub malakanlara veribdir və naloqunu da şimdi bizdən alurlar. hökumət tərəfdən keçən illər heyvanumızı və əşyamızı satub vermişük taxıla dolanmışuq. Böylə xəvatir cəm olmuşuq ki, taxılımız olacaq.

Bu il də taxılımızın hamısını çəgürgə yeyibdir. Ona görə hərgah təzəlik ilə bizlərə ya hökumət tərəfindən, ya inki millət tərəfindən bənagüzarlıq olmasa bizim uşaqlarımız acından bitaqət olasıdırlar.

*Xocavənd camaatı*

***"Molla Nəsrəddin"***

***№ 18*** *Səh. 3.*

Xankəndi – Bir nəfər məşədinin 23 ildir ki, övladı olmurdu. Sora 12 yaşında bir qız aldı. Bu dəfə biçarə kişi Allah ilə öz arasında əhd elədi ki, Allah buna bir övlad kəramət eləsin, bu da əvəzində içməyi və qumarı tövbə eləsin.

***№24*** *Səh. 6*

**Xəbərdarlıq**

Şuşa qalasında bu yaxınlarda qumarbazlıq şiddət etdiyindən Qafqazın hər tərəfindən məşhur qumarbazlar Şuşaya azim olmaqdadırlar. Dünən Tiflis vağzalında bir dəstə qumarbaz yola salınırdı, cəlalı Müaviyə cəlalından artıq idi. Qərəz, indi yazıb xəbər veririk ki, hər yerdə opıtnı (təcrübəli) qumar oynayan varsa, durmuyub özünü yetirsin Şuşaya. Belə rəvayət eləyirlər ki, qumarbazlar oradan qayıtdıqda Məkkəyə gedəcəklər.

***№33*** *Səh. 3.*

**Eşq**

Eşq yaman şeydir, başına gəlməyən bilməz.

Bu il Şişə şəhərinə bir müsəlman artisti gəlmişdi, özü də tragik idi, amma yaman tragik idi, səhnədə ağlıyanda az qalırdı daşürəkli Qarabağ bəylərini də ağlatsın. Ax, qoyma özümdən getdim!.

Teatr tamam oldu, bəli, başlandı haqq-hesab. Yəni gərək artistə kömək edən cavanlara nə veriləcək. Bəli, filana bu qədər gərək çatsın, filana da bu qədər. Bunlar hamısı asan işdir, amma pullar dilə gəlib cavab verdilər ki, biz tragik artistdən ayrıla bilmərik. A kişi, belə şey ola bilməz, axır, məsələn, kişi zəhmət çəkib suflyorluq eləyib, gərək ona da bir şey çata.Xeyr, ola bilməz.

***

Ən axırıncı günü cənab "tragik artist" cavanlara söz verir ki, səhər saat onda yığışın mən sizin haqqınızı verim.

Bəli, sabahısı günü tezdən cənab artist hər kəsin öz haqqını aralayıb, qoyur kənara və özü yola düşüb gedir Bakıya. Amma Xan bağında dala çönüb baxıb görür ki, yoldaşlara ayırıb qoyduğu pullar zınqıldaya-zınqıldaya gəlirlər. “Ədə, ay qırışmallar, niyə gəldiniz, siz gərək yoldaşlara çataydınız”. “Yox, yox, aman günüdür, ay tragik, biz sənə aşiqik, biz səndən ayrıla bilmərik”.

Xülasə, eşq yaman şeydir.

*№* ***40*** *Səh. 3.*

**Səs**

Qarabağ mahalında bir kənd var, adı Hindarxıdır. Hərçənd bura böyük kənddir, amma dünyada heç kəsə məlum deyil ki, yer üzündə “Hindarxı” adlı bir kənd var. Onu istəyirəm deyəm ki, buradan bir yana yol yoxdur. Məsələn, birisi istəyə Hindarxına gələ, gərək üzünü tuta Hindarxı tərəfinə, atını sürə, əkin gəldi sürə, arx gəldi sürə, palçıq oldu, sürə, ta ki, pənah Allaha. Əgər gəlib çıxdı-çıxdı, əgər yarı yolda qaldı, o da Allah işidir.

Bunu deməк istəyirəm ki, necə ki, müsəlman qardaşları olan yerlərin hamısında, habelə də burada yol yoxdur. Yağışlıqda yol olur palçıq, yainki əkin suları axıb tökülür yola, nə at ilə tərəddüd olur və nə fayton və nə araba ilə, necə ki, hər yerdə ki, müsəlman qardaş olur.

***

Bildir belə səs düşdü ki, canişin həzrətləri gəlir Hindarxına. Allah, sənə şükür, min şükür olsun dərgahına. Qardaş, bir ayın içində Hindarxına bir şüşə yolu saldılar ki, gözü yumulu getmək olar: altı sajin eni, hər tərəfi arx, yaxşıca körpülər. Xülasə, əvvəl dəfə görən kimi elə bilirdin ki, erməni vilayətidir.

Müxtəsər, Allah canişin həzrətlərinə uzun ömür versin. Və onun gəlmək xəbərini gətirənlərə də Allah ömür versin. Və bu səsi salana da Allah ömür versin ki, bu sədanın bərəkətindən axırda bizə də bir yaxşı yol qaldı.

Hərçənd ki, canişin həzrətləri Peterburqa gedəndə və onun dəxi geri qayıtmamağını buranın pisası eşidəndə yolları qayırmağa dəxi peşiman olur (çünki cünişin həzrətləri nə tövr oldusa, heç Hindarxına gəlmədi), amma genə hərdənbir səs düşür ki, canişin həzrətləri gələcək Hindarxına.

O saat yolların körpüləri qayrılır.

***

Xudaya, şükür, şükür cəlalına, şükür!

*№47 Səh. 7*

**Seyidli dəstəsi**

Ağdamdan "Russki slovo"ya teleqraf ilə xəbər verirlər ki, bu il pambıq bazarı kasaddır və ağköynək dəstələrinin içində Seyidli dəstəsi qeyri dəstələri basdı.

*№17 Səh. 6*

**Şuşa qalasından:** Bu gecə bir böyük ehsan məclisində ki, bütün şəhərin əyan-əşrafi və üləması cəm idi, rəqayib barəsində bəhs düşdü, çox tulani danışıqdan sonra lap böyük molladan bu barədə sual etdilər ki, rəqayib kimdən və nə vaxtdan qalıbdır?

Cənab axund saqqalına seyqəl verib bir-iki dəqiqə sükutdan sonra fərmayiş etdi ki: zamaniki bizim peyğəmbərimiz düşdü anası Aminə xatunun bətni-şərəfinə xudavəndi-təbarəki-təaladən hökm yetişdi ki, ey Cəbrəail durma get yer üzündə olan cəmi məxluqata əmr elə ki, halva çalsınlar, aşlar, sarı şilələr və hər cür şirnilər pişirib paylasınlar qarnıtox və boynuyoğun bəndələrə, bədürüsti ki, biz onlardan ötrü peyğəmbər göndərəcəyik ki, onları behiştə aparsın.

*№19 Səh. 3.*

**Elan**

Ümumə kəmali-ehtiram ilə elan edirik ki, həzrət Nuhun öz mübarək əlilə qayrılmış neçə dənə lətif kalyaskamız və dilicanımız Yevlax ilə Şuşa qalası arasında işləyir. Müsafir ağaları avtomobildən və aeroplanlardan tez aparırırq. Əgər atlarımız yolda yorulsalar, müsafirləri dalımıza alıb mənzilə yetirməyi öhdəmizə götürür.

*№21 Səh. 6*

**Teleqraf xəbərləri**

Şuşa-Rövzəpəz (qaragöz) Hacı Əbdüləli Şirvani həqiqətdə bu axır vaxtlarda məscidimizdə səhih və gözəl rəvayətlər oxuyub zikri-müsibət ilə camaatı nəhayət dərəcədə feyziyab edir. Qarabağ əhalinin onun haqqında ixlasi-iradətləri kamildir və hamısı o güsaleyi-süxənguyə səddəqna və amənna deyirlər.

Hərçənd bu vücudi-mübarəki cavanlığında şəhərimizin cahılları bir dəfə oğurlayıb bir ay məhzi bir də gizlədiblərsə də, lakin onun barəsində məhəbbət və mühribançılıqdan başqa heç bir təcavüz olunmayıbdır.

### *"Molla Nəsrəddin", 9 iyun 1906, № 10, səh. 6-7 (kiril)*

**Qarabağdan məktub**

Həqiranə təvəqqə eləyirəm Axund Molla Nəsrəddindən mənim bu neçə kəlmələrimə mültəfit olub mərhəmət yolu ilə mülahizə eləsin. Mətləbim budur ki, təzə çıxan qəzetlərdə bu övqat yazıçılar eyzən hüriyyət, elmi-tərəqqi və sənət lafını vururlar. Həqiqət nə qədər fikir eləyirəm mənim rəyim əsla bu cür sözlərə müvafiq gəlmir və qulağım taqqıldayır. Yaxşı! Deyən gərək, a başına kül, bəs sizdən qabaq bu elmi nə üçün belə axtaran yoxdu? Axır, qardaş, ağlını başına cəm elə, ata-baba yolu ilə get. Belə dərin fikrə düşmək adamı xəbti-dimağ elər. Sizdən (yazıçılardan) xəbər alıram, elmin sizə nə nəfi var? Hürriyyət nə mənədir? Kim indiyədək Qarabağda onun bəhrəsini görüb və görəcək? Xülasə bu tövr başaracaqları ilə təzə bina adamlar, yəni bəistilahi-rus abrazovannılar bizim evimizi yıxmaq istəyirlər. Məsələn, dilim-ağzım qurusun, tas qurana şəkk gətirirlər!!! Ax, ax, ürəyim az qalır dağılsın. Mən özüm görmüşəm ərdəbilli Mirzə Vəliməhəmməd keçən il Molla Rzanın oğlu Şahverdiyə tas qurduğunu. O kişi beş nəfər cin tutub gözümün qabağında saldı qarğı düdüyünə. İmansız ölüm yalan desəm, hətta o cinlərdən tasa girəndə cürta cürt səslərini qulağımla eşitmişəm. Qərəz, tul eləmək istəmirəm. Ancaq cürəti-tamam ilə deyirəm ki, Mirzə Vəliməhəmməd Qarabağa təşrif gətirəndən bəri camaat cin üzünə həsrət qalıb. Allah onun atasına rəhmət eləsin və onu üstümüzdən əskik eləməsin.

Ta nə deyim, nə söyləyim? "İnandırıram sizi, dilim var gəlmir, əstəğfürullah! Bu yazıçılar bu az vaxtda həmzad duasına şəkk gətiriblər. Ocığazı bilmirlər ki, bizim şəhərin yavıq kəndində bir bəla keşiş var, bunun duasının və cadusunun dövlətindən həmzadlı övrətlər şəfa tapırlar. Dəxi uşaqlarının başlarından bir tük də əskik olmur. Bunlardan əfzəl uşağı olmayan övrətlərin asanca müalicəsinə nə deyirsən, ağrın alım? Molla Kəlbəli neçə sətir qarnına dua yazmaqla hər işi düzəldir. Ta buna görək nə söz ola bilər? Hanı sizin Renan, hanı Tolstoy və qeyri hükəmaləriniz, buyursunlar meydana bunların müqabilinə!

Xətmi-kəlam budur ki, bizə qəzetlərin nəsihəti artıqdır. Öz ağlımız kifayətdir. O ki, qaldı elm söhbətinə, burada danışıq çoxdur. Mən ki, dərin elmin düşməniyəm. Atalar məsəlidir ki, özünü dərinə salma, bir az avamlığın həm bədənə, həm peysərə nəfi var. Mənim ki, əqidəm belədir. Elə lazımdır oxuyasan ki, ancaq qara-quradan və siyahıdan başın çıxa. Amma çox oxusan kəsbdən qalarsan. Ona görə, qardaşım, elmdən uzaq, uzaq və genə uzaq!

Sizə bir-iki timsal ərz eləyim sübutdan ötrü bizim qonşu Mərdanəli bəy oğluna rus müəllimi tutmuşdu dərs verməkdən ötrü. Nəhayət neçə vaxtdan sonra eşitdim müəllim təşrif aparıb. Mərdanəli bəydən sual elədim ki, səbəb nə oldu oun getməyinə? O mənə çox ağıllı cavab verdi sırf başdan ayağa hikmət! Vay qurban olum kamalına, a belə qeyrətli kişi! Onun fərmayişi belə oldu ki, artıq elm uşağı koşadar, bizimkilərə elə az-maz qara-qura bilmək lazımdır, allaha şükür, bir parça çörəyimiz var, keyfimiz kök. Elmə nə ehtiyacımız?

Şuşa – General-qubernator Qoloşçapov o qədər qanunla iş görən və ədalətlidir ki beş addım o yanında ölən müsəlmanların köməyinə getmir ki, qanun və ədalətdən bir tük qədərində dişqarı çıxmış olmasın.

Şuşa – General Qolaşçapovun zabitəsi sayəsində hər iki tərəf rahətlə yaşamaqdadır. Onun haqqında şöhrət tapan fitnə və fəsadlar məhz iftira imiş.

Şuşa – General Qoloşçapov əzl olunub geri çağırıldı.

**Qoloşapovun geri çağırılması**

Şuşadan çəkilən teleqrammadan oxucularımız görəcəklər ki, general Qoloşapov Şuşadan geri çağırılıb.

Qoloşçapovun əzl olunmağının əhvalatını nağıl eləmək istəyirəm. Kişinin çörəyinə bais müfti və şeyxül-islam cənabları bir tərəfdən, bir tərəfdən də Dağıstan müsəlmanlarının nümayəndələri oldular.

Müfti və şeyxül-islam cənabları faytona minib sərdar yanına Qoloşapovdan şikayət etməyə gedəndə mən də orada idim. Nə qədər dedim getməyin, gəlin bu daşı ətəyinizdən tökün, mənə qulaq verən olmadı.

Axırı müfti əfəndi mənə cavab verdi: niyə getməyək, ay Molla, bizim müsəlman qardaşları Şuşada qırsınlar, biz duraq baxaq? Sənin qeyrətinə nə gəlib? Mən gördüm ki müfti əfəndi doğru fərmayiş edir, dedim, eybi yoxdu, gedirsiniz gedin, amma barı biriniz gedin, ikiniz də birdən getməyin. Dedilər – niyə? Dedim – ondan ötrü ki cənab canişin sizi görüb qorxar. Şeyxül-islam əfəndi buyurdu ki qorxar, yazaram Bakıdan flan molla və Danabaş kəndindən də flan molla dua yazıb göndərərlər. (Mollaların adını şeyx cənabları söylədi, amma mənim yadımdan çıxdı).

Bəli, faytonu sürdülər. Mən faytonun dalıyca sərdar imarətinin yanına kimi qaçdım ki, işdi, canişin qorxsa, mən bir çarə edim, çünki mən özüm də mollayam, hər bir dərdə əlac edə bilərəm.

Canişin cənabları akoşkadan faytonu görcək qapıçılara buyurdu ki, qapıları açsınlar.

Xülasə, canişin həzrətləri əli titrəyə-titrəyə qələmi götürüb Qoloşapova hökm elədi ki durmayıb gəlsin, hətta teleqramı verdi müfti əfəndi özü də oxudu. Məlumdur ki müfti əfəndi rusca kamil oxuyub danışa bilir, hətta çox vaxt qazi və mollalar ilə rusca danışar.

Qərəz, haman saat teleqraf göndərildi. Müfti və şeyx cənabları qəhvə içməyə məşğul oldular və aradan səkkiz dəqiqə keçmişdi ki, Şuşadan Qoloşapovdan belə cavab gəldi: ay sərdar, başına dolanım, axır mənə mühəvvəl olunan hökmlərin dörddən birini əmələ gətirməmişəm, belə iş olar ki, məni inkidi vaxtda çağırırsan?

-Canişin cənabları genə qələmi götürüb yazdı: çox danışmaq istəməz, ağa buyurur sür dərəyə – sür dərəyə.

Genə səkkiz dəqiqə keçməmişdi – Ağdamdan cavab gəldi: Sizin hökmünüzə binaən mən Şuşadan çıxıb indi Ağdamdayam və gözləyirəm ki, atları qoşsunlar minib Yevlaxa tərəf yola düşdüm. Müfti və şeyxülislam həzrətləri canişinə "ispasibo" deyib istədilər yola düşələr. Mən bu heyndə sərdarın imarətinin akoşkasına dırmaşıb bu işlərə tamaşa edirdim, cənab şeyx məni görüb dedi: ay molla, sən allah, düş aşağa, sərdar səni görər, biz xəcalət çəkərik. Dedim, cənab şeyx, bir yavığa zəhmət çək, qulluğunuza bir neçə söz ərz edim. Dedi – nə demək istəyirsən? Mən yavaşca başladım:

Etdi bu fələk hər kəsə bir tövr yamanlıq
Səd heyf keçən gün,
Şükr eylədik allaha yetişdikcə ziyanlıq
Olduq genə məmnun.
Hər bir iş üçün xatiməbəxş oldu bu afaq
Əfsürdə biz olduq,
Çaldı bizə bir özgə sayaq ilə fırıldaq
Qəmli günə qaldıq.
Nə rəhm bilər, şərm qanar, ağlamaq anlar,
Boylə fələk olmaz,
Yox boylə ikidilli, yaman üzlü cəfakar
Bir zərrə utanmaz.
Verdi bu hamı qonşulara sənətü dövlət
Dünya, sənə lənət,
Səsləndi gedin siz yatın həmmamdə rahət
Bicadı bu zəhmət.
İslam uşağı yatsın ayağında fələqqə
Bu noçdü təlim,
Vursun bunların başına həm Mirzə Tərəqqə

Eylün onu təkrim.
Eyvay, bu fələk qoydu bizi loğməyə həsrət
Qaldıq biz adamsız,
Verməz dəxi bir parça çörək tapmağa fürsət
Get yatgilə şamsız.
Öz bildiyini qıldı müsəlmanlara dövran
Əl işdən üzüldü,
Çaqçaq başın ağratdı, kefin çəkdi dəyirman,
İş həcvə düzüldü.
Bu çərxi-sitəmkarın aman məsxərəsindən
Bais, balan ölsün,
Baxmış bu müsəlmanlara qəm pəncərəsindən
Çərxin üzü dönsün.
Əvvəl bu fələk cümlədən əymişdi dimağı
Qəm kasəsi daşdı,
Axırda bizim başımıza vurdu çanağı
Su başdan aşdı.
Bir rus görəndə oluruq xar yanında
Quzu-keçiyik biz,
Keçməz sözümüz bir pula sərdar yanında
Çünki nəçiyik biz?
Tarı buna şahid
Quzu-keçiyik biz.

**Vətən məhəbbəti**

Vətəndən bəzi səbəblərə uzaq düşən qarabağlılar bəlaya giriftar olan vətəndaşlarının əhvalını hər bir vasitə ilə yoluxub izhari-məhəbbət və təəssüf etməkdədirlər.

Peterburq darülfünunun tələbələrindən bir Qarabağ ermənisi "Novoye vremya" qəzetində üzünü Şuşa şəhərlilərinə tutub deyir: "Ax, mənim qardaşlarım, yox olaydı o gün, o saat ki mən vətəndən uzaqlaşdım, niyə mən bilmədim ki, siz bir belə dərdə düçar olacaqsınız? Niyə mən orada olmayaydım ki sevgili qardaşlarıma əlimdən gələn qədər köməklik göstərib məzlumlara təsliyyət verəydim! Ax! Bu sözləri yaza-yaza uşaq kimi ağlayıram, dəxi səbr edə bilməyib əvvəlinci dəmir yol qatarı ilə gəlirəm vətənə!".

Qarabağ əhalisindən vətən qardaşlarının halına yananların ikincisi Şuşa qalası şahzadələrindən prins Seyfulla Qacar cənablarıdır. Müşari-

leyh "Tiflisski listok" qəzetinin 160-cı nömrəsinə bu məzmunda bir məktub göndərib:

"Cənab mühərrir, təvəqqə edirəm sizin sevgili qəzetinizdə mənim bu məktubuma yer verəsiniz: Sizin qəzetinizin 156-cı nömrəsində Şuşa əhvalatı xüsusunda belə yazılıb ki, guya Şuşada yanan evlərin biri də şahzadələrin evidir ki müsəlmanlar haman evi dava mövqeyi etmişdilər. Mən qorxdum ki bu xəbəri hərə bir cür başa düşə və bu səbəbdən məlum edirəm ki, şahzadələrin atası mərhum Bəhmən Mirzə 1884-cü ildə vəfat edəndən sonra onun oğlanları başladılar yavaş-yavaş Qarabağdan hərə bir yana köçməyə. Çünki Şuşa şəhərində elə bir ləzzət yoxdur ki, insan orada qalsın, vaqeən Şuşa qalası ürək sıxan şəhərlərin ürək sıxanıdır, haman vaxtdan indiyə kimi şahzadələr vətəndən bilmərrə köçüb Rusiya dövlətinin hərbi qulluğunda xidmət etməkdədirlər. Əvvəl-axır şahzadələrdən Şuşada bir ailə qalmışdı ki, o da şəhərdə əvvəl dəfə erməni-müsəlman davası düşən kimi köçüb Vladiqafqazda yaşayır. Sonra şahzadələrin evləri şəhərdə boş qalmışdı, onu da ki, yandırdılar və yandırandan sonra özləri üçün mövqe etdilər. Dəxi biz neyləyək?"

**Axısxa**

Hörmətli baba!

Necə ki cənabınıza məlumdur, Şuşa yaralılarına hər tərəfdən ianə verilməkdədir. Ona görə bizim Azğur kəndinin bəyləri və kəndliləri dəxi qeyrətə gəlib bu qədər ianə topladılar: 15 girvənkə doşab, beş girvənkə bal, 10 girvənkə qızılcaq, 16 girvənkə tut qurusu, 3 girvənkə armud qurusu, altı girvənkə alı qurusu, 5 qəpik qara pul. Və gözləyirlər Qarabağa gedən olsa, versinlər aparsın.

**Şuşa və Ordubad yaralılarına ianə**

Şuşa və Ordubad yaralılarına ianə üçün idarəmizə Lənkərandan camaat tərəfindən yüz dənə su küpəsi göndərilib.

Küpələri satandan sonra pulunu lazımi yerinə.

Mərv müsəlmanları bizdən təvəqqə edirlər cəmi qəzet və məcmuə idarələrinə məlum edək ki hər bir idarə Mərv müsəlmanlarına müftə qəzet göndərmək xahiş etsə, mərvlilər kamali-məmnuniyyətlə qəbul edirlər, bu şərt ilə ki, göndərilən nüsxələr təxirə düşməsinlər və tez gedib çatsınlar.

**Qafqaz xəbərləri**

Şuşa – Bir neçə nəfər firəng bu məşqə düşüblər ki, Yevlaxdan Şuşaya avtomobel arabası işlətsinlər, amma faytonçular və dilicançılar, yəni

əsl millət mücahidləri istəyirlər bu firəngləri öldürsünlər ki müsəlmanın pulu firəngin cibinə girməsin.

**Həyat**

"Lacərəm mərdi-aqilü kamil
Nə nəhəd bər həyati-dünya dil".

Sədinin heç bir sözü mənasız deyil.

Beş yüz il bundan irəli Sədi dünyaya baxıb görübdür ki ümid yoxdur, yəni görübdür ki, müsəlmanların diriliyinə ümid yöxdur. Aşkardı ki, Sədi bu sözləri ancaq müsəlmanların barəsində danışıb, çünki bəlkə Sədi heç bilmirdi ki, dünyada müsəlman dünyasından savayı özgə bir dünya da var: Sədi məhz müsəlmanları görürdü, yəni müsəlmanlardan savayı özgə millətləri heç görə də bilməzdi.

"Lacərəm mərdi-aqilü kamil,
Nə nəhəd bər həyati-dünya dil".

Beş yüz il bundan irəli Sədi müsəlmanların qırmızı saqqallarına baxan kimi yəqin eləyib ki, beş yüz yetmiş ildən sonra Peterburqda əcnəbi millətlərin kişiləri və övrətləri darülfünunlara düzülüb elm və sənət öyrənəcəklər, amma İrandan gəlmə həmşərilər aclıqdan doluşacaqlar Peterburqa, kişilər oturacaqlar evdə və qızları və övrətləri göndərəcəklər ki, gedib rus evlərindən pul və çörək dilənsinlər və İran konsulxanasının ikinci sekretarı Əbülhəsən xan hələ bu fəqirlərdən rüşvət alacaq ki rus hököməti həmin dilənçiləri yatab ilə xaraba vətənlərinə göndərməsin.

Əlbət Sədi bunu bilirmiş.

Və yəqin Sədi bilirmiş ki belə millətin axırı yoxdur.

"Lacərəm mərdi-aqilü kamil,
Nə nəhəd bər həyati-dünya dil".

Sədi yəqin bunu da bilirmiş ki, Moskvada Rzayevlər həmşərilərdən başına cəm edib əlahiddə dilənçi dəstəsi saxlayacaqlar.

Beş yüz il bundan irəli Sədi bilirmiş ki bir vaxt olacaq ki, Şuşa qalasında hökümət izn verəcək ki, mövqüfat pulları ilə müsəlmanlar bir mərizxana saxlasınlar, amma mollalarımız və mütəvəllilərimiz mərizxana pullarını təmamən ciblərinə doldurub hər il yalandan hökümətə hesab verəcəklər ki, "maşallah mərizxanamızda bu qədər kravat var, bu qədər naxoş var, bu qədər həkimə məvacib veririk". İndi şuşalı qardaşlar buyursunlar görək vardımı Şuşada məscid mərizxanası və heç bir vaxt mərizxana olubdurmu? Amma hər kəs istəsə, mən qubernator divanxanasından mollalar hər il pişnəhad etdikləri mərizxana "atçotu"nun sürətini alıb göstərə bilərəm.

Sədi beş yüz il bundan qabaq bilibdir ki, belə millətin həyatına ümid yoxdur.

“Lacərəm mərdi-aqilü kamil,
Nə nəhəd bər həyati-dünya dil”.

Sədi bunu da bilirmiş ki Bakıda müsəlman cavanları əllərində revol və xəncəl bir gün töküləcəklər Ağa Mikayıl hamamına və çılpaq müsəlman övrətlərinin üstə hücum çəkib onların paltarlarını qarət edəcəklər. Sədi bilirmiş ki beş yüz ildən sonra Tehranın küçələrində iki kişi yapışacaq bir övrətin əllərindən, biri çəkəcək bir tərəfə, biri çəkəcək bir tərəfə, bu deyəcək “İn zən mali-mənəsət”, yəni bu mənim övrətimdir, o biri deyəcək “mali-mənəsət” və axırda məlum olacaq ki, Axund Şeyx Kərim bu övrətin kəbinini bu kişiyə də kəsib, sonra o biri kişiyə də kəsib.

“Lacərəm mərdi-aqilü kamil,
Nə nəhəd bər həyati-dünya dil”.

Sədi bunu da bilirmiş ki beş yüz il sonra cənab “Mozalan” da dünyanın işlərinə baxıb öz-özünə oxuyacaq:

“Akoşkadan daş gəlir
Ay bəri bax, bəri bax
Xumar gözdən yaş gəlir
Sona bəri bax, bəri bax.

**Elan**

Şuşa məscidlərinin mövqüfatının icarə pulundan məndə bir neçə min manat qalıb və bu pulları mən gərək çoxdan qaytara idim məscidə.

Bu pulların indiyədək məndə qalmağına səbəb var və səbəb budur ki, mən neçə ilin ərzində bir əmin adam tapa bilmirəm ki, məscidin pullarını ona təhvil verəm.

Bu barədə yazıb Şuşa camaatına elan edirəm ki, məni bağışlasınlar.

**Binayi-Xeyir**

Şuşada neçə il bundan irəli xarab olmuş fahişəxana dövlət tərəfindən müsəlman məhəlləsində təzədən təmir olunmağa başladı. Bu binayi-xeyirə iştirak edənlərə səmimi-qəlbdən dua göndəririk ki, müsəlman qardaşları belə səadətdən məhrum qoymadılar və ümidvarıq ki, şəhərimizin abadlıq və tərəqqisinə bais olan belə-belə xeyir işlər bundan sora dəxi də üz verə.

Yaşasın müsəlman qardaşlar!

Bir dənə islampərəst

**Şuşadan**

Cəhənnəmdən Şeyx Fəzlullah və Mir Haşım tərəflərindən Şuşada şeytana təqlid edən müsəlmanlara bir teleqraf gəlibdir. Onun hasili budur ki: "Ey bizim həmməslək qardaşlarımız, biləsiniz ki, cəhənnəmə on verst qalmış idi ki, Şümr ibn Zilcövşənin təhti-komandasında olaraq yüz mindən ziyadə camaat bizi istiqbal etdilər və çox ehtiram və təntənə ilə bizi cəhənnəmə daxil eliyib orada Yezidin hüzuruna təqdim olunduq. Neçə gün olar ki, Hərmlə, Xoli, Sinan və. kimi həməqidə olduğumuz qardaşlarımız bizə mehmannəvazlıq edirlər və bu gecədə "Veyl" quyusunda Şücai-nizamə qonaq olacayıq. Və bir də cəhənnəm məhafili-siyasiyyəsində bərk danışıq var ki, bu günlərdə genə bir neçə zat buraya təşrif gətirəcəklər. Ona görə pişvaza hazırlaşırlar.

**Tərəkəmə**

Bir yandan o biri yana köçmək, bu il burada, gələn il bir ayrı yerdə yaşamaq, yay fəsli yaylaqda, qış fəsli qışlaqda güzəran etmək qədim əyyamdan başlanıb.

O vaxtlar sənət və ticarət yox imiş və insanlar heyvanların südü və əti ilə zindəganlıq edirmişlər. Heyvanları da bir gün bu çəməndə, o biri günü o çəməndə otara-otara özləri heyvanların dalınca hərəkət edərmişlər.

Bu sayaq yaşayan adamlar yer üzündə indi genə az-maz tapılır. Qeyri yerlərdə bunlara "qaraçı" deyirlər, bizim içimizdə bunların adı "tərəkəmə"dir.

Rusiyada qaraçıların vətəni Bessarabiya səhrasıdır, Qafqazda da tərəkəmələrin mədəni Qarabağdır.

Hər bir yerdə, hansı bir dağın təpəsində bir alaçıq görsən və dağın ətəyində bir sürü qoyun, keçi görsən – bil ki, qarabağlıdır.

Qafqazda hansı bir yol ilə gecə vaxtı keçəndə yolun kənarında bir çoxlu çadır görəcəksən. Faytonçu faytonu saxlayır ki, atlar dinclərini alsınlar – birdən çadırın içindən bir belə oxumaq səsi gəlir:

Nənəm o narış qoyun,
Boynu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver, barış qoyun.

Bəli, bunların hamısı Qarabağ tərəkəmələridir.

Üləmalar təbiətdə çox hikmətlər tapıblar. Firəngistanın məşhur həkimləri sübuta yetiriblər ki, bir şəxsin sifətləri və xasiyyətləri onun

övladına yetişməsə, nəvələrinə, nəvələrinə yetişməsə, nəticə və kötücələrinə yetişəcək.

Təbiətin həmin qanununun nəticəsidir ki, indi Qafqazda heç bir yerin adamları qarabağlılar kimi köçəriliyə mail deyillər. Qarabağlı öz vilayətində otura bilməz; dünya və aləm qarabağlı ilə doludur.

Çünki qanlarında köçərilik xasiyyəti var. Naxçıvanda iki mötəbər tacir olsa, biri qarabağlıdır. Dünyada iki mollanın biri qarabağlıdır. Dünyada nə qədər tar çalan və oxuyan var – qarabağlıdır. Heç bir iş, heç bir sənət yoxdur ki, ora qarabağlı özünü soxmamış olsun. Bu kimdir? – Müəllim. Haralıdır? – Qarabağlı. Bu kimdi? Şeyxülislam. Haralıdır? – Qarabağlı. Nə bilim, bu şahzadə – qarabağlı, xan – qarabağlı. Tiflisdə qarabağlı dəstəsi, Aşqabadda qarabağlı məscidi. Xülasə, qarabağlı, qarabağlı.

***

İndi gələk Badkubə şəhərinə.

Cəmi müəllimlər – qarabağlı, cəmi injinerlər – qarabağlı. Hələ bu ötüşər. Tamam qəzetəçilər – qarabağlı. Doğrusu, insanda bir həya da yaxşı zaddır. Ruslar içində bir məsəl var, deyərlər ki, “çağırılmamış qonaq Molla Hacı Babadan pisdir”. Bari-pərvərdigara, bu sırtıq qarabağlılar bu yazıq bakılılardan nə istiyir? Harada görsənib ki, bir şəhərdən bir adam çıxıb gedə bir özgə şəhərdə qəzetə çıxarda? Nə Avropada belə adət var, nə Rusiyada.

Heç bir millət heç bir işdə bizə oxşamır. Hər işimiz tərsəsinədir. Qarabağlısan, yazıçılıq eləmək istiyirsən, cəhənnəm ol, get otur öz Qarabağında, nə qədər istiyirsən yaz, dəxi sənin Bakıda nə işin var? Məgər bizim öz Bakımızda öz yazıçımız yoxdur? Axır insanda bir həya da yaxşı zaddır. Biz vallah, billah, sizə çox hörmət qoyuruq, “xətir” saxlıyır, yoxsa indiyə kimi hamınızı qırıb qurtarmışdıq. Bu harada görsənib ki, insan qarabağlı ola-ola gedə otura bir özgə şəhərdə, qəzetə çıxarda?

Əgər bir moskvalı istəyə gedib Peterburqda alış-veriş eliyə, – peterburqlular onu baykot eliyib içlərinə qoymazlar. Hər bir natəraş iş var, hamısı bir müsəlmanlardan baş verir. İşlərimiz hamısı köndələn düşübdür. Üzümüzdə bircə tikə su qalmayıb. Dünyada hər nə qədər millət var, hamısı bizə nifrət göstərir, ondan ötrü ki, qarabağlılar gəlib doluşublar Bakıya. Qonşularımız bizə lənət oxuyur, ondan ötrü ki, Bakının ala qoyun gözləri baxa-baxa qarabağlılar gəlib burada ad çıxardırlar. Havada uçan quşlar bizim üstümüzə gülürlər, o səbəbə ki, əcnəbilərin gözünün qabağında Bakıda qarabağlı-bakılı davası düşür. Bu da bizim “ittifaq” və

"ittihad"ımız ("İttifaq" və "İttihad" məktəblərini demirəm ha), bu da bizim ittihadımız, bu da bizim qeyrət və hümmətimiz. Doğrudan, insanda bir həya da yaxşı zaddır.

Bu sözləri yazmaqdan qəsdimiz müsəlman qardaşlara bir belə vəsiyyət etməkdir.

Amandır, qardaşlar, huşyar olun.

Əvvəla, içinizə özgə şəhərdən gəlmə bir yad adamı qoymuyun, qoymuyun. Və saniyən, bu qarabağlılardan özünüzü gözlüyün, amandır, gözlüyün, gözlüyün, gözlüyün.

Və hər yerdə bir qarabağlı gördünüz – səy edin, çalışın, ərizə verməlidir – verin, şpiyonluq eləməlidir – eliyin; şəklini çəkməlidir – çəkin. Xülasə, hər bir vasitə ilə olsa çalışın öz içinizdən rədd eliyin.

Amandır, qardaşlar, qeyrət, qeyrət (əgər varsa).

Amandır, qardaşlar, hümmət, hümmət (xudanəkərdə).

***

**Ax, bu qarabağlılar!**

**Elan**

Ümumi Şuşa şəhərinin on bir sinnindən tutmuş 15 və 16 sinninə qədər cavanlarına xəbər veririk ki, iki ildən bəri açdığımız qumar uşkolunda altı günün müddətində hər cür qumar təlim veririk. Çox gözəl cavan olsa, 2 günə kimi qumarın hər üzünü öyrədərik.

Əgər uşaq sahibi öz razılığı ilə uşağını bura qoymaq istəməsə – elə zinanın cövhəri şagirdlərimiz var ki, üç dəqiqə çəkməz tora salarlar.

**Elan**

Şuşa şəhərinin sabiqdə sahibi-qeyrət olub, sora tiryakın və əsrarın dövlətindən biqeyrət olan cavanlarına məlum edirəm ki, sifariş elədiyim yaxşı əsrar gəlib, misqalı 2 abbası. Hər misqalın iyirmidən bir hissəsini nə cür qeyrətli cavan çəksə, üç saat məst olar və sora o cavanda əsla qeyrət asarı qalmaz. Haydı cavanlar, haydı.

**Nəşri-maarif**

Az qalmışdı ki, Şuşada bir nəşri-maarif əmələ gəlsin, amma bircə səbəbdən genə baş tutmadı. Bu xeyir işdən ötrü qoyun dərilərindən iki min dörd yüz manat yığılmışdı, amma bütün şəhərdə bir nəfər adam tapılmadı ki, bu pulları ona etibar eləmək olsun.

Çünki göz gördüyündən qorxar.

**Qarabağlılardan razılıq**

Molla dayı, istəyirəm Gəncədə olan qarabağlılardan və ələlxüsus peyğəmbərin qız nəvəsi o balaca qarabağlıdan sizin jurnalınız vasitəsilə hamıdan əvəz olub (elə bu barədə hamı vəkillik veriblər) bir razılıq yazam.

Söz orasındadır ki, neçə il bundan qabaq bizim məhərrəm dəstgahımız çox rövnəqsiz idi. Məhərrəm olanda görürdün ki, gecələr bir neçə adam bir yerə yığılıb bir az şaxsey deyib, gedib bir az da məsciddə ağlayıb, dağılardılar. Aşura günü də olanda hər küçə on nəfər adamı bir yerə yığa bilməzdi ki, baş yarıb, ağköynək olsun. Amma indi. İndi bu başlarına döndüyüm qarabağlı qardaşlarımız işə qarışandan bəri məhərrəmlik büsatımız günü-gündən tərəqqi etməkdədir. Bircə gəlib Zərrabi küçəsinə çıxaydın, bircə görəydin qardaşlarımız nə büsatlar cəm etmiş idilər. Gecələr neçə yüz şaxsey deyənlərimiz, zəncir vuranlarımız, şəbih çıxardanlarımız, nə bilim nələrimiz var idi. Tasua günü bir günə şəbih bəzəyib küçələri gəzdilər ki, görənlərin ağızlarının suyu axırdı. Aşura gününün dəstgahı bir başqa idi. Bayaq ağköynək olmaq üçün on adam tapılmırdı, indi qarabağlı qardaşlarımızın bərəkətindən bircə Zərrabi küçəsində yüzə kimi başyaran var idi. Hələ zəncirvuran, ələmdar, kəcavə, Qasim otağı, bunların hamısı dursun kənarda. Bundan əlavə bir Haris şəbihi bəzəmişdilər ki, sifəti lap it sifəti kimi idi (çünki onlar öləndən sora it sifətinə düşürlər). Zülcinah barəsində heç bir deyəsi söz yoxdur. Keçən il Zülcinah çox möcüzələr göstərdi. O cümlədən, biri də bu oldu ki, doğmayan bir övrəti doğuzdurdu (hərçənd Seyid Fəqir ağa da iddia eləyir ki, onun doğmağı mənim duamın bərəkətindəndir, amma yalan deyir, bu möcüzəni bu Zülcinaha yazmaq olar). İndi gəl gör bu il nə büsatlar oldu. Zülcinahın altından beş yüzə kimi övrət keçdi. Balaca qarabağlı atın başını tutmuşdu, uşağı da quyruğunu. Və hər övrətdən bircə manat alırdılar. Müxtəsər, qarabağlı qardaşlarımızı Allah biz gəncəlilərə çox görməsin, hərgah bir neçə il də bu sayaq getsələr, onda tərəqqi edib, lap on səkkizinci göyə çıxarıq. Allah onlardan razı olsun.

**Protest**

Bir vaxt gəldi xan da, Molla Pənah da vəfat etdilər. Bunlardan sora dünyanın işləri də dəyişməyə başladı. Biz də zəmanəyə uyub işlərimizi dəyişdirməyə, xüsusən xan üçün tərtib etdiyimiz ağköynək büsatını çevirib həzrət imam Hüseyn adına eləməyə məcbur olduq. Və o zəmanədən bəri də boş durmayıb bu gözəl icad və adətimizin tərəqqisinə əlimizdən gəldiyi qədər çalışdıq. Bu çalışmamız saəysində bu gözəl icadımızı dün-

yanın hər tərəfində qəbul etdirdik. Bundan sora da bu icadımızın davamına can-başla çalışacağıq. Ancaq burası var ki, bizim qəsdimiz, hər fəndlə olsa, bu icadımızın hər tərəfdə qəbul olunması idi. Buna da ki, həmd olsun, mərsiyəxanalarımız sayəsində gözlədiyimizdən artıq nail olduq. Dəxi bundan sora müsəlmanların başını kəssən də, bu gözəl adəti tərk edə bilməzlər.

İndi insaf deyil bu qədər zəhmətimiz əvəz və mükafatsız keçsin, bir para bixəbərlər icadımızı danıb özgələrə nisbət versin.

Bu neçə illərdir sükut edib icadımızdan nəfbərdar olmağa təşəbbüs etməməyimiz məhz din və millətimizin tərəqqisi mənzuru ilə idi. İndi ki, həmd olsun, millət məşrutə alıb ərşi-əlayə qalxdı, dəxi icadımızdan Amerika icadçıları kimi imtiyaz alıb istifadə etməmək kari-aqil deyildir.

Buna görə biz qarabağlılar bu həftə məscidə yığışıb qərar qoyduq ki, içimizdən bir neçə başbiləni seçib Tehrana göndərək ki, İran millət məclisindən bizim üçün ağ köynəklə baş yarmaq və şəbih gətirmək oyunlarının imtiyazını alsınlar.

Bu səbəbə hamı müsəlmanlara bu elan ilə müraciət edib şiddətli protest edirik ki, bundan sora bizdən rüsxət almamış “baş yarmaq və şəbih gətirmək” oyunlarını çıxarmağa heç kəsin ixtiyarı yoxdur.

***

Molla Nəsrəddin: oxucularımızdan təvəqqe edirik ki, hər kim bu oyunların ən əvvəl Qarabağdan savayı bir özgə yerdə başlandığını bilirsə, tezliklə bizə xəbər versin ki, imtiyaz almalarına mane olaq, yoxsa müsəlman aləminin evi yıxılar.

**Beş arvad**

“Ağcabədi” deyilən kəndin yaxınlığında bir balaca kənd vardır. Bu kənddə bir mömin kişinin dördcə arvadı var imiş. Sora birin də alır. Olur beşcə. Camaat bu işi bilib ona məzəmmət edib deyirlər ki: a kişi, bu nə işdir ki, edibsən? Şəriətdə beş arvad saxlamaq olmaz. O da cavab verib deyibdir ki: molla ilə, qazi ilə dost olandan sora nəinki beş arvad, bəlkə on beşini də saxlamaq olar. Xülasə, onun qohumları görüblər ki, bunun axırı pis olacaqdır, ona deyiblər: indi ki, sən bu beş arvadın hamısını saxlamaq istəyirsən, gərək gedəsən qazi ağanın xidmətinə, o belə işlərə çarə edər. Kişi əlli manat da cibinə qoyub yola düşür, tainki gedib cənab qazi olan yerə yetişir.

**Şühəda**

1905-ci ildə erməni-müsəlman davasında Xankəndi qəsəbəsində otuzdan artıq müsəlman məqtul olunmuşdular. Meyidləri də Malıbəyli kəndinin yanında dəfn olunubdur. Bir vaxt var idi ki, malıbəylilər oları "şühədadır" deyirdilər. "Bağdan ərik qurtardı, salamməleyk qurtardı". Erməni-müsəlman davası yatdı, "qardaşlıq" zamanı keçdi, indi isə "şühəda"ların qəbrinin üstündə nə qayırırlar: Səfərin 25-də (axır çaharşənbəsi) Malıbəylidən neçə dəstə arvadların haman qəbrlərin üstündən o tərəfə-bu tərəfə tullandıqlarını görüb soruşdum ki, onlar nə qayırırlar? "Çilə çıxardırlar" dedilər. Arvadlar dağılandan sora haman yerə gedib bu qəbrlərin baş daşlarını sınıq və torpağını dağılmış gördüm. Hətta bir parasından çoxlu qabırğalar və bir dənə kəllə çıxardıb bihörmət etmişdilər.

Mən indiyədək elə bilirdim ki, Malıbəyli müsəlman kəndidir və əhalisi müsəlmandır, amma indi onların nə olduqlarını bildim.

Və təvəqqe edirəm ki, məni bağışlasınlar.

Qafqazda elm və maarifin mərkəzi hesab olunan Şuşa şəhərində Mollalar "Molla Nəsrəddin"i qadağan ediblər.

**Molla**

Bir gün yolum düşdü Malıbəyli kəndinə. Kəndi gəzdim və elə şeylər gördüm ki, qeyri müsəlman kəndində onları görmək olmaz. Əvvəla, burada bir məktəb var, bu məktəbdə çox oğlan uşağı oxuyur. Uşaqların ataları ilə danışıb gördüm ki, hər bir kəs ki, oğlunu oxumağa qoyub, çox razıdı ki, onun övladı elm oxuyur. Bu da görsənməyən bir işdir, çünki özgə müsəlman kəndlərində çox adamlar uşaqlarını məhz o səbəbə məktəbə göndərirlər ki, evdə bikar qalıb anasından çox çörək istəməsin.

Hələ bu qəribə iş deyil. Malıbəylidə bir qəribə əhvalat gördüm. O, da budur ki, bu kənddə hələ oğlan uşaqlarından savayı qızlar da məktəbə gəlib dərs oxuyurlar. Doğrusu, çox təəccüb elədim ki, məsələn, İrəvan kimi bir müsəlman mərkəzində qızın oxumağını müsəlmanlar pis iş hesab eləyirlər. Amma Malıbəyli kimi bir kənddə qızlar erməni haxçığı kimi çiyninə heybə salıb dərsə gedir.

Bu işləri görüb, sözü yox, başladım bunun səbəbini soruşmağa ki, çox əcəb, Malıbəyli hara, bu işlər hara? Və gün hardan çıxıb ki, burada bu qədər tərəqqi baş verib? Hər kəsdən xəbər aldım, mənə cavab verə bilmədi. Doğrudan da qəribə işdir ki, müsəlman kəndində belə-belə işlər əmələ gəlsin. Axırda nə oldusa, söhbət molladan düşdü və belə məlum oldu ki, Malıbəylidə heç əslindən molla olmayıb və malıbəylilər heç ömürlərində molla üzü görməyiblər.

Aha, burada mən barmağımı dişlədim və öz-özümə dedim ki, bəli, bunu mənə bayaqdan deyin. Allah atanıza rəhmət eləsin, indi bildim ki, niyə burada müsəlmanlar oğlanlarını və qızlarını oxudurlar.

Ondan ötrü ki, burada molla yoxdur.

***

Ancaq indi başa düşdüm.

***

Şuşa – Bu gün üç gündür ki, çaxçı dükanlarında basabasdır. Elə görürsən hər kəsin əlinə bir paslı xançal düşür, birbaşa yüyürür çarxçı dükanına. Söz yox, bu xançallar ilə başların yaracaqlar.

***

Şuşa – Ələmdarların canlarını spirt ilə ovurlar ki, qıfılbənd edəndə və üstünə dörd put dəmir yükləyəndə təpik atmasınlar.

***"Ziya" qəzeti, №4 27 dekabr 1297-1879***

**Ziya**

Ola bilər ki məzkurə övrət qeyri mədxul (məşuqə) olduğundən onə iddiə lazım olmiyə və bu dəxi ola bilər ki zəmanəmizdə bir parə kənd və obələrin mollaləri nadan və bisəvad olduqlərindən bu qisim xilafe şər sözlər və əməllər onlərdən baş virə. Onə görə ruhani busatinə motəvəcceh olan zatlərə tövsiyə olunur ki qabiliyyətsiz və nadan olan kəsləri ruhanilik dərəcələrinə və mənsəblərinə qəbul iləməgdən ehtiraz və o barədə diqqət üzrə olub hər bir nadanə şəhadətnamə virmək ilə din və dünyanm xəsarətliginə səbəb və baise fitnə və fəsad olmuyələr. Çün məsələ məşhurdur ki yarımçılıq molla olan yerə şeytan gidməz.

**Vərəqə**

Cənab Unsizadə məşhur məsəldür ki bir ərəb Rəbətdə olduği haldə qonşulərindən birinə rast gəlüb ondən xəbər aldi ki mənim dəvəm sağdurmi. Hərif cəvab virdi ki xeyr sağ degüldür. Çünki ivin viran olan vəqtdə əyalinin altində qalub vəfat itdigündən ihsaninə dəvə zebh olundi (kəsildi). Ərəb bu sözi işidən vəqtdə sərasimə (həyəcanlı) və heyran əsasmı əlinə alub hərifə əlvida ilədi. Qissədən hissə (nağıldan bir pay) bizim halimizdür: Bu illərdə Qafqaz ziraəti həyate təbiidən məhrum olduği kimi Bakudə təb və nəşr olunan Əkinçi qəzetəsi dəxi mərhum oldu

(?) Ziyanın axırıncı nomrələrində işidilən dad-o-fəryad yəqin bunu işarə idür ki onun də başınə ev yıxılacəqdür.

Boylə olan surətdə bir neçə nəfər elmdust Qafqaz müsəlmanlərinə lazım gəlmür ki əsalərimizi ələ alub (Qafqaza xitabən) diyək ki ey dünyanın elme fəzlindən bibəhrə qalan müsəlmanlər və ey zahirdə özlərin alim göstərüb nəfse əmrdə cahil olanlər və ey bielmlik səbəbi ilə Qafqaz məhbəs-xanələrini və Sibriyə mülkini doldurub mədaris və məkatibi xali qoyan bihimmət və ey əsvarat (şəhər divarları) dünyəviyyənin əksərindən gözi bağlu və qafil qalanlər vay. vay. süzi Allaha tapşururəm.

Süzə əlvida olsun...

Xatirimdə var ki bir neçə il bundən əqdəm Şuşidə olduğim \vəqtdə Qafqazdə əcəll-o-əkrəm (ən hörmətli) hesab olunan bir zat şərif Şuşiyə təşrif gotürmüşdi. Adətdür ki bu qunə şəxslər hansı məhəllə varid olsələr o yerin məktəb və məhbəsxanələrini və sayir motənibeh (mühüm) olan boqeələrini (yerlərini) müayinə və müşahidə idərlər. Bu mülahizə ilə məzkur şəxs Şuşi məhbəsxanəsini müayinə idən haldə hüzurində olanlərə xitabən təəccüb ilə didi ki aya səbəb nədür buranın məktəbində 345 nəfər şagirdlərdən ancəq 3 nəfəri müsəlmandur. Və likən 325 nəfər məhbus olanlərdən ancəq 2 nəfəri irməni yerdə qalanı müsəlmandur. İndi insaf məqamində süzdən sual idirəm ki hansı millət bu qunə ağır olan sözləri işidüb bu təklifi özinə vacib itməsünki öz millətinin və din qərdaşlərinin ba elm və ba fəhm olmaqlərinə günbəgün səy və cahid olmasun (çalışmasın) və bisəvadlıq və bielmliq səbəbindən əmələ gələn bir parə qəbih və naşayəstə (əclaf və layiqsiz) olan əməlləri öz millətindən uzaq itməsün./ Fouqdə (yuxarıda) yazılan səbəblərə görə din və millət qərdaşlərimizin cümləsindən təvəqqe olunur ki Ziya qəzetəsinin zubəxş olmağinə səy və himmətlərini əsirgəməyüb Zaqafqaz məhrusəsində (Allahın qorumasında, hifzində) İslam dilində nəşr olunan vahid və yekta olan qəzetənin hifz və hərasətində olub qoymasünlər ki istehkamə çalməmiş (möhkəmləndirilməmiş) binası viran olub xanə bərbad olsun. Ancəq onun səbəbi ilə olə bilər ki öz həmmillətimizlə ahəstə ahəstə sohbət idək.

*Batum 12 diqəbr 79 Mirza Şətrənc*

***"Ziya" qəzeti, №5 3 yanvar 1297-1880***

**Məmləkət əhvalatı**

Diqəbrin 25 ndə Tiflisdə ərməni bazarindəki böyük yanqunun səbəbi qəsdən imiş. O barədə şuşilu (şuşalı) Tir – Ohanis nam Varamof müttəhim olunməqlə həbsə alınublər.

Yanğindən əmələ gəlmiş tələfatin miqdari məlum olməqdən ötri hökumət tərəfindən təhqiq hal olunməğə mübadirət olunubdur.

Baku şəhrində rusca nəşr olunan **(Bakinski izvestiyə)** qəzetəsi xəbər virər ki Baku quberniyəsindən Gögçay şəhrində iki sinif (qlas)dən ibarə təsis olunmuş = mobtədi qəryə (ibtidai kənd) məktəbi içün dövlət tərəfindən izn olunubki padşahlıq topraqdən altı yüz sajın mürəbbi ($m^2$) bezr (toxum) əta olunan və məktəbin otaqlərindən ötri (lazım olan) təxtə və ağac orayə yovuq olan meşələrdən yaru qiymətə gətürülsün bu məktəb yanındə bir bostan və bir bağçə dəxi salınəcəqdür ta ki mümkün olan miqdari əkin ziraət əməliyyatından oradə olan şagirdlərə təlim olunsun.

***"Ziya" qəzeti, №7 17 yanvar 1297-1880***

**Məmləkət əhvalatı**

Həmin yənvar ayının 15 ndən İrəvandə doqtor Vasaq Babacan onun mühərrirligi ilə ədəbiyyat və məarif və təvarixdən bəhs edən bir qəzetə həftədə bir dəfə nəşr olunəcəqdür.

Şuşidə sükunət idən məsihilərin foqərasi ianət olunməqdən ötri oranın dibutati yəni şəhr vəkili yer hakimindən izn alməq ilə məsihilərin keçən bayramlərində vizit əvəzində əhalidən yüz on bir mənat cəmavərlik idüb oranın foqərasinə təqsim idübdür.

Yənvarin 4-ndə Vladiqəfqazdən Qolosə tilqraf virüblər ki Axəltəkənin iştab nəçalniki cənəral Tir Qoqasofə xəbər virib ki Gögtəpə müharibəsində təkkəlülər rus qoşunundən dutduqləri əsirlərdən bir mayor və bir neçə saldat İran tərəfinə qaçub Məşhəde müqəddəsə varid olublər.

***"Ziya" qəzeti, №19 10 aprel 1297-1880***

**(Məmləkət əhvalatı)**

Şuşidən yazurlər ki **Ziya** qəzetəsinin keçən ilinin nomrələrində yazılan tədabirə müvafiq Şuşinin nocəba (nəcib insanları) və tüccar və sahide ouzalərindən (vəzifəlilərindən) neçəsinin nəfs şəxslər ehsan niyyətiylə cəm ilədigləri altı min mənatə ətrafdən qəllə (taxıl) aldırub üsrət günindən ötri ənbar etmişdilər. Neçə gün bundən müqəddəm həman ənbarləri açub hər gün bir miqdar müəyyən on nəfər intixab ilədigləri adəmlərə verürlər. Onlər də həman qəlləni un çəkdirib çörək bişürdikdən sonrə dört nəfər əmin olan şəxslərin təhvilinə verürlər. Onlar də füqəra və məsakinə girvankəsi dört qəpik qərarı ilə füruş idürlər. Deməg olar ki oların bu qisim tədbirləri (oxunmur) bais olubdur. Hərçənd qəllə və sayir məkulat bir qədər tərəqqidə olmuş idi. Əmma indi belkolliyə tənəzzül idübdür. Bu haldə un (ard) puti üç mənatə və çörəgin puti on iki əbbasiyə

virürlər. Xudavənde aləmin baran rəhməti dəxi o gecə və gündüz yağməqdədür. Dehat (kənd) əhlinin təqririnə (yazdığına) görə bu il əkilən taxılın gögi çox yaxşıdur. Və heç bu qunə nişan virən voxdur.

### *"Ziya" qəzeti, №25, 22 may 1297-1880*

**(Məmləkət əhvalatı)**

Kiçən qış fəsli şiddəte borudət (şiddətli soyuq) ilə emtedad (davam) idüb ələfiyyatdə (ot) qəllət (az) oıdığından Baku uyezdindo 50 nəfər dəvə və 121 rəs (baş) at və 219 qarəmal və 5322 dişi qoyun qırılıb tələf olubdur. Və o vəqtlərdə o yerlərdə qüvvətlu şimal küləyi əsdigindən buğda və arpə ziraətinə dəxi bir qədər zərər yetürübdür. Və tələf olan heyvanlərin cəmdəklərini üfunət əmələ gəlməsün deyə yer naçalniklərinin sərəncamı ilə cümlə yerdə basdırublər.

Məsmu olunur ki aşağə Aklis qəryəsində olan müsəlman tayifəsi üsrət halındə ərmənilər təsəddiq cəm etmək ilə möhtac olanlərə ianət itmək qəsdi ilə məcmə təşkil edüb biri- birinə ianət edirlər. Əmma müsəlman tayifəsinin arəsində bu qunə hərəkətlər olmədığındən onlar dəxi ərmənilərdən ianət istiyorlər

Yenə məsmu olur ki Şuşi uyezdində çəgirtkə belkolliyə tələf olundığından fəələri mürəxxəs edüblər.

May ayının 2 sində Lənkəran uyezdindən Prişib kəndində günortədən sonrə saət 4 də iki nəfər adəmi ildırım vırubdur. Onlərin bir nəfəri övrət imiş ki boynundən ildırım dəgən kibi vəfat edübdür. Və o biri Labın polkundən bir nəfər qəzaq imiş. Əmma qəzaq bu haləcən vəfat itməyübdür.



حیات

محل اداره:

Редакція газеты „ГЭЯТЪ“
Баку, Николаевская ул.,
д. Г. З. А. ТАГИЕВА.

اعلان قیمتلری:

پراخود ستوا

کامپرتسی ساویتیک

حاجی زین العابدین تقی یوف

باکوده حاجی زین العابدین تقیوف

ساتلور

АНДРЕЙ БЕНДЕРЪ и С-ья

تازه مغازه

تجارت ایوی

تلغراف خبرلری

طبیب

بزه عاید



نومرو ۸۴ — برمجی سنه — ۳ رمضان‌المبارک سنه ۱۳۲۳ — سه‌شنبه — ۱۸ اوکتابر سنه ۱۹۰۵ — ۱ صفحه

حیات

محل اداره: باکوده نیقولا یفسکی کوچه‌ده حاجی زین العابدین تقی یفگ خانه‌سنده

Редакція газеты „ГЭЯТЪ" Баку, Николаевская ул., д. Г. З. А. ТАГІЕВА.

آبونه قیمتی شهرداخلنده

سائر شهرلرده

ممالک اجنبیه ده

اعلان قیمتلری:

اگر حرده خط ایله یازیلان بر سطرلک یره مقابل غزته‌نک باش طرفنده (۱۰) قپک آخرده (۵) قپک در

سائر شهرلردن گلمه اعلانلار ایچون باش طرفنده (۱۵) آخرده (۱۰) قپک در

تلفون نومروسی ۹۸۸

هرگون نشر اولنان سیاسی، علمی، ادبی، اقتصادی وتجاری، ترکجه جریدهٔ اسلامیه‌در — آبونه و اعلان قیمتی قبلاً‌ء‌النوره — ایری ایری هر نسخه‌نگ قیمتی (۵) قپکدر

پراخود ستوا

کامپرتسی ساویتیک

حاجی زین‌العابدین تقی یوف

بوچطه و سرلشن (پاسازیر) پراخودلاری گیدورلر: هرگون آخشام ساعت‌بدیده: لنکران و آستارایه و هفته‌ده ایکی دفعه آستارای ایرانه وانزلیه

پراخود ستوا

کامپرتسی ساویتیک

حاجی زین‌العابدین تقی یوف

پراخودهای پوچطه و سرنشین عازم میشوند هر روز وقت غروب ساعت هفت لنکران و آستارای روس و در هر هفته دو دفعه به آستارای ایران به انزلی

باکوده حاجی زین‌العابدین تقیوفگ

(فابریک) کارخانه اسقلادنده

ساتلور

تلفون نومرو ۴۳۹

АНДРЕЙ БЕНДЕРЪ и С-ья

تازه مغازیه

اندیری بیندیو و اوغلانلارنگ

تجارت ایوی

طبیب

حسن بک آغایوف

№ 9

دوقتور بهرام بک آخوندوف

№113

№ 117

تلغراف خبرلری

دوقتور قره‌بک قره‌بگوف

№ 107



نومرو ۱۵۸ ایکنجی سنه ۱۰ جمادی الآخر سنه ۱۳۲۴ چهارشنبه ۱۹ ایول سنه ۱۹۰۶ ۱ صفحه

# حیات

محل اداره:

Редакція газеты
„ГЭЯТЪ"
Баку, Николаевская ул.,
д. Г. З. А. Тагіева.

ابونه قیمتی شهر داخلنده

سائر شهرلرده

ممالک اجنبیه ده

اعلان قیمتلری

## تلغراف خبرلری



ارشاد

حریت مساوات عدالت

تلغراف خبرلری

روسیا

دولت دوما سنده

بر تدبیر

ممالک اجنبیه


صحیفه ۲ « ارشاد » نمره ۱۳۸

باکو خبرلری

داخلی روسیه

دوری یازلر


صفحه ٣

«ارشاد»

نمره ١٣٨

لزگی

قفقاز خبرلری

سالیان

تعیشمزه مایه

جواد اویزدندن



« ارشاد »

نمره ۱۳۸

قراباغده دوست ـ قراباغده دوشمن

داخلی خبرلر

خارجی خبرلر

گرجی مطبوعاتی

هندستان مسلمانلری

یاپونیا و اسلام

اعلانلر


ارشاد
حریت مساوات عدالت
Губернская ул. д. Дадашева
Редакція газеты „ИРШАД"
Rédaction du jornalu „IRCHAD"
Bacu
Телефонъ № 894
اداره‌دن
اداره‌دن اعلان
اعلان
دولت دوماسنده
تلغراف خبرلری
روسیا



« ارشاد »

باکو خبرلری

قافقاز خبرلری

حادثات

یاپونیاده اسلامیت

عقاید دینیه و احکام شرعیه، لوح واسطه‌سیله علم حساب درسی ده ویرورلور. ملاحظه ایتدیگیمزه گوره، بو اوچ آیدا ویرلن درسی بزیم مسلم بالالار اوچ ایلده اوخویا بیلمزدیلر.

چول قلعه محله‌سندن.

—

## زنگه‌زور اویزدینده شوشی قریه‌سندن

کچن ۱۹۰۵ نجی ایلده که قفقازیه ده شورش و ارمنی مسلمان داواسی ظهور ایتدی، جانلیک قاتیلری اوزی ایله باهم گتوروب محاله چیخوب مسلمان و ارمنیه آند ویروب بر بریله محبت ایله دولاشماغی مصلحت گوردیلر. تا که محالک اطرافنده اولان ایلات طایفه‌سی اوچوب گیتدیلر. و بو حاله ادر عوام مسلمانلار ارمنیلرک فتنه و حیله لرندن باخبر اولا بیلمدیلر. حتی روذت زمستان محالک اطرافنده مهلکلی داغلارک قاری یاغوب جمیع راه گذرلری مقطع ایتدی. ...

## شهرلیلرده

## نه‌یازیورلر

### ارمنی مطبوعاتی

## داخلی خبرلر





ارشاد

حریت مساوات عدالت

Губернская ул. д. Дадашева

Редакція газеты „ИРШАД“

Rédaction du jornalu „IRCHAD“ Bacu

Телефонъ № 894

الادارەدن

شیشه احوالاتی

باکو خبرلری

تلغراف خبرلری

الادارەدن اعلان

قفقاز

ممالک اجنبیه



نمره ۱۸۰ « ارشاد » صفحه ۲

شهر ابلاغنگ قارتق

اطراف خبرلری

حادثات

متفرقه

فلیه‌تون

نەلەن بو گونلره قالدق


صفحه ٣ « ارشاد »

قافقاز خبرلری

اوردان - بوردان

داخلی خبرلر

آغالار گونمز


صفحه ۴ « ارشاد » نمره ۹۸

# خارجی خبرلر

## اعلانلر

## شمس کتابخانه‌سی

## لوقنتور


№35 Среда 28 Февраля 1907 г. — Годъ изданія II

Губернская ул. д. Далашева Редакція газеты „ИРШАДЪ"

Redaction du jornalu „IRCHAD" Bacu

Телефонъ № 894.

# ارشاد

„ИРШАДЪ" (Путеводитель)

حریت مساوات عدالت

باکو خبرلری

تلغراف خبرلری



نمره ۳۵ «ارشاد» صحیفه ۲



«ارشاد»

نمره ۳۵

صفحه ۴

خارجی خبرلر

( ایتالیا )

مکتوب

داخلی خبرلر

اعلانلار

اسلامیه

لوقتور

دوقتور

اصلانوف

باکوده تنباکو و پاپروس

Адресъ: Баку, Николаевск Оруджевъ.

Тип газ. «Иршадъ» редакторъ-издатель, Ахмедбекъ Агаевъ


№44 Среда 14 Марта 1907 г. Годъ изданія II
Губернская ул. д. Дадашева Гусейнія
газеты „ИРШАДЪ"
Redaction du jornalu „IRCHAD" Bacu
Телефонъ № 894.
„ИРШАДЪ" (Путеводитель)
ОТКРЫТА ПОДПИСКА НА 1907 ГОДЪ
НА ЕЖЕДНЕВНУЮ ГАЗЕТУ
„ПРОГРЕССЪ".
Ставя своей первой задачей разработку вопросовъ мусульманской народно-трудовой жизни, редакція новой провинціальной газеты будетъ отводить широкое мѣсто современному обще-русскому свободительному движенію, политикѣ, литературѣ и рабочему вопросу внѣ его связи съ религіозными, племенными другими особенностями данной трудящей группы.
Условія подписки: на годъ съ доставкою въ Баку—7 руб., на 10 мѣс.—6 руб., на 8 мѣс.—5 руб., на полгода—4 руб., на 3 мѣс.—2 руб. 50 коп., 2 мѣс.—2 руб., 1 мѣс.— 1 руб.
Съ пересылкою въ другіе города: на годъ—8 руб., 10 мѣс.—7 руб., 8 мѣс.—6 руб., 6 мѣс.—5 руб., 3 мѣс.—3 руб., 2 мѣс.— 2 руб. 50 коп., 1 мѣс.—50 коп.
За границу на годъ 14 руб., на полгода 7 руб. 50 коп.
Контора и редакція помѣщается въ домѣ Дадашева, уголъ Губернской и Спасской улицъ.
Газета будетъ выходить по вечерамъ исключая праздн. дней.
Редакторъ-Издатель А.-б. Агаевъ.


نمره ۴۴ — دارشاده — صفحه ۳

باکو خبرلری

غوغای بر منظره

حکومت و ملت



نمره ۴۴ — « ارشاد » — صفحه ۳

قفقاز خبرلری

تفلیس

مخبرلرمزدن

هجرت بلاسی

نه‌یازیورلار

اسلام مطبوعاتی

باطومدن


ارشاد

اعانه

لوقتور

اعلانلر

اوردان-بوردان

خارجى خبرلر

داخلى خبرلر

اعلام

باكوده تنباكو و پاپيروس

اعلان

اسلاميه

Адресъ: Баку, Николаевск Орудженъ.

ПОСТАВЩИКИ ДВОРА ЕГО ВЕЛИЧЕСТВА ШАХА ПЕРСИИ

Тип. газ. „Иршадъ“, редакторъ издатель Ахмедъ-бекъ Агаевъ



№ 99 Вторникъ 29 Мая 1907 г. Годъ изданія II

Губернская ул. д. Далашева Редакція газеты „ИРШАД"

Redaction du jornalu „IRCHAD" Bacu

Телефонъ № 834.

# ارشاد

„ИРШАДЪ" (Путеводитель)

حريت مساوات عدالت

Бр. А. и Н. Измайловы

ФИНЛЯНДСКІЙ МАГАЗИНЪ ГОТОВАГО МУЖСКОГО, ДАМСКАГО И ДѢТСКАГО ПЛАТЬЯ.

ПРІЕМЪ ЗАКАЗОВЪ:

Великокняжескій просп., подъ гостин. „Метрополь".

اعلان



نمره ۴۹

مختصر

باکو خبرلری


ارشاد
اعلانلار
فيوضات
تشكر
خارجی خبرلر
داخلی خبرلر
عمومی اخطار
Тип газ. Иршадъ Редакторъ-издатель, Ахмедъ-бекъ Агаевъ

***      ***      ***

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

*Nəşriyyat redaktoru – **Əliş Mirzallı***
*Texniki redaktor – **Mətanət Qaraxanlı***
*Kompyuter tərtibatı – **Günel Muxtarova***
*Korrektor – **Rita Müslümova***

Çapa imzalanıb: 15.11.2017.
Format: 60x90 1/16. Qarnitur: Times.
Ofset çap. Ofset kağızı. Həcmi: 12,5 ç.v.
Tiraj: 150. Sifariş № 20.

MÜTƏRCİM

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az